TKTA

Təhsildə Keyfiyyət Təminatı Agentliyi

Western Caspian University

**Qərbi Kaspi Universitetinin**
**institusional akkreditasiya qiymətləndirilməsi üzrə Akkreditasiya Komissiyasının**

# YEKUN HESABATI

**2024-cü il**

# MÜNDƏRİCAT

*AKKREDİTASİYA KOMİSSİYASININ TƏRKİBİ*......................................................3
*GİRİŞ*......................................................................................................4
Qiymətləndirilən təhsil müəssisəsinə dair məlumatlar...............................................4
*1. STRATEJİ İNKİŞAF*......................................................................................5
*2. KEYFİYYƏT TƏMİNATI*..................................................................................20
*3. TƏLİM VƏ TƏDRİS*.....................................................................................28
*5. ELMİ TƏDQİQAT*.......................................................................................87
*5. İDARƏETMƏ SİSTEMİ*..................................................................................102
*6. İNFRASTRUKTUR*......................................................................................118
*7. BEYNƏLMİLƏLLƏŞMƏ*..................................................................................125
*KOMİSSİYANIN İSTİQAMƏTLƏR ÜZRƏ TƏHLİLİ*..............................................................137
*Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri*........................148
*Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi*......148

## AKKREDİTASİYA KOMİSSİYASININ TƏRKİBİ

**Sədr:**

1. Rövnəq Rzayev – Azərbaycan Dövlət İqtisad Universiteti "Mühəndislik və tətbiqi elmlər" kafedrasının müdiri, "Kompozit materiallar" Elmi Tədqiqat mərkəzinin rəhbəri, Fizika elmlər doktoru, professor

**Üzvlər:**

2. Samirə Salayeva – Bakı Dövlət Universiteti, Genetika kafedrasının dosenti, biologiya elmləri üzrə fəlsəfə doktoru, dosent
3. Könül Ağayeva – Azərbaycan Memarlıq və İnşaat Universiteti, Keyfiyyət təminatı və monitorinq Mərkəzinin müdiri, İqtisadi nəzəriyyə və marketinq kafedrası, İqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
4. Vəfa Yunusova – ADA universiteti, Təhsil fakültəsində baş müəllim, Təhsilin idarəolunması üzrə fəlsəfə doktoru
5. Aynur Mahmudova – Saipem Contracting Netherlands B.V. Azərbaycan filialı, Texniki işlər üzrə müdir (işəgötürən)
6. Təhmuraz Abbasov – İnönü Universiteti, Elektrik-Elektronika mühəndisliyi kafedrasının dosenti, Texnika elmləri üzrə fəlsəfə doktoru, dosent (beynəlxalq ekspert)
7. Nigar Mirzəyeva – ADA Universiteti, Təhsilin idarə olunması üzrə II kurs magistr tələbəsi (təhsilalan)

# GİRİŞ

## Qiymətləndirilən təhsil müəssisəsinə dair məlumatlar

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | Qərbi Kaspi Universiteti |
| Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi və müddəti | 05.09.2019-cu il tarixli F-537 nömrəli əmr 5 il müddətinə |
| Təhsil müəssisəsinin lisenziyasına dair məlumatlar (dövlət təhsil müəssisələri istisna olmaqla) | 04.07.2019-cu il tarixli AKŞQ-03 əmri ilə, tipi ali təhsil müəssisəsi, növü Universitet kimi müəyyənləşdirilmişdir. |
| Təhsil müəssisəsinin rəhbəri | İcraçı prorektor<br>R.H.Bağırov |
| Fakültələrin sayı | 5 |
| Kafedraların sayı | 15 |
| Bakalavriat səviyyəsi üzrə ixtisasların sayı | 28 |
| Magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | İxtisaslaşma: 17<br>İxtisas:23 |
| Doktorantura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | İxtisas:12 |
| Təhsil müəssisəsinin təhsilalan kontingenti | Təhsilalan sayı<br>Bakalavriat: 2674<br>Magistratura: 302<br>Doktorantura:45 |
| Ştatdakı professor-müəllim heyətinin sayı | 162 ştat müəllim |
| Əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | 85 əvəzçi və<br>saat hesabı müəllim |
| Müəssisənin elektron ünvanı və əlaqə telefonu | (012) 492-61-63; (012) 5563-39-77<br>adminstration@wcu.edu.az |
| Müəssisənin hüquqi ünvanı | Azərbaycan, Bakı şəh, AZ1001 İstiqlaliyyət küç. 27 |
| Müəssisənin faktiki ünvanı | Azərbaycan, Bakı şəh, AZ1075 Əhməd Rəcəbli küç, III paralel 17A |

## TƏHSİL MÜƏSSİSƏSİNİN AKKREDİTASİYA QİYMƏTLƏNDİRİLMƏSİNİN NƏTİCƏLƏRİ

## 1. STRATEJİ İNKİŞAF

### 1.1. Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri

#### 1.1.1 ATM-də qısa və ortamüddətli dövr üçün strateji inkişaf proqramının (SİP) hazırlanması vəziyyəti

Sahə baxışı zamanı məlum olmuşdur ki, Qərbi Kaspi Universitetinin (QKU) 2 strateji planı mövcuddur. ATM-in qısamüddətli Strateji İnkişaf Planı (SİP) 2018-2020-ci illəri əhatə etmiş və yekun akkreditasiyanın nəticələrinə əsasən tərtib olunmuşdur. SİP ATM-in Elmi Şurasının 27 dekabr 2017-ci il tarixli (Protokol №3) iclasının qərarı ilə təsdiq edilmişdir. Qeyd olunan SİP "Azərbaycan Respublikası Təhsil Nazirliyinin yanında Akkreditasiya və Nostrifikasiya İdarəsinin 12 aprel 2017-ci il tarixli 10 saylı əmrinə əsasən Qərb Universitetinin akkreditasiyasını həyata keçirmək məqsədi ilə yaradılmış komissiyanın akkreditasiya nəticələrində qeyd edilən irad və tövsiyələr əsasında tərtib edilmiş və bu tövsiyələrin icrası ilə bağlı fəaliyyət planını özündə ehtiva edir.

Qərbi Kaspi Universitetinin 2021-2025-ci illər üzrə ortamüddətli SİP-i ATM-in Elmi Şurasının 25 dekabr 2020-ci il tarixli iclasının (Protokol № 05) qərarına əsasən təsdiq olunmuşdur. (https://wcu.edu.az/uploads/files/strategy.pdf)

Bu sənəd Qərbi Kaspi Universitetinin 2021-2025-ci illər üzrə inkişaf strategiyasını əhatə edir. SİP-in hazırlanması zamanı ali təhsilin idarə olunması üzrə beynəlxalq təcrübədən, "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"ndan, həmçinin tələbə, professor-müəllim heyəti və əmək bazarında keçirilmiş sorğu nəticələrindən istifadə olunmuşdur. SİP-in hazırlanması zamanı keçirilmiş sorğuların linkləri sahə səfəri zamanı Akkreditasiya Komissiyasına (AK) təqdim olunmuşdur.

#### 1.1.2 ATM-in SİP-də müəyyən edilən missiyasının onun fəaliyyətinin əsas məqsədinə və hədəflərinə uyğunluğu

ATM-in SİP-də missiyası "qlobal çağırışlara, müasir, innovativ, təhsil və tədris infrastrukturuna malik olmaqla, humanitar, sosial, mühəndislik sahələri üzrə təhsil və tədqiqatlar yolu ilə yüksəkixtisaslı mütəxəssislər hazırlamaq" kimi qeyd olunmuşdur. SİP-in təhlili onu göstərdi ki, ATM-in qarşıya qoyduğu 8 məqsəd və 26 hədəf onun missiyasına uyğundur. Beynəlxalq rəqabətliliyin artırılması, tədqiqat üçün əlverişli mühitin formalaşdırılması və tədrisin keyfiyyətinin artırılması istiqamətində görülən işlər bu uyğunluğa nümunə kimi göstərilə bilər.

### 1.1.3 SİP-də müəyyən edilən strateji baxışın ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğu

ATM-in strateji baxışı SİP-in 10-cu səhifəsində "Regionda əmək bazarının tələblərinə cavab verən ən müasir və keyfiyyətli təhsilin və tədqiqatın mövcud olduğu universitet olmaq" kimi qeyd olunmuşdur. Hesab edirik ki, SİP-də nəzərdə tutulan məqsəd və vəzifələr Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə söykənən "2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasında qeyd olunan ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə və Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na uyğun tərtib olunmuşdur.

Bildiyimiz kimi, Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda aşağıdakı strateji istiqamətlər nəzərdə tutulmuşdur:

1. Səriştəyə əsaslanan şəxsiyyətyönümlü təhsil məzmununun yaradılması;
2. Təhsil sahəsində insan resurslarının müasirləşdirilməsi;
3. Təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılması;
4. Müasir tələblərə uyğun və ömürboyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması;
5. Azərbaycan Respublikasında iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartları ilə eyni səviyyəyə uyğun təhsil sisteminin maliyyələşdirilməsi modelinin qurulması.

Hesab edirik ki, beşinci strateji məqsəd ATM-in SİP-ində tam əks olunmamışdır və dövlətin bu strateji istiqamətini də SİP-də öz əksini tapmasına ehtiyac var.

### 1.1.4 SİP-də müəyyən edilən prioritet istiqamətlərin ATM qarşısında qoyulan məqsəd və hədəflərə uyğunluğu

ATM-in Strateji İnkişaf Planında 8 Strateji məqsəd qeyd olunmuşdur:

**Məqsəd 1:** Tədrisin keyfiyyətinin yüksəldilməsi;

**Məqsəd 2:** Tələbə yönümlü inkişaf;

**Məqsəd 3:** Tədqiqat üçün yaradıcı, təşəbbüskar və beynəlxalq tələblərə cavab verən mühitin formalaşdırılması;

**Məqsəd 4:** Beynəlxalq rəqabətliliyin artırılması;

**Məqsəd 5:** Rəqəmsallaşma və innovativ həllərin tətbiqi;

**Məqsəd 6:** İş mühiti və əmək şəraitinin yaxşılaşdırılması;

**Məqsəd 7:** İnfrastrukturun gücləndirilməsi və dayanıqlılığın təmin edilməsi;

**Məqsəd 8:** Sosial məsuliyyət hissinin və ictimai nüfuzun artırılması.

SİP-də müəyyən edilən strateji məqsədlər ATM-in qarşısına qoyduğu 28 hədəfə tam uyğundur.

### 1.1.5 SİP-də strateji baxışda qoyulmuş əsas strateji istiqamətlərə nail olunması üçün əsas məqsəd və hədəflərin müəyyən edilməsi

Qərbi Kaspi Universiteti 2021-2025-ci illər üzrə SİP-ində regionda əmək bazarının tələblərinə cavab verən ən müasir və keyfiyyətli təhsilin və tədqiqatın mövcud olduğu ATM olmağı strateji baxışın əsas tərkib hissəsi hesab etmiş, ölkənin davamlı inkişafı naminə elmi yenilikləri və innovasiyaları tədris prosesinə tətbiq etmək, müasir və keyfiyyətli tədris mərkəzi formalaşdırmaq məqsədi ilə tədrisin keyfiyyətinin yüksəldilməsi; tələbəyönümlü inkişaf; tədqiqat üçün yaradıcı, təşəbbüskar və beynəlxalq tələblərə cavab verən mühitin formalaşdırılması; beynəlxalq rəqabətliliyin artırılması, rəqəmsallaşma və innovativ həllərin tətbiqi; iş mühiti və əmək şəraitinin yaxşılaşdırılması; infrastrukturun gücləndirilməsi və dayanıqlılığın təmin edilməsi; sosial məsuliyyət hissinin və ictimai nüfuzun artırılması məqsədlərini və buna uyğun olaraq qarşısına hədəflər və strateji fəaliyyətlər qoymuşdur. Bunlara nail olunması üçün 8 məqsəd və 26 hədəf müəyyənləşdirilmişdir.

### 1.1.6 SİP-də müəyyən edilmiş əsas strateji məqsəd və hədəflər üzrə qısa və ortamüddətli dövr ərzində görüləcək tədbirlərin əks olunması

Qərbi Kaspi Universitetinin Elmi Şurasının 25 dekabr 2020-ci il tarixli QKU-nun 2021-2025-ci illəri əhatə edən SİP-i əsasında Elmi Şuranın 30 iyun 2021-ci il tarixili (protokol №11) və 30 iyun 2022-ci il tarixli iclaslarında (protokol №10) Fəaliyyət Planları təsdiq edilmişdir. Komissiyaya təqdim olunan sənəddə icra müddətləri “müntəzəm və ya 2021-2025-ci illər” olaraq qeyd olunmuş, lakin orta və qısa müddətlərə ayrılmamışdır. Eyni zamanda hədəflər və tədbirlər üzrə kəmiyyət indikatorları əksini tapmamışdır.

Hesab edirik ki, hədəf və tədbirlər konkret icra müddəti və indikatorlarla qeyd olunsa, bu, SİP-in icrası və icrasına nəzarət proseslərini daha da optimallaşdırmağa zəmin yaradar.

### 1.1.7 SİP üzrə fəaliyyətin nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və ya keyfiyyət göstəricilərinin müəyyən edilməsi

SİP üzrə fəaliyyətin nəticələrini qiymətləndirməyə yönələn keyfiyyət göstəriciləri kifayət qədər konkret əks olunsa da kəmiyyət göstəriciləri (nəticə indikatorları) heç bir məqsəd və ya hədəf üzrə əksini tapmamışdır. Hesab edirik ki, kəmiyyət nəticəsi mümkün olan məqsəd və ya hədəflər indikator olaraq göstərilməlidir.

### 1.1.8 SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün resursların (insan, maliyyə və infrastruktur) ayrılması vəziyyəti

Akkreditasiya Komissiyayasına SİP-in icrasına dair 2018-2025-ci illəri əhatə edən maliyyə hesabatı və proqnozu təqdim olunmuşdur. Lakin illər üzrə təqdim olunmuş maliyyə göstəricilərinin konkret maddələr üzrə xərcləri haqqında arayış təqdim olunmamışdır.

Özünütəhlil Hesabatında da qeyd olunur ki, Strateji İnkişaf Planının icrasına nəzarətin təmin edilməsi üçün Stratreji İnkişaf Mərkəzi yaradılmışdır.




Şəkil 1.1. SİP-in hazırlanması və icrası üzrə ayrılmış maliyyə resursları

SİP-in icrasında insan resurslarına gəldikdə, demək olar ki, Strateji İnkişaf Mərkəzinin ştatda olan cəmi 2 işçisi olmasına baxmayaraq, 24 aprel 2020-ci ildə Elmi Şuranın iclasında SİP-in hazırlanması üçün 14 üzvdən (ATM-in akademik və inzibati heyət, işəgötürən və s.) ibarət komissiya yaradılmışdır. Əlavə olaraq SİP-in müxtəlif istiqamətləri üzrə müvafiq şöbələr də fəaliyyətlərin icrasına cəlb olunmuşdur (Cədvəl 1.1). SİP-də nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi üçün tədris binaları, imtahan mərkəzi, kompüter otaqları, təcrübə mərkəzləri, laboratoriyalar və s. zəruri olan infrastruktur resurslar ayrılmışdır. Komissiya hesab edir ki, SİP-in icrasına resurslar kifayət qədər təmin olunmuşdur.

Cədvəl 1.1. SİP-in hazırlanması və icrası

| No | Strateji inkişaf proqramında qeyd olunmuş əsas fəaliyyət istiqamətləri | Strateji inkişaf proqramı üzrə fəaliyyətin icrasında cəlb olunacaq maraqlı tərəflər | Əsas fəaliyyət istiqamətinə uyğun olaraq nəzərdə tutulan tədbir | Tədbirin icrasına məsul struktur bölmə (lər) | Fəaliyyət planı üzrə icra vəziyyəti | Tədbirin son icra müddəti | Tədbirin icrası üçün nəzərdə tutulan maliyyə vəsaiti | Tədbirin icrası üçün nəzərdə tutulan insan resursu | Tədbirin icrası üçün nəzərdə tutulan infrastruktur resursu | Nəticə indikatoru |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **1** | **Təhsil** | Təhsilalanlar, Təhsilverənlər, Universitet rəhbərliyi, Beynəlxalq tərəfdaşlar, İşə götürənlər, Reytinq təşkilatları | 1. Yüksək rəqabətqabiliyyətli təhsilin (dərəcələrin) təmin olunması<br>2. Kadr hazırlığı sisteminin və tədris proqramlarının təkmilləşdirilməsi<br>3. İxtisasların təhlili və cəlbediciliyin təmini<br>4. Tələbələrlə işin təşkili<br>5. Təcrübələrin təşkili<br>6. Əmək bazarının tələblərinə uyğun mütəxəssislərin hazırlanması<br>7. Effektiv karyera sisteminin yaradılması<br>8. Elektron idarəetmə sisteminin qurulması və təhsil mühitinin rəqəmsallaşdırılması<br>9. İmtahanların təşkili və monitorinqi<br>10. Maddi-texniki bazanın möhkəmləndirilməsi<br>11. Beynəlxalq | Tədris şöbəsi Beynəlxalq Əlaqələr Şöbəsi Keyfiyyətin Təminatı Mərkəzi Dekanlıqlar və kafedralar | 1. İcra edilir<br>2. İcra edilir<br>3. İcra edilir<br>4. İcra edilir<br>5. İcra edilir<br>6. İcra edilir<br>7. İcra edilir<br>8. İcra edilir<br>9. İcra edilir<br>10. İcra edilir<br>11. İcra edilir<br>12. İcra edilir | 1. Müntəzəm<br>2. Müntəzəm<br>3. Müntəzəm<br>4. Müntəzəm<br>5. Müntəzəm<br>6. Müntəzəm<br>7. Müntəzəm<br>8. Müntəzəm<br>9. Müntəzəm<br>10. Müntəzəm<br>11. Müntəzəm<br>12. Müntəzəm | 1815046 | Müvafiq şöbə və Mərkəz əməkdaşları Tələbələr | Tədris binaları İmtahan Mərkəzi Kompüter otaqları Təcrübə mərkəzləri Laboratoriyalar | İcrası davam edir |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | əlaqələrin genişləndirilməsi<br>12. Beynəlxalq mübadilə proqramlarında iştirak | | | | | | | |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **2** | **Elmi-tədqiqat** | Professor-müəllim heyəti, Universitet rəhbərliyi, Birgə tətqiqatların həyata keçirildiyi qurumlar,Elmi-tətqiqat institutları, Nəşriyyatlar | 1. 2025-ci ilə qədər tədqiqat üçün yaradıcı, təşəbbüskar və beynəlxalq tələblərə cavab verən mühitin formalaşdırılması və tədqiqat işlərinin keyfiyyətinin artırılması<br>2. 2025-ci ilə qədər tədqiqat üçün yaradıcı, təşəbbüskar və beynəlxalq tələblərə cavab verən mühitin formalaşdırılması və “Tədqiqat universiteti” statusunun alınması<br>3. 2025-ci ilə qədər tədqiqat üçün yaradıcı, təşəbbüskar və beynəlxalq tələblərə cavab verən mühitin formalaşdırılması, yüksək səviyyəli və təsirli tədqiqatların həyata keçirilməsi<br>4. 2025-ci ilə qədər tədqiqat üçün yaradıcı, təşəbbüskar və beynəlxalq tələblərə cavab verən mühitin formalaşdırıması və elmi-pedaqoji kadr hazırlığının təkmilləşdirilməsi<br>5. 2025-ci ilə qədər tədqiqat üçün yaradıcı, təşəbbüskar və beynəlxalq | Tədris şöbəsi<br>Elm şöbəsi<br>Keyfiyytətin Təminatı Mərkəzi<br>Strateji İnkişaf Mərkəzi<br>İKT şöbəsi | 1. İcra edilir<br>2. İcra edilir<br>3. İcra edilir<br>4. İcra edilir<br>5. İcra edilir<br>6.İcra edilir | 1. Müntəzəm<br>2. Müntəzəm<br>3. Müntəzəm<br>4. Müntəzəm<br>5. Müntəzəm<br>6. Müntəzəm | 1407478 | Müvafiq şöbə və mərkəz əməkdaşları<br>Professor-müəllim heyəti | Elmi-tətqiqat mərkəzləri<br>Kitabxanalar<br>Laboratoriyalar | İcrası davam edir |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | tələblərə cavab verən mühitin formalaşdırılması və beynəlxalq indeksli jurnalların tələblərinə uyğunlaşmaq<br>6. İnformasiya resurslarının idarə edilməsi | | | | | | | |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **3** | **Sosial xidmətlər** | Tələbələr, Professor-müəllim heyəti, işçi qruplar, Rəhbərlik, ETSN | 1. Sosial məsuliyyət hissinin artırılması<br>2. Təhsilin gənclər arasında təbliği və ictimaiyyətlə əlaqələr sahəsində fəaliyyətin təkmilləşdirilməsi<br>3. Həyat üçün qiymətləndirmə və motivasiya<br>4. Təhlükəsiz iş mühitinin formalaşdırılması<br>5. İdarəetmənin təkmilləşdirilməsi<br>6. Kadr, təlim və inkişaf siyasətinin müəyyən olunması<br>7. Maliyyələşmənin diversifikasiyası və maliyyə dayanıqlığının təmin edilməsi | İnsan Resursları şöbəsi, Maliyyə və Mühasibatlıq şöbəsi KİV və İctimaiyyətlə Əlaqələr üzrə Departament | 1. İcra edilir<br>2. İcra edilir<br>3. İcra edilir<br>4. İcra edilir<br>5. İcra edilir<br>6. İcra edilir<br>7. İcra edilir | 1. Müntəzəm<br>2. Müntəzəm<br>3. Müntəzəm<br>4. Müntəzəm<br>5. Müntəzəm<br>6.Müntəzəm<br>7.Müntəzəm | 125399.24 | Müvafiq bölmələr üzrə əməkdaşlar Tələbələr | İdman zalları Klublar Sosial Xidmət Sahələri | İcrası davam edir |

### 1.1.9 SİP-in maliyyə təminatının ATM-də büdcə planlaşmasında nəzərə alınması vəziyyəti

Akkreditasiya Komissiyasına Elmi Şurada təsdiq olunmuş maliyyə təminatı sənədində SİP-ə ayrılmış maliyyə vəsaitləri ayrıca maddələrə ayrılmadan qeyd olunmuşdır.

Eyni zamanda, SİP-də ATM-in qeyd olunan sahələrə uyğun cari fəaliyyəti və strateji inkişafı üçün davamlı maliyyə və maddi dəstək məqsədinə cavab verən maliyyə-iqtisadi strategiyasına da yer verilməsi məqsədəuyğun olardı. SİP-in hazırlanması zamanı maliyyə planlaşdırılmasının SİP-də göstərilməsi tövsiyə olunur.

### 1.1.10 SİP-də sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması və s. kimi məqamları özündə ehtiva etməsi vəziyyəti

SİP-in təhlili zamanı müəyyən olunmuşdur ki, sosial məsuliyyət məsələləri “Sosial məsuliyyət hissinin və ictimai nüfuzun artırılması” adlı Məqsəd 8-də öz əksini tapmışdır. Bu məqsədə çatmaq üçün ATM qarşısına 2 hədəf qoymuşdur:

**Hədəf 1:** Sosial məsuliyyət hissinin artırılması;

**Hədəf 2:** Təhsilin gənclər arasında təbliği və ictimaiyyətlə əlaqələr sahəsində fəaliyyətin təkmilləşdirilməsi.

SİP-də elmi tədqiqat məsələləri “2.1 Fəaliyyət istiqamətləri”ndə əksini tapmışdır. Qeyd olunmuşdur ki, keyfiyyətli təhsil mühiti və elmi-tədqiqat işlərinin aparılması üçün əlverişli şərait yaratmaqla tədris və tədqiqatın keyfiyyətini təmin edərək cəmiyyətə müsbət töhfə vermək Qərbi Kaspi Universitetinin əsas diqqət mərkəzindəndir. Lakin SİP-də elmi yeniliklərin cəmiyyətə necə transfer olunacağı dəqiq qeyd olunmamışdır.

Əqli mülkiyyətin qorunması məsələləri isə SİP-də geniş açıqlanmamışdır. Sadəcə dissertasiyaların plagiat yoxlamasından keçirilməsi mexanizminin qurulması barədə Məqsəd 3-ün (“Tədqiqat üçün yaradıcı, təşəbbüskar və beynəlxalq tələblərə cavab verən mühitin formalaşdırılması”) Hədəf 1-də “2025-ci ilə qədər tədqiqat üçün yaradıcı, təşəbbüskar və beynəlxalq tələblərə cavab verən mühitin formalaşdırılması və tədqiqat işlərinin keyfiyyətinin artırılması”nda qeyd olunmuşdur.

### 1.1.11 Cari il üçün SİP hazırlanan zaman SİP-in əvvəlki illərdə icra vəziyyətinin nəzərə alınması

2018-2020-ci illər üzrə SİP Azərbaycan Respublikası Təhsil Nazirliyinin yanında Akkreditasiya və Nostrifikasiya İdarəsinin 12 aprel 2017-ci il tarixli 10 sayılı əmrinə əsasən Qərb Universitetinin akkreditasiyasını həyata keçirmək məqsədi ilə yaradılmış komissiyanın akkreditasiya nəticələri haqqında yekun arayışında qeyd edilən irad və tövsiyələrin aradan qaldırılması məqsədilə ATM-in Elmi Şura iclasının 27 dekabr 2017-ci ildə 2018-2020-ci illər üçün SİP təsdiq olunmuşdur. Elmi Şuranın 25 dekabr 2020-ci il tarixli iclasında isə 2018-2020-ci illər üçün təsdiq olunmuş SİP-in nəticələri müzakirə olunaraq təhlillər əsasında növbəti SİP (2021-2025-ci illər üçün) təsdiq olunmuşdur.

### 1.1.12 SİP-də ATM-in güclü tərəflərinin, zəif tərəflərinin, imkanlarının və təhdidlərinin nəzərə alınması

SİP-də ATM-in güclü, zəif tərəfləri, imkanları və təhdidləri 2.3-cü bölməsində “SWOT təhlili” vasitəsilə nəzərə alınmış və sənəd təhlilin əsasında hazırlanmışdır.

### 1.1.13 SİP-in hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti

2021-2025-ci illər üzrə SİP-in hazırlanması və müzakirəsi proseslərində struktur bölmələr üzrə məsul şəxslərin iştirakından əlavə professor-müəllim heyəti, həmçinin təhsilalanların iştirakı daxil olmaqla ATM-in digər maraqlı tərəfləri də bu prosesə cəlb edilmişdir. ATM-in kafedralarından, elmi-tədqiqat mərkəzləri və laboratoriyalarından, inzibati idarəetmə struktur bölmələrindən, gənclər təşkilatlarından olan əməkdaşların, işə götürənlərin və partnyor təşkilatların nümayəndələrinin iştirakı ilə müxtəlif görüşlər, iclaslar və müzakirələr təşkil edilmiş, SİP-in hazırlanması prosesi üzrə müvafiq fikir və mülahizələrin nəzərə alınması və maraqlı tərəflərin cəlb edilməsi məqsədi ilə 24.04.2020-ci il tarixində komissiya yaradılmışdır. Eyni zamanda tələbələr arasında  məmnuniyyət sorğusu, tələbə distant təhsil sorğusu, tədris və elmi tədqiqat üzrə sorğu və əmək bazarı sorğuları keçirilərək nəticələri SİP-də əksini tapmışdır.

### 1.1.14 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin müəyyən edilməsi

Sahə baxışı zamanı SİP-in icrası üzrə ATM-in müvafiq struktur bölmələrinin müəyyən edildiyi məlum olmuşdur. Bununla bağlı ətraflı Cədvəl 1.1.1-də tanış olmaq olar.

Strateji İnkişaf Mərkəzi mütəmadi olaraq SİP-in icrası üzrə rəhbərliyə müxtəlif hesabatlar təqdim edir. Hesabatlarda hər bir struktur bölməsinin üzərinə düşən səlahiyyətlər qeyd olunmuşdur.

## 1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi

### 1.2.1 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının tərtib edilməsi və məlumatlandırma vəziyyəti

Sahə səfəri zamanı Akkreditasiya Komissiyasına QKU-nun Elmi Şurasının bu məsələ ilə bağlı 25 dekabr 2020-ci il tarixli iclasının 05 saylı protokolu təqdim edilib. Bu iclasda 2021-2025-ci illəri əhatə edən Strateji İnkişaf Planının hazırlanması qərara alınıb. Bu sənəd əsasında Elmi Şuranın 30 iyun 2021-ci il tarixili iclasının 11 və 30 iyun 2022-ci il tarixli iclaslarının 10 saylı protokolu ilə fəaliyyət planları təsdiq edillib. Bundan əlavə, 2021-2025-ci illəri əhatə edən SİP-in icrası üzrə Fəaliyyət planına əsasən QKU-nun məsul struktur bölmələri tərəfindən yarımillik, illik hesabatlar hazırlandığı bildirildi. SİP-in icrası üzrə illik hesabatların hər tədris ilinin sonu Strateji İnkişaf Mərkəzinə təqdim olunduğu və müvafiq olaraq icra olunmayan məsələlərlə bağlı tədbirlər planı hazırlandığı və ya onların icrasının növbəti dövr üçün Fəaliyyət planına əlavə edildiyi qeyd edildi. Akkreditasiya Komissiyasına təqdim edilən sənədlər arasında həm məsul struktur bölmələrin yarımillik və illik hesabatları, həm də Strateji İnkişaf Mərkəzinin 2022-2023-cü illər üzrə illik və yarımillik hesabatları mövcuddur.

### 1.2.2 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının müzakirəsi vəziyyəti

QKU-nun struktur bölmələrinin rəhbərləri ilə aparılan müsahibələrdə SİP-in icrası üzrə Fəaliyyət planının illik icrasının vəziyyəti haqqında dövrü hesabatların Elmi Şurada müzakirə edildiyi və monitorinqin aparıldığı vurğulandı. Hesabatlar strukturlar üzrə SİP-in Fəaliyyət planına uyğun olaraq hazırlanır və həm icra olunan, həm də icra olunmayan məsələlərə dair məlumatları əks etdirir. Sonda yekun hesabat Elmi Şurada dinlənilməklə qəbul edilir. Əgər həllini tapmayan məsələlər olursa, onların icrası üçün tədbirlər planı hazırlandığı və yaxud növbəti dövr üçün Fəaliyyət planına əlavə edildiyi bildirildi. QKU-nun Strateji İnkişaf Mərkəzinin 2022-2023-cü illər üzrə Fəaliyyət planı görülən işlərin yarımillik və illik hesabatları əsasında hazırlanmış 2023-2024-cü illər üzrə Fəaliyyət planı AK-a təqdim edilmişdir.

### 1.2.3 SİP-in icrasının dövrü (illik) monitorinqinin aparılması vəziyyəti

QKU-da SİP-in icra vəziyyəti ilə bağlı monitorinqlər Strateji inkişaf mərkəzi və Keyfiyyətə nəzarət mərkəzi tərəfindən aparılır. SİP-in icrasının monitorinqi təsdiqlənmiş "Monitorinq qaydaları"na müvafiq olaraq aparıldığı bildirildi. Bu zaman mövcud Fəaliyyət planının əsasında monitorinq planı qurulduğu, strukturlar üzrə SİP-də nəzərdə tutulan məsələlərin icrası vəziyyətinin yoxlanıldığı və onun icra vəziyyətinin izlənilməsinin təmin edildiyi qeyd edildi.

Bu məsələ ilə bağlı AK-a QKU-da SİP-in icra vəziyyəti ilə bağlı 2022-2023-cü illər üzrə yerinə yetirilmiş işlər barədə monitorinq məqsədilə keçirilən sorğuların nəticələri, Strateji inkişaf mərkəzinin 2022-2023-cü illər Fəaliyyət planı üzrə görülən işlər barədə yarımillik və illik hesabatı, 2022/2023-cü tədris ili üçün Beynəlxalq əlaqələr şöbəsinin SİP-in icrası üzrə Fəaliyyət planının hesabatı və Keyfiyyətə nəzarət mərkəzinin 2022-2023-cü tədris ili üzrə yarımillik hesabatı təqdim edilmişdir.

Cədvəl 1.2. SİP-in icra vəziyyəti ilə bağlı son beş ildə yerinə yetirilmiş işlər üzrə məmnunluq səviyyəsini ölçən sorğular

| **Sorğunun keçirildiyi hədəf kütlə** | **Sorğunun məqsədi** | **Son 5 il ərzində keçirilmiş sorğuların sayı** | **Sorğuların keçirilmə vasitəsi** | **Sorğularda iştirak edən respondent sayı** | **Sorğunun məqsədinə uyğun məmnunluq səviyyəsi** | **Sorğu linkləri** |
|---|---|---|---|---|---|---|
| Təhsilalanlar arasında keçirilmiş sorğu | ATM-in ümumi fəaliyyətinin qiymətləndirilməsi sorğusu | 10 | Onlayn (MS Form, Google Forms) | İştirak sayı dəyişir, adətən 1000-1400 arası iştirak olur | 65-75% arası olur | https://forms.gle/YZ6DQFinCoELa5Ap7 |
| | Fənlər üzrə məmnunluq sorğusu (müəllim) | 1400+ | Onlayn (MS Form, Google Forms) | Ümumi iştirak sayı hər semestr üzrə 1800+ tələbə olur, lakin individual baxılanda hər sorğu üçün 40-50 | - | https://forms.gle/n7oB2cDnksT2ATJq7 |
| Məzunlar arasında keçirilmiş sorğu | Karyera xidmətlərindən məmnunluq sorğusu | 3 | Onlayn (MS Form, Google Forms) | 300+ (1 sorğu üçün nəzərdə tutlan saydır.) | 75% | https://forms.gle/MogN7Zc9pxZBZPBF6 |
| | Təhsil müddəti ərzində qazanılmış səriştələrdən məmnunluq sorğusu | 4 | Onlayn (MS Form, Google Forms) | 300+ (1 sorğu üçün nəzərdə tutlan saydır.) | 75% | https://forms.gle/vg7y6tV36sN219Mg7 |
| Akademik heyət arasında keçirilmiş sorğu | Akademik fəaliyyətin qiymətləndirilməsi mexanizmindən məmnunluq sorğusu | 3 | Onlayn (MS Form, Google Forms) | 240+ (1 sorğu üçün nəzərdə tutlan saydır.) | 65-75% arası dəyişir | https://forms.gle/BkRphA2QbN1TSQFdA |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | Ümumi personal dəyərləndirmə sorğusu | 3 | Onlayn (MS Form, Google Forms) | 120+ (1 Sorğu üçün nəzərdə tutlan saydır.) | 65-75% arası dəyişir | https://forms.gle/JvD8vuo6sxnE6a7t9 |
| İnzibati və tədris-köməkçi heyət arasında keçirilmiş sorğu | Fəaliyyətin qiymətləndirilməsi mexanizmindən məmnunluq sorğusu | 3 | Onlayn (MS Form, Google Forms) | 284 (1 Sorğu üçün nəzərdə tutlan saydır.) | 65-75% arası dəyişir | https://forms.gle/GVArXfDsFsjDXdbH6 |
| ATM-in keçirdiyi digər sorğular | Erasmus+ Təcrübə proqramı üçün tələbələrin seçim sorğusu | 30 | Onlayn (MS Form, Google Forms) | 440+ (ümumi sayı ifadə edir.) | - | https://forms.gle/WrAxCC9ZLzPvLUjq5 |
| | Tələbələrin seçim və davranışlarının ölçülməsi sorğusu | 2 | Onlayn (MS Form, Google Forms) | 1793 (ümumi sayı ifadə edir.) | - | |
| | VARK modeli | 4 | Onlayn (MS Form, Google Forms) | 140 (ümumi sayı ifadə edir.) | - | https://forms.gle/4EnyMDPGzrNH7Nn17 |
| | Dərs vəsaitlərinin keyfiyyət yoxlanması sorğusu | 10 | Onlayn (MS Form, Google Forms) | 20 (ümumi sayı ifadə edir.) | - | https://forms.gle/MLAb6KkpFArjHNmd9 |
| Mübadilə üçün keçirilmiş sorğular | Xaricdə mübadilə proqramında iştirak etmiş müəllimlər arasında keçirilmiş sorğu 2018-2023 | 25 | | | | https://forms.gle/TAHth1aMh3S2buV47 |
| Xarici Tələbələr | Xarici tələbələr arasında keçirilmiş sorğu | 2 | | | | https://forms.gle/uDGecKHJJX7m3ooe8 |
| Tələbələrin məqalə oxuma davranışları ilə bağlı | “Identify Article Writers Who Inspire You” - Sizə ilham verən məqalə müəlliflərini müəyyənləşdirin | 2 | | | | https://forms.gle/S943XedbEP4JXh5H9 |

### 1.2.4 SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinin müzakirəsi vəziyyəti

AK-a SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinin müzakirəsi ilə bağlı QKU-da İnkişaf Planının icrası zamanı həyata keçirilmiş işlərin təhlilinin aparıldığı 16 iyun 2023-cü il tarixli iclasının 01 nömrəli protokolu təqdim edilib. QKU-nun Strateji inkişaf mərkəzinin rəhbərinin sədrlik etdiyi iclasda Fəaliyyət planı üzrə məsul struktur bölmələrin əməkdaşları iştirak edib. QKU-da SİP-in qarşıya qoyulan hədəfə və məqsədlərə uyğun aparıldığı qeyd edilib və milli qanunvericiliyə uyğun olaraq prosedurlar, təlimatlar, proseslər, formalar, siyahılar və digər köməkçi sənədlərdən istifadə olunduğu bildirilib. Qarşıya qoyulan hədəflərə nail olmaq üçün görüləcək işlərə nəzarətin gücləndirilməsi, hesabatlılığın təmin olunması məqsədi ilə qeyd edilən məsələlər üzrə tədbirlər planının hazırlanması və icra edilməsi, eləcə də işin gedişatı ilə bağlı Strateji inkişaf mərkəzinin məlumatlandırılması qərara alınıb. Strateji inkişaf mərkəzinin 2022-2023-cü illər Fəaliyyət planı üzrə görülən işlər barədə yarımillik və illik hesabatları və Keyfiyyət təminatı mərkəzinin 2022-2023-cü tədris ili üzrə yarımillik hesabatı sahə səfəri zamanı AK-a təqdim edilib. Bundan əlavə Strateji inkişaf mərkəzinin artıq 2023-2024-cü illər üzrə yarımillik hesabatı da təqdim edilən sənədlərə əlavə edilib.

### 1.2.5 SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinə görə tədbirlərin görülməsi və monitorinq nəticələrinin maraqlı tərəflər üçün əlçatanlığı vəziyyəti

Bu indikator üzrə əldə edilən məlumatlar onu qeyd etməyə əsas verir ki, QKU-da SİP-in icrasının illik monitorinqinin nəticələrinə əsasən növbəti il üçün tədbirlər planlarının təkmilləşdirilməsi həyata keçirilir. SİP-in icrasının dövrü (illik) monitorinq nəticəsi barədə məlumatlar həm QKU-nun tələbə, müəllim-professor və inzibati işçi heyəti üçün, həm də ictimaiyyət və bütün maraqlı tərəflər üçün əlçatandır, çünki ATM-in rəsmi saytında paylaşılıb. https://wcu.edu.az/az/news/qerbi-kaspi-universiiteti-strateji-inkishaf-planinin-icrasi

## 2. KEYFİYYƏT TƏMİNATI

### 2.1 Keyfiyyət təminatı siyasəti

#### 2.1.1 ATM-in dayanıqlı keyfiyyət təminatı siyasətini əks etdirən sənədin mövcud olması və maraqlı tərəflərin prosesdə iştirakı

Sənədlərə baxış zamanı müəyyən olunmuşdur ki, Keyfiyyət Təminatı Siyasəti sənədinin hazırlanması məqsədi ilə Elmi Şuranın 31.05.2022-ci il tarixli, 09 nömrəli iclas protokoluna əsasən işçi qrupu yaradılmış və tərkibi 9 üzvdən ibarət olaraq təsdiq edilmişdir. İşçi qrupun tərkibinə ATM-in əməkdaşlarından əlavə tələbə və işəgötürən də daxil edilmişdir. Eyni zamanda siyasətin hazırlanması prosesində digər maraqlı tərəflərdən (Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin "Tərəvəzçilik Elmi Tedqiqat İnstitutu" publik hüquqi şəxsinin İdarə Heyətinin sədri və Bakı şəhəri İcra Hakimiyyəti başçısının tabeliyində olan “Dendrologiya bağı” İdarə Heyətinin sədr müavini) də rəylər alınmışdır.

Elmi Şuranın 12.10.2022-ci il tarixli, 02 nömrəli iclasının protokoluna əsasən “Keyfiyyət Təminatı Siyasəti” sənədi təsdiq edilmişdir.

#### 2.1.2 ATM-in keyfiyyət təminatı siyasəti sənədinin sadə, anlaşılan və icrası mümkün olan formada tərtib edilməsi vəziyyəti

Təqdim olunmuş sənədə baxış zamanı müəyyən edilmişdir ki, Keyfiyyət Təminatı Siyasəti təhsilin keyfiyyətinin təmin olunmasına və fasiləsiz inkişafına yönəlməklə ATM-in SİP-inin hədəflərini dəstəkləyir.

Mövcud siyasətin hazırlanmasında “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa, “Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi”nə, “Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və qaydalar”a (ESG) və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin normativ-hüquqi sənədlərinə istinad edilmişdir.

Siyasət daxili maraqlı tərəflər qismində ATM daxilindəki bütün əməkdaşlarla, o cümlədən tələbələrə, akademik, inzibati və tədris-köməkçi heyətə, habelə xarici maraqlı tərəflər qismində işəgötürənlərə və qurumun digər xarici tərəfdaşlarına şamil edilir və icrası rahat və anlaşılan formada tərtib edilmişdir. Belə ki, sənəd əsas 6 istiqamətdən ibarətdir (Ümumi müddəalar, Siyasətin məqsədi, Əhatə dairəsi və prinsiplər, Siyasət təlimatları və Keyfiyyət təminatı sahəsində standartlar) və hər bir istiqamət üzrə konkret icra olunmalı fəaliyyətlər nəzərdə tutulmuşdur.

#### 2.1.3 ATM-in əməkdaşlarının keyfiyyət təminatı siyasəti barədə məlumatlı olması və bu siyasəti bölüşməsi

QKU-nun əməkdaşları və tələbələri ilə görüş zamanı müəyyən olunmuşdur ki, görüşdə iştirak edən bütün əməkdaşlar və tələbələr keyfiyyət təminatı siyasəti barədə məlumatlıdırlar və keyfiyyət mədəniyyəti anlayışını tam mənada dərk edərək paylaşılmasını təmin edirlər.

Müşahidələrimizə əsasən müəyyənləşdirilmişdir ki, “Keyfiyyət təminatı siyasəti”nin əlçatanlığının təmin edilməsi məqsədilə sənəd QKU-nun rəsmi saytında, ATM-in elektron sənəd dövriyyəsi sistemində (Share-Point) öz əksini tapmaqla, təhsilalanlar başda olmaqla bütün maraqlı tərəflər üçün əlçatan edilmişdir. Üzərində QR kod olan siyasətin qısa forması universitetin dəhlizlərində asılmış, tam versiyası isə nəşr olunaraq kitabça halında bütün şöbələrə paylanmışdır.

#### 2.1.4 Keyfiyyət təminatı siyasətinin əhatəlilik səviyyəsi (təhsil proqramları, idarəetmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəriciləri)

Keyfiyyət təminatı siyasəti sənədi əsas 6 bölmədən ibarətdir və hər bir istiqamət üzrə konkret icra olunmalı fəaliyyətlər nəzərdə tutulmuşdur. Sonuncu - altıncı bölmə “Keyfiyyət təminatı sahəsində standartlar” adlanır və aşağıdakı istiqamətləri əhatə etmişdir:

- Proqramların tərtib və təsdiq edilməsi;
- Tələbəyönümlü təlim, tədris və qiymətləndirmə;
- Tələbələrin qəbulu, təhsil alması, tanınma və attestasiyası;
- Professor-müəllim heyəti;
- Tədris resursları və tələbə dəstəyi;
- İnformasiyanın idarə edilməsi;
- İctimai məlumatlılıq;
- Proqramların davamlı monitorinqi və vaxtaşırı nəzərdən keçirilməsi;
- Dövrü olaraq xarici keyfiyyət təminatı.

Hesab edirik ki, Keyfiyyət siyasəti sənədi kifayət qədər əhatəlidir, amma gələcəkdə meydana çıxan dəyişiklik və çağırışlara əsasən mütəmadi olaraq yenilənməlidir.

### 2.2 Daxili keyfiyyət təminatı mexanizmləri

#### 2.2.1 ATM-in daxili keyfiyyət təminatı sisteminin mövcud olması (keyfiyyət təminatı üzrə Komissiya, onun strukturu və əsasnaməsi, Fəaliyyət planı, iş bölgüsü, hesabatlar və s.)

Sahə baxışı zamanı müəyyənləşdirilmişdir ki, QKU-nun Elmi Şurasının 11.09.2017-ci il tarixli, 01 nömrəli iclasının protokoluna əsasən İmtahan və keyfiyyətə nəzarət mərkəzi yaradılmış və əsasnaməsi təsdiq edilmişdir. ATM-in Elmi Şurasının 31.01.2020-ci il tarixli, 06 nömrəli protokoluna əsasən Mərkəz bölünərək “İmtahan mərkəzi” və “Keyfiyyətə nəzarət mərkəzi” kimi adlar altında fəaliyyətə davam etmişdir. 2021-ci ildən etibarən Mərkəz “Keyfiyyət təminatı mərkəzi” adlandırılmış və yenilənmiş əsasnaməsi qəbul edilmişdir. Mərkəzə aid tələb olunan bütün sənədlər (Əsasnamə, fəaliyyət planları, illik hesabatlar və onlara aid Elmi Şuranın protokolundan çıxarışlar) AK-a təqdim olunmuşdur.

Eyni zamanda ATM-in daxili keyfiyyət təminatı sisteminin təkmilləşdirilməsi məqsədilə 2022-ci ildə (EŞ-nın 12.10.2022-ci il tarixli iclası, protokol № 02) Keyfiyyətə nəzarət komissiyası (KNK) yaradılmışdır. Komissiyanın əsasnaməsinə baxış zamanı müəyyənləşdirilmişdir ki, Komissiya ATM-in daxili keyfiyyət təminatı sisteminin təkmilləşdirilməsi, təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində təkliflərin hazırlanması və həyata keçirilməsini izləyən orqandır.

QKU-nun Strateji Planında müəyyən olunmuş hədəfləri əsas tutaraq 2022/2023-cü tədris ili üçün Komissiyanın təsdiq edilmiş Fəaliyyət planı AK-a təqdim olunmuşdur. Komissiya üzvləri arasında 3 istiqamət üzrə iş bölgüsü aparılmışdır (təhsil, elmi-tədqiqat və sosial xidmət).

**2.2.2 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyaya təhsilalanların, işəgötürənlərin və digər maraqlı tərəflərin cəlb olunması**

Daxili keyfiyyət təminatı sisteminin təkmilləşdirilməsi məqsədilə yaradılmış komissiya 17.11.2022-ci il tarixli (protokol № 03) Elmi Şura iclasında təsdiq edilmiş əsasnaməyə uyğun olaraq fəaliyyət göstərir. Əsasnamə Komissiyanın əsas funksiyalarını, hüquqlarını, fəaliyyətinin təşkilini özündə əks etdirir. 12.10.2022-ci il tarixli 15/3/ü saylı əmrə əsasən Komissiyanın tərkibi inzibati və akademik heyət, tələbə, məzun və işəgötürən olmaqla 13 nəfər olaraq təsdiq olunmuşdur.

**2.2.3 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyanın Fəaliyyət planının strateji inkişaf planındakı hədəflərə uyğunluğu vəziyyəti**

Akkreditasiya Komissiyasına KT mərkəzinin 06.09.2021-ci ildə QKU-nun prorektoru Z.S.Məmmədova tərəfindən 2021-2022-ci tədris ili üçün təsdiq olunmuş, 26 oktyabr 2022-ci ildə QKU-nun icraçı prorektoru R.Bağırov tərəfindən imzalanmış 2022-2023-cü tədris ili üçün təsdiq olunmuş və 4 noyabr 2023-cü il QKU-nun icraçı prorektoru R.Bağırov tərəfindən imzalanmış 2023-2024-cü tədris ili üçün təsdiq olunmuş fəaliyyət planları təqdim olunmuşdur. Fəaliyyət planlarına baxış zamanı müəyyən olunmuşdur ki, əks olunan fəaliyyət istiqamətləri ATM-in SİP-inə uyğundur.

**2.2.4 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş Fəaliyyət planı üzrə icra mexanizmlərinin (planlaşdırma, icra, nəzarət, düzəlişlər et) işlək olması**

ATM-də planlaşdırma-icra-nəzarət-düzəlişlər (PİND) et mexanizmi əsasən işləyir. Problemlər yarandıqda elmi şurada müzakirə olunaraq aradan qaldırılması istiqamətində müvafiq qərarlar qəbul edilir. QKU-da keyfiyyət üzrə fəaliyyətlərin icrasına nəzarət KT mərkəzinin və Keyfiyyətə nəzarət komissiyasının üzərindədir. Mərkəz və komissiya tərəfindən sorğuların təşkili, illik hesabatların hazırlanması, hesabatlar əsasında təkmilləşdirmə tədbirlərinin müəyyənləşdirilməsi istiqamətində fəaliyyətlər barədə məlumatlar və onların EŞ iclaslarında müzakirəsi və qəbul olunması barədə protokollarından çıxarışlar təqdim olunmuşdur. Lakin fəaliyyət planlarının istiqamətlər üzrə həyata keçirilməsi barədə ayrıca sənəd təqdim olunmamışdır.

Bu məlumatlar illik hesabatda əksini tapsa belə, hesab edirik ki, fəaliyyət planlarının icra vəziyyəti barədə konkret təhlil aparmaq daha məqsədəuyğun olardı.

**2.2.5 ATM-in daxili keyfiyyət təminatı sistemində hər bir proses üzrə, tədbirlərin, məsul şəxslərin və addımlar üzrə məsuliyyətlərin müəyyən edilməsi və səlahiyyət bölgüsünün aparılması**

Əldə olunan sənədlərə baxış zamanı müəyyənləşdirilmişdir ki, hər bir proses üzrə tədbir, məsul şəxs, addımlar, səlahiyyət bölgüsü kimi məsələlər öz əksini tapmışdır. Bununla əlaqədar Fəaliyyət planının strukturunda əksini tapan başlıqlar aşağıda göstərilmişdir:

- görüləcək iş;
- icra müddəti;
- icraçılar.

### 2.2.6 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş Fəaliyyət planının əhatəliliyi (təhsil proqramları, fakültələr, akademik heyət, inzibati heyət, təhsilalanlar və s.) vəziyyəti

Özünütəhlil Hesabatında qeyd olunduğu kimi, Keyfiyyətə nəzarət komissiyasının Fəaliyyət planı təhsil, elmi-tədqiqat və sosial xidmət kimi əsas sahələri əhatə edib. Daxili keyfiyyət təminatı sistemi təhsil proqramlarının tərtib edilməsində, fakültələrdə tədris prosesinin qurulması və idarə edilməsində, akademik və inzibati heyətin seçilməsində, təhsilalanların rəy və istəkləri əsasında keyfiyyətli tədris prosesinin qurulmasında qarşılıqlı işgüzar mühitin yaradılmasını təmin edir. Bununla əlaqədar, Komissiyanın Fəaliyyət planında aşağıdakıların icrasına dair məsələlər nəzərdə tutulmuşdur:

- Əmək bazarının tələblərinə müvafiq olaraq təhsil proqramlarının yenilənməsi və təkmilləşdirilməsinə dair tədbirlər;
- Akademik və inzibati heyətin səmərəliliyinin qiymətləndirilməsi mexanizminin formalaşdırılması üçün təkliflərin verilməsi;
- İnzibati və akademik heyətin motivasiyası mexanizmlərinin müəyyənləşdirilməsi;
- Tələbəyönümlü təhsil imkanlarının araşdırılması və daim təkmilləşdirilməsi;
- Fakültələr üzrə akademik məsləhət xidmətlərinin təkmilləşdirilməsi.

Komissiya hesab edir ki, ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş Fəaliyyət planının əhatəliliyi qənaətbəxşdir.

### 2.2.7 ATM-in daxili keyfiyyət təminatı sisteminin hər kəs üçün əlçatan olması, keyfiyyət təminatı siyasətini özündə ehtiva edən, ehtiyac yarandıqca yenilənən və hər kəs üçün əlçatan keyfiyyət təminatı bələdçisinin (qaydalar toplusu) olması

Sahə baxışı zamanı müəyyən olunmuşdur ki, keyfiyyət təminatı sisteminin hər kəs üçün əlçatan olması məqsədilə KT mərkəzinin ATM-in veb-saytında ayrıca səhifəsi mövcuddur. https://wcu.edu.az/az/page/keyfiyyete-nezaret-merkezi.

Burada aşağıdakı bölmələr öz əksini tapmışdır:

- Tarix;
- QKU keyfiyyət sistemi;
- Daxili keyfiyyət təminatı;
- Xarici keyfiyyət təminatı;
- Keyfiyyət təminatı siyasəti;
- İşçi heyətinin vəzifə və məsuliyyətləri;
- Əməkdaşlar;

- Əlaqə məlumatları;
- Təkliflər və tövsiyələr;
- Normativ sənədlər.

Qeyd etdiyimiz kimi, QKU-nun "Keyfiyyət təminatı siyasəti" sənədi ATM-in veb-saytında yerləşdirilib, keyfiyyət təminatı üzrə bələdçi nəşr olunmuş və "Keyfiyyət təminatı siyasəti" ATM-in bütün tədris korpuslarında lövhələrdə asılmışdır. Bununla yanaşı, tələbələr üçün məlumat kitabçaları hazırlanır, istər təhsilalanlar, istərsə də professor-müəllim heyəti üçün məlumatlandırma xarakterli orientasiya seminarları keçirilir (müsahibələr zamanı məlumat təsdiqlənmişdir). Eyni zamanda QKU-da mövcud fəaliyyətlərlə bağlı ehtiyaca müvafiq olaraq mütəmadi şəkildə prosedur sənədlər hazırlanır (müvafiq sənədlər AK-a təqdim olunmuşdur).

### 2.2.8 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirməsinin əhatəliliyi

Özünütəhlil Hesabatında qeyd olunduğu kimi, QKU-da daxili keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirmə təhsil proqramları, fakültələr, akademik heyət, inzibati heyət, təhsilalanlar və s. əhatə edir. ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirməni obyektiv təşkil etmək üçün hər semestr anonim sorğular təşkil olunur (Əlavə məlumat üçün bax Cədvəl 1.2). Sorğular təhsilalan, məzun, işəgötürən, akademik, inzibati, tədris-köməkçi heyət arasında keçirilir. Sorğuların nəticələri təhlil edilir və əsasında qiymətləndirilmə aparılır. Bununla yanaşı, heyətin daxili və xarici keyfiyyət təminatına dair bilik və bacarıqlarının artırılması üçün vaxtaşırı təlimlər təşkil edilir.

Keyfiyyətin yüksəldilməsi məqsədilə 2022-ci il 12 oktyabr tarixli 15/3/Ü nömrəli əmrlə "Keyfiyyətə Nəzarət Komissiyası", tələbələrlə daimi, operativ əlaqənin səmərəli qurulması üçün 2022-ci ildə "Tələbə Məlumat Mərkəzi" yaradılmışdır (Əmr, Əsasnamə və Elmi Şuranın protokolundan çıxarış AK-a təqdim olunmuşdur). Eyni zamanda təhlil və qiymətləndirmənin aparılması prosesi auditlər şəklində keçirilir. QKU keyfiyyət sisteminin təkmilləşdirilməsi məqsədilə daxili auditlər keçirir, onun hesabatlılığını təmin edir.

Həmçinin, 2023-cü ilin sentyabr ayında TSE tərəfindən universitetdə xarici audit təşkil olunmuş və auditin nəticələrinə uyğun olaraq QKU ISO - 9001, ISO - 45001, ISO - 14001 Beynəlxalq keyfiyyət standartları sertifikatlarına layiq görülmüşdür.

Daxili və xarici auditlərlə yanaşı, QKU-da tədris prosesinin izlənilməsi məqsədilə monitorinqin təşkili qaydalarına müvafiq olaraq monitorinqlər keçirilir.

### 2.2.9 Daxili keyfiyyət təminatı üzrə ATM-in fəaliyyətinə dair illik Özünütəhlil Hesabatının hazırlanması vəziyyəti

Akkreditasiya Komissiyasına KT Mərkəzinin və KN Komissiyasının Elmi Şurada müzakirə olunaraq təsdiqlənmiş 2021-2022, 2022-2023-cü tədris illəri üçün Özünütəhlil hesabatları təqdim olunmuşdur. Hesabatlara baxış zamanı müəyyən olunmuşdur ki, onlar ATM-də təlim-tədris prosesinin davamlı inkişafının təmin edilməsi, elmi-tədqiqat fəaliyyəti, tədris prosesinin kəmiyyət və keyfiyyət göstəriciləri üzrə təhlilini özündə ehtiva edir.

### 2.2.10 Əvvəlki akkreditasiya üzrə Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabatın və Fəaliyyət planının hazırlanması vəziyyəti

2016/2017-ci tədris ilində ATM-də aparılan akkreditasiya qiymətləndirilməsində QKU-nun inkişafını təmin etmək üçün Akkreditasiya Komissiyası tərəfindən bir sıra tövsiyələr verilmişdir. Bu tövsiyələrin həyata keçirilməsi məqsədilə ATM 2018-2020-ci illəri əhatə edən qısamüddətli SİP hazırlamışdır. ATM-in Özünütəhlil Hesabatına əsasən, əvvəlki akkreditasiya üzrə verilmiş tövsiyə və göstərişlər illik fəaliyyət planlarına daxil edilmişdir. Bu fəaliyyətlər yerinə yetirilmiş və müvafiq hesabatlar ilin sonunda Elmi Şura iclaslarında təqdim edilmişdir. Əksər tövsiyələr üzrə lazımi addımlar atılmışdır. Yerinə yetirilməmiş bəndlər barədə isə müvafiq səbəblər hesabatda qeyd edilmişdir.

### 2.2.11 ATM-in fəaliyyətinin təsir dairəsinə uyğun olaraq maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin öyrənilməsi vəziyyəti

Özünütəhlil Hesabatında qeyd olunduğu kimi, ATM-də maraqlı tərəflərin rəyləri və məmnunluq səviyyəsinin öyrənilməsi məqsədilə akademik heyət, inzibati və tədris-köməkçi heyət, təhsilalanlar, məzunlar və əmək bazarının nümayəndələri arasında sorğular keçirilir (Əlavə məlumat üçün Cədvəl 1.2) Sorğular Keyfiyyət Təminatı Mərkəzi və Tələbə Məlumat Mərkəzi tərəfindən illik Fəaliyyət planına uyğun olaraq birgə təşkil olunur.

Sorğuların nəticələri ATM-in Elmi Şurasının iclaslarında müzakirə olunur (məsələn, 30 iyun 2023-cü ildə keçirilən Elmi Şuranın protokolundan çıxarış təqdim olunmuşdur). Təhsilalanlar və məzunlar arasında keçirilən sorğuların əsas məqsədi QKU-nun ümumi fəaliyyətinin qiymətləndirilməsi, fənlər və karyera xidmətinin təşkili üzrə məmnunluq səviyyəsinin ölçülməsi, o cümlədən qazanılmış kompetensiyaların əmək bazarının tələblərinə uyğunluğunun müəyyən edilməsidir. Qeyd etmək lazımdır ki, sorğu anketləri ilə yanaşı ATM-də məzunlar və işəgötürənlərlə görüşlər də təşkil olunur.

## 2.3 Keyfiyyət təminatı mədəniyyəti

### 2.3.1 ATM-in rəhbərliyinin və daxili keyfiyyət təminatı sisteminə rəhbərliyi həyata keçirən məsul şəxslərin məlumatlılıq, nəzarət və proseslərdə iştirak səviyyəsi, akademik və inzabati heyətlə rəhbərlik arasında keyfiyyət təminatı üzrə səmərəli kommunikasiya şəbəkəsinin mövcud olması

Özünütəhlil Hesabatında qeyd olunduğu kimi, Keyfiyyətin Təminatı Mərkəzinin direktoru mərkəzin fəaliyyətinin nəticəsinə görə ATM-in normativ sənədləri ilə müəyyən edilmiş qaydada Elmi Şura və rektor qarşısında məsuliyyət daşıyır. Mərkəz öz fəaliyyətinin nəticəsi üzrə tədris ilinin sonunda yekun hesabatı ATM rəhbərliyinə təqdim edir. ATM-də akademik və inzibati heyətlə rəhbərlik arasında məlumatların çatdırılmasının elektron poçt vasitəsilə səmərəli şəkildə həyata keçirildiyi müşahidə olunmuşdur.

Tələbə və professor-müəllim heyəti ilə müsahibələr zamanı da keyfiyyət təminatı üzrə səmərəli kommunikasiya şəbəkəsinin mövcud olmasına şahid olduq. Məsələn, daxili keyfiyyət

təminatı barədə məlumatlılığın təmin olunması üçün ATM-in bütün mərtəbələrində keyfiyyət göstəriciləri, strateji hədəflər və digər məlumatların əks olunduğu posterlər nümayiş etdirilir.

### 2.3.2 Keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması

Qeyd olunduğu kimi, keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması məqsədilə Keyfiyyətə nəzarət komissiyası (KNK) yaradılmışdır. 12.10.2022-ci ildə təsdiq olunmuş əsasnaməsinə uyğun olaraq Komissiya müxtəlif fakültələri təmsil edən bir qrup əməkdaşdan və digər maraqlı tərəflərdən ibarətdir. Komissiya keyfiyyət siyasəti əsasında hazırlanmış Fəaliyyət planının icrasına nəzarət edir, digər struktur bölmələrin fəaliyyətinin keyfiyyət baxımından qiymətləndirilməsi metodologiyasını, meyarlarını müəyyənləşdirir və müəyyən olunmuş metodologiya və meyarlar əsasında qiymətləndirməni müzakirə edir və hesabatlar hazırlayır. Eyni zamanda Komissiya strukturlararası kommunikasiyanın səmərəliliyini qiymətləndirir və təkliflər verir.

Eyni zamanda "Keyfiyyət təminatı siyasəti" QKU-nun veb-saytında yerləşdirilir və keyfiyyət təminatı sahəsində prioriet istiqamətlərin müəyyənləşdirilməsi məqsədilə əks-əlaqə təmin edilir. Təkliflər və iradlar elektron tədris platforması vasitəsilə qa@wcu.edu.az ünvanına göndərilir.

Müsahibələr zamanı müəyyən olundu ki, keyfiyyət təminatı sahəsində əks-əlaqənin və keyfiyyət mədəniyyətinin yüksəldilməsi istqamətində mütəmadi işlər aparılır.

### 2.3.3 Keyfiyyətin təmin olunmasında ATM-in rəhbərliyinin töhfəsi, institusional dayanıqlılıq istiqamətində görülən iş və fəaliyyətlər

Akkreditasiya Komissiyasının Keyfiyyət təminatı mədəniyyətinin aşılanması 4 mərhələli prosesin əsasında həyata keçirilir. Planlaşdır-İcra-Nəzarət-Düzəliş et. Belə ki, hər il üçün fəaliyyət planları tərtib olunur, onların icra vəziyyəti elmi şurada müzakirə olunaraq müvafiq qərarlar qəbul olunur. Akkreditasiya Komissiyasının müşahidələri nəticəsində müəyyən olunmuşdur ki, keyfiyyətin təmin olunması və inkişaf etdirilməsində ATM rəhbərliyi birbaşa iştirak edir və bu ideya ATM-in missiyası və ali məqsədlərində dəyişilməyən bir dəyər kimi əks olunmuşdur. Özünütəhlildə qeyd olunduğu kimi, bu məqsədlə rəhbərlik aşağıda qeyd edilmiş tədbirləri həyata keçirmişdir:

- 2021-ci ildə keyfiyyətin təmin olunması və inkişafı məqsədilə təlimlər keçmək üçün keyfiyyət təminatı ilə bağlı xarici mütəxəssis dəvət edilmişdir;
- 2021-ci ildə TKTA ilə təlim xidmətlərinin göstərilməsinə dair müqavilə imzalanmışdır. Müqaviləyə əsasən universitetin əməkdaşlarına agentlik tərəfindən "Daxili keyfiyyət təminatı" və "Xarici keyfiyyət təminatı" başlıqları altında təlimlər təşkil edilmişdir;
- Keyfiyyətin yüksəldilməsi məqsədilə 2022-ci il, 12 oktyabr tarixli, 15/3/Ü nömrəli əmrlə "Keyfiyyətə Nəzarət Komissiyası" yaradılmışdır;
- Tələbələrlə daimi, operativ əlaqənin səmərəli qurulması üçün 2022-ci ildə "Tələbə Məlumat Mərkəzi" yaradılmışdır;

- Bundan əlavə “ISO-9001, ISO-45001, ISO-14001” sertifikatlarının əldə olunmasını təmin etmək üçün Türk Standartları İnstitutu ilə müqavilə bağlanmışdır. Müqaviləyə əsasən 2023-cü ilin aprel-may aylarında TSE Eğitim Dairesi Başkanlığı tərəfindən ATM-də təlimlər keçirilmiş, təlim iştirakçılarına sertifikatlar verilmişdir;
- 2023-cü ilin sentyabr ayında TSE tərəfindən universitetin auditi təşkil olunmuş və auditin nəticələrinə uyğun olaraq ISO-9001, ISO-45001, ISO-14001” Beynəlxalq keyfiyyət standartları Sertifikatları təqdim edilmişdir.

### 2.3.4 Keyfiyyətin təmin olunmasında ATM-in strukturlararası fəaliyyətinin koordinasiyası vəziyyəti

KNK-nın yaradılması tədris, elm, beynəlxalq əlaqələr, informasiya-texniki təminat məsələləri üzrə aidiyyatı strukturlarla qarşılıqlı əməkdaşlığın yaranması və gücləndirilməsinə zəmin yaratmışdır. KNK-nın və KT Mərkəzinin hesabatlarına baxış zamanı müəyyənləşdirilmişdir ki, Mərkəzin aidiyyəti strukturlardan məlumat əldə etmə imkanı mövcuddur. ATM-də strukturlararası əlaqə Microsoft Outlook üzərindən (Share Pointda paylaşımlar etməklə və korporativ e-mail vasitəsilə) həyata keçirilir. Digər tərəfdən keyfiyyət mədəniyyətinin təkmilləşdirilməsi üçün professor-müəllim, inzibati və tədris-köməkçi heyət arasında sorğular keçirilir Elmi Şurada müzakirə olunur və nəticələrinə uyğun olaraq müvafiq tədbirlər görülür. (AK-a Elmi Şuranın 30 iyun 2023-cü il tarixli 11 saylı iclasının protokolundan çıxarış təqdim olunmuşdur).

## 3. TƏLİM VƏ TƏDRİS

### 3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması

#### 3.1.1 Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblərin ödənilməsi vəziyyəti

QKU-da ali təhsilin hər iki səviyyəsi üzrə tələbə qəbulu üzrə sifarişlərin hazırlanması ATM-in auditoriya fondu, akademik heyəti, kadr potensialı, maddi texniki baza ilə təminatı və ölkə üzrə faktiki qəbul planı nəzərə alınmaqla fakültələr (cari halda məktəblər) və Tədrisin təşkili və idarə olunması mərkəzi tərəfindən birgə hazırlanır və ATM rəhbərliyi ilə razılaşdırılmaqla, müvafiq qaydada, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə göndərilir. Magistratura səviyyəsi üzrə isə həm də bakalavriat səviyyəsindən məzun olan ümumi tələbə kontingentinin sayı nəzərə alınmaqla qəbul sifarişləri hazırlanır.

Cədvəl 3.1 və şəkil 3.1-ə nəzər saldıqda məlum olur ki, 2017/2028-2023/2024-cü tədris illərində QKU-da ali təhsilin bakalavriat səviyyəsi üzrə qəbul planının dolma göstəricisi 63% (2022-2023) və 78% (2021-2022) arasında dəyişmiş, müxtəlif tədris illəri üzrə qəbul planı, faktiki qəbul və qəbul planının dolma faizində xüsusi artım müşahidə olunmamışdır. Artım dinamikası yalnız dövlət sifarişi ilə qəbul olan təhsilalanların sayında və faktiki qəbul sayında subbakalavrların payında müşahidə edilmişdir.

Ali təhsilin magistratura səviyyəsi üzrə isə qəbul planının dolma göstəricisi hesabat müddətində 52% (2019-2020) və 92% (2023-2024) arasında dəyişmiş, 2022-2023-cü tədris ili istisna olmaqla, dövlət sifarişi ilə qəbul olunan təhsilalanların sayında da artım izlənilmişdir (Cədvəl 3.2 və Şəkil 3.2).

Doktorantura üzrə hesabat müddətində qəbul planının dolma göstəricisi 0% (2017-2018) və 38% (2023-2024) arasında (Cədvəl 3.3, Şəkil 3.3), dissertantura üzrə isə 0% (2018-2019, 2021-2022) və 100% (2017-2018) arasında dəyişilmişdir (Cədvəl 3.4 və Şəkil 3.4).

Cədvəl 3.1. 2017/2018-2023/2024-cü tədris illərində bakalavriat səviyyəsi üzrə QKU-ya təhsilalanların qəbulu

| **Tədris illəri** | **2017-2018** | **2018-2019** | **2019-2020** | **2020-2021** | **2021-2022** | **2022-2023** | **2023-2024** |
|---|---|---|---|---|---|---|---|
| Qəbul planı | 910 | 1085 | 1065 | 1020 | 945 | 1055 | 1110 |
| Faktiki qəbul | 590 | 817 | 818 | 704 | 735 | 662 | 713 |
| Qəbul planının dolma %-i | 65 | 75 | 77 | 69 | 78 | 63 | 64 |
| Əyani şöbə üzrə | 548 | 776 | 758 | 641 | 684 | 574 | 612 |
| Qiyabi şöbə üzrə | 42 | 41 | 60 | 63 | 51 | 94 | 101 |
| D/S ilə qəbul olan təhsilalanların sayı | 17 | 45 | 79 | 128 | 134 | 183 | 334 |
| Faktiki qəbul sayında subbakalavrların payı | 0 | 0 | 0 | 0 | 70 | 86 | 176 |
| Əcnəbi təhsilalanların sayı | 7 | 1 | 13 | 8 | 5 | 22 | 19 |
| Əlavə təhsilə cəlb olunmuş təhsilalanların sayı | 0 | 17 | 32 | 28 | 34 | 25 | 23 |




Şəkil 3.1 2017/2018-2023/2024-cü tədris illərində bakalavriat səviyyəsi üzrə QKU-ya qəbulun dinamikası

Cədvəl 3.2 2017/2018-2023/2024-cü tədris illərində magistratura səviyyəsi üzrə QKU-ya təhsilalanların qəbulu

| **Tədris illəri** | **2017-2018** | **2018-2019** | **2019-2020** | **2020-2021** | **2021-2022** | **2022-2023** | **2023-2024** |
|---|---|---|---|---|---|---|---|
| Qəbul planı | 82 | 134 | 104 | 104 | 138 | 186 | 191 |
| Faktiki qəbul | 67 | 84 | 54 | 74 | 116 | 144 | 176 |
| Qəbul planının dolma %-i | 82 | 63 | 52 | 71 | 84 | 77 | 92 |
| D/S ilə qəbul olan təhsilalanların sayı | 8 | 15 | 19 | 28 | 36 | 20 | 58 |
| Əcnəbi təhsilalanların sayı | 0 | 1 | 3 | 1 | 2 | 0 | 0 |




Şəkil 3.2 2017/2018-2023/2024-cü tədris illərində magistratura səviyyəsi üzrə QKU-ya qəbulun dinamikası

Cədvəl 3.3 2017/2018-2023/2024-cü tədris illərində doktorantura səviyyəsi üzrə QKU-ya təhsilalanların qəbulu

| Tədris illəri | 2017-2018 | 2018-2019 | 2019-2020 | 2020-2021 | 2021-2022 | 2022-2023 | 2023-2024 |
|---|---|---|---|---|---|---|---|
| Qəbul planı | 21 | 10 | 12 | 12 | 12 | 10 | 8 |
| Faktiki qəbul | 0 | 2 | 4 | 3 | 3 | 3 | 3 |
| Əyani | 0 | 2 | 4 | 3 | 3 | 3 | 3 |
| Qiyabi | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| Qəbul planının dolma %-i | 0 | 20 | 33 | 25 | 25 | 30 | 38 |
| D/S ilə qəbul olan təhsilalanların sayı | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| Əcnəbi təhsilalanların sayı | 21 | 10 | 12 | 12 | 12 | 10 | 8 |




Şəkil 3.3 2017/2018-2023/2024-cü tədris illərində doktorantura səviyyəsi üzrə QKU-ya qəbulun dinamikası

Cədvəl 3.4 2017/2018-2023/2024-cü tədris illərində dissertantura səviyyəsi üzrə QKU-ya təhsilalanların qəbulu

| Tədris illəri | 2017-2018 | 2018-2019 | 2019-2020 | 2020-2021 | 2021-2022 | 2022-2023 | 2023-2024 |
|---|---|---|---|---|---|---|---|
| Qəbul planı | 1 | 0 | 9 | 10 | 10 | 4 | 8 |
| Faktiki qəbul | 1 | 0 | 1 | 1 | 0 | 2 | 3 |
| Əyani | 1 | 0 | 4 | 1 | 0 | 2 | 3 |
| Qiyabi | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| Qəbul planının dolma %-i | 100 | 0 | 11 | 10 | 0 | 50 | 38 |
| D/S ilə qəbul olan təhsilalanların sayı | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| Əcnəbi təhsilalanların sayı | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 |




Şəkil 3.4 2017/2018-2023/2024-cü tədris illərində dissertantura səviyyəsi üzrə QKU-ya qəbulun dinamikası

### 3.1.2 ATM-də əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi vəziyyəti

Özünütəhlil Hesabatında qeyd olunduğu kimi, ATM-də əmək bazarının tələblərinə uyğun tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi məqsədi ilə QKU rəhbərliyi ilə əmək bazarının aktiv iştirakçıları arasında görüşlər təşkil edilir, müxtəlif dövlət və özəl təşkilatlar arasında imzalanmış memorandum nəticələri, çoxsaylı müqavilələr əsasında tələbələrin ayrı-ayrı müəssisələrdə istehsalat təcrübəsi keçmələri üçün göndərilməsi zamanı əldə edilən müvafiq məlumatlar (tələbələrin təhsil aldıqları müddətdə yiyələndikləri nəzəri biliklərin və səriştələrin əmək bazarının tələblərinə uyğunluğu), xüsusilə məzunların işlə təminatı nəzərə alınır, həmçinin bu məqsədlə ATM-də əmək yarmarkaları keçirilir. Qeyd olunanları QKU-ya sahə səfəri zamanı AK-a təqdim edilən sənədlər təsdiqləyir.

### 3.1.3 Tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı vəziyyəti

QKU-da tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı vəziyyətini QKU rəhbərliyi ilə müxtəlif dövlət və özəl təşkilatlar arasında imzalanmış anlaşma memorandumları, əməkdaşlıq memorandumları, o cümlədən Azərbaycan Respublikası Mərkəzi Bankının, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi, Aqrar Sığorta Fondu, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya publik hüquqi şəxsi, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu publik hüquqi şəxsi, Azərbaycan Respublikası Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Dendrologiya Bağı" publik hüququ şəxsi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Genetik Ehtiyatlar İnstitutu publik hüquqi şəxsi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Zoologiya İnstitutu publik hüquqi şəxsi, "Sosial Sahibkarlığın İnkişafı və Təlim Mərkəzi" MMC, Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyası, Ekologiya və Təbii Sərvətlər Nazirliyi Meşələrin İnkişafı Xidməti, Azərbaycan Respublikasının Qiymətli Kağızlar

üzrə Dövlət Komitəsinin Təsərrüfathesablı İxtisasartırma Kursları, Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyinin Ekologiya İnstitutu nümayəndələri ilə aparılmış müzakirələrin nəticələri qiymətləndirməyə imkan verir. Həmçinin bu prosesdə QKU-nun Tələbə və Məzunların Təcrübə və İnkişaf Mərkəzi əməkdaşlarının məzunların əmək bazarında işlə təmin olunmalarına dair apardıqları statistik təhlillərin nəticələri də mühüm rol oynayır.

### 3.1.4 Qəbul olmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması və nəzərə alınması vəziyyəti

QKU-da Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 sentyabr tarixli 163 nömrəli qərarı ilə təsdiq edilmiş "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası"na əsasən "İqtisadiyyat", "Maliyyə", "Mühasibat", "Menecment", "Turizm işinin təşkili", "Marketinq", "Biznesin idarə olunması", "İnformasiya texnologiyaları", "Kompüter mühəndisliyi", "Meşəçilik", "Politologiya", "Psixologiya", "Tarix" ixtisasları üzrə ali təhsilin həm əyani, həm də qiyabi təhsilalma formaları üzrə, "Menecment", "Marketinq", "Biznesin idarə olunması", "İnformasiya texnologiyaları", "Cihaz mühəndisliyi", "Ekologiya", "Biologiya", "Beynəlxalq münasibətlər", "Dövlət və bələdiyyə idarəetməsi", "Fəlsəfə", "Sosial iş", "Dizayn", "Filologiya", "Tərcümə" ixtisasları üzrə isə yalnız əyani təhsilalma forması üzrə ali təhsil müəssisələrindən məzun olanların təkrar təhsil üzrə (https://e-qanun.az/framework/20045), həmçinin subbakalavrların bakalavriat səviyyəsi üzrə (https://e-qanun.az/framework/42399) təkrar qəbulu həyata keçirilir. Qəbul olan tələbələrin ilkin təhsil müəssisələrində dinlədikləri fənlərin və qazandıqları kreditlələrin tanınması və QKU-da ayrı-ayrı ixtisasların tədris planlarında mövcud olan fənlərlə uyğunlaşdırılması ilə əlaqədar fakültə rəhbərlərinin QKU-nun rektorluğuna müvafiq təqdimatları ilə müraciətləri əsasında QKU rektorunun 15.09.2018-ci il tarixli, 15/2/2/Ü saylı əmri ilə yaradılmış "Fənlərin uyğunlaşdırılması" üzrə işci komissiyası tərəfindən fənlərin uyğunlaşdırılması və tanınması həyata keçirilir. Həmçinin, bərpa olunan, akademik məzuniyyətdən qayıdan və transfer olunan tələbələrin "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın (https://e-qanun.az/framework/37146) tələblərinə uyğun kreditlərinin tanınması reallaşdırılır. Qeyd olunanlar QKU-ya sahə səfəri zamanı müvafiq sənədlərə, xüsusilə "Fənlərin uyğunlaşdırılması" üzrə işçi komissiyasının protokollarına baxış ilə müəyyən edilmişdir.

## 3.2 Təhsil proqramları

### 3.2.1 ATM-də kadr hazırlığının təhsil səviyyələri üzrə əhatəliliyi

Özünütəhlil Hesabatında qeyd olunduğu kimi, QKU-da 18 iyul 2018-ci il Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli 311 nömrəli qərarı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"ndə (https://e-qanun.az/framework/39622) qeyd edilmiş 5 səviyyə: tam orta təhsil (4-cü səviyyə), orta ixtisas təhsili (5-ci səviyyə), bakalavr təhsili (6-cı səviyyə; Azərbaycan Respublikası

Nazirlər Kabinetinin 2019-cu il 11 fevral tarixli 45 saylı Qərarı ilə təsdiq edilmiş “Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların Təsnifatı”na uyğun olaraq, 28 ixtisas üzrə), magistr təhsili (7-ci səviyyə; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 14 iyun tarixli 95 saylı Qərarı ilə təsdiq edilmiş “Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı”na uyğun olaraq, 16 ixtisas və 23 ixtisaslaşma üzrə), fəlsəfə doktoru, elmlər doktoru və təkrar ali təhsil (8-ci səviyyə; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 15 mart tarixli 65 saylı Qərarı ilə təsdiq edilmiş “Ali təhsilin doktorantura səviyyəsi üzrə ixtisasların Təsnifatı”na uyğun olaraq, doktorantura (dissertantura) səviyyəsi) üzrə, həmçinin MBA proqramı ilə “Biznesin idarə edilməsi” ixtisası və “Biznesin təşkili və idarə edilməsi (turizm və otelçiliyin idarə edilməsi)” ixtisaslaşması üzrə mütəxəssis hazırlığı həyata keçirilir. Qeyd olunanlarla yanaşı, ikinci ali təhsil üzrə 23 ixtisasa (onlardan 9-u üzrə hər iki - həm əyani, həm də qiyabi təhsilalma formaları olmaqla) qəbul həyata keçirilir (lakin Cədvəl 3.5-ə nəzər saldıqda məlum olur ki, 2017/2018-2023/2024-cü tədris illəri ərzində yalnız 9 ixtisasa ikinci ali təhsil (əlavə təhsil) üzrə tələbə qəbulu mümkün olmuşdur).

Cədvəl 3.5. 2017/2018-2023/2024-cü tədris illərində ikinci ali təhsil (əlavə təhsil) üzrə QKU-da qəbul və məzun dinamikası

| **Tədris illəri** | **İxtisasların adı** | **Qəbul olunan tələbə sayı** | **Qəbul olunan tələbələrin tədris illəri üzrə ümumi sayı** | **Məzun olan tələbələrin sayı** |
|---|---|---|---|---|
| **2017-2018** | Qəbul aparılmayıb | | | Məzun olmayıb |
| **2018-2019** | İqtisadiyyat | 1 | 17 nəfər | Məzun olmayıb |
| | Psixologiya | 15 | | |
| | Meşəçilik | 1 | | |
| **2019-2020** | Politologiya | 1 | 32 nəfər | Məzun olmayıb |
| | Dünya iqtisadiyyatı | 2 | | |
| | Psixologiya | 28 | | |
| | Tarix | 1 | | |
| **2020-2021** | Politologiya | 2 | 28 nəfər | Məzun olmayıb |
| | Beynəlxalq münasibətlər | 4 | | |
| | Psixologiya | 18 | | |
| | Mühasibat uçotu | 2 | | |
| | Tarix | 2 | | |
| **2021-2022** | İqtisadiyyat | 1 | 34 nəfər | 20 nəfər (Psixologiya ixtisası üzrə) |
| | Maliyyə | 2 | | |
| | Mühasibat uçotu | 2 | | |
| | Politologiya | 1 | | |
| | Psixologiya | 29 | | |
| **2022-2023** | Psixologiya | 25 | 25 nəfər | 14 nəfər (Psixologiya ixtisası üzrə) |
| **2023-2024** | Psixologiya | 23 | 23 nəfər | |

### 3.2.2 ATM-də tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluğu vəziyyəti

QKU-da Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli 75 saylı Qərarına əsasən "Ali təhsil pilləsinin dövlət standartı və proqramına" uyğun olaraq ali təhsilin bakalavr, magistratura və doktorantura (dissertantura) səviyyələri üzrə kadr hazırlığı həyata keçirilir. 2017/2018-2023/2024-cü tədris illəri müddətində QKU-da ali təhsilin balakavr səviyyəsi üzrə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 09.07.2020-ci il tarixli F-343 nömrəli, 07.08.2020-ci il tarixli F-363 nömrəli, 30.07.2020-ci il tarixli F-354 nömrəli əmrləri ilə, magistratura səviyyəsi üzrə 13.08.2020-ci il tarixli F-370 nömrəli əmri ilə təsdiq edilmiş müvafiq təhsil proqramları əsasında tədris həyata keçirilir. Təhsil proqramları əsasında tədris planları hazırlanarkən Azərbaycan Respublikası Mərkəzi Bankı, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi, Aqrar Sığorta Fondu, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyası, Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu, Azərbaycan Respublikası Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Dendrologiya Bağı", Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Genetik Ehtiyatlar İnstitutu, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Zoologiya İnstitutu, "Sosial Sahibkarlığın İnkişafı və Təlim Mərkəzi" MMC, Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyası, Ekologiya və Təbii Sərvətlər Nazirliyi Meşələrin İnkişafı Xidməti, Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyinin Ekologiya İnstitutu kimi nüfuzlu dövlət strukturları və şirkətlərin təklifləri nəzərə alınmışdır.

### 3.2.3 ATM-də tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu vəziyyəti

QKU-da ali təhsilin müxtəlif səviyyələri üzrə tədris olunan ixtisas və ixtisaslaşmalar peşə və kvalifikasiya standartlarına uyğundur.

Özünütəhlil Hesabatında qeyd olunduğu kimi, "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsində səviyyə deskriptorları"na (https://e-qanun.az/framework/39622 - əlavəsi) əsasən QKU-nun Ömürboyu Təhsil Mərkəzi və Keyfiyyətə Nəzarət Mərkəzi tərəfindən keyfiyyətin qiymətləndirilməsi meyarları, keyfiyyətin daxili təminatı strukturu və keyfiyyət prosesini tənzimləyən daxili normativ prosedurlar əsasında ali təhsilin müxtəlif səviyyələrində tədris olunan ixtisas və ixtisaslaşmaların peşə və kvalifikasiya standartlarına uyğunluğuna nəzarət təmin edilir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən istifadəyə verilən Reyestrində əhatə olunan standartlara uyğun təhlillər aparılmış və QKU-da ali təhsilin bakalavr və magistratura səviyyələrində bir sıra təhsil proqramları, ixtisas və ixtisaslaşmalar üzrə mövcud praktiki fənlər, istehsalat təcrübələri əmək bazarı nümayəndələri tərəfindən tədrisi, təhsilalanların peşə kompetensiyalarının əmək bazarı və cəmiyyətin tələblərinə uyğunluğunun təmin edildiyini göstərir.

### 3.2.4 Təhsil proqramlarının Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələblərinə uyğunluğu

QKU-da təlim və tədris Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli 311 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi”nin (AzMKÇ) 5 kvalifikasiya səviyyəsi üzrə:  tam orta təhsil (4-cü səviyyə), orta ixtisas təhsili (5-ci səviyyə), bakalavr təhsili (6-cı səviyyə), magistr təhsili (7-ci səviyyə magistr təhsili (7-ci səviyyə), fəlsəfə doktoru, elmlər doktoru və təkrar ali təhsil (8-ci səviyyə) üzrə müvafiq deskriptorlar əsasında, ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu təmin edilməklə həyata keçirilir. AzMKÇ-nin 8-ci səviyyəsinə müvafiq “Təkrar ali təhsil” ATM-də Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 sentyabr tarixli 163 nömrəli qərarı ilə təsdiq edilmiş “Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi” qaydasına müvafiq olaraq reallaşdırılır və qısa müddətdə mütəxəssis olmaq istəyən, yeni bir sahəyə maraqlı olan insanlar üçün təhsili əlçatan edir.

QKU-da tədrisin AzMKÇ-nin tələblərinə uyğunluğunun təmin olunması məqsədi ilə keyfiyyətin daxili təminatı sistemi yaradılmış, keyfiyyətin qiymətləndirilməsi meyarları tərtib edilmiş və müvafiq kvalifikasiyaların dövlət təhsil standartlarına əsaslanmasına, əmək bazarının tələblərini, peşə və ixtisas kompetensiyalarını ödəməsinə nəzarət təsis edilmişdir.

### 3.2.5 Təhsil proqramlarının ayrı-ayrı ixtisasları (ixtisaslaşmaları) üzrə təsdiq edilmiş təlim nəticələrinə və məzmun standartlarına uyğunluğu

QKU-da ayrı-ayrı ixtisaslar üzrə tətbiq olunan təhsil proqramlarının təlim nəticələri Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 13.08.2020-ci il tarixli F-226 nömrəli əmri ilə təsdiq edilmiş “Bakalavriat səviyyəsinin (əsas (baza) ali tibb təhsilinin) ixtisas üzrə təhsil proqramının çərçivə sənədi”nə uyğun olaraq tərtib edilmiş və hər fənn üzrə müvafiq kompetensiyaların əldə olunmasına xidmət edən məzmun standartlarına uyğundur.

### 3.2.6 Təhsil proqramları üzrə dərs saatlarının bölgüsünün Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğunluğu

QKU-da Təhsil proqramları üzrə tərtib olunmuş tədris planlarında dərs saatlarının bölgüsü Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğun olmaqla, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili” Qaydaları və 2010-cu il 24 noyabr 215 nömrəli qərarı ilə təsdiqlənmiş “Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normaları” əsasında aparılmışdır; ixtisasdan asılı olaraq, ümumi fənlərə (ümumi məcburi – 24 AKTTS və ümumi seçmə - 6 AKKTS) 30 kredit, ixtisas fənlərinə 120 kredit (bəzən bir qədər az, məsələn, 70 AKTTS), universitet tərəfindən müəyyən edilən seçmə fənlərə 60 kredit (bəzən bir qədər çox, 110 AKKTS), təcrübə o cümlədən yekun attestasiyaya 30 kredit, ümumilikdə isə bakalavriat səviyyəsində 4 il üzrə cəmi 240 kredit, magistratura səviyyəsində isə 2 il müddətində

120 kredit ayrılmışdır. Həftəlik auditoriya saatlarının həcmi, əksər hallarda, həftəlik dərs yükünün 50%-dən çox olmamışdır. Eləcə də auditoriya dərsləri üçün ayrılmış 1 akademik saat 45 dəqiqə, 1 dərs isə 2 akademik saat olaraq müəyyənləşdirilmişdir. Professor-müəllim heyətinin bir ştat üzrə illik dərs yükü - 500 saatdan az olmamaqla, mühazirə, seminar, laboratoriya və praktiki məşğələlərə ayrılan auditoriya saatlarının miqdarı isə dərs yükünün 60%-dən az olmamaqla müəyyən edilmişdir. Professor-müəllim heyətinin dərs yüklərinin təhlili nəticəsində isə bir sıra hallarda bir ştat üzrə və ya saat hesabı qaydada illik dərs yükünün kifayət qədər çox, 893 saat, 1163 saat və s. olması hallarına da rast gəlinmişdir.

### 3.2.7 Tədris fənlərinin təhsil proqramının tələblərinə uyğunluğu

QKU-da kadr hazırlığı həyata keçirilən ali təhsilin bakalavriat səviyyəsində 28 ixtisas, magistratura səviyyəsində 16 ixtisas və 23 ixtisaslaşma üzrə tədris olunan fənlər təhsil proqramlarının tələblərinə uyğun müəyyən edilmişdir. İxtisaslar üzrə tədris olunan fənlər yaradılmış müvafiq tədris və öyrənmə mühitində, obyektiv qiymətləndirmə üsullarının tətbiqi ilə təhsil proqramlarının məqsədinə, müvafiq krediti toplamış təhsilalanların tələb olunan fənn kompetensiyalarına və təhsil proqramının 6-cı, "Proqramın və hər bir fənnin təlim nəticələri" bəndinə uyğun hazırlanmış təlim nəticələrinə malik olmasına xidmət edir.

### 3.2.8 Həftəlik auditoriya və auditoriyadan kənar saatların miqdarının təhsil proqramlarına uyğunluğu

Müxtəlif ixtisasların təhsil proqramları əsasında tərtib olunmuş tədris proqramlarında tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadan kənar ümumi yükünün həcmi 45 saat, həftəlik auditoriya saatlarının həcmi isə ümumi həftəlik yükün 50%-dən çox olmamaqla (22 və ya 23 saat) müəyyən edilmiş (lakin hesabat müddətində ötən illərin tədris planlarında bəzən həftəlik auditoriya saatlarının həcminin ümumi həftəlik yükün 50%-dən artıq olması və ya ümumiyyətlə, tədris planlarında müxtəlif fənlər üzrə həftəlik dərs yükünün əks olunmaması hallarına da təsadüf edilmişdir), semestr müddətində tədrisi nəzərdə tutulmuş fənlərin sayının tələbəyə dərsdənkənar məşğələlərə, adətən, vaxt ayırmasına imkan verdiyi izlənilmişdir. Magistratura səviyyəsində magistrantın həftəlik dərs yükü 12-16 saat həcmində müəyyən edilmişdir.

### 3.2.9 Təhsil proqramlarının icrası nəticəsində əldə olunacaq təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlığı

Özünütəhlil Hesabatında qeyd olunduğu kimi, QKU-da tədrisin təşkilində əsas götürülən təhsil proqramları, onlar əsasında hazırlanmış tədris planları və təlim nəticələri ATM-in rəsmi internet səhifələrində (https://wcu.edu.az/az, https://wuaz.sharepoint.com/sites/TestSite) yerləşdirilməklə ictimaiyyət üçün əlçatandır.

### 3.2.10 Təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilməsində işəgötürənlərin iştirakı vəziyyəti

QKU-ya sahə səfəri zamanı Komissiya üzvlərinə təqdim olunmuş əmək bazarı nümayəndələri ilə bağlanmış memorandumlar, müqavilələr, keçirilən görüşlərin protokolları təhsilalanaların qəbul planlarının, təhsil proqramları və tədris planlarının tərtibində işəgötürənlərin iştirak etdiyini, onların tövsiyələrinin nəzərə alındığını, onların QKU-da ali təhsilin müxtəlif səviyyələri üzrə reallaşdırılan tədrisə cəlb olunduqlarını, təhsilalanların müvafiq peşə səriştələrinin əldə olunmasında bilavasitə iştirakını, məzunların gələcəkdə müvafiq iş yerləri ilə təmin olunmasında rolunu təsdiqləyir.

## 3.3 Tədrisin təşkili

### 3.3.1 Tədris planlarının kredit sisteminin tələblərinə uyğun tərtib edilmə vəziyyəti

QKU-da ali təhsilin hər iki səviyyəsində, demək olar, bütün ixtisaslar üzrə tədris planları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”na uyğun tərtib olunmuşdur. Belə ki, sahə səfəri zamanı Tədrisin təşkili və idarə olunması Mərkəzindən əldə olunmuş tədris planlarına baxış nəticəsində məlum olmuşdur ki, QKU-da ali təhsilin bakalavr səviyyəsində əyani təhsilalma forması üzrə tədris ili 40 həftədən, hər semestr 20 həftədən (o cümlədən, hər semestrdə 5 həftə imtahan sessiyası) ibarətdir, bir semestrə tədrisə tam cəlb olunan (full-time) tələbəyə 30 kredit (bir kreditin tələbənin auditoriya və auditoriyadankənar 30 saatlıq işinə bərabər olması ilə bir semestrdə auditoriya və auditoriyadankənar 900 saat) müəyyən olunur, tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saat (auditoriya saatları 22 və ya 23 olmaqla) təşkil edir. Tələbənin həftəlik işinin həcmi isə 1,5 kreditə bərabər olur. Bakalavriat səviyyəsində bir tələbənin təhsilalma müddətində toplamalı olduğu kreditlərinin sayı 240, magistratura səviyyəsində isə 120 kreditdir.

Qeyd etmək lazımdır ki, dekanlıq və kafedralarda tədris planlarına baxış zamanı hesabat müddətində bəzi tədris planlarında həftəlik auditoriya saatlarının miqdarının 26 və ya 29 olması hallarına da təsadüf olunmuşdur.

Qiyabi təhsilalma forması üzrə tədris ili 32 həftə (hər semestr 16 həftə, o cümlədən, 1 həftə imtahan sessiyası olmaqla) müəyyən edilmiş, hər semestrə 24 kredit təyin olunmuşdur. Lakin qiyabi təhsilalma forması üzrə təqdim olunmuş tədris planlarının heç birində həftəlik dərs yükü bölgüsü aparılmamışdır.

### 3.3.2 İxtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafikinin mövcudluğu vəziyyəti

QKU-da hər bir ixtisas (bakalavriat səviyyəsində) və ixtisaslaşma (magistratura səviyyəsində) üzrə fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafikləri (Forma 2) mövcuddur. Tədris qrafikləri müvafiq təhsil proqramları və tədris planları əsasında fənlərin prerekvizitliyi və korekvizitliyi nəzərə alınmaqla ATM-in kafedra və dekanlıqlarında hazırlanaraq Tədrisin təşkili və idarə olunması Mərkəzinə təqdim olunur və dövlət standartlarına uyğun təsdiqlənməklə, müvafiq kafedra, dekanlıq və Tədrisin təşkili və idarə olunması Mərkəzində saxlanılır.

### 3.3.3 Tədris planında məcburi və seçmə fənlərin bölgüsünün aparılması vəziyyəti

QKU-da müxtəlif ixtisas və ixtisaslaşmalar üzrə məcburi və seçmə fənlərin bölgüsü Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli, 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili Qaydaları", Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 24 iyun tarixli, 117 nömrəli qərarı ilə təsdiq edilmiş "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili" Qaydaları, həmçinin 2010-cu il 12 may tarixli, 88 nömrəli qərarı ilə təsdiq edilmiş "Magistratura təhsilinin məzmunu və təşkili" Qaydaları və ali baza təhsil proqramları əsasında tərtib olunmuş tədris planlarında öz əksini tapır. Tədris planlarında məcburi və ATM tərəfindən müəyyən edilən fənlərin bölgüsü hər bir ixtisas üçün Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş təhsil proqramlarına uyğun aparılmışdır. Təhsil proqramlarında təsdiq olunduğu kimi, tədris planlarında da məcburi və seçmə fənlərin bölgüsü ixtisasın spesifikliyindən asılı olaraq dəyişilmiş, əksər ixtisaslar üçün ATM tərəfindən müəyyən edilən fənlərin kredit sayı 60, bəzi ixtisaslar üçün isə daha çox, məsələn, "050306 - Dizayn" ixtisasında 110 kredit müəyyən edilmişdir. Həmçinin hər bir tədris planında seçmə fənn blokunda yer alan fənlər sırasında tələbə seçimi üçün variantlar təqdim olunmuşdur.

### 3.3.4 Tədris planında ümumi və ixtisas fənləri arasında balansın saxlanılması vəziyyəti

QKU-da müxtəlif istisas və ixtisaslaşmalar üzrə mövcud tədris planları Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş təhsil proqramları əsasında tərtib olunduqlarından, ümumi və ixtisas fənləri arasında balans hər bir halda saxlanılmışdır. Belə ki, bakalavriat səviyyəsində müxtəlif ixtisaslar üzrə tədris olunan fənlər və təcrübə (o cümlədən buraxılış işi) təhsil proqramlarının tələblərinə uyğun olaraq 4 blokda: ümumi fənlər (o cümlədən seçmə fənlər), ixtisas fənləri, ATM tərəfindən müəyyən edilən fənlər (seçmə fənlər) və təcrübə (o cümlədən buraxılış işi, cəmi 30 AKTTS) bloklarında birləşdirilmişdir. Hər bir halda ümumi məcburi və seçmə fənlər uyğun olaraq, 24 və 6 kredit (ümumilikdə 30 AKTTS) müəyyən olunmuşdur. İxtisas fənlərinə əksər hallarda 120 AKTTS ayrılmış, lakin bəzi ixtisaslar üzrə isə uyğun təhsil proqramlarında qeyd olunduğu kimi, bir qədər az, məsələn, 70 AKTTS ("050306 - Dizayn" ixtisasında olduğu kimi) verilmişdir. Magistratura səviyyəsində də müxtəlif ixtisaslaşmalar üzrə ümumi və ixtisas fənləri arasında balans təhsil proqramlarına uyğun olmaqla saxlanılmışdır.

### 3.3.5 Fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

QKU-da sahə səfəri zamanı aparılan sorğuların nəticəsində məlum olmuşdur ki, fənn üzrə təlim nəticələrinin qiymətləndirilməsi, onların ixtisas nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, ilk olaraq, fənlərin tədris olunduğu kafedralarda tədris ili müddətində iki dəfə, fənn sillabuslarının təsdiqinə qədər kafedra iclaslarında həyata

keçirilir və onlara nəzarət məzunlar, əmək bazarı nümayəndələri və akademik heyətlə, o cümlədən tədris prosesinə cəlb olunmuş əcnəbi mütəxəssislərlə keçirilən sorğuların nəticələrinə, həmçinin professor-müəllim heyətinin müxtəlif təlimlər zamanı əldə etdikləri biliklərinə əsaslanır. Təlim nəticələri təhsil proqramlarına uyğun tərtib edilir və tələbələrin ixtisas və onunla əlaqəli fənn üzrə nəzəri biliklərə və praktiki bacarıqlara yiyələnmələrinə xidmət edir. Lakin qeyd etmək lazımdır ki, təlim nəticələrinin ixtisas nəticələri və təhsil proqramlarına uyğunluğunu müəyyən etməyə imkan verəcək xüsusi sorğu sisteminin yaradılmasına da ehtiyac duyulur.

### 3.3.6 Fənnin təlim nəticələrinin fənn sillabuslarında öz əksini tapması və buna nəzarət mexanizmlərinin mövcudluğu vəziyyəti

QKU-ya sahə səfəri zamanı sillabuslara baxış nəticəsində hər bir ixtisas üzrə tədris olunan fənn sillabuslarında fənn üzrə gözlənilən ən azı 6 təlim nəticəsinin yerləşdirildiyi aydın olmuşdur. Fənn sillabusları tədris dilinə müvafiq olaraq, tədrisə cəlb olunmuş müəllim tərəfindən sərbəst şəkildə hazırlanır və bu sillabuslarda fənnin təlim nəticələrinin yerləşdirilməsi tələbinin ödənilməsinə kafedra və dekanlıq səviyyəsində, həmçinin Özünütəhlil Hesabatında qeyd olunduğu kimi, QKU-nun icraçı rektorunun 10 iyul 2020-ci il tarixli F-22/6/Ü nömrəli əmri ilə yaradılmış Monitorinq bölməsi və Tədrisin təşkili və idarə olunması Mərkəzi tərəfindən də nəzarət olunur. Təlim nəticələri fənn sillabuslarında əks olunsa da, onların hansı mövzularla əlaqəliliyi göstərilmir. Bu baxımdan tərtib edilməsi tövsiyə olunan yeni sillabuslarda qeyd olunmuş hər bir mövzunun tədrisi zamanı tələbənin hansı nəzəri və/və ya praktiki əhəmiyyətli təlim nəticəsinə yiyələnməli olduğunun əks olunması məqsədəuyğundur.

### 3.3.7 Tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi vəziyyəti

Tədris planlarının kredit sisteminin tələblərinə uyğun tərtibinin qiymətləndirilməsi nəticəsində qeyd olunduğu kimi, ATM əməkdaşları tərəfindən tərtib olunmuş və Tədrisin təşkili və idarə olunması Mərkəzində saxlanılan tədris planlarına baxış nəticəsində ali təhsilin hər iki səviyyəsində əyani təhsilalma forması üzrə mövcud tədris planlarında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verdiyi məlum olmuşdur. Belə ki, ali təhsilin bakalavriat səviyyəsində əyani təhsilalma forması üzrə müxtəlif ixtisasların tədris planlarının Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş təhsil proqramlarında qeyd olunduğu kimi, tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadan kənar ümumi yükünün həcminin 45 saat olması, həftəlik auditoriya saatlarının həcminin isə ümumi həftəlik yükün 50%-dən çox olmaması tələbinə müvafiq tərtib olunduğu, yəni həftəlik auditoriya saatlarının həcminin 22 və ya 23 olması və semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verdiyi müəyən edilmişdir. Magistratura səviyyəsində həftəlik dərs yükü 12-16 saat nəzərdə tutulmuşdur. Lakin kafedralarda tədris planlarına baxış zamanı ali təhsilin bakalavriat səviyyəsində əyani təhsilalma forması üzrə yalnız ixtisasların tədris planlarında həftəlik auditoriya saatlarının həcminin 26 və ya 29 olması, yaxud həftəlik

auditoriya saatlarının bölgüsünün aparılmadığı müşahidə edilmişdir. Qiyabi təhsilalma forması üzrə isə təqdim olunmuş tədris planlarının heç birində həftəlik dərs yükü bölgüsü aparılmamışdır.

### 3.3.8 Tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planının mövcudluğu vəziyyəti

QKU-nun ayrı-ayrı məktəblərində (dekanlıqlarda) sənədlərə baxış zamanı tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planlarının (Forma 4) mövcudluğu müəyyən edilmişdir. Akkreditasiya olunan ATM-də tələbələrin fərdi tədris planları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli, 348 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın 3.3-cü, “Tələbənin fərdi tədris planının tərtibi” bəndinin tələbinə əsasən hazırlanır. Belə ki, QKU-da yalnız I kursa qəbul olunan tələbələrə birinci tədris ili üçün akademik məsləhətçilərin (tyutorların) iştirakı ilə fakültə tərəfindən fərdi tədris planı hazırlanır. Növbəti tədris illəri üçün isə tələbələrin hər biri sərbəst və ya akademik məsləhətçinin köməyi ilə öz fərdi tədris planını hazırlayır və iyulun 5-dən 15-dək fərdi tədris planının ilkin surətini, sentyabrın 10-dək isə son surətini fakültəyə təqdim edir. Tələbələrin fərdi tədris planları təhsil müəssisəsi tərəfindən tədris ilinin başlanğıcına qədər təsdiq edilir, bir nüsxəsi tələbədə, bir nüsxəsi isə dekanlıqlarda saxlanılır. Tələbəyönümlü təhsil sisteminin tələblərinə müvafiq olaraq, fərdi təhsil planlarında tələbələrə həm müəllim, həm də ixtisas üzrə təklif olunan seçmə fənlərin seçimində tam sərbəstlik verilir. Bu faktlar dekanlıqlarda mövcud sənədlərə, o cümlədən tələbələrin müəllim seçimi ilə bağlı ərizələri, ixtisas üzrə təklif olunan seçmə fənlərin seçimi ilə bağlı ərizələri ilə tanışlıq və tələbələrlə keçirilən sorğuların nəticəsində aşkarlanmışdır.

### 3.3.9 İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planın mövcud olması vəziyyəti

QKU-da tədris olunan müxtəlif ixtisas və ixtisaslaşmalar üzrə onların tədris planlarına uyğun hazırlanmış, kredit sisteminin tələblərinə cavab verən (tələbələrin fərdi tədris planlarına uyğun tərtib olunmuş, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən) və müvafiq qaydada təsdiqlənmiş illik işçi tədris planları (Forma 3) mövcuddur və həm fakültələrdə, həm də Tədrisin təşkili və idarə olunması Mərkəzində saxlanılırlar.

### 3.3.10 Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planın mövcud olması vəziyyəti

QKU-da kafedralarda sənədlərə baxış zamanı kafedranın akademik heyətinə aid hər bir üzvünün kredit sisteminin tələblərinə uyğun hazırlanmış (müəllimin tədris etdiyi fənlərin adı, onların şifri, dərsin növü, tədris saatlarının miqdarı, hansı semestrdə tədris olunacağı, fənnin tədrisində iştirak edəcək tələbələrin sayının qeyd olunduğu), kafedra iclaslarında və fakültə elmi şuralarında müzakirə edilərək təsdiqlənmiş illik işçi tədris planlarının (Forma 5) mövcudluğu müəyyən edilmişdir. Müəllimlərin tədris-pedaqoji fəaliyyətinə müvafiq tərtib olunmuş illik işçi tədris planları ilə yanaşı, elmi-tədqiqat fəaliyyətlərini əks etdirəcək və onların hesabatlılığını təmin edəcək illik işçi planlarının da tərtibi arzuolunandır.

### 3.3.11 Tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsi (mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyəti)

QKU-da tədris prosesi müxtəlif ixtisasların təhsil proqramlarına müvafiq tərtib olunmuş tədris proqramları (Forma 1) əsasında təşkil olunmuşdur. İxtisas və ixtisaslaşmaların istiqamətlərinə uyğun olaraq ali təhsilin hər iki səviyyəsi üzrə tədris proqramlarında qeyd olunmuş fənlərin mühazirə, praktiki məşğələ və laboratoriya dərsləri, uyğun olaraq, tədris avadanlıqları, o cümlədən müvafiq texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s.) və internet ilə tam təchiz olunmuş müasir auditoriyalarda, elmi-tədqiqat avadanlıqlarına malik fənn kabinetlərində (botanika, ekologiya, insan və heyvan anatomiyası və fiziologiyası, biotexnologiya və s.), tədris laboratoriyaları (kimya və ətraf mühitin monitorinqi laboratoriyası, molekulyar biologiya və genetika laboratoriyası, geomatika laboratoriyası, mexanika laboratoriyası, fizika laboratoriyası, rəqəmsal texnologiyalar laboratoriyası, hidrobiologiya laboratoriyası və s.), elmi mərkəzlərdə (Dağ Mədəniyyəti və Landşaftları Tədqiqat İnstitutu, Xəzər Dənizi Problemləri Elmi-tədqiqat Mərkəzi, Gender Araşdırmaları Mərkəzi, Tədqiqat və İnnovasiya Mərkəzi) və texnoparkda keçirilir. Fənn kabinetləri, elmi tədqiqat işləri aparılmasa da, interaktiv praktiki məşğələlərin tədrisi üçün olduqca münasibdir. Tədris laboratoriyaları isə müxtəlif həcmli, müasir elmi-tədqiqat işlərinin, qrant layihələrinin icrası üçün müvafiqdir.

Mühazirələr əsasən birləşdirilmiş qruplarla, məşğələlər ayrı-ayrı qruplar olmaqla, laboratoriya dərsləri isə adətən, yarımqruplar halında təşkil edilir.

### 3.3.12 Məsləhət xidmətinin təşkili vəziyyəti

QKU-da müəllim və tələbələr ilə keçirilən görüşlər nəticəsində məlum olmuşdur ki, təhsilalanlara məsləhət xidməti həm rektorun əmri ilə təsdiqlənmiş akademik məsləhətçilər - tyutorlar tərəfindən, həm də akademik heyət tərəfindən dərsdənkənar müddətdə, müəyyən qrafikə uyğun olmaqla və ya sərbəst şəkildə, bütün tədris müddəti, o cümlədən imtahan öncəsi, sərbəst işlərin, buraxlış işlərinin, magistrlik dissertasiyalarının hazırlanması zamanı təşkil edilir. Tələbələr istədikləri zaman akademik məsləhətçi xidmətindən istifadə edə bilir və akademik heyət üzvü ilə kommunikasiya edə bilir. QKU-da akademik məsləhətçi xidməti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli, 348 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın 5-ci bəndinin tələblərinə tam uyğun şəkildə təşkil edilir və bu qaydaların 1.3.2-ci bəndinə müvafiq olaraq, təhsilalanlar tərəfindən

(onların yazılı ərizələri əsasında) akademik məsləhətçilərin seçiminin sərbəstliyi təmin edilir. Akademik məsləhətçilər tədris sahəsində müəyyən təcrübəsi və səriştəsi olan ali təhsilli şəxslər arasından seçilir və təhsilalanlara, o cümlədən ATM-ə yeni qəbul olunan tələbələrə Bolonya prosesi, kredit sistemi ilə tədrisin təşkili, AKTTS sisteminin tətbiqi, elektron tədris bazası və ondan istifadə, biliyin qiymətləndirilməsi, tələbələrin hüquqları, ATM-in daxili nizam-intizam qaydaları, tələbə FTP-lərinin tərtibi, ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planlarının tərtibi, yay semestrinin təşkili haqqında müvafiq məlumatlar verir və uyğun xidmətlər göstərir.

### 3.3.13 Müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işinin hazırlanmasının təşkili vəziyyəti

QKU-da müəllim rəhbərliyi altında bakalavr tələbələri və magistrantlar tərəfindən sərbəst işlərin hazırlanması, Özünütəhlil Hesabatında da qeyd olunduğu kimi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili qaydaları”nın 3.2.7.2-ci bəndinə müvafiq həyata keçirilir. Sərbəst işlərin mövzularının seçimi, onların hazırlanma qaydaları, nəzəri və ya praktiki yönümlü olması və qiymətləndirilmə meyarları təhsilalanların ixtisaslarının spesifikliyindən asılı olaraq dəyişir və fənn sillabuslarında öz əksini tapır. Belə ki, fənn sillabuslarına baxış zamanı aydın olmuşdur ki, bəzi ixtisaslar üzrə müəyyən sayda mövzular sərbəst iş mövzuları kimi qeyd olunur, onlardan 10-u tələbələrin şəxsi istəyi əsasında seçilir və hər birinin hazırlanması “1” balla qiymətləndirilir. Bəzi ixtisaslar üzrə isə semestr ərzində 1 və ya 2 sərbəst iş tapşırığı verilir və uyğun olaraq, “10” balla və ya hər biri “5” balla qiymətləndirilir. Bəzi fənlər üzrə isə 10 mövzu sərbəst iş mövzusu kimi müəyyən edilir, tələbə seçimi olmadan onların hazırlanması tələb olunur və hər biri “1” balla qiymətləndirilir. Bəzi ixtisaslarda tədris olunan fənlər üzrə sərbəst iş mövzuları fərdi şəkildə deyil, təhsilalanlar tərəfindən kiçik qruplar halında hazırlanır, yazılı (Word faylı formasında, şrift 12, həcmi 12-20 səhifə olmaqla), təqdimat və ya maket/şəkil formasında təhvil verilir. Tələbə və müəllimlərlə keçilən görüşlər zamanı sərbəst işlərin hazırlanması ilə bağlı təhsilalanların mütəmadi olaraq müəlllimlərlə əlaqə saxladıqları müəyyən edilmişdir.

### 3.3.14 Təcrübə (tədris, pedaqoji, arxeoloji, çöl, istehsalat, diplomqabağı və s.) işinin təşkili vəziyyəti

QKU-da ixtisasdan asılı olaraq və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş təhsil proqamlarına müvafiq olaraq, bakalavriat səviyyəsində IV kurs tələbələrinə istehsalat təcrübələri, magistratura səviyyəsində isə bütün ixtisaslar üzrə II kurs tələbələrinə hər biri bir ay müddətində olmaqla elmi-tədqiqat və elmi-pedaqoji təcrübələr keçilir və Özünütəhlil Hesabatında qeyd olunduğu kimi, həm istehsalat, həm də elmi-tədqiqat və elmi-pedaqoji təcrübələr Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 sentyabr tarixli 221 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali (orta ixtisas) təhsil müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında” Əsasnamənin müddəalarına uyğun təşkil edilir. Müxtəlif təhsil səviyyələrində təhsil alan tələbələrə keçilən müvafiq təcrübələrə QKU rektorunun 14

sentyabr 2018-ci il il tarixli 21/5/Ü saylı əmr ilə yaradılmış “Tələbə və məzunların təcrübə və inkişaf mərkəzi” tərəfindən nəzarət olunur.

Bakalavriat səviyyəsi üzrə təhsil alan tələbələrin istehsalat təcrübəsinin təşkili və keçirilməsi qaydaları QKU-nun EŞ-nin 2019-cu il 28 fevral tarixli iclasının 164 saylı qərarı ilə təsdiq olunmuşdur və ali məktəb tələbələrinin müəssisələrdə, idarə və təşkilatldarda keçirilən istehsalat təcrübələrinə dair QKU rəhbərliyi ilə müxtəlif dövlət və ya özəl təşkilat rəhbərləri arasında imzalanmış müddətli müqavilələr əsasında, “İstehsalat təcrübəsi” üzrə tərtib olunmuş proqramlara müvafiq olaraq reallaşdırılır. Müqavilədə istehsalat təcrübəsi keçiləcək müəssisənin təcrübə müddətində öhdəlikləri, həmçinin tədris planı əsasında tələbə sayı göstərilməklə ali məktəbə ayrılan yer qeyd olunur.

Sahə səfəri zamanı sənədlərə baxış və keçirilən görüşlər nəticəsində “Dizayn” ixtisası üzrə “Xəlilov” MMC, “Zaferoğlu İnşaat” müəssisələrində, “Dövlət və bələdiyyə idarə etmə” ixtisası üzrə Bakı şəhəri Xırdalan bələdiyyəsi, Bakı şəhəri Suraxanı rayonu Hövsan bələdiyyəsi, Bakı şəhəri Binəqədi rayon bələdiyyəsi, Mərdəkan bələdiyyəsi, Səbail bələdiyyəsində, “Filologiya” ixtisası üzrə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, “Azərbaycan Dünyası” jurnalı, “Azərbaycan” nəşriyyatında, “İnformasiya texnologiyaları” ixtisası üzrə Cubics Technology, “Destec group” MMC, İTPROAZ MMC, ITM STEP MMC, Netline Technology MMC, Maliyyə ixtisası üzrə Aqrar Kredit Təşkilatı, QSC Bank olmayan Kredit Təşkilatında, “Politologiya” ixtisası üzrə Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Azərbaycan Qızıl Aypara Cəmiyyətində, Psixologiya ixtisası üzrə “Narınc” Psixoloji Mərkəzi, Nefes Psixonevroloji Sağlamlıq Mərkəzi, PM Akademiya Psixoloji Xidmət və Uşaq İnkişaf Mərkəzi, Psixologiya Elmi Tədqiqat İnstitutu, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Respublika Narkoloji Mərkəzində, “Sosial iş” ixtisası üzrə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyinin 23 saylı filialı, Sosial Tədqiqatlar Mərkəzində “Turizm” ixtisası üzrə Alba Hotel, “Marine Plaza” MMC, Turizm AZ MMC kimi qurum və təşkilatların rəhbərləri ilə imzalanmış müddətli müqavilələr əsasında istehsalat təcrübələrinin təşkil olunduğu məlum olmuşdur.

Keçilən istehsalat təcrübələri tələbələrin QKU-da aldıqları nəzəri biliklərinin möhkəmlənməsinə, gələcək əmək fəaliyyətlərində səmərəli istifadəsinə, bilik və bacarıqları ilə seçilən tələblərin təcrübə keçdiyi təşkilatlarda müvafiq işlə təmin olunmalarına, onların ixtisas profilindən asılı olaraq, yeni texnologiyalar, iş üsulları və ya elmi-tədqiqatlarla tanışlığına xidmət edir və tələbələrdə işgüzarlıq, təşkilatçılıq və kommunikativ vərdişləri aşılayır.

### 3.3.15 Stajkeçmənin təşkili vəziyyəti

QKU-da müəllimlərlərlə keçirilən görüşlər zamanı, Özünütəhlil Hesabatında qeyd olunduğu kimi, akademik heyətin ixtisas-peşə səriştələrinin təkmilləşdirilməsi ilə bağlı müntəzəm olaraq müxtəlif təlimlərdə iştirakına şərait yaradıldığı aydınlaşdırılmış, müəllimlərin kvalifikasiyalarının artırılmasına dəstək verildiyi təsdiqlənmişdir. Xarici dil biliklərinə malik kadrların beynəlxalq təlimlərdə intensiv iştirakı üçün universitet tərəfindən şərait yaradıldığı

xüsusi vurğulanmalıdır. Həmçinin ATM nəzdində təkcə akademik heyət üçün deyil, tələbələr üçün də ödənişsiz əsaslarla ingilis dilini mənimsəmə kursları təşkil edilir və onların əldə etdiyi bilik və bacarıqlar sonda müvafiq qaydada qiymətləndirilir. Lakin qeyd etmək lazımdır ki, stajkeçmə istiqamətində təlimlərin təşkili və akademik heyətin bu təlimlərdə iştirakı müntəzəm xarakter daşımır (Şəkil 3.5). Bu baxımdan akademik heyətin hər bir üzvünün həm tədris-pedaqoji, həm də elmi-tədqiqat fəaliyyətləri üzrə müntəzəm şəkildə stajkeçmələrinin təmin olunması tövsiyə olunur.




Şəkil 3.5 2017/2018-2023/2024-cü tədris illəri müddətində QKU-da stajkeçmənin təşkili vəziyyəti

QKU məktəblərində 2017/2018-2023/2024-cü tədris illərində stajkeçmənin təşkili nəticələri şəkil 3.5-də əks olunmuşdur. Şəkildə mavi ilə - ixtisasartırma kurslarına, təlimlərə və ya digər kurslara cəlb edilmiş akademik heyətin ümumi akademik heyətdə faizlə payı, narıncı ilə - beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında, mübadilə proqramlarında iştirak etmiş akademik heyətin ümumi akademik heyətdə faizlə payı, boz ilə - tədqiqat bacarıqlarını inkişaf etdirmək üçün təşkil olunmuş təlim və seminarlara cəlb edilmiş akademik heyətin ümumi akademik heyətdə faizlə payı, sarı ilə - texnoloji səriştələrin artırılması üçün tədbirlərə (seminar, təlim və s.) cəlb olunmuş akademik heyətin ümumi akademik heyətdə faizlə payı, göy ilə - pedaqoji səriştələrin artırılması üçün tədbirlərə (interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlər) cəlb olunmuş akademik heyətin ümumi akademik heyətdə faizlə payı ifadə olunmuşdur.

### 3.3.16 Kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi işinin təşkili vəziyyəti

QKU-nun Özünütəhlil Hesabatına görə Azərbaycan Respublikası Təhsil Nazirliyinin 09.07.2020-ci il tarixli F-343 saylı, 07.08.2020-ci il tarixli F-363 nömrəli, 30.07.2020-ci il tarixli F-354 saylı və 24.08.202-ci il tarixli F-383 nömrəli qərarları ilə təsdiqlənmiş "Bakalavriat səviyyəsinin (əsas (baza) ali tibb təhsilinin) ixtisas üzrə Təhsil Proqramları"nda kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsinin təşkili nəzərdə tutulmadığından, qeyd olunmuş ali təhsil pilləsinin dövlət standartları əsasında QKU-da müxtəlif ixtisaslar üzrə kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsinin təşkili həyata keçirilmir. Sahə baxışı zamanı aparılan sorğular əsasında təkcə qeyd olunmuş dövlət standartları əsasında 2020/2021-2022/2023-cü tədris illərində deyil, habelə bütün hesabat dövründə belə heç bir ixtisas üzrə kurs layihəsinin (işi) və referatların hazırlanmadığı aydınlaşdırılmış və müvafiq olaraq, 2017/2018-2022/2023-cü tədris illərində tədris prosesində iştirak etmiş müəllimlərin tədris yüklərində də kurs işlərinə ayrılan saatlar öz əksini tapmamışdır.

### 3.3.17 Buraxılış işi və magistrlik dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili vəziyyəti

Özünütəhlil Hesabatında qeyd olunduğu kimi, QKU-da buraxılış işlərinin hazırlanması və müdafiəsinin təşkili Azərbaycan Respublikası Təhsil Nazirliyinin 13.03.1997-ci il tarixli 152 saylı əmri ilə "Ali məktəbin bakalavr səviyyəsində buraxılış işlərinin hazırlanması" məsələlərini tənzimləmək məqsədilə təsdiq edilmiş "Ali məktəblərin bakalavr səviyyəsində buraxılış işlərinin hazırlanması qaydaları"na müvafiq həyata keçirilir. Buraxılış işlərinin mövzuları elmi və ya praktiki əhəmiyyətə malik olmaqla, müvafiq kadefralar tərəfindən tələbəyə də mövzu seçmək hüququ verilməklə müəyyənləşdirilir, əvvəlcə kafedra iclası, daha sonra isə QKU məktəblərinin elmi şuralarında (fakültə elmi şuralarına ekvivalentdir) müzakirə olunaraq təsdiq edilir. Kafedralarda rəhbər müəllimlər tərəfindən buraxılış işləri mövzularının müvafiq plan əsasında yerinə yetirilməsinə nəzarət olunur. Bəzi praktiki əhəmiyyətli mövzular QKU-nun əməkdaşlıq çərçivəsində müxtəlif tədqiqat mərkəzlərində icra olunur. Buraxılış işlərinin müdafiəsi onlara

rəhbər və bir mütəxəssis rəyi verilməklə iki mərhələdə: ilkin olaraq kafedra iclasında müzakirə olunmaqla, daha sonra isə Yekun Dövlət Attestasiyası Komissiyası qarşısında müdafiə olunmaqla keçirilir və yekun qiymətləndirmə hər iki mərhələnin nəticəsinin (hər biri maksimum “50” bal ilə qiymətləndirilə bilər) toplanması ilə aparılır.

2019/2020-2020/2021-ci tədris illərində pandemiya dövrünün tələblərinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 05 iyun 2021-ci il tarixli 158 nömrəli “Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili barədə” Qərarına uyğun olaraq, bakalavriat səviyyəsində tədris planının bütün şərtlərini yerinə yetirmiş, o cümlədən nəzərdə tutulmuş cari attestasiyalardan (fənlər üzrə attestasiyalardan) müvəffəqiyyətlə keçmiş tələbələr təhsil müddətində əldə etdikləri nəticələrə (ÜOMG) uyğun olaraq yekun attestasiyadan keçmiş hesab olunublar. Təhsil müddətində əldə etdikləri nəticələrə (ÜOMG) uyğun olaraq çıxarılmış yekun attestasiyanın nəticələri ilə razılaşmayan və buraxılış işi yazmaq hüququ əldə etmiş tələbələr, onlayn qaydada buraxılış işlərini müdafiə edərək məzun ola bilmişdirlər.

Özünütəhlil Hesabatında qeyd olunanlara müvafiq olaraq, QKU-da magistrlik dissertasiyalarının hazırlanması və müdafiəsinin təşkili Azərbaycan Respublikası “Təhsil haqqında” Qanunu, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 may tarixli 88 nömrəli qərarı ilə təsdiq edilmiş “Magistratura təhsilinin məzmunu, təşkili və “magistr” dərəcələrinin verilməsi Qaydaları”, həmçinin Nazirlər Kabinetinin 24 iyun 2010-cu 117 saylı qərarı ilə təsdiqlənmiş “Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları”, Azərbaycan Respublikası Təhsil Nazirliyinin 20 aprel 1998-ci il tarixli 202 nömrəli əmri ilə təsdiq edilmiş “Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında Əsasnamə”, Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2016-cı il 30 sentyabr tarixli 640 nömrəli əmri ilə təsdiq edilmiş “Ali təhsil pilləsinin magistratura səviyyəsində iqtisadiyyat və idarəetmə, texnologiya mühəndisliyi ixtisasları üzrə dövlət standartları”, Ali təhsilin magistratura və doktorantura səviyyələrində təhsili tənzimləyən normativ-hüquqi aktları rəhbər tutmaqla QKU-nun Magistratura və doktorantura şöbəsinin əsasnaməsi, QKU rəhbərliyinin və Elmi Şurasının qərarı əsasında tərtib edilmiş “Magistrlik dissertasıyasının hazırlanması, təqdim edilməsi və qiymətləndirilməsi qaydaları”na riayət olunmaqla həyata keçirilir.

Magistrlik dissertasiyalarının mövzuları kafedraların elmi istiqamətlərinə uyğun olmaqla praktiki əhəmiyyətli aktual məsələlərə həsr olunur. Magistrlik dissertasiyalarının mövzusu, magistrantın fərdi iş planı və elmi rəhbəri onun təhkim olunduğu kafedranın iclasında, daha sonra isə QKU məktəblərinin elmi şuralarında müzakirə olunur və Elmi Şurada təsdiqlənir. Magistrantlar magistr dissertasiyalarının planına uyğun gördükləri işlər barədə elmi rəhbər və kafedra qarşısında illik hesabat verirlər. Magistrlik dissertasiyasının müdafiəsinə tədris planında nəzərdə tutulmuş bütün fənləri tam mənimsəyən və müvəffəq qiymət alan tələbələr buraxılırlar. Magistrlik dissertasiyaları tərtib olunduqdan sonra “Strike Plagiarism” antiplagiat sistemi vasitəsilə yoxlanılır, ona rəhbər rəyi və elmi dərəcəyə malik mütəxəssis tərəfindən rəy verildikdən sonra müdafiəyə çıxarılır. Magistrlik dissertasiyasının müdafiəsi iki mərhələdə - ilkin olaraq kafedrada müzakirə olunmaqla, daha sonra isə İxtisaslaşdırılmış şuraların iclasında müdafiə olunmaqla aparılır. Magistrlik dissertasiyalarının müdafiəsi zamanı magistrantın biliyi

sadə səs çoxluğu əsasında açıq səsvermə yolu ilə hər iki mərhələdə verilmiş qiymətlərin toplanılması ilə qiymətləndirilir.

### 3.3.18 İmtahan sessiyasının təşkili vəziyyəti

Özünütəhlil Hesabatında qeyd olunduğu kimi, QKU-da imtahan sessiyası Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 saylı qərarı ilə təsdiqlənmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili" Qaydalarına müvafiq olmaqla, Azərbaycan Respublikası Elm və Təhsil Nazirinin payız və yaz semestri imtahanlarının keçirilməsi ilə bağlı müvafiq əmrləri və onlar əsasında verilmiş universitet rektorunun əmri əsasında təşkil olunur. QKU-da imtahanlar bakalavriatura səviyyəsində tədris olunan fənlərin spesifikliyindən asılı olaraq, açıq sualları yazılı cavablandırma, qapalı test və şifahi formalarda, magistratura səviyyəsində isə açıq sualları yazılı cavablandırma və ya test formalarında universitetin İmtahan Mərkəzi tərəfindən keçirilir. Tələbələr tərəfindən qapalı testlərin cavablandırılması üsulu ilə keçirilən imtahanlara üstünlük verilir. Bu zaman hər fənn üzrə ən azı 300 test tapşırığı, müvafiq formatda, çətinlik dərəcələrinə görə ayrılmaqla və doğru cavablar qeyd olunmaqla İmtahan Mərkəzinə təqdim olunur. Tələbələrə isə imtahana hazırlaşmaqları üçün test tapşırıqları doğru cavablar qeyd olunmadan (yalnız suallar) təqdim edilir. Test üsulu ilə imtahanlar mərkəzləşdirilmiş qaydada kompüter təminatı olan xüsusi zallarda 1 saat müddətində keçirilir və bu zaman fasiləsində tələbələrə kompüter tərəfindən seçilmiş və müxtəlif kateqoriyalara aid 50 tapşırıq təqdim olunur. İmtahanlar mərkəzləşdirilmiş şəkildə elektron qaydada keçirildiyindən, nəticələr dərhal məlum olur və ən azı 17 doğru cavab vermiş, aralıq və yekun qiymətləndirmə əsasında ən azı 51 bal toplamış tələbə attestasiyadan keçmiş sayılır. İmtahan nəticələri tələbələrin şəxsi kabinetinə göndərilərək arxivləşdirilir.

Yazılı imtahanlar, əsasən, ixtisas yönümlü, peşə hazırlığı tələb edən, kompetensiya əsaslı fənlər üzrə kağız üzərində cavablandırma əsasında mərkəzləşdirilmiş qaydada keçirilir. Bu halda müxtəlif fənlər üzrə fənn proqramlarına uyğun tərtib olunmuş və kafedra müdirləri tərəfindən təsdiqlənmiş imtahan sualları imtahan sessiyası başlamamışdan öncə, semestr tamamlanmamış fənn müəllimləri tərəfindən həm tələbələrə, həm də İmtahan Mərkəzinə təqdim olunur. Fənn üzrə imtahan suallarının sayı fənnin tədrisinə ayrılmış saatların miqdarından asılı olaraq, mühazirə saatlarının 2 mislindən az olmayaraq tərtib edilir. Fənn müəllimləri tərtib etdikləri sualları aid olduqları mövzuları ayırmaqla, həmçinin çətinlik dərəcələrinə müvafiq olaraq, 5 kateqoriyada yerləşdirməklə İmthan Mərkəzinə təqdim edir, İmtahan Mərkəzində isə biletlərin tərtibi zamanı fərqli mövzulara və çətinlik kateqoriyalarına aid suallar seçilməklə müxtəlif kombinasiyalarda biletlərə daxil edilir. Hər bilet 5 sualdan ibarət olur və hər bir sualın cavabı 10 ballıq şkala üzrə qiymətəndirilir. Fərqli zamanlarda və fərqli növbələrdə eyni fənnin imtahanı keçirilərkən isə ədalətliliyi və şəffaflığı qorumaq üçün tələbələrə istifadə olunmuş biletlər deyil, imtahan suallarının yeni kombinasiyalarından ibarət biletlər təqdim olunur.

Hər bir sessiya müddətində İmtahan Mərkəzinin nəzdində imtahan qərargahı fəaliyyət göstərir və qərargaha daxil olan hər bir şikayətin operativ şəkildə araşdırılması təmin edilir.

İmtahan Mərkəzinə apellyasiya ərizəsi ilə müraciət etmiş hər bir işin nəticəsi uyğun olaraq, payız və yaz sessiyaları üzrə apellyasiya müraciətlərinin təhlilində öz əksini tapır. Hər il payız və yaz sessiyaları üzrə ayrılıqda apellyasiya müraciətlərinin nəticələrinin təhlili aparılır və apellyasiyaya ərizə ilə müraciət edən tələbələrin sayı, texniki səbəblərə görə qiymət fərqinin yarandığı hallar, səbəbi göstərilməklə apellyasiya zamanı qiymətin yüksəldilməsi halları (ümumi nəticəyə 1-5 bal artırmaqla və 1 suala 2 bala qədər artıma yol verilməklə), səbəbi göstərilməklə apellyasiya zamanı qiymətin azaldılması halları, qiymətin olduğu kimi saxlanılması hallarının miqdarı göstərilməklə, dəyişmə dinamikası şərh edilir. İmtahan Mərkəzinə apellyasiya ərizəsi ilə müraciət etmiş hər bir işin nəticəsi uyğun olaraq, payız və yaz sessiyaları üzrə apellyasiya müraciətlərinin təhlilində öz əksini tapır.

İmtahan sessiyasının təşkili, keçirilməsi və nəticələrinə dair yekun hesabatlar sessiya bitdikdən sonra 10 gün müddətində Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə təqdim olunur.

### 3.3.19 Yay semestrinin təşkili vəziyyəti

Özünütəhlil Hesabatında qeyd olunduğu kimi, akkreditasiya müddətində yay semestrinin təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın 3.4 bəndinə və QKU-nun tədrisin kredit sistemi ilə təşkili haqqında əsasnaməsinin 4.7 bəndinə müvafiq aparılmışdır. Yay semestrləri tələbələrin akademik borclarının ləğv edilməsi məqsədi ilə semestrdə akademik borcun yarandığı fənn (fənlər) üzrə müəyyən edilmiş dərslərin 50 faizindən çoxunda iştirak etmiş tələbələr üçün onların şəxsi yazılı müraciətləri əsasında ödənişli əsaslarla Ömürboyu təhsil mərkəzi tərəfindən 6 həftə müddətində təşkil edilir. Yay semestri imtahanları müvafiq əmrə əsasən əvvəlcədən elan olunmuş tarixlərdə İmtahan mərkəzi tərəfindən keçirilir. Akademik borcu olan tələbələr yay məktəbinə qəbul prosesinə dair təlimat və elan ilə ATM-in sosial media hesabları və saytı vasitəsi ilə, həmçinin dekanlıqlardan tanış ola bilir, yay məktəblərində iştirakları üçün müvafiq dekanlıqlara yazılı müraciət edirlər.

Sahə səfəri zamanı əldə olunan sənədlərin təhlilindən aydın olur ki, 2022/2023-cü tədris ilində yay məktəbi haqqında 14.07.2023-cü il tarixli 38/Ü nömrəli əmrə əsasən, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli 348 nömrəli qərarı ilə təsdiq olunmuş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın və ona dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 14 iyun 2017-ci il tarixli 257 nömrəli qərarının tələblərinə uyğun olaraq, Qərbi Kaspi Universitetinin ali təhsilin bakalavriat təhsil səviyyəsində əyani və qiyabi təhsil formaları üzrə təhsil alan tələbələrin təhsil aldığı müddətdə yaranan kredit borclarının könüllülük prinsipi və ödənişli əsaslarla 2022/2023-cü tədris ilində yay semestri təşkil edilməklə ləğvinə dair yazılı müraciətlərini nəzərə alaraq, müxtəlif ixtisaslarda tədris olunan 23 fənn üzrə qruplar yaradılmaqla 63 tələbəyə 17.07.2023-25.08.2023-cü il tarixlərində (6 həftə müddətində) dərslər təşkil edilmiş, dərslərin müddəti 80 dəqiqə, dərslər arası fasilənin müddəti isə 10 dəqiqə müəyyən edilmiş və dərsləri tədris edən müəllimlərin əmək haqları

saathesabı qaydada ödənilmişdir. 2022/2023-cü tədris ilində yay məktəbində iştirak edən tələbələrin imtahana buraxılması haqqında 22.08.2023-cü il tarixli 45/Ü nömrəli əmrə əsasən, müxtəlif ixtisaslar üzrə yay semestrində tədrisdə iştirak etmiş sözügedən 63 tələbə 28.08.2023 və 30.08.2023-cü il tarixlərində təşkil olunmuş imtahanlara buraxılmış, onlardan 5-i akademik borcunu ləğv edə bilməmiş, 1-i isə imtahanda iştirak etməmişdir.

2021/2022-ci tədris ilində yay məktəbinin təşkili barədə 14.07.2022-ci il tarixli 152/2 nömrəli əmrə əsasən, müxtəlif ixtisaslarda tədris olunan 6 fənn üzrə qruplar yaradılmaqla 14 tələbəyə 20.07.2022-26.08.2022-ci il tarixlərində (6 həftə müddətində) dərslər tədris olunmuş və bu tələbələr yay məktəbində iştirak edən tələbələrin imtahana buraxılması haqqında 26.08.2023-cü il tarixli 161/8 nömrəli əmrə əsasən, cari yay semestrinin sonunda təşkil olunmuş imtahanlara buraxılmışdır. Beləliklə, QKU-da 2021/2022 və 2022/2023-cü tədris illərində yay semestrinin təşkili zamanı könüllülük prinsipi əsasında akademik borclarının ləğvi məqsədi ilə yay semestrlərində tədrisdə iştirak edən tələbələrin sayı artan dinamikada dəyişmişdir.

Yay semestrinin təşkili zamanı tədris olunacaq dərslərin müddətinin 80 dəqiqə deyil, artırılaraq 90 dəqiqə (bir akademik saat 45 dəqiqə müəyyən olunduğundan və bir akademik dərs aralarında 5 dəqiqə fasilə saxlanılmaqla 2 akademik saatdan ibarət olduğundan) keçirilməsi tövsiyə olunur.

### 3.3.20 Kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası

Cədvəl 3.6 QKU-da 2017/2018-2022/2023-cü tədris illəri üzrə akademik borcu yaranmış bakalavr tələbələrinin dinamikası

| **İllər** | **Təhsil alanların sayı** | | **I kursda kredit borcu yarananların sayı** | | **II kursda kredit borcu yarananların sayı** | | **III kursda kredit borcu yarananların sayı** | | **IV kursda kredit borcu yarananların sayı** | | **V kursda kredit borcu yarananların sayı** | | **Cəmi** | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **qış** | **yay** | **qış** | **yay** | **qış** | **yay** | **qış** | **yay** | **qış** | **yay** | **qış** | **yay** | **qış** | **yay** | **illik** |
| **2017-2018** | 987 | 839 | 78 | 52 | 14 | 14 | 9 | 8 | 8 | 7 | 0 | 3 | 109 | 84 | 193 |
| **2018-2019** | 1417 | 1422 | 133 | 157 | 113 | 78 | 11 | 7 | 14 | 3 | 0 | 0 | 271 | 245 | 516 |
| **2019-2020** | 2014 | 2046 | 194 | 4 | 109 | 10 | 77 | 6 | 17 | 0 | 0 | 0 | 397 | 20 | 417 |
| **2020-2021** | 2479 | 2011 | 15 | 108 | 49 | 130 | 56 | 125 | 26 | 8 | 0 | 0 | 146 | 371 | 517 |
| **2021-2022** | 2559 | 1938 | 152 | 151 | 115 | 89 | 120 | 92 | 85 | 11 | 1 | 0 | 473 | 343 | 816 |
| **2022-2023** | 1800 | 2408 | 117 | 64 | 87 | 36 | 60 | 18 | 50 | 2 | 5 | 0 | 319 | 120 | 439 |




Şəkil 3.6 Akkreditasiya müddətində tədris illəri üzrə akademik borcu yaranmış tələbələrin say dinamikası




Şəkil 3.7 Müxtəlif tədris illərinin qış və yay sessiyalarında akademik borcu yaranmış bakalavriatların imtahanda iştirak etmiş tələbələrə nisbətən faizlə göstəricisi

Şəkildən aydın olur ki, müxtəlif tədris illərinin qış və yay sessiyalarında akademik borcu yaranmış tələbələrin həmin müddətdə təhsilalanlara görə payı, 2019-2020-ci ilin yay, 2020-2021-ci ilin qış və 2022-2023-cü ilin qış sessiyaları nəticələri istisna olmaqla, demək olar ki, yaxın qiymətlər (10,01%-19,71%) almış, bu müddətdə ən yüksək akademik borc 19,71% olmaqla 2019-2020-ci tədris ilinin qış sessiyasında izlənilmişdir. 2019-2020-ci tədris ilinin yay,

2020-2021-ci tədris ilinin qış sessiyalarında isə pandemiya şəraiti və imtahan sessiyasının təşkilinin dəyişilməsi ilə bu göstərici, uyğun olaraq, 0.98% və 5,89%-a enmiş, post-pandemiya dövründə isə yenidən yüksəlmiş və yalnız 2022-2023-cü tədris ilinin qış sessiyasında akademik borcların sayında əhəmiyyətli azalma (4,98%) müşahidə olunmuşdur.

Cədvəl 3.7 QKU-da 2017/2018-2022/2023-cü tədris illəri üzrə akademik borcu yaranmış magistr tələbələrinin dinamikası

| **İllər** | **İmtahanlara buraxılmış tələbələrin sayı** | | **I kursda kredit borcu yaranmış tələbələrin sayı** | | **II kursda kredit borcu yaranmış tələbələrin sayı** | | **Normativ təhsil müddətindən artıq müddətdə təhsilalanların sayı** | **Cəmi** | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **qış** | **yay** | **qış** | **yay** | **qış** | **yay** | | **qış** | **yay** | **illik** |
| 2017-2018 | 91 | 65 | - | - | 1 | 1 | 0 | 1 | 1 | 2 |
| 2018-2019 | 136 | 77 | 3 | - | 2 | - | 6 | 5 | - | 5 |
| 2019-2020 | 59 | 130 | 14 | 8 | - | - | 13 | 14 | 8 | 22 |
| 2020-2021 | 131 | 74 | 2 | - | 8 | - | 18 | 10 | - | 10 |
| 2021-2022 | 177 | 101 | 9 | 7 | 4 | - | 3 | 13 | 7 | 20 |
| 2022-2023 | 139 | 239 | 15 | 5 | 10 | - | 21 | 25 | 5 | 30 |

Cədvəldən aydın olur ki, pandemiya müddəti (2019/2020 və 2020/2021 tədris illərinin, uyğun olaraq, yay və payız sessiyaları) və onlayn imtahan təşkili nəticələri istisna olmaqla, 2017/2018-2022/2023-cü tədris illəri üzrə akademik borcu yaranmış magistr tələbələrinin say dinamikasında nisbi artım var.

Şəkil. 3.8-də verilmiş diaqramdan aydın olur ki, akkreditasiya müddətində magistrantların akademik borcları yay sessiyası ilə müqayisədə daha çox qış sessiyası müddətində yaranmışdır ki, bu da qismən II kurs magistrantlarının imtahanlarda iştirak etməmələri ilə izah oluna bilər. Magistrantlar arasında ən çox akademik borclar 2019-2020-ci və 2022-2023-cü tədris illərində, uyğun olaraq, tələbələrin 23,70% və 18%-ni təşkil etməklə qış sessiyası nəticələri olaraq izlənilir.




Şəkil 3.8 Müxtəlif tədris illərinin qış və yay sessiyalarında akademik borcu yaranmış magistrantların imtahanda iştirak etmiş tələbələrə nisbətən faizlə göstəricisi

### 3.3.21 Kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası

Aşağıda yer alan 3.9 nömrəli şəkildə əks olunduğu kimi, bakalavriatura təhsil səviyyəsində 2017/2018-2022/2023-cü tədris illəri üzrə tələbələrin akademik borclarının yarandığı fənlərin sayı 33-38 arasında dəyişmiş, bu parametrin daha yüksək göstəricisi 2022-2023 tədris ilində, ən aşağı qiyməti isə 2020-2021-ci tədris ilində izlənilmişdir. Magistratura təhsil səviyyəsində isə hesabat illəri ərzində müvafiq göstərici 0 (2019-2020-ci tədris ili üzrə) və 6 (2021-2022 tədris ilində) arasında dəyişmişdir (Şəkil 3.10). Cədvəl 3.7-yə əsasən, 2019-2020-ci tədris ili üzrə I kurs magisrantlar arasında qış sessiyası nəticəsində 14, yay sessiyası nəticəsində 8 tələbədə akademik borcun yarandığı göstərilsə də, bu rəqəmlər həmin il üzrə kredit borcu yaranmış fənlərin ümumi həcmində əks olunmur və tədris müəssisəsinin məsul əməkdaşları tərəfindən pandemiya şəraiti ilə əlaqədar il ərzində yaranmış akademik borcların tədris ilinin sonunda ləğv olunması ilə izah edilir.




Şəkil 3.9 QKU-da 2017/2018-2022/2023-cü tədris illəri üzrə bakalavriatura üzrə akademik borcu yaranmış fənlərin say dinamikası




Şəkil 3.10 QKU-da 2017/2018-2022/2023-cü tədris illəri üzrə magistratura üzrə akademik borcu yaranmış fənlərin say dinamikası

### 3.3.22 Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti

QKU-da tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi məqsədilə həm ATM, həm də kafedralar səviyyəsində mütəmadi xarakterli (hər bir semestr müddətində) monitorinqlər keçirilir. Monitorinqlər açıq dərslərin keçirilməsi, açıq dərs elan olunmadan dərslərin dinlənilməsi və tədris prosesində müxtəlif məsələlərin qiymətləndirilməsi ilə əlaqədar tələbə məmnunluq sorğularının aparılması ilə reallaşdırılır. Tələbə məmnunluq sorğularında tədris prosesinin qiymətləndirilməsi (müəlllimlərin motivasiyası, tədris materiallarının mövcudluğu və tələbələrin vaxtında onlarla təmin olunması, müəllimin təqdimatının varlığı, təqdimatdakı slaydların informativliyi, müəllimin nitqinin, bilik və tədris bacarıqlarını qiymətləndirilməsi, auditoriya ilə davranışı, dərsin planlı tədrisi və keçilmiş

mövzularla əlaqələndirilməsi, nəzəri biliklərin praktika ilə əlaqələndirilməsi, təlim nəticələrinin əldə olunması və s.) ilə yanaşı tədrisdə köməkçi rol oynayan məsələlərə (tələbəyönümlü qərarlarda tələbələrin rolu, Karyera Mərkəzinin fəaliyyəti və bu mərkəzin tələbələrin karyera inkişafları üçün təlimlər, seminarlar, təcrübə proqramları təşkil etməsi, auditoriyalarda təşkil olunan şərait, kitabxana işçilərinin göstərdiyi xidmət, elektron kitabxananın fəaliyyəti, yeməkxananın fəaliyyəti, sanitar qovşağın təmizliyi və s. məsələlərə) də yer verilir və sorğuların nəticələri Tələbə Məlumat Mərkəzi müdirinin hesabatı ilə QKU-nun Elmi Şurasında müzakirə olunur və tədris prosesində tətbiq edilən normaların səmərəliliyinin təkmilləşdirilməsi istiqamətində müvafiq qərarlar qəbul edilir. ATM tərəfindən tədris prosesinə monitorinqlər Keyfiyyətə Nəzarət Mərkəzi və Tədrisin təşkili və idarə olunması Mərkəzi tərəfindən tədris olunan dərslərin izlənilməsi, tələbələrə rəy sorğularının göndərilməsi ilə həyata keçirilir. ATM tərəfindən keçirilən gizli sorğularla yanaşı, təhsilalanlar hər bir zaman tədris prosesi ilə bağlı rəy və təkliflərini universitetin elektron poçtuna göndərə bilirlər. Tələbələrin gizli rəy sorğuları nəticəsində tədris prosesi ilə əlaqədar neqativ hallar aşkarlanarsa, onun haqqında məlumat dərhal müvafiq dekana və kafedra müdirinə bildirilir və bu halın aradan qaldırılması üçün müvafiq tədbirlər görülür.

Açıq dərslər həm müəllimlərin işə götürülməsi zamanı, həm də kafedralarda hər bir semestr üzrə müəllimlərin açıq dərslərinin keçirilmə qrafiklərinin tərtib olunması ilə qeyd olunan tarixlərdə keçirilir. Açıq dərslər QKU-nun müvafiq məktəbinin dekanı, kafedra müdiri, Keyfiyyət təminatı mərkəzinin əməkdaşının mütləq iştirakı ilə 3-7 nəfərdən ibarət komissiyanın hər bir üzvünün xüsusi açıq dərsin qiymətləndirmə formasını doldurması, rəyi və yekun orta bal hesabına qiymətləndirilir. Keçirilmiş monitorinq nəticələri aidiyyəti məktəb iclaslarında müzakirə olunur və müşahidə edilmiş çatışmazlıqlarla bağlı təkliflər irəli sürülür.

Açıq dərslərlə yanaşı kafedra müdirləri tərəfindən mütəmadi olaraq müxtəlif dərslərin dinlənilməsi və qiymətləndirilməsi aparılır və onların nəticələri kafedra iclaslarında müzakirə olunur.

### 3.4 Tədris metodları və üsulları

#### 3.4.1 Təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə vəziyyəti

QKU-ya sahə səfəri zamanı dərslərin dinlənilməsi nəticəsində QKU-nun bütün müəllimlərinin mühazirələrdə müvafiq innovativ və informativ təqdimatlara əsaslandığı aydın oldu. QKU-da təlim prosesində fərqli tədris metodlarından istifadə olunur. Belə ki, hər bir mövzunun izahında müəllim tərəfindən əvvəlki dərsdə tədris olunmuş mövzu ilə əlaqə yaradılır, şərh olunan problem yönümlü məsələlərin aktuallığı əsaslandırılır, həlli yolları və praktiki əhəmiyyətliliyi, təlim nəticələri izah edilir, mövzu ətrafında açıq suallar əsasında müzakirələrə yol verilir.

Seminar məşğələlərində, tədris olunan fənnin spesifikliyindən asılı olaraq, fərdi sorğulardan, müzakirə və debatlardan, müəyyən mövzuların tələbələr tərəfindən müstəqil araşdırılması və təqdimatlarından, problem yönümlü praktiki tapşırıqlardan və qrup halında tapşırıqlardan istifadə olunur.

Laboratoriya təcrübələri kiçik qruplara ayrılmaqla yerinə yetirilir və aparılmış təcrübələrin hansı sahələrdə tətbiqinin mümkünlüyünü müəyyənləşdirməyə, mahiyyətinin, ardıcıllığının mənimsənilməsinə xidmət edir və sonda əldə olunan nəticələrin tələbələr tərəfindən şərh olunması tələb olunur.

Əksər dərslərin tədrisi müəllimlər tərəfindən tələbələrin dərsə dərindən maraq göstərməsinə və motivasiya olunmalarına xidmət edir. Həmçinin bəzi tələbələrin fərdi xüsusiyyətlərindən asılı olaraq, müəllimlər tərəfindən uyğunlaşdırılmış tədris metodlarından da istifadə edilir. Məsələn, bəzi tələbələr vizual materialları daha yaxşı qavrayırlar, buna görə də müəllimlər bu tələbələr üçün daha çox qrafiklər, şəkillər və video materiallardan istifadə edirlər. Digər tələbələr isə daha çox praktiki tapşırıqlar vasitəsilə öyrənirlər, bu halda müəllimlər bu tələbələrə əlavə praktiki məşğələlər və laboratoriya işləri təqdim edirlər. Bununla yanaşı, müəyyən hallarda fərdi konsultasiyalar və əlavə dəstək dərsləri də təşkil olunur ki, bu da tələbələrin öz sürətinə və ehtiyaclarına uyğun öyrənməsini təmin edir.

### 3.4.2 Tədris metodlarında tələbəyönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyəti

QKU-ya sahə səfəri zamanı müəllim və tələbələr ilə keçirilən görüşlər, müxtəlif ixisaslar üzrə dərslərin dinlənilməsi tədris prosesində tələbəyönümlü, problem yönümlü, nəzəriyyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadənin qənaətbəxş olduğunu söyləməyə əsas verir. Belə ki, mühazirə və seminar məşğələlərində tələbələrin fərdi xüsusiyyətlərindən asılı olaraq, müəllimlər tərəfindən uyğunlaşdırılmış tədris metodlarının tətbiqinə yol verilir, mühazirə və seminar məşğələlərində şərh olunan problem yönümlü məsələlərin aktuallığı əsaslandırılır, həlli yolları və praktiki əhəmiyyəti, təlim nəticələri izah edilir, mövzu ətrafında fərdi suallar, debatlar əsasında müzakirələr keçirilir.

### 3.4.3 Tədris metodlarının bütün təhsil formalarında tətbiqinin mümkünlüyü vəziyyəti

QKU-da  bütün təhsil formaları üzrə tədris metodlarının tətbiqi üçün müvafiq maddi-texniki baza mövcuddur. Belə ki, əyani və qiyabi təhsil formaları üzrə tədris prosesində frontal sorğu metodundan, qrup halında tapşırıqların yerinə yetirilməsi, müzakirə və debatların təşkili metodlarından, müəyyən mövzuların tələbələr tərəfindən müstəqil araşdırılması və təqdimatlarının hazırlanması, problem yönümlü praktiki tapşırıqların icrası, test tapşırıqları əsasında quiz-lərin keçirilməsindən, “Google Forms” kimi onlayn tətbiq vasitələrindən istifadə olunur.

### 3.4.4 Tədris metodlarında daha çox dərindən öyrənmə, maraqlanma,  motivasiya olunma və öhdəlik götürmə yanaşmalarının tətbiq edilməsi vəziyyəti

QKU-da tədris zamanı, demək olar ki, bütün müəllimlər tərəfindən dərindən öyrənmə, maraqlanma, motivasiya olunmanı təmin edəcək müvafiq tədris metodlarından istifadə olunur. Fənn kabinetləri, tədris laboratoriyalarının təchizatı, auditoriyaların texnoloji imkanları, tədris zamanı interaktivliyin təmin olunması, fərdi iş mövzuları və onların yerinə yetirilməsinə olan

tələblər, layihə əsaslı öyrənmə, problem əsaslı öyrənmə təlim metodlarının, quiz-lərin tətbiqi təlim prosesinin qeyd olunan metodlarından istifadənin göstəricisidir.

### 3.4.5 Tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi vəziyyəti

QKU-ya sahə səfəri zamanı bir çox fənlərin tədrisində tədris səviyyəsi və tələbənin fərdi xüsusiyyəltərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodları və üsullarının tətbiq edildiyi izlənilmişdir. Lakin sağlamlıq imkanları məhdud təhsilalanlar üçün uyğunlaşdırılmış tədris metodları və üsullarının təkmilləşdirilməsinə ehtiyac duyulur.

### 3.4.6 Tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsi vəziyyəti

QKU-ya sahə səfəri zamanı Komissiya üzvlərinə məlum olmuşdur ki, ATM-də 2015-ci ildən tətbiq olunan Elektron Tədris Platforması mövcuddur və bu elektron sistemin alt sistemi kimi hər bir müəllim və tələbənin şəxsi kabineti mövcuddur. Sözügedən platforma üzərindən və hər bir auditoriyada mövcud texnologiya hesabına müəllimlər dərs müddətində elektron jurnalı doldurur, sillabuslarını, mühazirə mətnlərini, digər dərs vəsaitlərini, müxtəlif tapşırıqlarını bölüşür, tələbələr məmnunluq anketlərini cavablandıra bilir. Hər bir auditoriya proyektor və kompüterlə təchiz olunmuş, fənn kabinetləri, tədris laboratoriyaları müvafiq avadanlıqlarla təmin edilmişdir.

### 3.4.7 Yeni təlim və tədris metodlarının və interaktiv öyrənməni təşviq etmə vəziyyəti

QKU-ya sahə səfəri zamanı Komissiya üzvləri tərəfindən bir sıra dərslərin dinlənilməsi zamanı, müxtəlif növ dərslərin tədrisində adətən müasir pedaqoji yanaşmaların və texnologiyaların təhsil prosesinə inteqrasiya edildiyi, tələbə-mərkəzli təlim mühitinin yaradıldığı və tələbələrin aktiv iştirakını təmin edən üsulların tətbiq edildiyi müşahidə edildi. Bu zaman tələbələrin fəal iştirakını təmin etmək üçün qrup işləri, müzakirələr, debatlar və digər interaktiv təlim metodlarından istifadə olunur. Lakin bu hala bütün müəllimlərin dərslərinin tədrisi zamanı nail olunması, sillabuslarda müvafiq dərslərin mövzularının izahında hansı yeni təlim və tədris metodundan istifadə olunacağının qeyd olunması, dərslərdə bütün tələbələrin fəallığının təmin olunması yönündə işlərin artırılması arzuolunadır.

### 3.4.8 Tədris metod və üsullarının dövrü olaraq monitorinqi və preventiv tədbirlərin sistematik olaraq qiymətləndirilməsi və təkmilləşdirilməsi vəziyyəti

Tədris metod və üsullarının dövrü olaraq monitorinqi və preventiv tədbirlərin sistematik olaraq qiymətləndirilməsi və təkmilləşdirilməsi məqsədi ilə QKU-da semestr öncəsi müəyyən olunmuş qrafik əsasında müvafiq fakültənin (cari halda məktəbinin) dekanı, kafedra müdiri, Keyfiyyət Təminatı Mərkəzinin əməkdaşının mütləq iştirak etdiyi 3-7 nəfərdən ibarət komissiya tərəfindən açıq dərslər (kafedra müdirləri tərəfindən açıq dərs elan olunmadan dərslərin

dinlənilməsi) keçirilir, Keyfiyyət Təminatı Mərkəzinin əməkdaşları tərəfindən dərslərə nəzarət reallaşdırılır və tələbə məmnunluq sorğuları aparılır. Lakin qeyd olunanlarla yanaşı Tədrisin Keyfiyyət Təminatı Mərkəzinin əməkdaşları, kafedra müdirləri və kafedranın aparıcı müəllimlərinin iştirakı ilə açıq dərs elan olunmadan müxtəlif növ dərslərin mütəmadi olaraq monitorinqinin keçirilməsi, xüsusi qiymətləndirmə meyarları əsasında dərslərin keyfiyyətinin yoxlanılması, sillabuslarda qeyd edilən mövzulara uyğunluq, interaktiv tədris vəsaitləri, o cümlədən yeni metodların tətbiqi, müvafiq kompetensiya və təlim nəticələrinin tədris müddətində əlçatanlığı, mövzular arasında əlaqələrin yaradılması, tələbələrin dərs müddətində aktivliyinin təşviq edilməsi, mühazirə mətnlərinin müasirliyi, informativliyi və keyfiyyətinin yoxlanılması kimi məsələlərin qiymətləndirilməsinə ehtiyac duyulur. Habelə müasir metodların tətbiqinə dair müxtəlif məktəblərdə fərqli müddətlərdə təlim və görüşlər keçirilsə də, bu görüşlərin daha intensiv və daha böyük auditoriya qarşısında keçirilməsi, gənclərin təcrübəli müəllimlər ilə təcrübə mübadiləsinin müntəzəm şəkildə təşkili tövsiyə olunur. Özünütəhlil Hesabatında qeyd olunduğu kimi, monitorinq nəticələrinə əsasən, 2018-2022-ci illərdə ənənəvi tədrisin həyata keçirildiyi əksər fənlər üzrə fənn proqramları yenilənilənsə də onların bəzilərində yalnız mövzuların adları qeyd olunmuş, mövzular üzrə məlumat, müvafiq yeni ədəbiyyat, yaxud təlim nəticələri öz əksini qismən tapmışdır.

### 3.5 Təlim və tədris resursları

#### 3.5.1 ATM-də öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin mövcudluğu vəziyyəti

Özünütəhlil Hesabatında qeyd edildiyi kimi, QKU-da Elektron Tədris Platforması 2015-ci ildən etibarən mərhələli şəkildə tətbiq olunmağa başlayıb. ATM-də öyrənmə və tədris ehtiyaclarını əsasən ödəyə bilən, istifadəçi yönümlü, ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sistemi mövcuddur və mütəmadi olaraq təkmilləşdirilməklə, hal-hazırda da istifadə olunur. Elektron Tədris Platformasında mövcud olan müəllim (my.wcu.edu.az) və tələbələrin şəxsi kabinetləri istifadəçi yönümlülüyü təmin etmək üçün hazırlanmış modullardır. Elektron idarəetmə sisteminin alt sistemi olan müəllim və tələbə kabinetinin mövcudluğu sayəsində ilk növbədə tədris aparan müəllimlər tərəfindən tədris edilən fənnin proqramına, eləcə də sillabusuna uyğun olaraq zəruri tədris materialları, dərs vəsaitləri, mühazirə mətnləri, təqdimatlar, test sualları, video və audio materiallar, müvafiq mövzuya dair əlavə materiallar müəllim kabinetində yerləşdirilir, tələbələr isə öz tələbə kabinetlərinə daxil olmaqla bu materiallardan istifadə edə bilirlər. Tədris materiallarının sistemə yüklənməsi və keyfiyyətinin yoxlanması müvafiq monitorinq strukturu tərəfindən təmin edilir. Bundan əlavə, onlayn və hibrid keçirilmiş dərslərin video yazıları tələbə kabinetlərinə göndərilir.

#### 3.5.2 ATM-də müasir təlim prosesini aparmaq üçün texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s) ilə tam təchiz olunmuş auditoriyaların mövcudluğu vəziyyəti

QKU-da auditoriyalar müasir təlim prosesini aparmaq üçün texnika (proyektor, kompüter, ağıllı lövhələr və s) ilə əsasən təchiz olunmuşdur. Mövcud auditoriya fondunun müasir təlim və tədris avadanlıqları ilə tam təchiz olunması, o cümlədən daha müasir texniki avadanlıqların alınması, professor-müəllim heyətinin, eləcə də magistr və tələbələrin müvafiq avadanlıqlardan istifadə bacarıqlarının təkmilləşdirilməsi üçün təlimlərin keçirilməsi tövsiyə olunur.

### 3.5.3 Tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platformasının və jurnalın mövcudluğu vəziyyəti

QKU-da Elektron Tədris Platformasının 2015-ci ildən istifadəsi və mərhələli şəkildə təkmilləşdirilməsi sayəsində tələbələrin dərsdə iştirakının və aktivliyinin təmin edilməsini də özündə ehtiva edən elektron jurnal bölməsi fəaliyyət göstərməkdədir. Tam funksional elektron tədris platforması və elektron jurnal tələbələrin təlim prosesində iştirakını/aktivliyini qeydiyyata almağa imkan verir. Tədris prosesində tələbənin dərsdə iştirakı və ya onların qiymətləndirməsi dərsi tədris edən müəllimlər tərəfindən elektron jurnalda müvafiq olaraq qaib (q/b), iştrak edir (i/e) və ya 10 ballıq şkala üzrə qiymət yazılması ilə həyata keçirilir. Bu proses əyani dərslərdə iştirak edən tələbələrlə yanaşı, eyni zamanda hibrid və onlayn dərslərdə zoom platforması vasitəsilə dərsə qoşulan tələbələrə də şamil edilir.

Bununla belə, laboratoriya dərslərində tələbə biliyinin qiymətləndirilməsi üçün elektron jurnalda sillabus üzrə yerinə yetiriləcək laboratoriya işlərinin sayını və bu məşğələ növü üzrə imtahana qədər toplanılacaq balı əvvəlcədən müəyyən edilməklə, yerinə yetirilən işlərin “0” (yerinə yetirilməmişdir) və ya “1” (yerinə yetirilmişdir) kimi qiymətləndirilməsini elektron jurnalda əks etdirən, əmsallar üzrə yekun nəticənin formalaşdırılması üzrə proqram təminatının təkmilləşdirilməsi tövsiyə olunur.

### 3.5.4 Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu

Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlər və texniki təminat Təhsil proqramının maddi-texniki infrastruktur tələblərinə əsasən uyğundur, bu isə öz növbəsində təlim və tədris prosesinin keyfiyyətli təşkilinə imkan verir. Tədrisin təşkili prosesində elektron dərs resurslarından daha çox istifadə olunur. ATM-də istifadə edilən Elektron Tədris Platforması mərhələli şəkildə təhsil proqramlarına uyğunlaşdırılmışdır. Müəllimlər tərəfindən hazırlanmış elektron tədris materialları resursları bazasının tədris prosesinə inteqrasiyası məqsədilə tədris otaqlarının informasiya-kommunikasiya texnologiyaları vasitəsilə maddi-texniki bazasının təkmilləşdirilməsi, kompüter avadanlığı və digər zəruri rəqəmsal avadanlıqla təminatının yaxşılaşdırılması və proqramın tamamilə rəqəmsallaşdırılması istiqamətində işlər davam etdirilir.

### 3.5.5 İnternetə qoşulmuş kompüterlərin və kompüter laboratoriyalarının mövcudluğu vəziyyəti

Təhsilalanların İKT üzrə bilik, bacarıq və vərdişlərinin artırılması istiqamətində ümumi profilli və ixtisaslaşdırılmış proqram təminatları ilə (Excel, Word, Power Point, Photoshop, Auto CAD, Solid Works və s) işləmək, sadə analizləri etmək bacarıqlarını formalaşdırmaq məqsədilə ATM-də ümumilikdə tədris binaları üzrə internetə qoşulmuş 205 ədəd kompüter və 8 kompüter laboratoriyası mövcuddur. Ayrı-ayrı tədris binalarında bütün auditoriyalar, oxu zalı, kitabxanalar və vi-fi zonaları internetlə təhciz olunaraq təhsilalanların, eləcə də akademik heyətin istifadəsini əsasən təmin etmişdir.

### 3.5.6 ATM-in auditoriya fondunun (kv.m.) onun tələbə sayına uyğunluğu

ATM-də dərslər bakalavriat səviyyəsi (əyani və qiyabi) üzrə 2 növbədə (08:30 – 13:00 və 14:00 – 18:30), magistratura səviyyəsi üzrə isə axşam saatlarında (18:40 – 21:30) təşkil edilir. Ümumilikdə auditoriya fondunun sahəsi 6989 $m^2$. təşkil edir. Növbələr üzrə auditoriya fondunun tələbə sayına uyğunluğu cədvəldəki kimidir.

Cədvəl 3.8 Növbələr üzrə auditoriya fondunun tələbə sayına uyğunluğu

**I korpus**

| Növbələr | Tələbəyə düşən kv.m. |
|---|---|
| I növbə | 4.2 $m^2$ |
| II növbə | 4.17 $m^2$ |
| III növbə (magistratura) | - |
| Qiyabi | 6.2 $m^2$ |

**II korpus**

| Növbələr | Tələbəyə düşən kv.m. |
|---|---|
| I növbə | 3.8 $m^2$ |
| II növbə | 2.69 $m^2$ |
| III növbə (magistratura) | 47.05 $m^2$ |
| Qiyabi | 10.92 $m^2$ |

**İçəri şəhər korpusu**

| Növbələr | Tələbəyə düşən kv.m. |
|---|---|
| I növbə | 5.3 $m^2$ |
| II növbə | 6.2 $m^2$ |
| III növbə (magistratura) | 6.9 $m^2$ |
| Qiyabi | - |

### 3.5.7 Akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamikası

ATM-də ümumilikdə inzibati və akademik heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun sahəsi 18993 kv.m-dir. Bunun 2321 kv.m. inzibati heyətin, 1301 kv.m. isə akademik heyətin istifadəsi üçün nəzərdə tutulmuşdur. QKU tərəfindən akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamikasını göstərən hər hansı bir sənəd təqdim olunmamşıdır.

### 3.5.8 Kitabxananın eyni zamanda (elektron və bilavasitə) müəssisənin tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikası

ATM-in kitabxanasında müxtəlif dillərdə çap, elektron və onlayn format olmaqla ümumilikdə 939078 kitab – dərslik, dərs vəsaiti, monoqrafiya, soraq-məlumat materialları və s. ibarət olan kitabxana fondunda 33318 çap, 15000 elektron, 890778 onlayn kitab, 11000 jurnal mövcuddur. Bundan başqa kitabxanaya son 6 il ərzində 2000-ə qədər müxtəlif dövri nəşrlər, tədris proqramları və digər materiallar daxil olmuşdur. Kitabxana hədiyyə, mübadilə yolu ilə, satınalma və illik abunə əsasında komplektləşdirilir.

Kitabxana öz istifadəçilərinə beynəlxalq elmmetrik bazalara, eləcə də onlayn informasiya resurslarına, illik abunə əsasında ən yeni nəşrlərin mövcud olduğu müxtəlif elm sahələrini əhatə edən, mütəmadi sayı artmaqda olan kitab platformasına giriş və istifadə imkanı təmin etməklə yanaşı, eyni zamanda elmi jurnal məqalələri, konfrans materialları, dissertasiyalar, elmi-kütləvi dərgilər, dövri mətbuat nümunələri və digər informasiya resurslarından istifadə imkanlarının təmin edilməsini də diqqətdə saxlayır. Hazırda kitabxana akademik heyət olaraq 156 nəfər, təhsilalanlardan isə 4341 nəfər (cari ilin məzunları da daxil olmaqla) qeydiyyatda olan oxucu sayına malikdir. Kitabxanada oxuculara göstərilən xidmət üzrə statistik məlumatlar aşağıdakı qrafikdə göstərilmişdir:




Şəkil 3.11 Kitabxanada oxuculara göstərilən xidmət üzrə statistik məlumatlar

Cədvəl 3.9 İllər üzrə kitabxanadan istifadənin dinamikası

| İllər üzrə | Ənənəvi kitabxanadan istifadə | Elektron kitabxanadan istifadə |
|---|---|---|
| **2017** | **67400** | **15288** |
| **2018** | **68000** | **8726** |
| **2019** | **147520** | **49223** |
| **2020** | **26637** | **37007** |
| **2021** | **49459** | **24250** |
| **2022** | **271988** | **72554** |

Kitabxanadan istifadəçilərin, xüsusi ilə tələbələrin və magistrlərin əlçatanlığının daha da yaxşılaşdırılması məqsədilə, imtahan qabağı müddətdə iş qrafikinə müəyyən dəyişikliklərin edilməsi, daha doğrusu iş qrafikinin uzadılması və daha da irəli gedərək 24/7 rejimində fəaliyyət göstərən kitabxananın yaradılması tövsiyə olunur.

### 3.5.9 ATM-in kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikası

Komissiya üzvlərinin sahə səfəri zamanı müşahidələri, eləcə də təqdim olunan sənədlər əsasında Özünütəhlil Hesabatında müvafiq bənd üzrə verilən məlumatların doğruluğu öz əksini tapmışdır. Belə ki, QKU-nun kitabxana fondunda illər üzrə müxtəlif dillərdə çap, elektron və onlayn olmaqla ümumilikdə 491029 dərslik və dərs vəsaiti mövcuddur. Dərslik və dərs vəsaitinin ümumi mövcud kitab sayına nisbəti (491029/939078) 0.52 təşkil edir. ATM-in kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitlərinin (elektron və çap şəklində) artım dinamikası aşağıdakı cədvəldə göstərilmişdir.

Cədvəl 3.10 ATM-in kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitlərinin (elektron və çap şəklində) artım dinamikası

| İllər üzrə | Kitabxanaya daxil olmuş ədəbiyyat sayı (çap formatında) | Daxil olan kitablar (elektron və onlayn formatda) | Dərslik və dərs vəsaiti (çap və elektron formatda) |
|---|---|---|---|
| **2018** | 4262 | 2008 | 2180 |
| **2019** | 2630 | 2355 | 1358 |
| **2020** | 812 | 3100 | 767 |
| **2021** | 639 | 2602 | 471 |
| **2022** | 1420 | 3435 | 904 |
| **2023** | 771 | 890778 | 491029 |
| **Cəmi** | 10534 | 904278 | 496709 |

Kitabxana 2023-cü ildən tələbə və müəllim heyətinə qabaqcıl beynəlxalq nəşriyyatların onlayn dərslik və kitab platforması üzərindən 890000 kitabdan 24/7 istifadə etmək imkanı yaratmışdır. Bunlardan 490000 dərslik son 6 ilin nəşrləridir:




Şəkil 3.12 Kitabxanaya daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikası




Şəkil 3.13 Kitabxanaya daxil olmuş ümumi ədəbiyyat sayı (çap formatında)



Şəkil 3.14 Kitabxanaya daxil olan kitablar (elektron və onlayn formatda)

Akkreditasiya olunan 2015/2016-2021/2022-ci tədris illəri üzrə kitabxana fonduna daxil olan nəşr olunmuş dərslik və dərs vəsaitlərinin (elektron və çap şəklində) sayı artmışdır. Bununla belə, kitab fondunun ixtisaslar və elm sahələri üzrə mütənasibliyinə diqqət yetirilməsi tövsiyə olunur.

### 3.5.10 Tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikası

Qərbi Kaspi Universitetində tədris üç dildə - Azərbaycan, ingilis və rus dillərində aparılır. Kitabxana fondu komplektləşdirilərkən müvafiq olaraq tədris dilləri nəzərə alınır. Hazırda kitabxana fondunda çap formatında Azərbaycan dilində 10268, rus dilində 12317, ingilis dilində 9015, rus və ingilis dilində 8550 elektron, ingilis dilində onlayn formatda 730778 kitab mövcuddur. Bununla belə, kitabxana fondunun daha son illərin nəşrləri olan ədəbiyyatlarla zənginləşdirilməsi, xüsusi ilə də elektron kitabların sayının daha da artırılması tövsiyə olunur.

Aşağıdakı cədvəldə kitab fondun artım dinamikası göstərilmişdir və Komissiya mövcud statistikanı qənaətbəxş hesab edir.

Cədvəl 3.11 Kitab fondunun artım dinamikası

| **İllər üzrə** | **Çap formatda kitabların sayı** | **Elektron və onlayn formatda kitabların sayı** | **Bədii ədəbiyyatın sayı (çap və elektron)** | **Monoqrafiyaların sayı** | **Digər tədris dillərində olan ədəbiyyatın sayı (rus, ingilis)** |
|---|---|---|---|---|---|
| **2018** | 27046 | 3508 | 3160 | 2750 | 20195 |
| **2019** | 29676 | 5863 | 3310 | 2988 | 20551 |
| **2020** | 30488 | 8963 | 3694 | 3176 | 20758 |
| **2021** | 31127 | 11565 | 3824 | 3262 | 20950 |
| **2022** | 32547 | 15000 | 4139 | 3459 | 21165 |
| **2023** | 33318 | 890778 | 9375 | 3580 | 21332 |

### 3.5.11 ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası

QKU-da dərsliklər, elmi ədəbiyyatlar və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin müxtəlif illər üzrə bölgüsü təqdim edilən qrafikdə öz əksini tapmışdır.




Şəkil 3.15 QKU-da dərsliklər, elmi ədəbiyyatlar və elmi bazalardan istifadə üçün illər üzrə ayırılan vəsaitin həcminin artım dinamikası

Qrafikdən də göründüyü kimi, dərsliklər, elmi ədəbiyyatlar və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası 2020-ci ildən başlayaraq yüksələn xətt üzrə davam edir. Bununla belə hesab edilir ki, adambaşına düşən vəsaitin miqdarı çox aşağıdır və bu miqdarın artırılmasına ehtiyac var.

ATM-in kitabxana fondunda olan dərsliklər və elmi ədəbiyyatlar QKU-nun profilinə əsasən uyğundur.

### 3.5.12 Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi vəziyyəti

QKU-da tədrisin keyfiyyətinin yüksəldilməsi ilə bağlı hər tədris ilində Monitorinq bölməsi tərəfindən müvafiq tədbirlər həyata keçirilir. Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi Tədrisin təşkili və idarə olunması Mərkəzi tərəfindən aparılır. Monitorinqlər zamanı tədris prosesinin təşkili ilə yanaşı, tədris resurslarının istifadəsi və yenilənməsi üzrə məsələlərə də diqqət yetirilir.

Monitorinq nəticəsində ənənəvi dərslər üçün xeyli sayda fənn proqramının yenilənməsi ehtiyacı müəyyən edilmiş və həyata keçirilmişdir. Lakin hazırlanan fənn proqramlarının və sillabusların xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrinin təcrübələrindən bəhrələnməklə kompetensiya əsaslı tərtib edilməsi tövsiyə olunur.

### 3.5.13 Təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı vəziyyəti

QKU-da tədris olunan bütün fənlər üzrə tədris materialları (sillabus, mühazirə mətnləri, təqdimatlar və s.) əsasən mövcuddur. Təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət

baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı təmin edilmişdir. Tələbələrın təlim və tədris resurslarını əsasən elektron kabinetlərindən əldə etmək imkanı yaradılmışdır.

### 3.5.14 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının mövcudluğu vəziyyəti

QKU-nun rəhbərliyi ilə keçirilən görüşlər zamanı sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının inkişaf etdirilməsi məsələsinin diqqət mərkəzində saxlanıldığı bildirilmişdir. Bu imkanlar qənaətbəxş olmasa da, Özünütəhlil Hesabatında də qeyd edildiyi kimi, QKU-nun aidiyyəti struktur bölmələri tərəfindən fiziki məhdudiyyətli insanların ali təhsilə cəlb olunması, onların təhsilinə mane olan məhdudiyyətlərinin aradan qaldırılması və həmin tələbələrin cəmiyyətə inteqrasiyasının gücləndirilməsi istiqamətində müvafiq tədbirlər görülür. Görmə məhdudiyyətli tələbələr üçün ədəbiyyatlar və eşitmə məhdudiyyəti olan tələbələr üçün səsgücləndiricilər buna nümunə olaraq göstərilə bilər.

### 3.5.15 Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi vəziyyəti

Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsinə xüsusi diqqət ayrılmışdır. Belə ki, təqdim edilən müvafiq sənədlərlə tanışlıq zamanı tədris ilinin həm payız, həm də yaz semestrlərində keçirilən dərslər üzrə monitorinqlərin aparılması öz təsdiqini tapmışdır. Keçirilən monitorinq nəticələri təhlil olunaraq tədrisin keyfiyyətinin yüksəldilməsi istiqamətində müvafiq tədbirlər görülmüşdür. Müxtəlif tədris illərində monitoriq nəticələrinə əsasən təlim və tədris resurlarının təkmilləşdirilməsi məqsədilə görülən təlim və tədbirlər aşağıda verilən cədvəldə öz təsdiqini tapmışdır:

Cədvəl 3.12 Təlim və tədris resurlarının təkmilləşdirilməsi məqsədilə görülən təlim və tədbirlər

| № | Tədris ili | Tədbir və ya təlimin adı | Akademik heyətinin iştirakı (faizlə) |
|---|---|---|---|
| 1 | 2017/2018 | Tədris materiallarının keyfiyyətinin yüksəldilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması | 43 % |
| | | Tədqiqat dizaynı və metodları, ədəbiyyatın nəzərdən keçirilməsi və tədqiqat suallarının inkişaf etdirilməsi | |
| 2 | 2018/2019 | Elmi məqalələrin yazılması qaydaları | 42 % |
| | | Beynəlxalq jurnallara məqalələrin göndərilməsi qaydaları | |
| | | Tələbə naliyyətlərinin artırılması yönümlü müasir tədris metodları | |
| | | Tələbələrin biliyinin qiymətləndirilməsində müasir və motivasiya əsaslı metodlardan istifadə | |
| | | Sərbəst işlərin (tapşırıqların) müəyyən edilməsi və qiymətləndirilməsinin effektiv metodları | 40% |

| | | | |
|---|---|---|---|
| | | Seminar dərslərində tələbələrin bilik və bacarıqlarını qiymətləndirmə metodları | 32% |
| | | Tədris prosesində motivasiyanı təmin edən üsullar və onların tətbiqi | |
| | | Auditoriyalarda liderlik və komandalarla işləmə bacarıqlarının tətbiq edilməsi | |
| 3 | 2019/2020 | İKT sahəsində istifadəçi bacarıqlarının təkmilləşdirilməsi | 44% |
| | | Distant dərslərin evdən keçirilməsi qaydaları üzrə | 100% |
| | | Tədris və attestasiya materiallarının tərtibində müasir yanaşmalar | 29% |
| | | Sillabusun tərtib edilməsi, məzmunu və strukturuna aid tələblər | 90% |
| | | Distant təhsildə tədrisin təşkili və metodik təminatı | 92% |
| | | Professor - müəllim heyətinin elmi və metodik fəaliyyətinin təkmilləşdirilməsi | 41% |
| | | Mühazirə mətnlərinin hazırlanması qaydaları | 90% |
| 4 | 2020/2021 | Pedaqoji fəaliyyətdə müasir tədris üsulları | 24% |
| | | Məşğələ dərslərində biliyin qiymətləndirilməsi metodları | 72% |
| 5 | 2021/2022 | İngilis dilinin tədrisinin təkmilləşdirilməsi istiqamətində | 30 % |
| 6 | 2022/2023 | Əmək qanunverciliyinin Karyera Mərkəzində rolu-pramida effekti | 42% |

### 3.5.16 Tələbə klublarının, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resrursları), dəstək planlarının mövcudluğu

QKU-da tələbə klublarının, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resrursları) dəstək planları mövcuddur. Belə ki, komissiya üzvlərinin sahə səfəri zamanı QKU-da yuxarıda adları sadalanan fəaliyyət istiqamətləri üzrə müxtəlif tələbə təşkilatlarının (Tələbə Gənclər Təşkilatı, QKU Könüllüləri Təşkilatı, Tələbə Həmkarlar İttifaqı Komitəsi, Tələbə Elmi Cəmiyyəti, “Gənc Filosoflar Klubu”) fəaliyyət göstərməsi öz təsdiqini tapmışdır.

Yuxarıda sadalananlarla yanaşı QKU-nun idman klubunda müxtəlif idman növləri üzrə komandalar mövcuddur və respublika səviyyəli yarışlarda iştirak edirlər.

https://www.facebook.com/photo/?fbid=4356856271028380&set=pcb.4356866407694033
https://www.facebook.com/photo/?fbid=4360370600676947&set=pcb.4360381880675819
https://www.facebook.com/photo/?fbid=4572196519494353&set=pcb.4572199102827428
https://www.facebook.com/photo/?fbid=4597736203607051&set=pcb.459773740694026

### 3.5.17 Psixoloji məsləhət xidmətlərinin mövcudluğu vəziyyəti

QKU-da psixoloji məsləhət xidmətləri həyata keçirilir, lakin bununla bağlı statistika təqdim olunmamışdır. Psixoloji xidməti göstərən şəxs eyni zamanda da ATM-də Psixologiya dərsi tədris edir. Aparılan müsahibə zamanı tələbələrlə müəyyən saatlarda seanslar təşkil olduğu qeyd olunmuşdur. Psixoloqun həmçinin bir köməkçisinin də olduğu qeyd olunmuşdur. Özünütəhlil Hesabatında da qeyd edildiyi kimi, 16.09.2022-ci il tarixdə QKU-nun akt zalında "İmtahan qabağı stress və onun aradan qaldırılma yolları" psixoloji xidmət mövzusunda və 18.05.2023-cü il tarixində isə CBİS psixoloji mərkəzi tərəfindən "Yumşaq qabiliyyət" mövzusunda təlimlər keçirilmişdir. Lakin bu istiqamətdə xidmətin keyfiyyətinin artırılmasına, eləcə də tədbirlərin keçirilməsinin intensivliyinin artırılmasına daha artıq diqqət ayrılması tövsiyə olunur.

## 3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi

### 3.6.1 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydaların mövcudluğu vəziyyəti.

QKU-da təhsilalanların bilik və bacarıqların qiymətləndirilməsi "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında əsasnamə"yə uyğun aparılır və bununla bağlı prosedur qaydaları hazırlanmışdır. Hər tədris ilinin müvafiq olaraq payız və yaz semestrlərində ATM Elmi Şurası tərəfindən "Cari qiymətləndirmənin (kollokviumların) keçirilməsi qaydaları" və "Qış (və ya yay) imtahan sessiyasının təşkili və idarə olunması qaydaları" müzakirə olunaraq təsdiq edilir. Qiymətləndirmədə müxtəlif formalardan (üz-üzə, məsafədən, qarışıq, açıq və s.), metod və vasitələrdən istifadə olunur.

ATM-də qiymətləndirmə imtahanaqədər (50 bal) və sessiya imtahanında (50 bal) qiymətləndirmə mərhələlərindən ibarət olmaqla toplam olaraq 100 ballıq sistemə əsaslanır. Semestr ərzində həyata keçirilən imtahanaqədər qiymətləndirmə fənlərin spesifik tədris formalarına müvafiq olaraq fərqli attestasiya üsullarından istifadə etməklə həyata keçirilir və ümumilikdə 50 balın formalaşdırılmasını təmin edir. Qalan 50 balın formalaşdırılması isə sessiya imtahanlarının payına düşür.

### 3.6.2 Qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olması vəziyyəti

QKU-da təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi yuxarıda da qeyd edildiyi kimi, imtahanaqədər və sessiya imtahanında qiymətləndirmə mərhələlərindən ibarət olmaqla 100 ballıq sistemə əsaslanır. Belə ki, istər payız, istərsə də yaz semestrləri müddətində həyata keçirilən imtahanaqədəri qiymətləndirmə fənlərin spesifik tədrisi formalarına müvafiq olaraq fərqli attestasiya üsullarından - test və yazılı üsullarından istifadə edilməklə, habelə qabiliyyət imtahanları vasitəsilə həyata keçirilir və ilkin 50 balın formalaşdırılmasını təmin edir. Qalan 50 balın formalaşdırılması isə fənlər üzrə yekun sessiya imtahanları əsasında formalaşdırılır. Bakalavriat səviyyəsində qeyd olunan üsullarla yanaşı, xarici dil fənləri üzrə

qiymətləndirmə üçün müxtəlif bacarıqları ehtiva edən qiymətləndirmə (danışıq, yazı, dinləmə, qrammatıka, oxu) - “kombinə olunmuş üsul” tətbiq edilir. Magistratura səviyyəsində də qiymətləndirmə yazılı və test üsulda həyata keçirilir.

Özünütəhlil Hesabatında da qeyd edildiyi kimi, qiymətləndirmə zamanı “Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında” Əsasnamə ilə müəyyən edilən meyarlara istinad olunur.

### 3.6.3 Qiymətləndirmədə müxtəlif formalarından (üz-üzə, məsafədən, qarışıq, açıq və s.) metod və vasitələrdən istifadə olunması vəziyyəti

ATM-də təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsində müxtəlif formalardan: üz-üzə, məsafədən, qarışıq, açıq, test və s. kimi metodlardan istifadə edilir və bu proseslərin həyata keçirilməsi üçün kifayət qədər texniki imkanlara malik infrastruktur mövcuddur. QKU-da qiymətləndirmə prosesi əsasən test üsulu ilə mərkəzləşdirilmiş formada imtahan zallarında həyata keçirilir. Bundan başqa qabiliyyət tələb edən fənlər üzrə qiymətləndirmə üz-üzə formada həyata keçirilir. Qeyd etmək lazımdır ki, ehtiyac yaranan hallarda qiymətləndirmə prosesinin məsafədən də həyata keçirilməsi mümkündür. Bu zaman tələbəyə kompüterdən uzaqlaşmama və kameranı açıq saxlama şərtləri qoyulur. Buna misal olaraq, pandemiya dövründə qiymətləndirmə prosesinin bütünlüklə məsafədən keçirilməsini göstərmək olar. İndinin özündə də ölkəyə quru sərhədi ilə giriş məhdudiyyəti ilə əlaqədar əcnəbi təhsilalanlar üçün imtahanların məsafədən keçirilməsi davam etdirilir. Bir sıra hallarda imtahanaqədər 50 balın formalaşmasını təmin edən qiymətləndirmə prosesi onlayn formada həyata keçirilir.

### 3.6.4 Qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması vəziyyəti

Bakalavriat səviyyəsində fənlər üzrə attestasiyalar Elmi Şuranın müvafiq qərarı əsasında təsdiq edilən fənn siyahılarına müvafiq olaraq test, yazılı və şifahi üsullarda, magistratura səviyyəsində isə yazılı və test üsullarında keçirilir. Test üsulunda attestasiya olunan fənlər üzrə imtahanlar mərkəzləşdirilmiş qaydada elektron formada keçirilir. Bu imtahanlar zamanı ədalətliliyin təmin olunması üçün tələbələrə təqdim edilən testlərin kompyuter tərəfindən seçimi tətbiq edilir. Belə ki, elektron imtahan sisteminə imtahan vermək məqsədilə daxil olan hər bir tələbəyə proqramın alqoritminə uyğun olaraq kompüter tərəfindən 50 test seçilməklə təqdim edilir. Bu imtahanlarda insan faktorunun olmaması subyektivliyi tam aradan qaldırmaqla obyektivliyin tam təmin edilməsinə imkan yaradır. İmtahanların xüsusi zallarda qruplar şəklində keçirilməsi və nəticənin imtahan bitdikdən sonra dərhal bilinməsi, imtahan nəticəsinin isə tələbənin şəxsi kabinetinə göndərilərək arxivləşdirilməsi şəfaflığı təmin edir. Qiymətin əsaslandırılması kompüter tərəfindən məhz standart bilik və bacarıq əsaslı nəticələrlə müqayisə edilir və yekun bal formalaşdırılır. Balların formalaşdırılması haqqında məlumatlar fənlər üzrə sillabuslarda öz əksini tapmışdır.

Bakalavriat səviyyəsində baza ixtisas fənləri üzrə yazılı üsulda attestasiya olunan fənlər üzrə imtahanlar kağız üzərində cavablandırma əsasında mərkəzləşdirilmiş qaydada, magistarura səviyyəsində isə aidiyyəti struktur bölmələr tərəfindən həyata keçirilir. Həm

bakalavriat, həm də magistratura səviyyəsində imtahan sualları təhsilalanlara təqdim edilir. İmtahanlar zamanı ədalətliliyin təmin olunması üçün təhsilalanlara təqdim edilən imtahan sual variantlarının məxfiliyi təmin edilir. Fənn üzrə imtahanların eyni saatda keçirilməsi mümkün olduğu halda imtahanda iştirak edən tələbələrin hamısına eyni imtahan sual variantı təqdim edilir. İmtahanlar fərqli növbələrdə keçirildiyi zaman isə hər bir növbə üzrə fərqli imtahan sual variantı təqdim olunur. Bununla yanaşı təhsilalanlara eyni imtahan saatında bir neçə imtahan sual variantının təqdim edilməsi təcrübəsindən də istifadə edilir.

Komissiya tərəfindən aparılan müşahidələr, keçirilən sorğular, sənədlərlə tanışlıq onu deməyə əsas verir ki, qiymətləndirmə prosesində ədalətlilik, obyektivlik, şəffaflıq təmin olunmuşdur və tələbələrə verilmiş qiymətlər əsaslandırılmışdır.

### 3.6.5 Qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amillərinin nəzərə alınması vəziyyəti.

Qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşmasının təmin edilməsi QKU-da əsasən seminar məşğələlərinin keçirilməsi zamanı baş verir. Buna misal olaraq, seminar məşğələlərində qrup daxilində bir neçə alt qrup yaradılaraq həmin alt qruplara müəllim tərəfindən ünvanlanmış sualların eyni zamanda həm müəllim, həm də quplar tərəfindən bir-birlərini qiymətləndirməsini və müqayisəli təhlilini göstərmək olar. Sərbəst öyrənmə istəyinin yaradılması məqsədi ilə isə tədris planlarında nəzərdə tutulan auditoriyadan kənar saatların səmərəliliyini artırmaq, təhsilalanların özünüqiymətləndirmə bacarıqlarının aşılanması üçün fərdi tapşırıqlar verilir və bunun əsasında hazırlanmış materiallar müdafiə olunur. Qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması üçün tələbələrə müstəqillik imkanları verilir.

### 3.6.6 Qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyəti

Sahə səfəri və təqdim olunan sənədlərlə tanışlıq, Özünütəhlil Hesabatında müvafiq bənd üzrə verilən məlumatların həqiqiliyi öz təsdiqini tapmışdır. Belə ki, həqiqətən də QKU-da təhsilalanların bütün fəaliyyət növləri üzrə qiymətləndirilməsinin elektron idarəetmə sistemində (Elektron Təhsil platforması) qeydiyyatı aparılır və yekun qiymətin formalaşması avtomatik olaraq sistem tərəfindən icra olunur. Ümumilkdə təhsilalanların cari və aralıq qiymətləndirmə üzrə bütün nəticələri vahid elektron bazada olmaqla QKU-nun serverlərində saxlanılır.

### 3.6.7 Sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsullarından istifadə vəziyyəti

Zəruri hallarda sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə elektron sistemin üzərindən xüsusi qiymətləndirmə üsullarından istifadə edilir. Məsələn, görmə qabiliyyəti zəif

olan tələbələrə test imtahanları zamanı şriftin böyüdülüb kağız şəkilində verilməsi, yazı qabiliyyəti məhdud olan tələbədən imtahanın şifahi şəkildə keçirilməsini misal göstərmək olar.

**3.6.8 Cari və aralıq qiymətləndirmələrin müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında təşkil olunması vəziyyəti**

QKU-da şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsiplərinin gözlənilməsi və qorunub saxlanılması məqsədilə hər cari tədris ilində semestrin əvvəlində spesifik fənlər üzrə cari və aralıq qiymətləndirmələrin keçirilməsi qaydası təhsilalanlara təqdim edilir. Bu qaydalarda yuxarıda sadalanan prinsiplər təfsilatı ilə öz əksini tapır və bütün təhsilalanlar üçün eyni şəraitin yaradılması təmin edilərək qiymətləndirmə prosesi qaydalara əsaslanaraq həyata keçirilir.

**3.6.9 Yekun Dövlət Qiymətləndirilməsinin təşkilinin sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğunluğu vəziyyəti (yekun dövlət imtahanı və/ və ya buraxılış işi və dissertasiya işinin müdafiəsinin təşkili)**

QKU-da Yekun Dövlət Qiymətləndirilməsinin (yekun dövlət imtahanı və/ və ya buraxılış işi və dissertasiya işinin müdafiəsinin) təşkili hüquqi sənədlərlə tənzimlənilir. Belə ki, Özünütəhlil Hesabatında da qeyd edildiyi kimi, bu proses Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 may tarixli 88 nömrəli qərarı ilə təsdiq edilmiş "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları", Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 iyun 2010-cu il 117 saylı qərarı ilə təsdiqlənmiş "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları", Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və kredit sistemi ilə tədrisin təşkili" Qaydalarına uyğun tənzimlənir. Bakalavriat səviyyəsində yekun dövlət attestasiyası "Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr səviyyəsində dövlət attestasiyası haqqında əsasnamə" ilə müəyyən edilən prosedur və tələblər əsasında dövlət imtahanı və buraxılış işlərinin müdafiəsi vasitəsilə təmin olunur. Magistratura səviyyəsində yekun dövlət attestasiyası isə "Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları" ilə müəyyən edilən tələblər əsasında yerinə yetirilir və magistrlik dissertasiya işlərinin müdafiəsi ilə yekunlaşır.

**3.6.10 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti**

Aparılan müşahidələr, keçirilən sorğular və müsahibələr zamanı aydın olmuşdur ki, fakültə və ATM-in elmi şuralarında bilik və bacarıqların qiymətləndirilməsi sistemi mütəmadi olaraq müzakirə olunur, proseslərin izlənilməsi və təkmilləşdirilməsi üzrə müvafiq qərarlar qəbul olunur. Hər tədris ilinin ayrı-ayrılıqda payız və yaz sessiyalarına, eləcə də tədris ilinin yekunlarına dair müvafiq keyfiyyət və müvəffəqiyyət göstəriciləri barədə hesabatlar hazırlanaraq Elm və Təhsil Nazirliyinə təqdim edilir. Hər bir qiymətləndirmə metodunun effektivliyi analiz edilir və təkmilləşdirmə tədbirləri həyata keçirilir. Qiymətləndirmə nəticələrinin

toplanması və təhlili müntəzəm olaraq aparılır və bu məlumatlar tədris prosesinin inkişafına yönəldilir. Müəllimlər və tələbələr arasında əks əlaqə mexanizmləri qurulmuşdur və bu əks əlaqə nəticəsində qiymətləndirmə sistemi davamlı olaraq təkmilləşdirilir. Aşkarlanmış problemlərin həlli və yeni təlim metodlarının tətbiqi də bu prosesin bir hissəsidir.

### 3.6.11 Təhsil səviyyəsinin bitirilməsi qaydalarının və şərtlərinin sadə, aydın və başa düşülən formada olması və tələbələr üçün əlçatan olması

Təhsil səviyyəsinin bitirilməsi qaydaları və şərtləri sadə, aydın və başa düşülən formada tələbələrə izah edilir, ATM-in daxili qaydalarına əsasən nizamlanır və tələbələr üçün informasiya bazasının əlçatanlılığı təmin edilir. Belə ki, tələbələr bu istiqamətdə lazımi məlumatları Elektron Təhsil Platforması sistemində tələbənin şəxsi kabineti bölməsinə daxil olmaqla, eləcə də tələbə-müəllim kommunikasiya imkanlarından istifadə etməklə əldə edə bilərlər. Bununla yanaşı onlar bütün məlumatların əldə edilməsinin əlçatan olması üçün fakültə və məktəblərdə daim yenilənən elan lövhələrindən və elektron formada QKU-nun rəsmi internet saytından da faydalana bilirlər. Xüsusi ilə tyutorların fəaliyyəti və onların tələbələrlə mütamadi əlaqələri bu məsələlərin həllini daha da əlçatan edir.

### 3.6.12 Təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müvafiq arayışın verilməsinin qanunvericiliyin tələblərinə uyğunluğu

Ali təhsil pilləsinin bakalvriat və ya magistratura səviyyəsini bitirən məzunlara dövlət nümunəli təhsil sənədinin verilməsi və ya normativ təhsil müddətində təhsilini başa vura bilməyən şəxslərə müvafiq arayışın verilməsi qanunvericiliyin tələblərinə uyğun aparılır. Belə ki, QKU-nu bitirən məzunlara Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29.04.2010-cu il tarixli 82 nömrəli qərarı ilə təsdiq edilmiş “Təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydaları”nda qeyd edildiyi kimi bakalavr və magistr diplomları, eləcə də diploma əlavələr verilir. Diplom və əlavələr müraciət məktubu ilə Elm və Təhsil Nazirliyindən məzunların sayına uyğun təhvil alınır. QKU-da təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə Nazirlər Kabinetinin 21.01.2010-cu il tarixli 12 nömrəli qərarı ilə təsdiq edilmiş "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi” Qaydasının 1 nömrəli əlavəsində verilmiş formaya uyğun müvafiq arayış verilir. Arayışlar müraciət məktubu əsasında Elm və Təhsil Nazirliyindən təhvil alınır.

## 3.7 Professor-müəllim heyəti

### 3.7.1 Akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinat mexanizminin mövcudluğu və tətbiq edilən yanaşmanın şəffaf və ictimaiyyət üçün əlçatanlığı vəziyyəti

Özünütəhlil Hesabatında qeyd edildiyi kimi, ATM-də akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinatı “Ali təhsil müəssisəsində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları”nın tətbiqi barədə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 05.02.2018-ci il tarixli F-100 №-li əmri və Azərbaycan Respublikası Elm və

Təhsil Nazirliyinin 07.08.1996-cı il tarixli 401 №-li əmrinin 1 №-li Əlavəsi ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında” Əsasnaməyə uyğun və eyni zamanda, elmi-pedaqoji fəaliyyətlə məşğul olmaq istəyən gənclər üçün QKU-nun “gənc müəllim” layihələri və təhsil standartlarının yeni modelinin, eləcə də ingilis dilli tədrisə yeni yanaşmanın tətbiq edilməsi ilə əlaqədar müəllimlər üçün isə yaradılmış komissiyalarda müsahibə və açıq dərslərin keçirilməsi vasitəsilə həyata keçirilir.

### 3.7.2 Akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlarının mövcudluğu vəziyyəti

Özünütəhlil Hesabatında qeyd edilir ki, QKU-da professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan (SCOPUS bazasında indekslənən elmi əsərlər) sistem tədbiq edilir (Research & İnnovation Center, Western Caspian University. https://ric.wcu.edu.az/)

Qeyd etmək lazımdır ki, əvvəla yüksək reytinqli jurnallarda elmi məqalə çap etdirən professor-müəllim heyətinə birdəfəlik mükafatların verilməsi onların əsasən pedaqoji yox, elmi səriştələrinin yüksəldilməsinə xidmət edir, ikincisi isə akkreditasiya zamanı müəyyən olunmuşdur ki, məqalələrə görə mükafatlandırmada demək olar ki, əsas hissə QKU-nun ştatdankənar professor-müəllim heyətini payına düşür, bu isə öz növbəsində o qədər də arzuolunan deyil. Bu istiqamətdə professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirilməsində ayrıca pedaqoji səriştələrin yüksəldilməsinə xidmət edən “tədris fəaliyyəti” bloku yaratmaqla və həmin blokda məsələn, professor-müəllim heyətinin dərc etdirdikləri dərsliklər, dərs vəsaitləri, tələbə məmnunluq anketləri və s. bu kimi pedaqoji fəaliyyətləri özündə ehtiva etməklə stimullaşdırıcı meyarların yaradılması daha məqsədəuyğun ola bilər.

Akademik heyətin texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarları mövcudluğu vəziyyətinə gəldikdə isə Özünütəhlil Hesabatında qeyd edildiyi kimi, təhsilin fasiləsizliyini təmin etmək məqsədi ilə onlayn tədris və distant təhsil proqramlarının tətbiqi müasir dövrümüzdə qaçılmaz olduğu ön plana çəkilir və bu məqsədlə müxtəlif fənlərin distant tədrisi üsulları, veb seminarların aparılma texnikaları, elektron kitabxananın yaranmış izolyasiya şəraitində rolu və s. bu kimi təlimlər təşkil olunur (wcuonline@outlook.com).

### 3.7.3 Akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməsi vəziyyəti

QKU-da mütəmadi olaraq akademik heyətə interaktiv və aktiv tədris metodları, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlər keçirilmişdir və müvafiq təlimatlar elektron qaydada əməkdaşlara təqdim edilmişdir. Akkreditasiya zamanı Komissiya üzvləri tərəfindən bu istiqamətdə keçirilən təlimlərin Özünütəhlil Hesabatında verilən məlumatlarda öz əksini tapması təsdiq olunmuşdur. Belə ki, təlimlərdə təlimçi qismində Kanadadan Dr. Feridun Hamdullahpur və Dr. Hasrat Arjjumend, Almaniyadan Dr. Ursunkauf, prof. Floran Ruqq, Dr. Jurgen Geinen Hart, Dr. Massoud Efendiyev, Macarıstandan prof. Laszlo Jozsu, İtaliyadan Mirensu Sardina və İnmaculada Alegre cəlb edilmişdirlər. Göründüyü kimi QKU xarici

mütəxəssisləri cəlb edərək beynəxalq təcrübəni mənimsəməyə çalışır. Bununla yanaşı, yerli mütəxəssislərin də xidmətlərindən yararlanmaq faydalı ola bilər.

### 3.7.4 Akademik heyətin öz ixtisas sahələrinə aid ixtisasartırma və digər təlim kurslarında iştirakı vəziyyəti

QKU-nun akademik heyət öz ixtisas sahələrinə aid ixtisasartırma və digər qısa və orta müddətli təlim kurslarında mütəmadi olaraq iştirak edirlər. Belə ki, Özünütəhlil Hesabatında da qeyd edildiyi kimi, təlim proqramlarında ATM-in 30-dan artıq əməkdaşı iştirak etmişdir. Bundan başqa beynəlxalq keyfiyyət sertifikatlarını əldə etmək üçün Türk standartları institutu tərəfindən 12 əməkdaşa təlim keçirilərək sertifikatlaşdırılmışdır.

https://wcu.edu.az/az/news/times-higher-education-teshkilatinin-birge-teshkilatchiligi-
https://wcu.edu.az/az/news/qerbi-kaspi-universiteti-keyfiyyet-standartlari-sertifikatla

Komissiya tərəfindən akademik heyətin öz ixtisas sahələrinə uyğun ixtisasartırma və digər təlim kurslarında iştirakını artırmaqla yanaşı keyfiyyət məsələlərinə də fikir verməsi tövsiyə olunur.

### 3.7.5 Akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı vəziyyəti

QKU-da akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı yüksək səviyyədədir.

Aşağıda QKU-nun akademik heyətinin iştirak etdiyi bir sıra proqramlar qeyd olunmuşdur:

**2. 2018-2019-cu tədris ili:**

- QKU-nun 3 əməkdaşı Gürcüstanın Kaxeti vilayətində keçirilən “Ekosistem xidmətlərinin inkişaf planlamasına inteqrasiyası” adlı beş günlük təlimdə iştirak ediblər. Təlimlər GIZ tərəfindən təşkil olunub və Harvard metodologiyası ilə interaktiv tədris metodlarını əhatə edib.
- “Türkiyənin qərb sahillərində makrobentik onurğasızların müxtəlifliyində mövsümi dəyişikliklər və ekoloji keyfiyyətin göstəriciləri” adlı tədqiqat Rəcəb Tayyib Ərdoğan Universitetində aparılıb. Tədqiqatda bir neçə Türkiyə universitetinin mütəxəssisləri də iştirak ediblər.
- QKU-nun nümayəndələri Ankara Universitetində keçirilən “Qafqaz dağları forumu-2019”da iştirak ediblər. Forumda Qafqaz dağlarının ekoloji problemləri və onların həlli perspektivləri müzakirə olunub.

**3. 2021-2022-ci tədris ili:**

- QKU-nun nümayəndələri Antalya şəhərində keçirilən "Balıqların sağlamlığı və xəstəliklərinin idarə olunması" adlı regional konfransda iştirak edib və "Azərbaycanda balıqların sağlamlığı və xəstəliklərinin idarə olunması" mövzusunda məruzə edib.
- Barselonada keçirilən UNESCO Ümumdünya Ali Təhsil Konfransında QKU-nun nümayəndələri iştirak edib. Konfransda ali təhsildə davamlı inkişaf və yeni texnologiyaların təsiri müzakirə olunub.

**4. 2022-2023-cü tədris ili:**

- QKU-nun nümayəndələri Antalya şəhərində keçirilmiş "4th International Environmental Chemistry Congress" (ENVİROCHEM 2022) Beynəlxalq Konqresində "Synthesis of new surface-active catanionic salt for removing thin petroleum films from water surface" mövzusunda məruzə edib.
- QKU-nun nümayəndələri Polşanın Mikolayki şəhərində keçirilən Avropa Yerli Hökumətlər Konqresində "Regional inkişaf üçün Universitetlərin potensialından necə istifadə etmək olar" mövzusunda çıxış edib.
- QKU-nun nümayəndələri Kanadanın Banff şəhərində keçirilən Beynəlxalq Dırmanma və Dağçılıq Federasiyasının (UIAA) toplantısında iştirak edib.
- QKU-nun nümayəndələri Qlazqo Universitetində keçirilən Qlobal Davamlı İnkişaf Konfransında iştirak edib və ali təhsil, sənaye və cəmiyyətin birləşdirilməsi mövzusunda müzakirələrə qatılıb.

### 3.7.6 Akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin mövcudluğu vəziyyəti

Özünütəhlil Hesabatında qeyd edilir ki, "QKU-da professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan və SCOPUS bazasında yerləşən yüksək reytinqli jurnallarda ATM adından məqalə çap etdirən professor-müəllim heyətinə birdəfəlik mükafatların verilməsi sistemi tədbiq edilir. QKU-nun professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan nüfuzlu elmi nəşrlərdə əsərləri dərc edilən QKU əməkdaşlarının mükafatlandırılması Qaydaları əsasında akademik heyətin yaradıcı və innovativ tədris bacarıqları qiymətləndirilir." Lakin qeyd etmək lazımdır ki, bu qaydalarda əsasən elmi nəşrlərlə bağlı mükafatlandırma üstünlük təşki edir, tədris fəaliyyəti ilə bağlı mükafatlandırma isə qaydalarda demək olar ki, nəzərə alınmır (bu barədə 3.7.11-ci bənddə ətraflı qeyd olunub).

Akademik heyətin açıq dərsləri kafedra və dekanlıq tərəfindən planlaşdırılır və təyin olunmuş meyarlar üzrə komissiya təşkil olunaraq qiymətləndirilmə aparılır. Eyni zamanda 15.12.2020-ci il tarixli 207/1/2020 nömrəli əmrə əsasən yaradılmış QKU monitorinq qrupu və bununla yanaşı fakültə, məktəb və mərkəzlərdə yaradılmış bu cür nəzarət qrupları tərəfindən hər semestr üzrə keçirilən dərslər üzrə monitorinqlər aparılır.

### 3.7.7 Ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsündə dürüst və şəffaf meyarların mövcud olması vəziyyəti

Dərs yükünün bölünməsi, professor-müəllim heyətinin dərs yükü normasının təyin edilməsi, həmçinin auditoriya və auditoriyadan kənar saatlarının nisbətinin normativ tələblərə uyğunlaşdırılmasında "Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2010-cu il tarixli 215 nömrəli Qərarı əsas götürülərək bir ştat professor-müəllim heyətinə 500 saatdan az olmamaqla, o cümlədən minimum 60 faiz aktiv, 40 faiz passiv yük olmaqla həyata keçirilir. Lakin bir sıra hallarda ştatda olan və kənardan cəlb olunan bəzi akademik heyət üzvləri

arasında dərs yükünün bölgüsü əsasən normativlərə uyğun olaraq aparılmamış, dərs yükünün bölgüsündə Tədrisin təşkili və idarə olunması Mərkəzi ilə kafedralar arasında koordinasiyanın düzgün qurulmaması və bu səbəbdən uyğunsuzluqların olması, dərs yükü bölgüsündə 3 müəllimin hər birinə 900 saatdan çox dərs yükünün ayrıldığı müəyyən edilmişdir.

### 3.7.8 Fakültə üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti (1/15)

QKU üzrə əsas iş yeri ATM olan professor-müəllim heyətinin sayının (162) tələbə sayına (3021) nisbəti 1/19 əsas iş yeri ATM olan və əvəzçiliklə cəlb olunmuş professor-müəllim heyətinin sayının (174) tələbə sayına (3021) nisbəti 1/17, əsas iş yeri ATM olan, əvəzçiliklə və saat hesabı qaydada tədrisə cəlb olunmuş professor-müəllim heyətinin sayının (247) tələbə sayına (3021) nisbəti isə 1/12 təşkil edir.

Cədvəl 3.13 Fakültə üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti

| Fakültə | Professor-müəllim heyətinin sayı | Tələbə sayı | Nisbət |
|---|---|---|---|
| Siyasi elmlər məktəbi | 34 | 268 | 1:8 |
| Filologiya məktəbi | 48 | 263 | 1:5.5 |
| Yüksək texnologiyaları və innovativ mühəndislik məktəbi | 71 | 650 | 1:9 |
| Dizayn məktəbi | 13 | 153 | 1:12 |
| İqtisadiyyat və biznes məktəbi | 61 | 550 | 1:9 |
| Psixologiya və sosial iş | 18 | 280 | 1:16 |

QKU-da fəaliyyət göstərən 15 kafedrada çalışan professor-müəllim heyətinin ümumi sayı 247 nəfər təşkil edir.

### 3.7.9 Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70 faizindən çoxunun əsas iş yeri müvafiq ATM olması vəziyyəti

Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 65%-i QKU-nun əməkdaşıdır. Belə ki, QKU-da 158 nəfər ştatda, 85 nəfər isə əvəzçiliklə və saathesabı qaydada pedaqoji fəaliyyətlə məşğul olur. Lakin qeyd etmək lazımdır ki, sahə səfəri zamanı Akkreditasiya Komissiyası tərəfindən aparılan müşahidələr, eləcə də dərs yükünün professor-müəllim heyəti arasında bölgüsü ilə bağlı sənədlərlə tanışlıq zamanı bir çox hallarda professor-müəllim heyəti əsas yükündən əlavə normadan artıq saathesabı qaydada dərs yükü ilə təmin olunur. Saathesabı qaydada dərs yükü verilməsi əvəzinə tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70%-dən çox olmasını təmin etmək məqsədi ilə QKU-da əsas iş yeri kimi çalışan əməkdaşların sayını ştat vahidinə dəyişiklik etməklə artırmaq daha məqsədəuyğun olar.

### 3.7.10 Kənardan cəlb edilən professor-müəllim heyətinin zəruriliyi

Özünütəhlil Hesabatında qeyd edildiyi kimi, yeni təhsil proqramlarının tətbiqi ilə əlaqədar tədris planında nəzərdə tutulmuş yeni fənlər üzrə ixtisaslı mütəxəssislərə və praktik biliklərə malik kadrlara olan ehtiyac ölkənin əmək bazarından professor-müəllim heyətinin cəlb edilməsini zəruri edir. Bu məqsədlə müvafiq qaydada kənardan professor-müəllim heyəti cəlb olunur və bu proses daim diqqətdə saxlanılaraq davam etdirilir. Lakin qeyd etmək lazımdır ki, ölkədə olan kadr çatışmazlığı səbəbindən bir çox hallarda kənardan professor-müəllim heyəti tədrisə saathesabı qaydada cəlb olunurlar.

### 3.7.11 Akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi vəziyyəti

Akademik heyətin əmək haqqı onların tutduqları vəzifəyə və dərəcələrinə görə tənzimlənir. Bundan əlavə akademik heyətin fəaliyyətlərinə görə mükafatlandırma, xüsusi ilə nüfuzlu jurnallarda (Web of Science, Scopus bazalarında indekslənən) nəşrlərə görə mükafatlandırma həyata keçirilir. Bununla bağlı Özünütəhlil Hesabatında qeyd edilir ki, ATM-də akademik heyətin elmi fəaliyyət (nüfuzlu elmi nəşrlərdə dərc olunan məqalələr, məqalələrə verilmiş istinadlar və s.) və tədris fəaliyyəti (dərslik, dərs vəsaiti, tələbələrin məmnunluq anketi və s.) meyarları əsasında mükafatlandırma sistemi tətbiq edilir. Lakin qeyd etmək lazımdır ki, bu mükafatlandırma sistemli xarakter daşımır. Belə ki, tədris ili müddətində müxtəlif vaxtlarda Elmi Şuranın iclaslarında artan dinamika ilə əsasən nəşrlərə görə mükafatlarla bağlı qərar qəbul edilir.

Komissiya tövsiyə edir ki, professor-müəllim heyətinin ümumi xidməti fəaliyyətini – tədris, elmi-tədqiqat və digər fəaliyyətləri üzrə qiymətləndirmə meyarlarını özündə ehtiva edən vahid qaydalara əsaslanan, şəffaflığı təmin etmək məqsədi ilə müasir proqramla nəzarət oluna bilən differensiallaşdırılmış əmək haqqı sistemi hazırlanaraq tətbiq edilsin. Hər tədris ili başlanmazdan əvvəl bu qaydanın müəllim kabinetində yerləşdirilməklə, tədris ilinin sonunda isə yekun qiymətləndirməni elan etməklə QKU-da mövcud olan Elektron İdarəetmə Sistemi ilə həyata keçirilsin.

### 3.7.12 Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və/və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin mövcudluğu vəziyyəti

Özünütəhlil Hesabatında Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və/və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş 7 əməkdaşın universitetə cəlb olunduğu qeyd edilmişdir. Təqdim edilmiş verifikasiya sənədləri əsasında məlum olmuşdur ki, QKU-da akademik fəaliyyətə cəlb edilmiş gənc mütəxəssislər siyahısında Dövlət Proqramı çərçivəsində məzun olmuş şəxslərin sayı, o cümlədən xaricdə təhsil alanların sayı azdır.

## 3.8 Tələbəyönümlü tədris

### 3.8.1 Təhsilalanın fərdi tədris planının tərtib edilməsində iştirak etməsi

Həm ATM-in Özünütəhlil Hesabatında qeyd etdiyi məlumatlara, həm də sahə səfəri zamanı dekanlıqların təqdim etdiyi məlumat və sənədlərə əsasən, təhsilalanların öz fərdi tədris planlarının (FTP) tərtib edilməsində iştirak etdiyi qənaətinə gəlinir. Eyni zamanda, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili Qaydalarının təsdiq edilməsi haqqında" Qanunun (https://e-qanun.az/framework/27030) tələblərinə uyğun olaraq FTP-lərin bir nüsxəsi təhsilalanlara təqdim edilir. Bu faktları Akkreditasiya Komissiyası tərəfindən ATM-in tələbələri arasında keçirilmiş sorğunun nəticəsi də təsdiq edir (Şəkil 3.8.1.).




Şəkil 3.16 Təhsilalanların fərdi tədris planları ilə tanışlıq səviyyəsi

### 3.8.2 Tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyinin təmin edilməsi

Tələbələrin tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənləri seçməsinin təmin edilməsi məqsədilə ayrıca seçmə fənlər bloku mövcuddur. ATM-in Özünütəhlil Hesabatında və sahə baxışı zamanı məlumat verilmişdir ki, tələbələr seçmə fənləri sərbəst seçərək fərdi tədris planlarını tərtib edirlər. Lakin tələbələr arasında keçirilən sorğu zamanı bu, tam təsdiqini tapmamışdır. Belə ki, yuxarı kurs bakalavr tələbələri (magistrlardan fərqli olaraq) seçmə fənləri özlərinin seçmədiklərini bildirdilər. Bu seçimin ATM-in bütün tələbələri üçün sərbəst olmadığını tərəfimizdən tələbələr arasında keçirilmiş anonim sorğunun nəticəsin də təsdiq edir. Belə ki, "Sərbəst şəkildə istədiyiniz seçmə fənni seçə bilirsinizmi?" sualına sorğuda iştirak etmiş tələbələrin təxminən 53%-i "Bəli", 47%-i isə "Xeyr" və ya "Bəzən" cavabını vermişdir. Bu baxımdan seçmə fənlərin seçimi zamanı bütün tələbələrə sərbəstlik verilməsi və onların təkliflərinin də nəzərə alınması məqsədəuyğun hesab olunur.

### 3.8.3 Təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsipinə uyğun olaraq seçiminin sərbəstliyinin təmin edilməsi

ATM-də təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsipinə uyğun olaraq sərbəst seçiminin təmin edilməsi müşahidə olunmur.

Özünütəhlil Hesabatında  qeyd edildiyi kimi, təhsilverənlər barədə ətraflı məlumat QKU-nun wcu.edu.az saytında yerləşdirilmişdir. Lakin qeyd olunan saytda nə akademik məsləhətçilər barədə məlumat, nə də onların və təhsilverənlərin seçilməsi üçün müvafiq bölmə mövcud deyildir. Hər fakültə üzrə öncədən akademik məsləhətçi (tyutor) təqdim olunur. Təhsilverənlərin və akademik məsləhətçilərin təhsilalanlar tərəfindən seçim sərbəstliyinin Bolonya prinsipinə uyğun olaraq təmin olunması tövsiyə edilir.

### 3.8.4 Tələbə və məzunlar arasında keçirilmiş rəy sorğusunun istiqamətləri, intensivliyi və səmərəliliyinin inkişaf dinamikası

Sahə səfəri əsnasında istər müəllim, istərsə də tələbə kontingenti ilə qrup şəklində aparılmış müsahibələr zamanı QKU-da müxtəlif istiqamətlər üzrə keyfiyyətin ölçülməsi məqsədilə rəy sorğularının aparıldığını öyrəndik. ATM-in ümumi fəaliyyətinin qiymətləndirilməsi, fənlər üzrə müəllimlərdən məmnunluq, karyera xidmətlərindən məmnunluq, təhsil müddəti ərzində qazanılmış səriştələrdən məmnunluq, ümumi personal dəyərləndirmə sorğularını, həmçinin xaricdə mübadilə proqramında iştirak etmiş müəllimlər arasında keçirilmiş sorğunu buraya aid edə bilərik. ATM tərəfindən bizə təqdim olunmuş sorğu nümunələri və onların təhlilinə dair sənədlər son 5 ildə keçirilmiş sorğuların istiqamətlərini və dinamikasını Şəkil 3.8.2-in köməyi ilə nəzərdən keçirmək mümkündür. Sxemdən də göründüyü kimi, fənlər üzrə müəllimlərdən məmnnunluq sorğularının intensivliyi digər istiqamətlərdə aparılmış sorğulardan dəfələrlə çoxdur. Bu fakt tələbələrin müsahibə zamanı səsləndirdikləri fikirlə ("Rəy sorğuları demək olar ki, hər ay keçirilir") üst-üstə düşür. AK-ın tələbələr arasında keçirdiyi sorğunun nəticələrinə baxsaq görərik ki, tələbələrin 71%-i QKU-da hər semestr ən az bir dəfə sorğuların keçirildiyini  qeyd edir. "Semestrdə 1 dəfə" cavabının təklif olunan variantlar arasında ən yüksək intensivlik göstəricisi olduğunu nəzərə alsaq, sorğuların dinamikasını yüksək qiymətləndirə bilərik.




Şəkil 3.17 Son 5 ildə keçirilmiş sorğuların istiqamətləri və dinamikası

### 3.8.5 ATM-də tələbə və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklərin (qərarların) inkişaf dinamikası

Sahə səfəri zamanı tələbələrin və müəllimlərin təklifləri əsasında verilmiş bəzi qərarlar səsləndirildi: məsələn, bir qrup tələbənin şikayəti əsasında tədris aparan müəlliminin başqa bir müəllimlə əvəz edilməsi və yeni klubların və yarışların təşkili. Lakin buna baxmayaraq, tələbə və məzunların təklifləri əsasında görülən və ya görülməsi nəzərdə tutulan işlərlə bağlı hər hansı təsdiqedici sənəd təqdim edilməmişdir.

QKU-da tələbə və məzunların təklifləri əsasında yeniliklərin (qərarların) inkişaf dinamikasının izlənilməsi məqsədilə hesabatlılığın tətbiqi tövsiyə olunur.

### 3.8.6 Tələbə rəylərinin (akademik heyət, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsi və s. haqqında) müxtəlif vasitələrlə sistemli şəkildə toplanması və qərarvermə prosesində istifadə edilməsi vəziyyəti

Təqdim edilmiş sənədlər və müsahibələr əsasında təhsilalanlar arasında 3.8.4-cü indikatorda qeyd olunmuş istiqamətlərdə tədrisin keyfiyyətinə dair tələbə rəy sorğularının keçirildiyi müşahidə olunur. Sorğular onlayn və anonim şəkildə “MS Form” və “Google Forms” platformaları vasitəsilə həyata keçirilir.

Bundan əlavə, semestr ərzində ATM rəhbərliyi ATM-in nəzdində fəaliyyət göstərən tələbə təşkilatları (TGT, TEC, Tələbə İcması) ilə birgə tələbələrlə vaxtaşırı görüşlər keçirir və onların rəylərini müzakirə edir. Lakin ATM-də sahə baxışı zamanı bu müzakirələr əsasında konkret addımların atılmasını təsdiqləyən sübutlara rast gəlinməmişdir. Kafedra müdirləri ilə görüşdə şifahi şəkildə bildirildi ki, həmin rəy sorğularının nəticələri növbəti semestrdə dərs bölgüsü zamanı nəzərə alınır.

### 3.8.7 Təhsilalanların şikayət və/və ya təklifləri üçün müxtəlif vasitə və mexanizmlərin mövcudluğu vəziyyəti

Həm ATM-in Özünütəhlil Hesabatında, həm də sahə səfəri zamanı keçirilmiş müsahibələrdə qeyd olunduğu kimi, tələbələr şikayət və təkliflərini müxtəlif vasitələrlə bildirə bilərlər: akademik məsləhətçilərlə görüşərək, ATM-in rəsmi sosial şəbəkə hesabları (facebook, instagram, telegram və s.) vasitəsilə, dekana və rəhbərliyə yazılı formada ərizə və elektron poçt vasitəsilə müraciət etməklə. Bundan başqa, tələbələr ATM daxilində yerləşdirilmiş ərizə qutuları vasitəsilə də öz təklif və iradlarını məsul şəxslərin diqqətinə çatdıra bilərlər.

İmtahan sessiyası müddətində isə ATM üzrə Apellyasiya komissiyası təşkil edilir və imtahan nəticəsindən narazı olan tələbələr öz müraciətləri əsasında İmtahan Mərkəzində cavab kağızının yoxanılması ilə tanış ola bilirlər. Əgər imtahan nəticəsi ilə bağlı tələbənin əsaslı narazılığı olarsa, Apellyasiya komissiyasına ərizə yazmaq hüququna malikdir.

Sahə səfəri zamanı irad və təkliflərlə bağlı diqqət çəkən məqamlardan biri də QKU-da təhsil alan xarici tələbələrin səsləndirdikləri fikirlər oldu. Belə ki, yeni qəbul olmuş tələbələr rəhbərliyin onlarla həm qrup, həm də fərdi şəkildə ünsiyyət saxladığını desələr də, ATM barədə tam məlumat ala bilmədiklərini vurğuladılar. Yuxarı kurslarda təhsil alan xarici tələbələr isə

nəzəri tədrisin praktikadan daha üstün olması və müəllimlərin dərs prosesində bəzən ingilis dilində danışmamasından narazılıqlarını bildirdilər.

Bu məsələləri nəzərə alaraq, xarici tələbələrə daha həssas münasibət, onlar üçün tədrisin tam ingilis dilində təşkili, həmçinin onların şikayət və/və ya təklifləri üçün müxtəlif vasitə və mexanizmlərə əlçatanlığının təmin olunması tövsiyə olunur.

### 3.8.8 Təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilərin (tyutor) mövcudluğu vəziyyəti

Tyutorların işə qəbul prosesi 3 əsas mərhələdən ibarətdir: CV-lərə baxış, müsahibə, 1-3 aylıq sınaq müddəti (buraya təlimlərdə iştirak da daxildir). Ömürboyu Təhsil Mərkəzinin 2023-2024-cü tədris illəri üzrə Fəaliyyət planına daxil olan tyutorlar üçün "Tyutor xidmətinin təşkili" və "Psixoloji bacarıqlar" mövzularında təlimlər müvafiq olaraq 2023-cü ilin oktyabr və dekabr aylarında təşkil olunmuşdur. 3.8.3-cü indikator üzrə də qeyd olunduğu kimi, akademik məsləhətçilərin təhsilalanlar tərəfindən təyin olunmamasına baxmayaraq, anonim sorğuda iştirak etmiş tələbələrin 74%-i akademik məsləhətçilərinin onlar üçün faydalı olduqlarını bildiriblər. Sahə səfərində əldə etdiyimiz məlumata görə, ATM-də hər 200 tələbəyə 1 tyutor nəzərdə tutulub. Lakin aşağıda yerləşdirilmiş və ATM tərəfindən bizə təqdim edilmiş fakültələr üzrə akademik məsləhətçilərin tələbələrə say nisbətini əks etdirən Cədvəl 3.14-ə əsasən qeyd edə bilərik ki, bəzi fakültələrdə akademik məsləhətçilərin sayı tələbələrin sayına nisbətdə azdır. Bu uyğunsuzluğun aradan qaldırılması məqsədilə müvafiq kvalifikasiyalara malik akademik məsləhətçilərin cəlb edilməsi tövsiyə olunur.

Cədvəl 3.14 Fakültələr üzrə akademik məsləhətçilərin tələbələrə say nisbəti

| **Məktəbin adı** | **Tələbə sayı** | **Vəzifə** | **Say** |
|---|---|---|---|
| İqtisadiyyat və Biznes məktəbi | 550 | Tyutor | 2 |
| Siyasi və ictimai elmlər məktəbi | 268 | Tyutor | 2 |
| Yüksək Texnologiyaları və İnnovativ Mühəndislik məktəbi | 650 | Tyutor | 2 |
| Filologiya və tərcümə məktəbi | 263 | Tyutor | 1 |
| Dizayn məktəbi | 153 | Tyutor | 1 |
| Psixologiya məktəbi | 280 | Tyutor | 1 |
| İngilis və rus dilində tədrisin təşkili şöbəsi | 510 | Tyutor | 2 |
| Magistratura və Doktorantura şöbəsi | 347 | Tyutor | 2 |

### 3.8.9 Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn və s.) kommunikasiyanın həyata keçirilməsi vəziyyəti

ATM-də tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında kommunikasiya, əsasən, tələbənin dekanlığa yaxınlaşması (üzbəüz), korporativ email və WhatsApp qrupları vasitəsilə həyata keçirilir. Bundan əlavə, tələbələr əvvəlcədən müəyyən edilmiş qrafik əsasında təhsilverənlərlə görüşüb məsləhət saatlarından yararlana bilərlər. Özünütəhlil Hesabatında yer alan əsas kommunikasiya vasitələrindən biri də tələbələrin şəxsi kabinetləridir. Bu kabinetlər ATM-in daxili Elektron Təhsil Platforması sisteminin tərkib hissəsi olub müəllim-tələbə və tələbə-tələbə arasında kommunikasiya prosesini təmin edir. Covid-19 pandemiyası müddətində isə tələbələrlə, əsasən, “Microsoft Teams” platforması üzərindən onlayn kommunikasiya təmin edilmişdir.

QKU-da tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında kommunikasiyanın həyata keçirilməsi məqsədilə təhsilalanların Elektron Təhsil Platforması və korporativ elektron poçt ünvanlarından istifadə etmələri üçün təşviq edilməsi tövsiyə olunur.

### 3.8.10 Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması vəziyyəti

ATM-in Özünütəhlil Hesabatında sağlamlıq imkanları məhdud şəxsləri ali təhsilə cəlb etmək və onların cəmiyyətə tam inteqrasiyası üçün müxtəlif mövzularda maarifləndirmə görüşlərinin təşkili, həmçinin imtahan prosesinin bu kateqoriyaya aid tələbələrin ehtiyaclarına uyğunlaşdırılması (zəif görmə qabiliyyəti olan tələbələrə test imtahanları zamanı yazıların böyük şriftlərdə təqdim olunması, müxtəlif səbəblərdən yazı qabiliyyəti məhdud olan tələbələrlə imtahanın şifahi şəkildə keçirilməsi, ciddi fiziki məhdudiyyətli tələbələr üçün imtahanların onlayn qaydada təşkili) öz əksini tapır. Kitabxana ilə tanışlıq zamanı audio kitabların mövcudluğu, lakin bu formatda sillabusların olmadığı müşahidə edilmişdir. Sağlamlıq imkanları məhdud şəxslərin tədris prosesində nəzərə alınması ilə bağlı konkret mexanizmlərin müəyyənləşdirilməsi və tətbiqi tövsiyə olunur.

### 3.8.11 Sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı vəziyyəti

Özünütəhlil Hesabatına istinadən qeyd edə bilərik ki, QKU-da sosial həssas qrupa aid edilən tələbələrin təhsil haqlarının ödənməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 13 aprel tarixli “Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi barədə” Qanuna uyğun olaraq təşkil olunmuşdur. Eyni zamanda, ATM-in rektoru və Qəyyumlar Şurasının üzvü ilə aparılmış söhbətlər zamanı 2020-ci ildən etibarən II Qarabağ müharibəsi iştirakçıları və qazilərinin təhsil haqlarının ATM tərəfindən qarşılandığı bildirildi.

### 3.8.12 Təhsilalanlara ATM tərəfindən təqaüd imkanının yaradılması vəziyyəti

Qərbi Kaspi Universitetində təqaüd imkanının yaradılması Azərbaycan Respublikası Nazirlər kabinetinin 2016-ci il 5 fevral tarixli qərarı ilə təsdiq edilmiş "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrinin, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinin tələbələrinə təqaüdlərin təyin olunması və ödənilməsi" qaydasına müvafiq olaraq həyata keçirilir. Bununla yanaşı, QKU-ya yüksək balla qəbul olmuş və ümumi orta müvəffəqiyyət göstəriciləri (ÜOMG) yüksək olan tələbələrə ATM tərəfindən əlavə təqaüd imkanları yaradılmışdır. Bu fakt tələbələrlə görüş zamanı da səsləndirilmişdir. Belə ki, müsahibədə iştirak edən tələbələrdən biri QKU-ya 400-dən çox balla qəbul olduğu və 4 il ərzində ÜOMG-i 80-nin üzərində olduğu üçün ona illik ödənişdə 30% güzəşt edildiyini bildirdi.

ATM tərəfindən təhsilalanlara hər hansı adlı təqaüdlərin verilməsi nəzərdə tutulmamışdır. Gələcəkdə tələbələr üçün müxtəlif istiqamətlərdə ATM-in profilinə uyğun təqaüdlərin, birbaşa ödənişlərin və s. təsis edilməsi tövsiyə olunur.

### 3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi

#### 3.9.1 Təhsil proqramlarının monitorinqi strategiyasının və Fəaliyyət planının mövcudluğu

QKU-da ümumi, eləcə də mövcud fakültələr üzrə ayrı-ayrılıqda təhsil proqramlarının monitorinqi strategiyaları və fəaliyyət planları mövcuddur. Tədris prosesində tətbiq edilən normaların effektivliyinə nəzarət və təkmilləşdirilməsi ilə əlaqədar uyğun olaraq ATM üzrə umumi, eləcə də mövcud fakültələr üzrə ayrı-ayrılıqda təhsilin keyfiyyət parametrləri üzrə işçi qrupları yaradılmışdır ki, həmin işçi qrupları tərəfindən fənn proqramlarının və tədris vəsaitlərinin hazırlanması, ixtisasın tədris və elmi fəaliyyətlərlə bağlı problemləri haqqında müvafiq hesabatların hazırlanması, hər bir ixtisas üzrə qiymətləndirmə və keyfiyyət təminatı fəaliyyətlərinin həyata keçirilməsi, müvafiq hesabatların hazırlanması kimi məsələlər diqqətdə saxlanılır, ixtisaslar üzrə təhsil proqramlarının məzmunu və mənimsənilmə səviyyəsi təhsilin nəticələrinə görə təhlil olunur, təhsilalanların hansı təhsil proqramlarına üstünlük verməsi izlənilir.

#### 3.9.2 Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının mövcudluğu

Təlim nəticələrinə dair hesabatlar hər il hazırlanır və kafedra iclaslarında müzakirə olunur. Təhsil proqramlarının monitorinqi nəticəsində daha effektiv təlim metodlarının seçilməsi, məzmun baxımından bir sıra fənlərin (peşə hazırlığının seçmə fənləri) yenisi ilə əvəz olunması, qiymətləndirmə meyarlarına yenidən baxılması və s. kimi tədbirlər görülmüşdür. İxtisasların təhsil proqramları üzrə təklif olunan seçmə fənlər əmək bazarının tələblərini və informasiya texnologiyalarının müasir imkanlarının tətbiqini nəzərə almaqla ixtisasların peşə hazırlığının əsaslarını təşkil edir və burada əsas məqsəd təlim nəticələrinin əldə olunmasını təmin etməkdən ibarətdir.

QKU-da təhsil proqramlarında yeni fənlər üzrə xarici və yerli mütəxəssislərin iştirakı ilə təlimlər təşkil edilir. Təlimin nəticəsi olaraq təhsil proqramında olan təlim nəticələri nəzərə

alınmaqla nümunəvi fənn proqramları və fənlər üzrə sillabuslar hazırlanmışdır. Hazırlanmış əksər nümunəvi fənn proqramları peşə kompetensiyalarını özündə əks etdirmir. QKU-da yaradılmış təhsilin keyfiyyət parametrləri üzrə işçi qrupları təhsilalanların akademik məsələləri ilə bağlı müvafiq qərarların alınması, dərsliklər, dərs vəsaitləri və digər tədris-metodiki vəsaitlərin hazırlanması ilə bağlı müvafiq qərarların və rəsmiləşdirmələrin aparılması məsələlərini həll edir.

Hazırlanan fənn proqramlarının və sillabusların xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrinin təcrübələrindən bəhrələnməklə kompetensiya əsaslı tərtib edilməsi tövsiyə olunur.

### 3.9.3 Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə töhfəsinin qiymətləndirilməsinin aparılması vəziyyəti

QKU-da təhsil proqramlarının tərtibi, o cümlədən seçmə fənlərin seçimi, eləcə də bu prosesin monitorinqi maraqlı tərəflərin iştirakı ilə həyata keçirilir, daim diqqətdə saxlanılmaqla və izlənilməklə zərurət yarandığı hallarda onlara müvafiq düzəlişlər edilir. Prosesdə araşdırma zamanı əldə olunmuş məlumatların mütəmadi təhlili aparılır və proqramın müasir dövrün tələblərinə cavab verməsi üçün müvafiq düzəlişlər edilir və sonda ictimaiyyətə təqdim edilir. Təhsil proqramlarının dövri monitorinqi və qiymətləndirmə mexanizminin beynəlxalq təcrübəyə əsaslanaraq hazırlanması tövsiyə olunur.

Tədris planlarının nəzərdən keçirilməsi istiqamətində görülən işlər barədə Tədrisin təşkili və idarə olunması Mərkəzi tərəfindən hazırlanmış illik və yarımillik hesabatlar təqdim olunmuşdur.

### 3.9.4 Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması vəziyyəti

QKU-da kafedralar tərəfindən təhsil proqramları üzrə hazırlığın illik özünüqiymətləndirmə hesabatları hazırlanır və fakültə elmi şuralarında müzakirə olunaraq təhlil edilir və müvafiq qaydada qiymətləndirilir. Belə ki, Elmi Şurada tədrisin təşkili və onun nəticələri haqqında hesabat QKU-nun Tədris işləri üzrə prorektoru, imtahan sesiyyasının nəticələri, hər iki semestr üçün, ayrı-ayrılıqda İmtahan mərkəzinin direktoru tərəfindən məruzə edilir və Elmi Şuranın üzvləri tərəfindən müzakirə edilərək müvafiq qərarlar qəbul edilir.

### 3.9.5 Təhsil müəssisəsində tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi vəziyyəti

QKU-da tədris olunan təhsil proqramları əmək bazarının və cəmiyyətin tələblərinə uyğun, 2020-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 fevral 2019-cu il tarixli 45 saylı Qərarına əsasən təsdiq edilmiş ixtisasların (proqramların) təsnifatına uyğun qaydada hazırlanaraq rəsmiləşdirilmişdir. “Ali təhsil müəssisələri tərəfindən müəyyən edilən fənlər” (İxtisasın (proqramın) peşə hazırlığının seçmə fənləri) ATM Elmi Şurası tərəfindən təsdiq

edilmişdir. Belə ki, təhsil proqramlarında ATM-lər üçün nəzərdə tutulmuş 60 kreditlik fənlər müəyyənləşdirilərkən əmək bazarının nümayəndələrinin, o cümlədən nüfuzlu təsərrüfat subyektlərinin təklifləri nəzərə alınır. Məsələn Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Zoologiya İnstitutu, Genetik Ehtiyatlar İnstitutu, Dendrologiya İnstitutu və s. müəssisələr ilə keçirilmiş görüşlərin və bu istiqamətdə qəbul edilmiş qərarların elmi şura protokolları Komissiyaya təqdim olunmuşdur.

Təhsil proqramlarının dövri monitorinqi və qiymətləndirmə mexanizminin beynəlxalq təcrübəyə əsaslanaraq hazırlanması tövsiyə olunur.

## 3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi

### 3.10.1 Karyera mərkəzinin mövcudluğu vəziyyəti

Sahə baxışı zamanı apardığımız müşahidələrə istinadən deyə bilərik ki, QKU-da 2018-ci ildən etibarən Tələbə və Məzunların Təcrübə və İnkişaf Mərkəzi mövcuddur. Hal-hazırda bu mərkəzdə yalnız 1 nəfər fəaliyyət göstərir. Tələbələr arasında keçirilmiş anonim sorğunun nəticələrinə əsasən hazırlanmış aşağıdakı diaqramlardan göründüyü kimi, tələbələrin 62%-i belə bir mərkəzin mövcudluğundan xəbərdar deyil, 75%-i isə mərkəzin xidmətlərindən yararlanmadıqlarını qeyd edirlər. Bu iki göstərici onu deməyə əsas verir ki, tələbələrin mərkəzin təklif etdiyi xidmətlərlə tanış olmağa və onlardan yararlanmağa təşviq edilməsi məqsədəuyğundur.







Şəkil 3.18 Karyera mərkəzinin mövcudluğu vəziyyəti

### 3.10.2 Tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi vəziyyəti

Özünütəhlil Hesabatında Tələbə və Məzunların Təcrübə və İnkişaf Mərkəzi tərəfindən "Karyera planlaması" ,"Yumşaq bacarıqlar" və "Sərt bacarıqlar" fənləri üzrə tədrisin həyata keçirilməsinin planlaşdırıldığı bildirilir. Təqdim olunan tədris planlarına baxış zamanı bəzi ixtisaslar üzrə təcrübə proqramlarına bu fənlərin daxil edilməsi müşahidə olunur. 2023-cü ilin oktyabr ayında isə QKU-da CIBS Europe Psixologiya və Təlim Mərkəzinin təsisçisi Təbriz Hacınskinin "Emosional İntellekt-Yumşaq bacarıqlar" mövzusunda təlimi təşkil olunub. Bundan əlavə, rəhbərliklə söhbət zamanı ATM-in 60 şirkətlə aktiv əməkdaşlıq müqaviləsinin olduğu bildirilmişdir ki, həmin şirkətlər və qurumlarla bağlanmış memorandumlar da bizə təqdim olunmuşdur. Belə əməkdaşlıqlardan biri də QKU ilə Sumqayıt Texnologiyalar Parkı arasında Anlaşma Memorandumunun imzalanması ilə bağlı razılığın əldə olunmasıdır. (https://wcu.edu.az/az/news/qerbi-kaspi-universiteti-ve-sumqayit-texnologiyalar-parki-em).

### 3.10.3 Məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

Sahə səfəri zamanı ATM-də hər il və ya 2 ildən bir əmək yarmarkalarının keçirildiyi və bu yarmarkalarda ən az 40 şirkətin iştirak etidiyi bildirildi. Baş tutmuş əmək yarmarkaları ilə bağlı fotoşəkillər ATM tərəfindən təqdim olunmuşdur (https://wcu.edu.az/az/news/qerbi-kaspi-universitetinde-emek-yarmarkasi-kechirilib, https://wcu.edu.az/az/news/qerbi-kaspi-universitetinde-emek-yarmarkasi-kechirilib-id-17).

QKU-nun rəsmi internet saytında məzunların məşğulluq vəziyyəti ilə bağlı sorğu yerləşdirilib (sorğunun linki: https://docs.google.com/forms/d/1CjNHkbACZX_EKENuSGeJlsQBnAZ8ZHtBii7BNMHxeaE/viewform?edit_requested=true. Bu sorğunun nəticələrinə əsasən onların məşğulluq səviyyələri izlənilir və hesabatlılığı təmin olunur; 2017-2023-cü illərdə aparılmış hesabatlar bu linklərdə yer alır: https://wcu.edu.az/uploads/files/Alumni_2017-20199.pdf
https://wcu.edu.az/uploads/files/alumni_20200-2021.pdf
https://wcu.edu.az/uploads/files/alumni_2022-2023.pdf

### 3.10.4 Məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi vəziyyəti

Özünütəhlil Hesabatında məzunların təhsil aldıqları müddətdə QKU-da təhsil proqramı çərçivəsində əldə etdikləri nəzəri biliklərin məzun olduqdan sonra karyera qurucuIuqlarındakı rolunun araşdırılması məqsədilə Tələbə və Məzunların Təcrübə və İnkişaf Mərkəzi tərəfindən sorğuların keçirildiyi bildirilir. Yalnız ATM məzunlarının öz e-mail ünvanları ilə daxil ola bildiyi sorğu linki aşağıda verilmişdir:
https://wuaz.sharepoint.com/sites/TestSite/Shared%20Documents/Forms/AllItems.aspx?id=%2Fsites%2FTestSite%2FShared%20Documents%2FT%C9%99l%C9%99b%C9%99%20M%C9%99lumat%20M%C9%99rk%C9%99zi%2FSor%C4%9Fular%2FATM-%.

Bu istiqamətdə aparılan sorğularla bağlı daha əhatəli və sistemli işlərin həyata keçirilməsi tövsiyə olunur.

### 3.10.5 Məzunlarla davamlı əlaqə sisteminin mövcudluğu vəziyyəti

Özünütəhlil Hesabatına istinadən qeyd edə bilərik ki, 2022/2023-cü tədris ilindən etibarən QKU Məzunlarının Asossiasiyası fəaliyyətə başlayıb. QKU-da Məzun Assosiasiyasının təşkilatçılığı ilə məzunlarla görüşlər keçirilir. (https://wcu.edu.az/az/news/qerbi-kaspi-universitetinde-mezun-assosiasiyasinin-teshkilat). Həmçinin sahə səfəri zamanı akademik məsləhətçilərin verdiyi məlumata görə, məzun olmuş qrup nümayəndələri ilə WhatsApp platforması üzərindən də davamlı əlaqələr saxlanılır.

## ELMİ TƏDQİQAT

### 4.1 Elmi-tədqiqat strategiyası

#### 4.1.1 ATM-in elmi-tədqiqat strategiyasının mövcudluğu vəziyyəti

Təqdim olunmuş sənədlərə baxış zamanı müəyyən edilmişdir ki, QKU-nun bir öncəki akreditasiyadan sonra iki elmi-tədqiqat strategiyası (ETS) işlənib hazırlanmışdır:
a) 2018-2020-ci illəri əhatə edən ETS: QKU Elmi Şuranın 14 sentyabr 2018-ci il tarixli iclasında müzakirə edilmiş və təsdiq edilmişdir (protokol № 1).
b) 2021-2025-ci illər üzrə ETS: QKU Elmi Şuranın 31 may 2021-ci il tarixli iclasında müzakirə edilmiş və təsdiq edilmişdir (protokol № 10).

Sahə baxışı zamanı bu elmi–tədqiqat strategiyasına əsasən əməl olunduğu müşahidə edilmişdir.

#### 4.1.2 Elmi-tədqiqat strategiyasının ATM-in missiyasına və hədəflərinə uyğunluğu vəziyyəti

QKU-nun Elmi-tədqiqat strategiyası ATM-in missiyasına və hədəflərinə uyğun olaraq hazırlanmışdır. Belə ki, SİP-də 8 istiqamətdə nəzərdə tutulan məqsədlərdən 3-cü məqsəd “Tədqiqat üçün yaradıcı, təşəbbüskar və beynəlxalq tələblərə cavab verən mühitin formalaşdırılması” başlığı altında 5 hədəfdən ibarətdir. Eyni zamanda QKU-nun missiyasının əsas istiqamətlərindən biri də “Elmi tədqiqatlara həvəsləndirici və təkanverici qüvvə olmaq” olaraq təyin edilmişdir (https://wcu.edu.az/az/page/strategy).

Ancaq sahə baxışı zamanı SİP-in 3-cü məqsədinin 2-ci və 3-cü hədəflərinin yerinə yetirilməsində gecikmənin olduğu müşahidə edilmişdir. SİP-in 2021-2025-ci illər üzrə təsdiqləndiyi nəzərə alındıqda, 3-cü hədəfin nəzərdə tutulan dövr ərzində yerinə yetirilməsi mümkün olmaya bilər.

#### 4.1.3 ATM-in elmi-tədqiqat siyasətinin, onun məqsədlərinin və prioritet tədqiqat sahələrinin və istiqamətlərinin, təşviq mexanizmlərinin və tədqiqat fəaliyyətinin idarə olunmasının elmi-tədqiqat strategiyasında nəzərə alınması vəziyyəti

ATM-ə aid SİP-in Məqsəd 3, Hədəf 1-də “2025-ci ilə qədər tədqiqat üçün yaradıcı, təşəbbüskar və beynəlxalq tələblərə cavab verən mühitin formalaşdırılması və tədqiqat işlərinin keyfiyyətinin artırılması” hədəflənmişdir. Bu hədəflərin yerinə yetirilməsi üçün Elmi-tədqiqat strategiyasında QKU-nun elmi fəaliyyəti, prioritet tədqiqat sahələri və istiqamətləri, elmi fəaliyyətin idarə olunması və təşviqi mexanizmləri öz əksini tapmışdır. Bu məlumatları təsdiq edən sənədlər Akkreditasiya Komissiyasına təqdim edilmişdir.

#### 4.1.4 Elmi-tədqiqat məqsədlərinin ATM-in uzunmüddətli strateji inkişaf proqramının istiqamətlərinə uyğunluğu

Özünütəhlil Hesabatında qeyd olunduğu kimi, QKU-un SİP-də 8 istiqamətdə məqsədlər və həmin məqsədlərin 24 hədəfi müəyyən edilmişdir və onlar ETS-də nəzərə alınmışdır. Xüsusilə də SİP-də ETS-nin 3-cü məqsədi “Tədqiqat üçün yaradıcı, təşəbbüskar və beynəlxalq tələblərə cavab verən mühitin formalaşdırılması” adlanır və 2025–ci ilə qədər tədqiqat işlərinin keyfiyyətinin artırılması, “Tədqiqat universiteti” statusunun alınması, yüksək səviyyəli və təsirli tədqiqatların həyata keçirilməsi, elmi-pedaqoji kadr hazırlığının təkmilləşdirilməsi və beynəlxalq indeksli jurnalların tələblərinə uyğunlaşmaq kimi 5 hədəf də nəzərə alınmışdır.

Lakin Akkreditasiya Komissiyasına təqdim olunan sənəddə icra müddəti “2025-ci ilə qədər” qeyd olunmuş 3-cü məqsədin yerinə yetirilməsi üçün orta və qısa müddətlərdə görüləcək işlərin planları verilməmiş və məqsədin həyata keçirilməsinin mövcud vəziyyəti qiymətləndirilməmişdir. Eyni zamanda hədəflər və tədbirlər üzrə kəmiyyət indikatorları əksini tapmamışdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 610 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinə “Tədqiqat universiteti” statusu verilməsi üçün TƏLƏBLƏR”, icra müddəti fərqli olan mərhələləri ehtiva edir, bu müddət ərzində müəyyən elmi, maddi-texniki bazanın yaradılmasını və elmi-tədqiqatların aparılması nöqteyi nəzərindən professor-müəllim heyətinin hazırlığının təkmilləşdirilməsini və müəyyən səviyyəyə yüksəldilməsini tələb edir.

### 4.1.5 Strategiyada elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyasının nəzərə alınması vəziyyəti

ATM-də magistrant və doktorantların tədqiqat bacarıqlarını inkişaf etdirmək üçün müxtəlif seminar və təlimlərin keçirilməsi, “Elmi tədqiqat metodları”, “Molekulyar biologiyanın tədqiqat metodları”, “Elmi tədqiqatın metodologiyası” fənlərinin sillabuslarının təkmilləşdirilməsi və digər məsələlər nəzərdə tutulmuş və həyata keçirilməkdədir. Eyni zamanda, tədqiqat nəticələrinin nəşr edilməsinə dəstək göstərilməsi, tələbələrin müxtəlif yerli və beynəlxalq proqramlar çərçivəsində tədqiqat yönümlü start-up layihələrində iştirak etmələrinə şərait yaradılmışdır. QKU-da magistrant və doktorantlar həm elmi-tədqiqat işlərinə və qrant layihələrinə, həm də xarici ölkələrin nüfuzlu ATM-lərində çalışan tədqiqatçı alimlərin kadr hazırlığına cəlb edilmişlər. Eyni zamanda magistrant və doktorantlar tədris prosesində də iştirak edirlər.

Sahə baxışı zamanı Akkreditasiya Komissiyasına təqdim olunan elmi tədqiqat fəaliyyəti haqqında sənəddə 2022-2023 illərdə elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda və s. tədbirlərdə iştirak etmiş gənc təhsilalanların sayı göstərilməmişdir. Birgə tədqiqat proqramlarının sayının bütün hesabat dövründə 1 (bir) olduğu, beynəlxalq elmi-tədqiqat şəbəkələlərində iştirak etmiş tədqiqatçıların olmadığı, beynəlxalq qrant layihələrinin sayının 2 (iki) olduğu vurğulanmışdır. Eyni zamanda bu illər ərzində 5 (beş) doktorant və dissertantın ATM-də işə cəlb edildiyi göstərilmişdir. 4-cü kurs tələbələr və magistrlarla görüşün nəticələrinə görə, QKU-da bu yöndə fəaliyyətin davam etdiyi müşahidə edilmişdir.

### 4.1.6 Strategiyada professor-müəllim heyətinin performansının nəzərə alınması vəziyyəti

QKU-nun Özünütəhlil Hesabatında, elmi-tədqiqatla məşğul olan professor-müəllim heyətinin ixtisas profillərinin apardıqları elmi-tədqiqat işləri ilə uyğunluq təşkil etdiyi qeyd edilmişdir. Akademik heyətin tədqiqat bacarıqlarının təkmilləşdirilməsi və tədqiqat fəaliyyətlərinə dəstək verilməsi, beynəlxalq elektron resurslara çıxışın genişləndirilməsi, tədqiqatçılar üçün beynəlxalq elmmetrik bazalarda şəxsi səhifələrin yaradılması, SCOPUS və "Web of Science" indeksli jurnallarda elmi məqalələrin dərc olunmasının təşkili, beynəlxalq elmi konfransların keçirilməsinə texniki və maddi dəstəyin göstərilməsi, habelə məqaləsi dərc olunan tədqiqatçıların mükafatlandırılması ETS-də nəzərdə tutulmuşdur.

Sahə baxışı zamanı, Akkreditasiya Komissiyasına təqdim olunan sənədlərdən də görünür ki, QKU-da tədqiqat bacarıqlarının təkmilləşdirilməsi və məqaləsi dərc olunan tədqiqatçıların mükafatlandırılması diqqət mərkəzində saxlanılır. Bu, QKU-nun Elmi Şurasının 12 noyabr (Protokol №3), 02 noyabr 2023 (Protokol №2) və 27 yanvar 2024 (Protokol №5) qərarları ilə təsdiqlənmişdir.

Ancaq QKU-da daimi ştatda çalışan professor-müəllim heyətinin özlərinə xas olan aparıcı fundamental elmi-tədqiqat layihələrinin və ya mövzularının olduğu haqqında məlumat əldə edilməmişdir. Xüsusilə universitet-sənaye işbirliyi layihələrinin həyata keçirilməsi yönündə görülən işlərin yetərsiz olduğu müşahidə edilmişdir.

### 4.1.7 Elmi-tədqiqat strategiyasının müəssisədəki akademik heyət, yerli və xarici tərəfdaşlar üçün əlçatanlığı vəziyyəti

Sahə baxışı zamanı QKU-da həyata keçirilən Elmi Tədqiqat Strategiyasının ATM-in rəsmi internet səhifəsində yerləşdirildiyi (https://wcu.edu.az/uploads/files/2021-2025changed.pdf), e-kitabxana və korporativ e-mail (https://library.wcu.edu.az/, teachers@wcu.edu.az) vasitəsilə struktur rəhbərlərinə və müəllimlərə göndərildiyi və beləliklə də ETS-in yerli və xarici tərəfdaşlara əlçatanlığının təmin edildiyi müəyyən edilmişdir. Mütəmadi olaraq da bu yöndə olan məlumatların internet səhifəsində yenilənməsi həyata keçirilməkdədir.

### 4.1.8 Elmi-tədqiqat strategiyasının hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti

QKU-nun Özünütəhlil Hesabatında ETS-nin hazırlanmasında maraqlı tərəflərin iştirakının təmin edildiyi qeyd edilmiş və buna misal olaraq 20 aprel 2021-ci ildə AMEA İqtisadiyyat İnstitunun, Azərbaycan Dövlət Pedaqoji Universitetinin və AMEA Genetik Ehtiyatlar İnstitutunun əməkdaşları ilə keçirilmiş iclaslar və müzakirələr qeyd edilmişdir. Lakin bununla bağlı ayrıca təsdiqedici sənəd təqdim edilməmişdir. Əlavə olaraq ATM-in Elmi Şurasında ETS müzakirə olunarkən təhsilalanların nümayəndələrinin iştirak etdikləri də vurğulanmışdır.

Ancaq ETS-nin hazırlanmasında əsas maraqlı tərəflərdən biri işəgötürənlərdir. Buna görə işəgötürənlərin də bu iclaslarda iştirakının təmin edilməsi, istək və tövsiyələrinin ETS-də diqqətə alınması tövsiyə olunur.

## 4.2 Tədqiqat resursları

### 4.2.1 ATM-in infrastrukturunun, maddi və texnoloji resurslarının, büdcəsindən ayrılan maliyyə resursunun onun elmi-tədqiqat məqsədlərinə və strategiyasına uyğunluğu vəziyyəti

QKU tərəfindən təqdim olunan sənədlərdə elmi-tədqiqat işlərinin aparılması üçün təcrübə bazalarının, laboratoriyaların, infrastrukturun maddi-texniki bazası və texnoloji resurslarının təkmilləşdirilməsi məqsədilə hesabat dövründə aşağıdakı büdcə vəsaitlərinin ayrıldığı bəyan edilmişdir:

Cədvəl 4.1 QKU 2018-2022- ci illərdə Elmi Tədqiqata ayrılan büdcə vəsaitinin hesabatı

| **İllər** | **Elmi-tədqiqata ayrılan büdcə vəsaitinin həcmi (manatla)** |
|---|---|
| **2018** | 228205,74 |
| **2019** | 82682 |
| **2020** | 38708 |
| **2021** | 162116 |
| **2022** | 300362 |

Cədvəldən göründüyü kimi, elmi-tədqiqata ayrılan büdcə vəsaiti 2020-ci ildən etibarən artan bir dinamikaya malikdir. Bununla belə bu büdcənin 2023-2024-cü illər üzrə məlumatları təqdim olunmamışdır. Sahə baxışı zamanı ATM-in imkanları çərçivəsində elmi-tədqiqata ayrılan büdcənin onun ETS və elmi-tədqiqat məqsədlərinə uyğunluğunun ümumilikdə qənaətbəxş olduğu müşahidə edilmişdir.

### 4.2.2 Aktiv elmi-tədqiqatla məşğul olan professor-müəllim heyətinin mövcud olması vəziyyəti

Özünütəhlil Hesabatında QKU-da aktiv elmi tədqiqatla məşğul olan professor-müəllim heyətinin sayı aşağıdakı qrafikdə göstərilmişdir:




Şəkil 4.1 Aktiv elmi-tədqiqatla məşğul olan professor-müəllim heyətinin sayı

Qrafikdən göründüyü kimi, 2021-2024-cü illərdə aktiv elmi tədqiqatla məşğul olan professor-müəllim heyətində ciddi geriləmə olmuşdur. Buna baxmayaraq, sahə baxışı zamanı təqdim olunan sənədlərə və Elmi şöbənin əməkdaşları ilə görüşlərə istinadən məlum olmuşdur ki, hesabat dövründə QKU-da yerinə yetirilən elmi-tədqiqat işlərinin həcmi və bu işlərin nəticələrinin dərc edilməsi yönündəki ümumi tendensiya müsbət olaraq qalmışdır.

### 4.2.3 Aktiv elmi-tədqiqatla məşğul olan gənc tədqiqatçıların təşkilatlanması vəziyyəti

Qərbi Kaspi Universitetində elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların təşkilatlanması üzrə işlər həyata keçirilir. Bu məqsədlə ATM-in Elm şöbəsinin, Doktorantura və magistratura şöbəsinin və Beynəlxalq əlaqələr şöbəsinin koordinasiyası ilə “Gənc tədqiqatçılar klubu” yaradılmış və hal-hazırda fəaliyyət göstərir. Bu fəaliyyətlərin nəticəsi olaraq “Gənc tədqiqatçılar klubu”nun üzvləri müxtəlif səviyyəli konfranslarda iştirak edirlər. Akkreditasiya Komissiyasına təqdim edilən sənədlərə baxış və klubun üzvləri ilə keçirilən görüş zamanı bu fəaliyyətlər öz təsdiqini tapmışdır.

Sahə baxışı zamanı təqdim olunan sənədlərə əsasən 2022-2023-cü illər ərzində gənc təhsilalan-tədqiqatçıların elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda iştirakının az olduğu qənaətinə gəlinmişdir. Eyni zamanda bu sənədlər, gənc tədqiqatçıların qrantlarda və ortaq layihələrin yerinə yetirilməsindəki iştirak payını, beynəlxalq nəşrlərdə dərc olunmuş əsərlərinə istinad sayını və h-indeks kimi indikatorları özündə əks etdirməmişdir.

### 4.2.4 Tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışının olması vəziyyəti

Sahə baxışı zamanı müəyyən edilmişdir ki, QKU-da tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışları təmin edilmişdir. Xüsusilə tədqiqatçıların SCOPUS, WoS elmmetrik bazalarına girişinin təmin edilməsi üçün korporativ e-mailləri təmin edilmiş və həmin tədqiqatçıların profilləri yaradılmışdır. Eyni zamanda qeydiyyatdan keçən hər bir əməkdaşın bu xidmətdən istifadə etmə imkanı yaradılmışdır. Akkreditasiya Komissiyası üzvlərinin QKU-nun kitabxanasına ziyarəti zamanı burada tədqiqatçılar üçün digər bazalara da çıxışların təmin edildyi müəyyən edilmişdir. Bu bazalar: Oxford Reference, Oxford Research Encyclopedias, Oxford English Dictionary, Very Short Introductions, What everyone needs to know bazalarıdır.
https://library.wcu.edu.az/az/news/databases-of-oxford-university-press-are-accessible-to-wcu-s

Həmçinin ATM Perlego – online dərslik platformasına illik abunə olmuşdur. Bu platforma vasitəsilə tələbə və müəllim heyəti 24/7 onlayn qaydada istənilən yerdən müxtəlif dərslik və dərs vəsaitlərindən istifadə edə bilmək imkanı əldə etmişdir.
https://library.wcu.edu.az/az/news/perlego-online-derslik-platformasi

### 4.2.5 Nəticəyönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizmlərin olması vəziyyəti

Sahə baxışı zamanı QKU-da nəticəyönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün tədqiqatçıların stimullaşdırılması tədbirləri tətbiq olunur və təkmilləşdirilir. Belə ki, nüfuzlu beynəlxalq jurnallarda dərc olunmuş elmi məqalələrə görə professor-müəllim heyətinin stimullaşdırılması barədə QKU-nun Elmi Şurasının 12 noyabr 2022-ci il tarixli iclasında (5 nömrəli Protokol) mexanizm təyin edilmiş, sonrakı illərdə də bu stimullaşdırıcı mexanizmlər inkişaf etdirilmişdir. Belə ki, Akkreditasiya Komissiyasına təqdim edilmiş QKU-un Elmi Şurasının 02 noyabr 2023 (2 nömrəli Protokol) və 27 yanvar 2024 (5 nömrəli Protokol) tarixli qərarları ilə stimullaşdırma mexanizmlərinə yenidən baxılmış və mükafatlandırmanın məbləği artırılmışdır.

Bununla belə, təqdim olunan sənədlərdə elmi-tədqiqat işlərinin stimullaşdırılması əsasən beynəlxalq nəşrlərdə çap olunmuş məqalələri əhatə edir. Nəticəyönümlü elmi-tədqiqat işlərində patent və universitet-sənaye layihələri də önəmli yer tutur. Elmi Şuranın bu meyarları da stimullaşdırma mexanizmlərinə daxil etdiyi təqdirdə, nəticəyönümlü elmi-tədqiqat işlərinin keyfiyyətinin kompleks olaraq yüksəldilməsinə nail oluna bilər.

### 4.2.6 Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlərin artım dinamikası

QKU-un Özünütəhlil Hesabatında elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə edilən gəlirlərin artım dinamikası 2018-2022-ci illər üçün verilmişdir. Aşağıdakı qrafikdə illər üzrə dəyişməni görmək mümkündür.




Şəkil 4.2. Qərbi Kaspi Universitetinin 2018-2022-cü illərdə qrant layihələrinin büdcə vəsaitinin hesabatı (manatla)

Qrafikdən göründüyü kimi, QKU-da qrant layihələrindən əldə edilən gəlir artan bir dinamikaya malik olsa da həcmi böyük deyildir.

Sahə baxışında təqdim edilən sənədlərdə 2021-2023-cü illərdə QKU-da 2 (iki) beynəlxalq qrant layihəsi alındığı göstərilmiş, 2022-2023-cü illər ərzində əldə edilən gəlir göstərilməmişdir. Bu təhlil göstərmişdir ki, QKU-da elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlər ancaq beynəlxalq qrantlardan alınmışdır. Ancaq müasir ATM-də, xüsusilə də özü-özünü maliyyələşdirən ATM-lərdə qrantlarla bərabər kafedra, fakültə səviyyəsində yerinə yetirilən dövlət, ikili və ortaq layihələrin həyata keçirilməsindən də gəlirlər əldə edilir. Buna görə ATM-də elmi-tədqiqat fəaliyyətlərinin bu yöndə də istiqamətləndirilməsi və təşviq edilməsi məqsədəuyğun ola bilər**.**

### 4.2.7 Müxtəlif elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində əməkdaşlıq əlaqələrinin mövcudluğu vəziyyəti

Sahə baxışı zamanı təqdim olunan sənədlərə görə, QKU-nun toplamda 187 yerli və xarici ölkənin müəssisə və ATM-ləri ilə elmi-tədqiqat fəaliyyəti sahəsində əməkdaşlıq əlaqələri mövcuddur. Bununla bağlı imzalanmış memorandumlar, müqavilələr və keçirilən görüşlər ATM-in internet səhifəsində qeyd olunmuşdur: https://wcu.edu.az/az/news

Ancaq 2022-2023-cü illərdə bu elmi müəssisə və təşkilatlarla yalnız 1 (bir) birgə tədqiqat proqramı hazırlanmışdır. Bu da QKU-nun müxtəlif elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində əməkdaşlıq potensialından səmərəli istifadə etmədiyini göstərir.

## 4.3 Elmi-tədqiqat fəaliyyəti

### 4.3.1 Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi üzrə müvafiq struktur bölmənin olması və müvafiq strategiyaya uyğun olan illik Fəaliyyət planının mövcud olması vəziyyəti

QKU-nun Özünütəhlil Hesabatında elmi-tədqiqat fəaliyyətinin səmərəli idarə edilməsi məqsədilə 6 struktur bölmənin fəaliyyət göstərdiyi qeyd olunmuşdur. Bu struktur bölmələr: Elm şöbəsi, Magistratura və doktorantura şöbəsi, Texnopark, Laboratoriyalar, Xəzər elmi-tədqiqat mərkəzi və Tədqiqat və innovasiyalar mərkəzi olaraq sıralanmışdır. Hər bir struktur bölmənin təsdiq olunmuş əsasnaməsi, o cümlədən SİP və Elmi-tədqiqat strategiyasına uyğun olaraq, hər tədris ili üçün Fəaliyyət planı mövcuddur.

Ancaq sahə baxışı zamanı Texnoparkın fəaliyyəti və bu fəaliyyətdən əldə edilən gəlirləri göstərən sənədlərə rastlanmadı.

### 4.3.2 Elmi-tədqiqat xarakterli konfransların, seminarların, görüşlərin və s. tədbirlərin keçirilməsi vəziyyəti

Sahə baxışı zamanı QKU-da elmi-tədqiqat xarakterli konfransların, seminarların, görüşlərin və bənzər tədbirlərin keçirilməsinin mütəmadi olaraq diqqət mərkəzində saxlanıldığı və bu yöndə yeni axtarışların davam etdiyi müşahidə olunmuşdur. Belə ki, QKU-da hesabat dövründə (2021-2023-cü illərdə) 4 beynəlxalq və 7 respublika səviyyəli konfrans keçirilmiş, seminarlar, görüşlər və digər müxtəlif elmi-tədqiqat xarakterli tədbirlər təşkil olunmuşdur. https://wcu.edu.az/az/news

### 4.3.3 Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər müəssisə və ölkələrin tədqiqatçılarının iştirakı vəziyyəti

QKU-nun missiyasına uyğun olaraq, ATM-də təşkil edilən elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və başqa tədbirlərdə digər müəssisə və ölkələrin tədqiqatçılarının iştirakı təmin edilir. Bu tədbirlərdə ABŞ, Finlandiya, Türkiyə, Almaniya, İsveç, Böyük Britaniya, İsrail, Yaponiya, Rusiya, Çin kimi ölkələrdən tədqiqatçılar iştirak etmişdir. https://wcu.edu.az/az/news

Akkreditasiya Komissiyasına təqdim edilən sənəddə 2021-2022-ci illər ərzində bu tədbirlərdə toplam 265 iştirakçı olduğu qeyd edilmiş, 2022-2023-cü illərdə olan iştirakçı sayı göstərilməmişdir. Komissiya tərəfindən bu elmi-tədqiqat xarakterli konfrans, seminar və görüşlərin digər müəssisə və ölkələrin tədqiqatçılarının yalnız iştirakı ilə deyil, onlarla birgə və ortaq olaraq keçirilməsi tövsiyə olunur.

### 4.3.4 Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə gənc tələbə-tədqiqatçıların iştirakı vəziyyəti

Özünütəhlil Hesabatında ATM-də hər tədris ilinin sonunda gənc tələbə-tədqiqatçılar, magistr və doktorantlar üçün elmi-tədqiqat xarakterli konfransın keçirildiyi və müxtəlif seminarlar, görüşlər və digər tədbirlərin təşkil olunduğu göstərilmişdir. Bu tədbirlərin keçirilməsi və nəticələri haqqında isə ATM-in internet səhifəsində mütəmadi olaraq məlumatlar verilmişdir. https://wcu.edu.az/az/page/conferences https://wcu.edu.az/az/page/conferences

Akreditasiya Komissiyasına təqdim edilmiş sənəddə QKU-da təşkil edilmiş elmi-tədqiqat xarakterli konfrans, seminar, görüş və s. tədbirlərdə, pandemiya dövrü istisna olmaqla, gənc tələbə-tədqiqatçıların aktiv iştirak etdikləri, 2021-2022-ci illərdə bu tədbirlərdə iştirak edən tələbə-tədqiqatçıların sayının 3060 olduğu qeyd edilmişdir. Bu sənəddə 2022-2023-cü illərdə elmi-tədqiqat xarakterli tədbirlərdə iştirak edən tələbə-tədqiqatçıların sayı göstərilməmişdir.

### 4.3.5 Elm və təhsil sahəsində beynəlxalq qrant layihələrində iştirak vəziyyəti

ATM-in elm və təhsil sahəsində beynəlxalq qrant layihələrində iştirakı qeyd edilmişdir. Akkreditasiya Komissiyasına təqdim edilmiş sənəddə 2018-2023-cü illər ərzində QKU-da həyata keçirilən beynəlxalq qrant layihələrinin toplam sayının 4 (dörd) olduğu və bunlardan 3 (üç) layihənin son illər ərzində reallaşdırıldığı göstərilmişdir. Bu indikatorlar QKU-da elm və təhsil sahəsində beynəlxalq qrant layihələrinin alınması və həyata keçirilməsi istiqamətində görülən işlərin qənaətbəxş olduğunu göstərsə də burada elmi-tədqiqat büdcəsini əsasən qazanılan beynəlxalq qrantlar təşkil etdiyinə görə bunların sayının artırılması zərurəti yaranır.

### 4.3.6 Elmi-tədqiqat fəaliyyəti üzrə patentlərin əldə edilməsi və kommersiallaşdırılması vəziyyəti

Özünütəhlil Hesabatında professor müəllim heyətinin müxtəlif illərdə patentlər əldə etdiyi bildirilmiş və onların alınma illəri göstərilmədən 3 (üç) patent olduğu qeyd edilmişdir. Ancaq nə təqdim edilmiş sənədlərdə, nə də sahə baxışında bu patentlərin kommersiallaşdırılmasını təsdiqləyən material verilməmişdir. AK ATM-də elmi-tədqiqat fəaliyyəti üzrə patentlərin eldə edilməsi və onların kommersiallaşdırılması isdiqamətində tədqiqatların gücləndiriməsinin zəruri olduğu qənaətindədir.

### 4.3.7 İnstitutsional əməkdaşlığı (milli və beynəlxalq səviyyədə birgə proqramların icrası və s.), birgə təşəbbüsləri (birgə tədqiqat mərkəzlərinin yaradılması və s.) təşviq edən səmərəli mexanizmlərin mövcudluğu vəziyyəti

Özünütəhlil Hesabatında birgə tədqiqat mərkəzlərinin yaradılması yönündə əməkdaşlıqları təşviq edən səmərəli mexanizmlərin hazırlandığı və həyata keçirildiyi vurğulanmışdır. Bu məqsədlə ATM-də Gender Araşdırmaları Mərkəzi, Dağ mədəniyyətləri və landşaftları tədqiqat İnstitutu, Xəzər Dənizi Problemləri Elmi-Tədqiqat Mərkəzi, Tədqiqat və İnnovasiyalar Mərkəzi yaradılmışdır. Bu mərkəzlər illik fəaliyyət planları, elmi tədqiqat fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi mexanizmləri əsasında fəaliyyət göstərirlər.

### 4.3.8 Birgə tədqiqat proqramlarının mövcudluğu vəziyyəti

Özünütəhlil Hesabatında QKU-nun əməkdaşlarının yerli və xarici ölkələrin ATM və elmi-tədqiqat müəssisələrinin tədqiqatçıları ilə birgə tədqiqat proqramlarının mövcud olduğu qeyd edilmişdir. Bu proqramlara misal olaraq Koreya Elm və Texnologiya Siyasəti İnstitutu (STEPI) və AMEA Yüksək Texnologiyalar Parkı ilə bağlanmış müqavilə göstərilmişdir. Akkreditasiya Komissiyasına təqdim edilən sənəddə isə 2022-2023 illər ərzində yalnız 1 (bir) birgə tədqiqat proqramlarının mövcudluğu müşahidə olunmuşdur. Sahə baxışı zamanı bu proqramların yerinə yetirilməsi planı və əldə olunan nəticələr haqqında materiallar verilməmişdir. QKU-nun 180-dən çox yerli və xarici ölkənin müəssisə və ATM-ləri ilə elmi-tədqiqat fəaliyyəti sahəsində əməkdaşlıq əlaqələrinin mövcud olduğu diqqətə alındığında, mövcud birgə tədqiqat proqramlarının sayı yetərsiz görünür.

### 4.3.9 Tədqiqatçıların beynəlxalq elmi-tədqiqat şəbəkələrində iştirak vəziyyəti

Sahə baxışı zamanı universitet əməkdaşlarının müxtəlif beynəlxalq elmi-tədqiqat bazalarında iştirakı qeyd edilmişdir. Bu tədqiqatların müxtəlif yerli və xarici elmi müəssisələrlə birgə yerinə yetirildiyi və nəticələrin yerli və beynəlxalq nəşrlərdə dərc edildiyi müəyyən edilmişdir. Bununla bərabər, ATM-in professor-müəllim heyətinin, tədqiqatçıların elmmetrik bazalarda şəxsi profillərinin olduğu görünmüşdür. Eyni zamanda QKU-nun Scopus, Web of Sciences kimi nüfuzlu beynəlxalq elmi-tədqiqat şəbəkələrdə profilinin mövcud olduğu və hər bir əməkdaşın həmin bazalara girişinin təmin edildiyi də müəyyən edilmişdir. Bundan başqa, QKU-nun elmi-tədqiqat istiqamətli Beynəlxalq Dırmanma və Alpinizm Federasiyasının üzvü (UIAA) olduğu da vurğulanmışdır. Bu əməkdaşlıq çərçivəsində QKU və UIAA birlikdə davamlı olaraq birgə ekspedisiyalar, konfranslar təşkil edirlər.
https://wcu.edu.az/az/page/mountain-culture-and-landscape-research-institute
https://wcu.edu.az/az/news/international-conference-on-andquotmountains-cultures-landsc

### 4.3.10 Yerinə yetirilən elmi-tədqiqat işlərinin tədris metodiki vasitələrdə istifadəsi vəziyyəti

Özünütəhlil Hesabatında universitetin elmi-tədqiqat işlərinin nəticəsi olaraq monoqrafiya, dərs vəsaiti və metodik vəsaitlərin nəşr olunduğu göstərilmiş və bu elmi tədqiqat işlərinin mövzularının tədris metodiki vasitələrdə, proqramlarda, sillabuslarda öz əksini tapdığı göstərilmişdir. Ancaq elmi-tədqiqat işlərinin tədris sistemində bir başa istifadə metodu və imkanları haqqında məlumat verilməmişdir.

Sahə baxışı və görüşlər zamanı ayrı-ayrı kafedra və fakültələrdə tədris metodiki vəsaitlərin hazırlandığı və istifadə olunduğu müşahidə edilmişdir. Ancaq QKU-da yerinə yetirilən elimi-tədqiqat işlərinin bu metodik vəsaitlərin hansı hissəsini təşkil etdiyi nümunə olaraq müəyyənləşdirilməmişdir.

### 4.3.11 Elmi-tədqiqat materiallarının dərc etdirilmə imkanlarının yaradılması vəziyyəti

Qərbi Kaspi Universitetində həyata keçirilən elmi-tədqiqat işlərinin nəticələrinin dərc edilə bilməsi üçün “Elmi Xəbərlər” jurnalı fəaliyyət göstərir. Jurnal hər seriyası iki dəfə olmaqla, ildə dörd dəfə nəşr edilir (p-ISSN 2789-4606; e-ISSN 2789-4614). Müvafiq elm sahələri üzrə müstəqil və orijinal məqalələri elmi ictimaiyyətin diqqətinə çatdırmaq məqsədi daşıyan jurnal iki seriya halında fəaliyyət göstərir və AAK-nın bölmələrinin 5 sahəsində qəbul olunmuşdur: https://journal.wcu.edu.az/

Sahə baxışı zamanı bu elmi jurnalların son nəşrləri incələnmiş, dərc olunan məqalələrin mövzu rəngarəngliyinə və xronikasına baxılmışdır.

### 4.3.12 Tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (“citation index"-in) artım dinamikası

QKU-nun Özünütəhlil Hesabatında Google Scholarda müəllimlərinin profillərinin əsasında tərtib edilmiş və nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (“citation index"-in) artım dinamikası haqqında məlumatlar cədvəl və qrafik şəklində verilmişdir. Bu qrafikə görə, 2018-2023-cü illərdə Qərbi Kaspi Universitetinin əməkdaşlarının dərc olunmuş məqaləsinə edilən ümumilikdə istinad dinamikasının ayrı-ayrılıqda illər üzrə nəticələri aşağıdakı kimi göstərilmişdir.




Şəkil 4.3 QKU-da istinadların illər üzrə dinamikası

Qrafikə nəzər saldıqda istinad sayında son 5 ildə 1,5 dəfə artım qeydə alındığı görünür. Bunların bir hissəsini QKU-da daimi ştatda olmayan dəvətli professor-müəllimlər tərəfindən dərc edilmiş məqalələr təşkil edir. Hesabat dövründə QKU-da daimi ştatda olan və h-indeksi 5-

dən yuxarı olan professor-müəllim heyətinin sayının 11 (on bir) olduğu nəzərə tutulsa da bu məlumatlarda daimi ştatda olan professor-müəllim heyətinin sayının nə qədər olduğu göstərilməmişdir. Bundan başqa, bu istinadların Scopus və ya WoS bazalarının hansına aid olduğu və bu istinadların neçəsinin müəlliflərin özü-özünə istinadı olduğunu göstərən təsnifat verilməmişdir.

### 4.3.13 Tədris planında (magistratura və doktorantura səviyyələrində) tədqiqat yönümlü fənlərin nəzərə alınması vəziyyəti

QKU-nun Özünütəhlil Hesabatında magistrant və doktorantların tədqiqat bacarıqlarını inkişaf etdirmək "Elmi tədqiqat metodları", "Elmi tədqiqatın metodologiyası" fənlərinin tədris edildiyi vurğulanmışdır. Həmçinin ATM-də magistratura və doktorantura səviyyələrində xüsusi ixtisaslar üçün tədqiqat yönümlü "Molekulyar biologiyanın tədqiqat metodları" kimi fənn də tədris edilir və bu istiqamətdə müxtəlif seminar və təlimlər təşkil edilir.

QKU-da tədris olunan "Elmi-tədqiqat metodları" fənninin sillabusunun təkmilləşdirməsi tədqiqatçılar üçün faydalı olardı.

### 4.3.14 Akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün təlimlərin və seminarların və digər sistematik fəaliyyətlərin həyata keçirilməsi vəziyyəti

QKU-da akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını yüksəltmək üçün müvafiq təlim və seminarların və bənzər fəaliyyətlərin təşkil olunduğu və bu fəaliyyətlərin ATM-in Strateji İnkişaf Mərkəzi, Keyfiyyətə Nəzarət Mərkəzi, Tədris şöbəsi və Elm şöbəsi tərəfindən müvafiq qaydada həyata keçirildiyi qeyd olunmuşdur.

Lakin sahə baxışı zamanı bu təlim və seminarların məndəricatını və icra tarixlərini əks etdirən plan və ya sənəd təqdim olunmadı. Baxış zamanı mövcud laboratoriyaların elmi-tədqiqat məqsədli fəaliyyət səmərəsini yüksəltmək üçün onların yeni və müasir elmi-tədqiqat avadanlıqları ilə təchiz olunmasının mühüm olduğu vurğulanmışdır. Eyni zamanda Texnoparkın Fəaliyyət planı və ATM büdcəsinə gətirdiyi əlavə gəlir haqqında da məlumat təqdim olunmamışdır.

### 4.3.15 Doktorantura proqramlarının təşviq edilməsi və doktorantura məzunlarının işə cəlb edilməsi siyasətinin mövcudluğu

Sahə baxışı zamanı QKU-da doktorantura proqramlarına qəbul prosesi barədə məlumatların ATM-in rəsmi internet səhifəsi vasitəsilə paylaşıldığı müşahidə olunmuşdur. (https://wcu.edu.az/). ÖTH-da 14 nəfər məzun olmuş doktorantın QKU-da işlə təmin olunduğu qeyd olunmuşdur. Akkreditasiya Komissiyasına təqdim edilən sənəddə isə 2017-2023-cü illər ərzində bu rəqəm toplam 10 (on) olaraq verilmişdir. Bundan əlavə, 2022-2023 illər ərzində isə bu rəqəm 1 (bir) olmuşdur.

Özünütəhlil Hesabatında QKU-nun "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində prioritet sahələr üzrə xaricdə təhsilə dəstək verərək nüfuzlu xarici ali

təhsil müəssisələrində doktoranturaya qəbul edilmiş bir çox doktorant ilə üç tərəfli müqavilə imzalandığı da vurğulanmışdır.

Sahə baxışı zamanı, təqdim olunan sənədlər və görüşlərdən QKU-nun doktorantura proqramlarının təşviq edilməsi, məqsədli doktoranturanın həyata keçirilməsi və doktorantura məzunlarının işə cəlb edilməsi siyasətinin qənaətbəxş olduğu görünmüşdür.

### 4.3.16 Ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının (5%-dən az olmamaqla) dəyişməsi vəziyyəti

Özünütəhlil Hesabatında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının (5%-dən az olmamaqla) dəyişməsi vəziyyəti həm cədvəl, həm də qrafik şəkildə əyani olaraq göstərilmişdir.




Şəkil 4.4 QKU-da Elmlər doktoru və professorların sayının illər üzrə artım dinamikası (%)

Qrafikdən göründüyü kimi, QKU-da tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının (5%-dən az olmamaqla) dəyişməsi dinamikası 2020-2021 və 2021-2022-ci illərdə düşsə də sonrakı illərdə say kəskin artmışdır. Ancaq təqdim olunmuş sənəddə bu artımın daimi ştatda olan elmlər doktoru və professorlardan, yoxsa saathesabı professorlardan təşkil olunduğu haqqında məlumat verilməmişdir.

### 4.3.17 Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi vəziyyəti

Özünütəhlil Hesabatında elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbəti aşağıdaki qrafikdə verilmişdir.



Şəkil 4.5 Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi vəziyyəti

Qrafikdən də göründüyü kimi, qeyd edilən nisbət 2022-2023-cü illərdə aşağı düşsə də növbəti ildə yenidən artmışdır. Sahə baxışı və görüşlər zamanı QKU-da bu dinamikanın saxlanması üçün müxtəlif tədbirlərin həyata keçirildiyi müşahidə edilmişdir. Bu tədbirlərdən biri əcnəbi professorların QKU-da elmi-tədqiqat fəaliyyətinə yaxından cəlb edilməsidir.

### 4.3.18 Elmi dərəcələrin alındığı istiqamətlərin kvalifikasiyasının müəssisənin elmi-tədqiqat hədəflərinə uyğunluğu

Özünütəhlil Hesabatında təklif edilən doktorantura proqramlarının ATM-in elmi-tədqiqat hədəfləri ilə uyğun olduğu qeyd edilmişdir. Təklif edilən doktorantura proqramları aşağıdakı 12 (on iki) ixtisas üzrə sıralanmışdır: “Daxili fiskal siyasət və dövlət maliyyəsi”, “Ümumi iqtisadiyyat”, “Dünya iqtisadiyyatı”, “Sahə iqtisadiyyatı”, “German dilləri”, “Dünya ədəbiyyatı”, “Beynəlxalq münasibətlər”, “Siyasi institutlar və sistemlər”, “Texniki estetika və dizayn”, “Sosial psixologiya”, “Tibbi psixologiya”, “Sistemli analiz”, “İdarəetmə və informasiyanın işlənilməsi”.

### 4.3.19 Elmi-tədqiqat fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti

QKU-nun Özünütəhlil Hesabatında ATM-in elmi-tədqiqat fəaliyyətinin monitorinqi mexanizminin mövcud olduğu və monitorinqin ildə iki dəfə aparıldığı vurğulanmış, Elm şöbəsi tərəfindən illik əsasda fəaliyyət planları və meyarlar vasitəsilə monitorinqlərin aparıldığı da qeyd olunmuşdur. Sahə baxışı zamanı elmi-tədqiqat monitorinqlərinin nəticələrinin müzakirələrini, qiymətləndirilməsini, aşkarlanan nöqsanların aradan qaldırılması planını və icra qrafiklərini əks etdirən qərar və ya çıxarışlar təqdim edilməmişdir.

### 4.3.20 Doktorantura dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili

Qərbi Kaspi Universitetində müxtəlif ixtisaslar üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün doktorant hazırlığı həyata keçirilir. ATM-də hər il bu doktorant və dissertantların elmi işlərinin ilkin müzakirələri keçirilir və bu müzakirələrin sənədləri müdafiə üçün müvafiq dissertasiya şurasına təqdim edilir. Dissertasiyaların hazırlanması və müdafiəsinin təşkili müvafiq normativ-hüquqi sənədlərə əsaslanaraq həyata keçirilir. Bunlar aşağıdakı sənədlərdir:

“Elm haqqında” və “Təhsil haqqında” Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli “Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə” və Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarlarları.

Sahə baxışı zamanı QKU-da magistrant, doktorant və dissertantların hazırlanmasına, tədris prosesinin keyfiyyətli təşkilinə, tezis və dissertasiya işlərinin yerinə yetirilməsinə nəzarət və bu fəaliyyətlərin təşkil olunmasına lazım olan dəstəyin verilməsi Magistratura və doktorantura şöbəsi və Elm şöbəsi tərəfindən həyata keçirildiyi müəyyən edilmişdir.

### 4.4 Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti

#### 4.4.1 Antiplagiat və akademik dürüstlük siyasətinin mövcudluğu

QKU-nun Özünütəhlil Hesabatında Qərbi Kaspi Universitetinin “Strike Plagiarism” və “AntiPlagiarism.NET” antiplagiat internet sisteminin xidmətlərindən istifadə etdiyi bəyan edilmişdir. Eyni zamanda akademik dürüstlük qaydalarının ATM-in rəsmi internet səhifəsində əlçatanlığı təmin olunmuşdur (https://wcu.edu.az/uploads/files/QAYDALAR%20TOPLU.pdf).

Sahə baxışı və görüşlər zamanı müasir elmi-texniki tərəqqi nəticəsində təkmilləşdirilmiş plagiat vasitələrinin, özəlliklə də süni intellekt sistemlərinin istifadə edilməsinin qarşısının alınması üçün ATM-in antiplagiat siyasətinin və təminatının mütəmadi olaraq yenilənməsinin və qabaqlayıcı tədbirlərin həyata keçirilməsinin vacib olduğu vurğulanmışdır.

#### 4.4.2 Köçürmə hallarının (tədqiqat və tədris prosesində) qarşısının alınması ilə bağlı effektiv alətlərin və təsdiq olunmuş yazılı prosedurların mövcudluğu

QKU-nun Özünütəhlil Hesabatında tədqiqat və tədris prosesində köçürmə kimi mənfi halların qarşısının alınması üçün effektiv alətlərin və təsdiq olunmuş yazılı prosedurların mövcud olduğu vurğulanmışdır. Belə ki, həm dissertasiya işlərində, həm elmi-metodiki işlərdə, həm də məqalə qəbulu prosedurlarında mövcud qaydalara uyğun şəkildə müvafiq qanunvericiliklə qabaqlayıcı tədbirlərin həyata keçirildiyi görünmüşdür.

Bu istiqamətdə ATM-də həm elmi-tədqiqat, həm də tədris proseslərində köçürmə hallarının qarşısının alınması üçün qabaqlayıcı tədbirlərin (seminar, görüşlər, hüquqi-normativ sənədlərin izahı və s.) keçirilməsi də müsbət nəticələr verə bilər.

#### 4.4.3 ATM-in antiplagiat sisteminin təhsil və elmi-tədqiqat prosesində iştirak edən tələbə və professor-müəllim heyətini əhatə etmə səviyyəsi

Özünütəhlil Hesabatında tədqiqat layihələrinin, kurs işlərinin, məqalələrin, tezis və dissertasiya işlərinin “Strike Plagiarism” antiplagiat sistemi vasitəsilə yoxlanıldıqdan sonra müəllifə təqdim olunduğu vurğulanmışdır. Ancaq sahə baxışı zamanı hesabat dövründə tələbə və professor-müəllim heyətinin təhsil və elmi-tədqiqat fəaliyyətlərində bu istiqamətdə ortaya çıxan mənfi hallara aid nümunələr təqdim edilməmişdir. Eyni zamanda bənzər mənfi halların

inzibati və hüquqi nöqteyi-nəzərdən qiymətləndirilməsi mexanizminə aid qərar və ya sənədlərin mövcudluğu haqqında məlumat verilməmişdir.

Müasir ATM-lərdə elmi-tədqiqat proseslərində, doktorantura (dissertantura) dissertasiyalarının hazırlanması və müdafiəsinin təşkilində plagiat hallarının incələnməsi və qərarların verilməsi üçün təcrübəli professor-müəllim heyətindən ibarət müstəqil Etika Komissiyaları fəaliyyət göstərir.

# 5. İDARƏETMƏ SİSTEMİ

## 5.1 İdarəetmə orqanları

### 5.1.1 ATM-də ödənişli və ictimai əsaslarla fəaliyyət göstərməsi nəzərdə tutulan idarəetmə orqanlarının (himayəçilər, elmi, elmi-metodiki, təhsilalanlar, qəyyumlar şuraları və s.) Nizamnaməyə uyğunluğu və idarəetmə orqanlarının əsasnamələrinin, strukturunun və fəaliyyət planlarının mövcudluğu vəziyyəti

Özünütəhlil Hesabatına əsasən Qərbi Kaspi Universitetinin idarə olunması üçün aşağıdakı idarə və özünüidarə orqanları yaradılmışdır:

- Direktorlar Şurası;
- Qəyyumlar Şurası;
- Elmi Şura;
- Elmi-Metodik Şura;
- İcraçı prorektor;
- Tələbə Gənclər Təşkilatı və Tələbə Elmi Cəmiyyəti;

Sahə səfəri zamanı təqdim olunmuş sənəddə isə ATM-in aşağıda qeyd olunmuş orqanlar tərəfindən idarə olunduğu göstərilmişdir [Istinad: Struktur-ən son-26.02.2024]:

- Təsisçilər Şurası;
- Direktorlar Şurası;
- Qəyyumlar Şurası;
- Universitetin prezidenti;
- Elmi Şura;
- Rektor.

Təqdim olunan sənəd “ən son” adlansa da, adları çəkilən bəzi vəzifələrin hal-hazırda tutulmadığı və vakant olmadığı müşahidə olunmuşdur.

Sahə səfəri zamanı məlum olmuşdur ki, Direktorlar Şurası ATM-in idarə edilməsində Təsisçilər Şurasının səlahiyyətlərini həyata keçirir.

Yuxarıda qeyd olunanlar Qərbi Kaspi Universitetinin 2017-ci ildə qəbul olunmuş Nizamnaməsi ilə ziddiyyət təşkil edir. Belə ki, Nizamnamənin 5.8-ci bəndində ATM-in ali nəzarət və idarəetmə orqanının Böyük Şura olduğu qeyd olunur. Lakin bu şuranın adı qalan digər sənədlərdə qeyd olunmamışdır.

ATM-in struktur cədvəlində mövcud fakültə sayındakı ziddiyyət də müşahidə olunmuşdur. Ümumiyyətlə, bu cədvəl dinamik bir sənəd olmasına baxmayaraq mövcud vəziyyəti əks etdirmir.

ATM-in Nizamnaməsinə əsasən (Nizamnamə 5.16) rektor əvəzçiliklə təyin oluna bilməz. Lakin hal-hazırda rektorun səlahiyyətlərini icraçı prorektor yerinə yetirir. ATM-in təlim-tədris prosesi üzrə ali idarəetmə orqanı ATM-in Elmi Şurasıdır. Elmi Şuranın tərkibi Təsisçilər Şurası tərəfindən təsdiq edilir. Elmi Şuranın tərkibi tutduğu vəzifəyə görə daxil olanlardan və seçki yolu ilə seçilən üzvlərdən formalaşdırılır. Elmi Şuranın iclası onun üzvlərinin

üçdə ikisi iştirak etdikdə səlahiyyətlidir. Elmi Şuranın qərarları iclasda iştirak edən üzvlərin sadə səs çoxluğu ilə qəbul edilir.

**5.1.2 İdarəetmə orqanlarında maraqlı tərəflərin (işəgötürənlərin, tələbələrin, ictimaiyyət nümayəndələrinin və s.) təmsil olunma vəziyyəti**

ATM-də Qəyyumlar Şurası fəaliyyət göstərir. Sahə səfəri zamanı Qəyyumlar Şurasının üzvü ilə görüş keçirilmişdir. Qeyd olunan şəxs ATM-də həmçinin hüquqşünas vəzifəsində çalışır. Aparılan müsahibə və təqdim olunmuş sənədlərə əsasən (İstinad: Qəyyumlar Şurasının Əsasnaməsi) Qəyyumlar Şurasının müsbət fəaliyyəti müşahidə olunmuşdur. Belə ki, bu qurumun fəaliyyətində maraqlı tərəflər təmsil olunur. Şuranın əsasnaməsi ATM-in Nizamnaməsi ilə uyğundur. Sahə səfəri zamanı Qəyyumlar Şurasının 2020-2023-cü illər üzrə hesabatlarına baxılmışdır və fəaliyyətinin mövcudluğu müşahidə olunmuşdur.

Elmi Şurasının tərkibində Tələbə Gənclər Təşkilatının sədri və Tələbə Elmi Cəmiyyətinin sədri təhsilalanları təmsil edirlər.

**5.1.3 İdarəetmə orqanlarının iclaslarının, yığıncaqlarının və tədbirlərinin təsdiq edilmiş Fəaliyyət planına uyğun keçirilməsi vəziyyəti**

ATM-in Elmi Şurası tədris illəri üzrə təsdiq edilmiş İş Planı əsasında nəzərdə tutulmuş məsələlər ətrafında müvafiq müzakirələr təşkil edir.

Sahə səfəri zamanı Elmi Şuranın 2018-2023-cü illərdə tərtib olunmuş iş planları və müvafiq protokolları ilə tanışlıq həyata keçirilmişdir:

1. 2018-2019-cu tədris ili üçün 7 iyul 2018-ci il tarixli 11 saylı iclas protokolu;
2. 2019-2020-ci tədris ili üçün 5 iyul 2019-cu il tarixli 10 saylı iclas protokolu;
3. 2020-2021-ci tədris ili üçün 10 iyul 2020-ci il tarixli 11 saylı iclas protokolu;
4. 2021-2022-ci tədris ili üçün 31 may 2021-ci il tarixli 10 saylı iclas protokolu;
5. 2022-2023-cü tədris ili üçün 30 iyun 2022-ci il tarixli 10 saylı iclas protokolu;
6. 2023-2024-cü tədris ili üçün 30 iyun 2023-ci il tarixli 11 saylı iclas protokolu.

Elmi-Metodiki Şuranın iclasları Əsasnamənin tələblərinə uyğun olaraq bir tədris ilində 10 dəfədən az olmayaraq çağırılır. Növbədənkənar iclaslar Şuranın rəhbərliyinin və ya onun üzvlərinin təklifi ilə çağırıla bilər.

Onun tərkibinə prorektorlar, dekanlar, kafedra müdirləri, struktur bölmə rəhbərləri, müəyyən pedaqoji və elmi-metodiki iş təcrübəsinə malik olan yüksək ixtisaslı müəllim və mütəxəssislər daxil edilir. Elmi-Metodiki Şura tərkibində müvafiq bölmələr fəaliyyət göstərməkdədir. Hər bir bölmənin vəzifələri əsasnamə əsasında tənzimlənməkdədir. Əsasnamə və illik fəaliyyət planları mövcuddur.

ATM-in onillik fəaliyyət planları təqdim olunmuşdur. Fəaliyyət planının ATM-in bütün sahələrini əhatə etdiyi müşahidə olunmuşdur.

**5.1.4 İdarəetmə orqanlarında məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi prosedurunun olması vəziyyəti**

İdarəetmə orqanlarında məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi prosedurunun olması vəziyyəti ilə əlaqədar Elmi Şuranın fəaliyyətini misal göstərmək olar. Belə ki, QKU-nun Elmi Şurasının gündəliyi müvafiq tədris ili üzrə təsdiq edilmiş iş planına uyğun olaraq hazırlanır. Gündəlikdəki məsələlər üzrə məruzəçilər reqlamentə uyğun olaraq çıxış edir və Elmi Şuranın sədri tərəfindən məruzə ilə bağlı təkliflərin, müzakirələrin aparılması üçün Şura üzvlərinə müraciət edilir. Sonda müzakirəyə təqdim olunmuş məsələ Elmi Şura üzvlərinin səs çoxluğu ilə təsdiq olunduqdan sonra qərar qəbul edilir. Elmi Şurada müzakirəyə çıxarılan, lakin müvafiq qaydada təsdiq olunmayan məsələlərin təkmilləşdirilməklə növbəti Elmi Şurada müzakirəyə çıxarılması barədə qərar qəbul olunur. Elmi Şuranın bütün qərarları təsdiq olunduqdan sonra aidiyyəti struktur bölmə rəhbərlərinə təqdim olunur və müvafiq qaydada əmrlə rəsmiləşdirilir. Oxşar mexanizm digər idarəetmə orqanlarından yalnız Qəyyumlar Şurasının fəaliyyətində müşahidə edilmişdir.

### 5.1.5 İdarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarların qanunvericiliyin tələblərinə uyğunluğu, qərarlarının əlçatanlığı və qərarların icra vəziyyəti

Komissiya sahə səfəri zamanı ATM-in Elmi Şurasının qərarları ilə tanış olmuşdur. Elmi Şuranın gündəliyi və müzakirəyə çıxarılacaq bütün məsələlər Elmi Şura üzvlərinin e-poçt ünvanlarına göndərilir. Eyni zamanda qəbul olunmuş qərarlar aidiyyəti üzrə protokol qaydasında da göndərilir. Sahə səfəri zamanı Qərbi Kaspi Universitetinin akademik heyəti ilə keçirilmiş sorğulara nəzər salınmışdır. Qeyd olunan məsələ ilə əlaqədar əməkdaşların rəyləri Şəkil 5.1-dəki kimi olmuşdur.




Şəkil 5.1 Qəbul edilən qərarların öyrənilə bilməsi ilə əlaqədar rəy sorğusunun nəticələri

Sorğuda iştirak edən 30 nəfər düşünür ki, idarəetmə orqanlarında qərarlar tələsik verilir, 65 nəfərin fikrinə görə isə qərarların öyrənilə bilməsində zaman məhdudiyyəti vardır. Digər 30 nəfər isə qərarların müvafiq strukturlara göndərilməməsindən narazıdır. Ümumilikdə sorğuda 130 nəfər iştirak etmişdir.

Elmi-Metodiki Şura öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununa, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin əmrlərinə və Kollegiya qərarlarına, təlimat və göstərişlərinə, eləcə də ATM-

in Nizamnaməsinə, Elmi Şuranın qərarlarına və rektorun əmrlərinə əsaslanır. O cümlədən, qərarların icra vəziyyətinə qənaətbəxş şəkildə nəzarət edilir.

### 5.1.6 İdarəetmə orqanları arasında qarşılıqlı əlaqənin və kommunikasiyanın mövcud olması vəziyyəti

İdarəetmə orqanları arasında qarşlıqlı əlaqə korporativ emaillər vasitəsilə aparılır. Belə ki, müvafiq strukturlara sənədlərin çatdırılması e-poçt vasitəsilə həyata keçirilir. Bu prosesə Ümumi şöbə nəzarət edir və sənədlərin qəbulu, qeydiyyatı və müvafiq strukturlara paylanılmasını təmin edir, sənədlərin icra vəziyyəti ilə maraqlanır, icra prosesinin vaxtında təmin edilməsinə nəzarət edir.

### 5.1.7 İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsünün aparılması vəziyyəti

İdarəetmə orqanlarının fəaliyyəti Nizamnamə və onun əsasında tərtib edilmiş vəzifə təlimatları əsasında tənzimlənir.

Qeyd etmək lazımdır ki, ATM-in idarə edilməsində İcraçı prorektor mühüm vəzifələrə malikdir. Belə ki, Özünütəhlil Hesabatında  və sahə səfəri zamanı müşahidə olunmuş sənədlərdə qeyd olunan struktur rəhbərinin yüksək səlahiyyətlərə sahib olduğu müşahidə olunmuşdur. O, ATM-in əmlakı barədə öz səlahiyyətləri çərçivəsində sərəncamlar verir, müqavilələr bağlayır, etibarnamələr verir, banklarda ATM üçün hesablar açır. İcraçı prorektor səlahiyyətləri çərçivəsində ATM-in bütün işçiləri, tələbələri və digər müdavimləri üçün məcburi əmrlər və göstərişlər verir, işçilərlə müqavilə bağlayır və onlara vəzifə maaşları təyin edir.

Lakin ATM-in Nizamnaməsində, xüsusilə də İdarətemə Orqanları bölməsində bu vəzifəyə rast gəlinməmişdir.

### 5.1.8 İdarəetmə orqanlarının fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu, idarəetmə orqanlarının fəaliyyətinə dair dövrü hesabatların hazırlanması vəziyyəti

ATM-in müxtəlif idarəetmə orqanlarının hesabatları, protokolları və protokollardan çıxarışlar və əmrlərinə baxış keçirilmişdir. Belə ki, Qəyyumlar Şurasının və Elmi Şuranın hesabatlarının, eləcə də müvafiq izlənmə və monitorinq mexanizminin olması müşahidə olunmuşdur.

### 5.1.9 İdarəetmə orqanlarının şəffaf və nəticəyönümlü fəaliyyətinin təmin edilməsi və davamlı təkmilləşdirilməsi  vəziyyəti

Sahə səfəri zamanı, ATM-in idarə edilməsində bir neçə vəzifənin bir şəxs tərəfindən yerinə yetirilməsi halları müşahidə edilmişdir. Bununla yanaşı, ATM-də yüksək vəzifə tutan bəzi əməkdaşların bir neçə vəzifənin öhdəliyini eyni zamanda icra etməsi halları da qeydə alınmışdır. Bu vəziyyət idarəetmədə şəffaflığın və nəticəyönümlülüyün təmin edilməsi üçün müəyyən problemlər yarada bilər. Bu səbəbdən, vəzifə bölgüsünün daha səmərəli və ədalətli

şəkildə həyata keçirilməsi, səlahiyyətlərin düzgün təyin olunması və idarəetmə proseslərinin davamlı təkmilləşdirilməsi vacibdir.

### 5.2 İnsan resurslarının idarə edilməsi

#### 5.2.1 ATM-də işə qəbul prosedurunun mövcud olması, şəffaf və əlçatan formada həyata keçirilməsi vəziyyəti, seçkili vəzifələrin tutulması prosedurunun qanunvericiliyin tələblərinə uyğun olması vəziyyəti

ATM-in Nizamnaməsində insan resurslarının idarə olunması ilə əlaqədar bölmə yoxdur. Sahə səfəri zamanı İnsan resursları şöbəsi ilə görüş keçirilmişdir. Müsahibə zamanı verilən məlumatlara əsasən, ATM-də akademik heyətin işə qəbul olunma prosesi, ilkin müsahibə, ixtisas üzrə müsahibə və yekun müsahibə olaraq 3 mərhələdən ibarətdir. Kafedralarda açıq dərslərin keçirilməsi işə qəbul zamanı nəzərə alınan faktorlardandır. Müraciət edənin sahəsi üzrə ən azı üç mütəxəssisin iştirakı ilə açıq dərsin nəticəsi qiymətləndirilir. Sonra rəhbərlik tərəfindən işə qəbul haqqında qərar qəbul edilir.

ATM-də mövcud akademik vakansiyalar haqqında ictimaiyyətə məlumat verilməsi üçün ATM-in öz elektron səhifəsindən və müxtəlif təhsil portallarından istifadə olunur.

İstinadlar: https://edumap.az/qerbi-kaspi-universitetinde-muellim-vakansiyalari
https://wcu.edu.az/az/page/job-opportunities

Özünütəhlil Hesabatına əsasən qeyri-akademik heyətin "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş Elektron İnformasiya Sisteminin "Məşğulluq Alt Sistemi"ndə ATM tərəfindən verilmiş elana uyğun olaraq vakansiyaya göndəriş əsasında həyata keçirilir. Lakin bununla əlaqədar elektron informasiya sistemində istinad tapılmamışdır.

#### 5.2.2 ATM-in akademik və inzibati heyətinin onun strateji inkişaf proqramına və maliyyə resurslarına uyğun olması

Strateji İnkişaf Mərkəzinin əsasnaməsində insan və maliyyə resursları ilə əlaqədar bəndə rast gəlinməmişdir. Hesabatın digər bəndlərində qeyd olunduğu kimi Maliyyə və Mühasibatlıq şöbəsi SİP-in hazırlanmasına cəlb olunmamışdır.

#### 5.2.3 ATM-də işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq əmək haqqı sisteminin mövcud olması

QKU-nun Elmi Şurasının qərarı ilə tədrisin, elmi tədqiqatın səviyyəsinin yüksəldilməsi və işçilərin motivasiyasının gücləndirilməsi üçün differensiallaşmış əməkhaqqı sistemi formalaşdırılmışdır. Həmçinin, ATM-in rəhbər və inzibati heyətinin 2023-cü maliyyə ili üçün ştat cədvəlində şöbələrin və işçilərin səlahiyyət çərçivəsindən və məsuliyyət dərəcəsindən asılı olaraq fərqli əmək haqqları müəyyənləşdirilmişdir.

#### 5.2.4 ATM-də işçilərin motivasiyası və mükafatlandırılması sisteminin mövcud olması

Elmi Şuranın qərarı ilə müxtəlif elmi-tədqiqat işləri üçün mükafatlandırma mexanizmi mövcuddur. Belə ki, Scopus və Web of Science elmmetrik bazalarda yer almış məqalələr üçün mükafatlar verilir. Bununla bağlı müvafiq Elmi Şura qərarları Komissiyaya təqdim olunmuşdur. Lakin belə mexanizmə qeyri-akademik heyətin fəaliyyəti üçün rast gəlinməmişdir.

### 5.2.5 ATM-də işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsinin aparılması vəziyyəti

QKU-da akademik heyətin qiymətləndirilməsi üçün dekanlığın, Monitorinq mərkəzinin, Elm şöbəsinin, İmtahan mərkəzinin və Tələbə məlumat mərkəzinin rəyləri toplanaraq təhlil olunur və hesabat halına gətirilir. Komissiyaya nümunə olaraq 2023/2024-ci tədris ili üçün müəllim heyətinin qiymətləndirilməsi hesabatı təqdim olunmuşdur. Hesabatda tədris metod və formaları, səriştə və bacarıqları, elmi-pedaqoji fəaliyyəti, yüksək reytinqli beynəlxalq jurnallarda çap olunan məqalələrinin sayı, tələbələrə qarşı münasibəti, xarici dili bilikləri kimi indikatorlar üzrə qiymətləndirmələr aparılır.

Akademik heyət üçün qiymətləndirmə mexanizmi mövcud olsa da qeyri-akademik heyət üçün uyğun mexanizm nəzərdə tutulmamışdır.

### 5.2.6 ATM-də işçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb edilməsi vəziyyəti

Qəyyumlar Şurasının fəaliyyəti nəticəsində müxtəlif ölkələrdən professorlar və mütəxəssislər ATM-ə akademik heyətin ixtisasartırması üçün cəlb olunurlar (İstinad: Qəyyumlar Şurasının fəaliyyətinə aid 2020 və 2021-ci il üzrə hesabatı). Belə ki, bu mütəxəssislər müxtəlif mövzularda seminarlar və vebinarlar keçmişdirlər. Məlumat həmçinin ATM-in rəsmi saytında da öz əksini tapmışdır.

### 5.2.7 ATM-də işçilərə münasibətdə sosial və mədəni tədbirlərin keçirilməsi vəziyyəti

ATM daxilində hər il bayram və əlamətdar günlərdə əməkdaş və tələbələr üçün mədəni-kütləvi tədbirlər təşkil edilir. Belə ki, sahə səfəri zamanı Akkreditasiya Komissiyası Xocalı faciəsi ilə əlaqədar keçirilmiş tədbirdə iştirak etmişdir. ATM-in mövcud imkanları daxilində tədbir maraqlı təşkil olunmuşdur.

Sahə səfəri zamanı müvafiq tələb üzrə keçirilmiş sorğu nəticələrinə baxılmışdır. Belə ki, Şəkil 5.2 və 5.3-də əməkdaşların sosial tədbirlərdə iştirak həcmi və onların bu tədbirlərlə əlaqədar fikri öyrənilmişdir. Şəkil 5.2-dən göründüyü kimi əməkdaşların demək olar ki, yarısı sosial və idman fəaliyyətlərində iştirak edir.




Şəkil 5.2 Əməkdaşların sosial və idman fəaliyyətlərində aktivliyinin öyrənilməsi sorğusunun nəticələri

Şəkil 5.3-ə əsasən sosial tədbirlərin daha rəngarəng, korporativ xarakterli, aktual problemlərə yönəlmiş yarışmaların keçirilməsi tövsiyə olunub. Ümumilikdə sorğuda 32 nəfər iştirak etmişdir.




Şəkil 5.3 Əməkdaşların sosial fəaliyyətlərlə bağlı rəy sorğusunun nəticələri

### 5.2.8 Qeyri-akademik heyətin (inzibati, texniki və köməkçi işçilər) işə qəbulu prosesində şəffaflığın təmin edilməsi vəziyyəti

Qeyri-akademik heyətin işə qəbul prosesində uyğun CV-lər seçildikdən sonra müsahibə mərhələsi həyata keçirilir. Həmçinin QKU-da Kadr məsələləri üzrə komissiya da fəaliyyət göstərir. Əlavə olaraq işə qəbul prosesində şəffaflığın təmin olunması məqsədilə Kiçik müsahibə və Yekun müsahibə komissiyaları da yaradılmışdır. Müvafiq əmrlər Akkreditasiya Komissiyasına təqdim olunmuşdur.

### 5.2.9 Qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirmə sisteminin mövcud olması vəziyyəti

Sahə səfəri zamanı qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirmə mexanizminə rast gəlinməmişdir. Belə ki, bu qiymətləndirmə yalnız müvafiq rəhbərin birbaşa rəyi əsasında həyata keçirilir.

**5.2.10 Əmək münasibətlərinin və mülki münasibətlərin bağlanması və xitam verilməsi zamanı qanunvericiliyin tələblərinin nəzərə alınması vəziyyəti**

İnsan resurslarının fəaliyyətində əmək münasibətlərinin və mülki münasibətlərin bağlanması və xitam verilməsi zamanı Azərbaycan Respublikasının Əmək Məcəlləsinin, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Kollegiyasının 15.11.2017-ci il tarixli, 5/5 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları”nın, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Kollegiyasının 20.12.2017-ci il tarixli, 18-1 nömrəli qərarı ilə təsdiq edilmiş “Təhsil sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası”nın və digər qanunvericilik aktlarının tələbləri nəzərə alınmaqla prosesə QKU-nun hüquqşünası nəzarət edir.

### 5.3 Maliyyə resurslarının idarə edilməsi

**5.3.1 ATM-in maliyyə resurslarının (dövlət büdcəsi, ödənişli təhsil, elmi tədqiqatlar, ianələr, qrantlar və s.) mənbələrinin onun Nizamnaməsinə uyğunluğu**

QKU-nun Nizamnaməsinin 7-ci bəndinə əsasən ATM-in əmlakı təsisçilər, hüquqi və fiziki şəxslər tərəfindən onun mülkiyyətinə və ya istifadəsinə verilən əmlakdan, fəaliyyət istiqamətinə uyğun olaraq gördüyü işlərdən, göstərdiyi xidmətlərdən əldə etdiyi daxilolmalardan, ianələrdən, qrantlardan və eləcə də qanunvericiliklə qadağan olunmayan və Nizamnamə ilə müəyyən edilmiş digər mənbələrdən daxil olan vəsaitlərdən, o cümlədən ona məxsus əqli mülkiyyət məhsullarından ibarətdir.

**5.3.2 Maliyyə resurslarının qısa və orta müddətli dövr üçün planlaşdırma səviyyəsi**

Maliyyə resurslarının qısamüddətli planlaması (1 illik) olsa da, ortamüddətli dövr üçün planlaması mövcud deyil. Belə ki, ATM-in Maliyyə şöbəsi əsasən mühasibatlıq işləri görür və SİP-in hazırlanmasında iştirak etmir.

**5.3.3 Maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətlərin müəssisənin SİP-ə uyğunlaşdırılması vəziyyəti**

SİP-in hazırlanmasında aşağıdakı sahələr üzrə maliyyə vəsaitləri nəzərə alınır (İstinad: SİP-in hazırlanması və icrası):

- Təhsil;
- Elmi-tədqiqat;
- Sosial Xidmətlər.

Lakin yuxarıda da qeyd edildiyi kimi, Maliyyə şöbəsi SİP-in hazırlanmasında iştirak etmir.

### 5.3.4 Əlavə maliyyə resurslarını əldə etmək imkanlarının vəziyyəti

ATM-in əlavə maliyyə resursları hal-hazırda yalnız qrantlar hesab edilə bilər. Lakin QKU bu istiqamətdə işlər apararaq əlavə maliyyə resursu kimi elmi-tədqiqat işlərinin nəticələrinin kommersiyalaşması, şəxsi ianələr, xeyriyyə vəsaitlərinin ola biləcəyini nəzərə alır.

### 5.3.5 Əldə olunan maliyyə resurslarının şəffaflıq səviyyəsi

Əldə olunan maliyyə resursları haqqında məlumat ATM-in "Maliyyə Təminatı" sənədində qeyd olunmuşdur. ATM-in ümumi büdcəsi əvvəlki illərə nisbətən 2022-ci ildə xeyli artmışdır. Şəkil 5.4-dəki göstəricilər min manatla göstərilmişdir. Eləcə də Şəkil 5.5-ə əsasən ATM-ə Dövlət sifarişi üzrə ayrılan vəsait artırılmışdır. Son olaraq isə Şəkil 5.6-da ATM-in illər üzrə gəlirinin xərclərə nisbəti diaqramla göstərilmişdir.




Şəkil 5.4 Müəssisənin ümumi büdəsi (min manatla)




Şəkil 5.5 ATM-də Dövlət sifarişi üzrə ayrılan vəsait (min manatla)




Şəkil 5.6 Təhsil müəsissəsinin maliyyə təminatı (İllər üzrə, min manatla)

### 5.3.6 Maliyyə resurslarından istifadənin ATM-in Nizamnaməsinə uyğunluğu

Əldə olunan maliyyə resurslarının istifadəsi ilə bağlı sənədlər təqdim olunmadığından bu barədə rəy yazmaq mümkün deyildir. Belə ki, QKU Təsərrüfat və təchizat şöbəsi tərəfindən təqdim edilən hesabatda görülən işlər nəzərdə tutulsa da, həmin işlər üçün sərf olunan maddi vəsait haqqında məlumat əks olunmamışdır.

### 5.3.7 Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi prosedurunun ATM-in Nizamnaməsinə uyğunluğu

Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi Maliyyə və mühasibatlıq şöbəsinin əsasnaməsinə və ATM-in Nizamnaməsinə uyğun olaraq aparılır.

QKU Nizamnaməsinin 7.1-ci bəndinə əsasən, ATM-in əmlakı təsisçilər, hüquqi və fiziki şəxslər tərəfindən onun mülkiyyətinə və ya istifadəsinə verilən əmlakdan, fəaliyyət istiqamətlərinə uyğun olaraq gördüyü işlərdən, göstərdiyi xidmətlərdən əldə etdiyi daxilolmalardan, ianələrdən, qrantlardan və eləcə də qanunvericiliklə qadağan olunmayan və Nizamnamə ilə müəyyən edilmiş digər mənbələrdən daxil olan vəsaitlərdən, o cümlədən ona məxsus əqli mülkiyyət məhsullarından ibarətdir.

ATM-in maliyyə resurslarının əldə olunması və istifadəsi üzərində nəzarəti Nizamnamənin 7.3-cü bəndinə əsasən təsisçi və ya onun səlahiyyət verdiyi şəxs həyata keçirir.

### 5.3.8 Maliyyə resurslarından təyinatı üzrə istidafəsinə cari nəzarətin həyata keçirilməsi səviyyəsi

Maliyyə şöbəsinin fəaliyyətinə nəzarət üçün daxili audit olaraq, QKU müstəqil auditorların köməyindən istifadə edir. Sahə səfəri zamanı Komissiya üzvlərinə audit müqaviləsinin bir nüsxəsi təqdim olunmuşdur. Lakin, auditin rəyi təqdim olunmamışdır.

### 5.3.9 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti

ATM-də satınalma daxili prosedura əsasən aparılır və bu işlərə Təsərrüfat və təchizat şöbəsi nəzarət edir. Əvvəlki bəndlərdə qeyd olunduğu kimi adı çəkilən şöbə tərəfindən təmin edilən hesabatda görülən işlər qeyd olunsa da, həmin işlər üçün istifadə olunan maddi vəsait haqqında məlumat əks olunmamışdır.

Sahə səfəri zamanı aktivlərin və öhdəliklərin inventarlaşdırılması sənədi istənilsə də, sənəd təqdim olunmamışdır.

### 5.3.10 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti

ATM mühasibat uçotunu “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikası Qanununa uyğun aparır və bunun üçün 1C proqram təminatından istifadə edilir. ATM-də bütün maliyyə və mühasibat əməliyyatları əsasən nağdsız şəkildə həyata keçirilir ki, bu da qanunvericiliyin tələblərinə tam uyğun təşkil edilmişdir.

### 5.3.11 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunması və aidiyyəti orqanlara (vergi, statistika, Nazirlik və s.) təqdim olunması vəziyyəti

Maliyyə və mühasibat hesabatları qanunvericiliyin tələbinə uyğun olaraq aşağıda adları çəkilən qurumlara göndərilir:

- Dövlət Vergi Xidməti;
- Statistika Komitəsi;
- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi.

Belə ki, "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatlar, Azərbaycan Respublikası Vergi Məcəlləsinə müvafiq "Muzdlu və Qeyri Muzdlu İşlə əlaqədar Vahid Bəyyannamə", "Ödəmə mənbəyində tutulan vergi Bəyannaməsi”, "ƏDV Bəyannaməsi", "Mənfəət Vergisinin Bəyannaməsi”, "Əmlak Vergisinin Bəyannaməsi”, "Torpaq Vergisinin Bəyannaməsi” elektron qaydada tərtib və təqdim edilir.

### 5.3.12 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun dərc olunması vəziyyəti

Müvafiq illik maliyyə hesabatları QKU-nun rəsmi elektron səhifəsində dərc olunur (İstinad: https://wcu.edu.az/az/page/financial-report). Lakin son hesabat 2022-ci ilə aiddir.

### 5.3.13 Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə daxili audit bölməsinin nəzarət tədbirlərinin mövcudluğu

QKU-da daxili auditi həyat keçirmək üçün yuxarıda qeyd olunduğu kimi müstəqil auditlərin köməyindən istifadə olunur. Əlavə olaraq bölmənin fəaliyyətinə Qəyyumlar Şurası nəzarət edir, onun fəaliyyətinə dair hesabatlar alır, habelə onun üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə qərar qəbul edir.

### 5.3.14 Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə kənar auditin, nəzarət tədbirlərinin mövcudluğu

Sahə səfəri zamanı Akkreditasiya Komissiyasına kənar auditin keçirilməsi haqqında sənədlər təqdim olunmamışdır.

### 5.3.15 Maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi üzrə fəaliyyətin olması vəziyyəti

Maliyyə resurslarının əldə edilməsi məqsədilə qrant layihələrində iştirak, müxtəlif istiqamətli ödənişli təlimlərin keçirilməsi, əcnəbi və əlavə təhsil üzrə tələbələrin cəlb edilməsi nəzərdə tutulmuşdur.

## 5.4 İnformasiya idarəetmə sistemi

### 5.4.1 ATM-də informasiya idarəetmə sisteminin, hüquqi əsaslarının və reqlamentinin mövcudluğu

ATM-in informasiya idarəetmə sisteminə Elektron jurnal, Elektron imtahan sistemi və tələbə kabineti proqram təminatı daxildir. Lakin informasiya idarəetməsi ilə əlaqədar ATM-in Əsasnaməsi yoxdur.

Elektron jurnal, müəllim və tələbələrə dərs proqramlarını və nəticələri izləmək imkanı verir, Elektron imtahan sistemi imtahanların keçirilməsi və qiymətləndirilməsini təmin edir, tələbə kabineti isə tələbələrin akademik məlumatlarına asanlıqla çıxış etməsinə şərait yaradır. Bu informasiya idarəetmə sistemi ATM-də təhsil prosesinin səmərəli və şəffaf idarə olunmasına xidmət edir.

Məlumat təhlükəsizliyi ilə bağlı bir sıra tədbirlər həyata keçirilmişdir və müvafiq qaydalar formalaşdırılmışdır. Bu tədbirlər aşağıdakılardan ibarətdir:

- Məlumatların ötürülməsi və saxlanması zamanı şifrələmə metodlarından istifadə olunur.
- Yalnız səlahiyyətli istifadəçilərin sistemə daxil ola bilməsi üçün prosedurlar tətbiq edilir.
- Məlumatların ehtiyat nüsxələri çıxarılır və təhlükəsiz yerlərdə saxlanılır.

Bu tədbirlər ATM-in informasiya idarəetmə sistemində məlumatların məxfiliyini, bütövlüyünü və əlçatanlığını təmin edir. Komissiya informasiya idarəetməsi ilə əlaqədar ATM-in Əsasnaməsinin hazırlanmasını tövsiyə edir.

### 5.4.2 İnformasiya idarəetmə sistemində idarəetmə funksiyalarının əhatəliyi və funksionallığı, məlumatların yenilənməsi vəziyyəti

İnformasiya idarəetmə sistemində məlumatlar verilənlər bazası səviyyəsində hər il mütəmadi olaraq yenilənir. Proqram təminatı üzrə "Backup" alınır və serverdə yenilənmələr daxil edilir. Tələblərə uyğun olaraq mövcud olan elektron jurnal, tələbə kabineti və imtahan sisteminə mütəmadi olaraq əlavələr edilir. Hər yeni semestr üzrə sistemlərdə mövcud informasiya yenilənir. Proqram tərtibatçıları proqram təminatına müvafiq əlavələri edir və fakültələr üzrə təyin edilmiş məsul şəxslər sistemə yeni informasiyanı daxil edirlər. Bu proseslər nəticəsində sistemin funksionallığı və əhatəliliyi təmin edilir, həmçinin məlumatların aktual və dəqiq olması təmin olunur.

İnformasiya idarəetmə sistemi həm Azərbaycan dilində, həm də ingilis dilində istifadəyə açıqdır. Bu, əcnəbi tələbələrin təhsil prosesinə daha rahat qoşulmasına və onların məlumatlara asanlıqla çıxışına imkan yaradır.

Sistemin funksionallığına sənəd dövriyyə sistemi də daxildir. Sənədləri sistem üzərindən tələbələrlə paylaşmaq imkanı mövcuddur, bu da təhsil prosesinin daha səmərəli və şəffaf olmasını təmin edir.

### 5.4.3 İnformasiya idarəetmə sistemində idarəetmə orqanları üzrə səlahiyyət bölgüsünün mövcudluğu

İnformasiya idarəetmə sistemində səlahiyyət bölgüsü rollar əsasında həyata keçirilir. Belə ki, inzibatçı, fakültə dekanı, kafedra inzibatçısı rolları mövcuddur. Hər bir rol özünəməxsus imkan və məhdudiyyətlərlə fərqləndirilir. Yerində verifikasiya zamanı, səlahiyyət bölgüsü üzrə işlərin icrasına nəzarətin artırılması və sistemli xarakter daşımasının təmin edilməsi ehtiyacının olduğu müəyyən edilmişdir.

Əsas admin və admin olaraq səlahiyyət bölgüsü mövcuddur. Əsas adminin sistemin baza və proqram təminatlarını idarəetmə, bütün informasiyaya tam nəzarət etmək kimi səlahiyyətləri var. Admin səlahiyyəti hər fakültə üzrə tyutora verilmişdir. Fakültə üzrə fənlərin, qrupların, jurnalların yaradılması, sillabuslara nəzarət edilməsi və s. bu kimi məsələlər admində olan səlahiyyətlərə daxildir.

### 5.4.4 Təlim və tədris prosesində bütün tədris fəaliyyətlərinin rəqəmsallaşdırılması vəziyyəti

Tədris fəaliyyətinin rəqəmsallaşdırılması üçün aşağıdakı proqram təminatından istifadə olunur.

Qiymətlərin və davamiyyətin qeyd edilməsi üçün elektron jurnal sistemi yaradılmışdır. Jurnalda mövcud olan proseslər proqram təminatında nəzərə alınaraq avtomatlaşdırılmışdır. Sillabusun daxil edilməsi, qiymətlərin və davamiyyətin qeyd edilməsi, bal vərəqinin çapı kimi funksionallıqlar sistemdə öz əksini tapır. Jurnalda hər bir fakültədə məsul əməkdaş tərəfindən sistemdən istifadə üçün müəllim profilləri yaradılır, hər semestr yeni jurnallar, qruplar və fənlər sistemə daxil edilir. Hər bir müəllim öz fənni üzrə sillabusunu və həmin fənn üzrə elektron tədris

məlumatlarını sistemə daxil edir. Dərs zamanı müəllim qiymətləndirmə və davamiyyəti qeyd edir, həmçinin istənilən sayda tədris fayllarını sistemə yükləmə imkanına malikdir. Semestr sonunda elektron jurnallar bağlanılır və bal vərəqi sistem vasitəsi ilə çap edilir. İntranet şəbəkə də istifadə olunur, yalnız ATM daxilində aşağıdakı link vasitəsi ilə giriş mümkündür. http://my.edu.wcu/

Bu sistem İntranet şəbəkədə istifadə olunur, yalnız ATM daxilində verilmiş link vasitəsi ilə giriş mümkündür: student.edu.wcu. Tələbələrə test imtahanı salındığı təqdirdə elektron imtahan sistemindən istifadə olunur. Hər bir tələbə imtahan otağında özünə məxsus e-mail və şifrə vasitəsi ilə elektron imtahan sisteminə daxil olur. Həmin günə təyin edilmiş imtahanı seçir və imtahan üzrə sualları cavablandırır. Təyin edilmiş vaxt limitində imtahanı bitirir. İmtahanı bitirdiyi təqdirdə imtahan balı ekranda görünür.

ATM-in tələbələri üçün tələbə kabineti mövcuddur. Bu sistem vasitəsi ilə tələbələr təlim prosesi barədə məlumat ala bilirlər.

### 5.4.5 İnformasiya idarəetmə sisteminə əlçatanlıq səviyyəsi və tələbələrin informasiya idarəetmə sistemindən istifadə səviyyəsi

Yuxarıda adları çəkilən proqram təminatından (elektron jurnal və elektron imtahan sistemi) yalnız İntranet şəbəkədə istifadə etmək mümkündür.

Əlavə olaraq tələbələr üçün veb səhifədə tələbə kabineti bölməsi mövcuddur. Bu kabinet vasitəsi ilə tələbələr istənilən vaxt öz qiymətləri və keçdiyi fənlər barədə məlumat ala bilir və sistemə müəllim vasitəsi ilə yüklənmiş elektron tədris materiallarını əldə edə bilirlər. Tələbələrin bu elektron sistemdən yararlanması üçün ATM-in informasiya idarəetmə sistemində hər bir tələbə üçün profil yaradılır, hər bir tələbəyə məxsus unikal olan e-poçt və parol vasitəsi ilə tələbə kabinetinə giriş edilir. Tələbə kabinetinə giriş ATM-in veb səhifəsindən mümkündür.

### 5.4.6 İnformasiya idarəetmə sisteminin keyfiyyətin idarə olunmasına töhfəsi

QKU-nun informasiya sistemi yaradılarkən Avropa keyfiyyət standartı təlimatları (ESG 2015) nəzərə alınmış və qurulmuş informasiya idarəetmə sistemində tələbələrin məlumatlara, tədris materiallarına əlçatanlığının təmin edilməsi üçün tələbə və müəllim kabinetləri yaradılmışdır. İnformasiya idarəetmə sisteminin keyfiyyətə nəzarətə töhfəsi kimi, yaradılmış proqram təminatı vasitəsilə tələbələrin davamiyyətinə, tədris materiallarının sistemdə mövcudluğuna daimi nəzarət olunur.

Keyfiyyətə nəzarət şöbəsinin əməkdaşları elektron sistemdən istifadə edirlər. Elektron sistemdə müvafiq şöbə əməkdaşları üçün profillər yaradılır və müəllimlərin və tələbələrin fəaliyyətinə nəzarət edilir. Bu profillər vasitəsilə əməkdaşlar tələbələrin dərslərə davamiyyətini, imtahan nəticələrini və tədris materiallarının əlçatanlığını izləyə bilirlər.

İndikator üzrə tələb informasiya idarəetmə sistemindən istifadəçilərdən məlumat toplanması, habelə məlumatların təhlili üçün istifadə edilə bilmə imkanının qiymətləndirilməsidir. Bu kontekstdə, informasiya idarəetmə sistemi aşağıdakı funksiyaları təmin edir:

- Sistem tələbələrin və müəllimlərin fəaliyyəti barədə məlumatları toplamağa və təhlil etməyə imkan verir. Tələbələrin davamiyyəti, imtahan nəticələri kimi məlumatlar müntəzəm olaraq toplanır və analiz edilir.
- Tələbələrdən və müəllimlərdən əks əlaqə toplamaq üçün sistemdə müxtəlif sorğular və anketlər həyata keçirilir. Bu məlumatlar təhlil edilərək tədris prosesinin təkmilləşdirilməsi üçün istifadə olunur.
- Tələbə və müəllim kabinetləri vasitəsilə tələbələr və müəllimlər tədris materiallarına, şəxsi məlumatlarına və akademik nəticələrinə asanlıqla çıxış edə bilirlər.

Bu tədbirlər və funksiyalar, QKU-nun informasiya idarəetmə sisteminin keyfiyyətin idarə olunmasına böyük töhfə verməsini və ümumi təhsil prosesinin keyfiyyətinin yüksəldilməsini təmin edir.

#### 5.4.7 İnformasiya idarəetmə sisteminin digər aidiyyəti qurumların (Elm və Təhsil Nazirliyinin Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi) informasiya sistemləri ilə inteqrasiya səviyyəsi

ATM-in İnformasiya idarəetmə sisteminin Elm və Təhsil nazirliyinin Təhsilin mərkəzləşdirilmiş informasiya sisteminə inteqrasiyası mövcud deyildir.

#### 5.4.8 İnformasiya idarəetmə sisteminin təhlükəsizliyi, məxfiliyi və etibarlılığının təmin edilməsi vəziyyəti

ATM-in İnformasiya idarəetmə sisteminin təhlükəsizliyinin təmin olunması baxımından verilənlər ATM-in daxili lokal serverində yerləşdirilmişdir. Təhlükəsizlik əsas alınaraq sistemlərə giriş ATM-in daxilində intranet şəbəkədə mümkündür.

### 5.5 İctimaiyyətlə əlaqələr

#### 5.5.1 ATM-in rəsmi saytının mövcudluğu vəziyyəti

ATM-in rəsmi elektron saytı mövcuddur: https://wcu.edu.az/

Saytın məqsədi ATM-də baş verən bütün yenilikləri ictimaiyyətə operativ şəkildə çatdırmaq olub. Burada ATM-dəki yeniliklərlə yanaşı, ATM-in peşəkar ekspertlərinin rəyləri, tələbə, məzun və abituriyentlərə yönəlik layihələr, uğur hekayələri, müsahibələr və digər mövzuları əhatə edən məlumatlar, eləcə də müxtəlif məzmunlu elanlar yer alır.

ATM-in rəsmi saytında rəhbərlik, inzibati struktur, fakültə, kafedralar, universitetlə əlaqə, filiallar, tədris binaları, və digər istiqamətlər üzrə məlumatlar əks olunmuşdur.

ATM haqqında bütün məlumatlar saytda yerləşdirilsə də, idarəetmə orqanları haqqında məlumatlar real vəziyyətə uyğun deyildir. Belə ki, saytın Rəhbərlik bölməsində müvafiq vəzifələri icra edənlər haqqında məlumatlar yoxdur:
İstinad: https://wcu.edu.az/az/page/directory

### 5.5.2 ATM-in rəsmi saytında məlumatların dəqiq, aktual və mütəmadi yenilənməsi vəziyyəti

ATM-in rəsmi saytında Xəbərlər bölməsi kifayət qədər dinamik şəkildə yenilənir, lakin bir öncəki bənddə qeyd olunduğu kimi, bəzi məlumatlar hələ də sayta yerləşdirilməmişdir.

### 5.5.3 ATM-in ictimaiyyəti məlumatlandırması məqsədi ilə digər əlaqə üsullarından istifadə vəziyyəti

ATM-in Nizamnaməsinin 8-ci bəndinə əsasən İctimaiyyətlə əlaqələr aşağıdakı üsullarla həyata keçirilir:

- ATM-in rəsmi saytında istifadə etməklə və ictimai yerlərdə, eləcə də ATM-in inzibati binasının qarşısında yerləşdirilməklə;
- Vətəndaşlar isə ATM-in fəaliyyəti haqqında məlumatları yazılı və şifahi formada müraciət etməklə əldə edə bilərlər.

QKU ictimaiyyətin məlumatlandırılması üçün digər xəbər saytları və sosial şəbəkələrdən də istifadə edir. Lakin bunun üçün müvafiq SMM xidməti və ya insan resursu nəzərə alınmamışdır.

### 5.5.4 ATM-in ictimaiyyətin məlumatlandırılması ilə bağlı Fəaliyyət planının olması vəziyyəti

QKU-nun ictimaiyyətin məlumatlandırılması ilə əlaqədar Fəaliyyət planı yoxdur.

### 5.5.5 ATM-in məlumatlandırma fəaliyyətinin maraqlı tərəflərə onun fəaliyyətini qiymətləndirmək imkanın verməsi vəziyyəti

QKU-nun fəliyyətində maraqlı tərəflər ATM-lə əlaqədar yenilikləri rəsmi saytdan, KİV-dən və sosial şəbəkələrdən izləyə bilərlər. ATM-in mövcud Qaynar Xətti və saytda yerləşdirilmiş əlaqə nömrələrinə zənglərin daxil olması və rəylərin qeydə alınıb, monitorinq olunması ilə əlaqədar hər hansı bir sənədin olması müşahidə edilməmişdir. Rəylər sosial şəbəkədə yerləşdirilmiş məlumatların şərh bölməsində qeydə alınır. ATM-in sosial şəbəkə səhifələrinin kifayət qədər aktiv olması və dinamik şəkildə istifadə olunması müşahidə olunmuşdur.

İstinad: Sosial şəbəkə səhifələri

Link 1 : https://www.facebook.com/WesternCaspianUniversity?locale=ru_RU

Link 2 : https://www.instagram.com/westerncaspianu/

### 5.5.6 ATM-in məlumatlandırma fəaliyyətinin monitorinqinin aparılması və təkmilləşdirilməsi vəziyyəti

Məlumatlar müxtəlif mənbələrdə paylaşıldıqdan sonra müvafiq şöbə tərəfindən müşahidələr aparılır. Lakin bu müşahidələr hesabatlara və ya trend analizlərə çevrilmir.

# 6. İNFRASTRUKTUR

## 6.1 Tədris infrastrukturu

### 6.1.1 Tədris binalarının və tədris otaqlarının dövlət standartlarına uyğunluğu vəziyyəti

Qərbi Kaspi Universitetinin tədrisin təşkil olunduğu müxtəlif ünvanlarda yerləşən 5 binası və 9 təlim, tədris və istehsalat təcrübə bazası var. Bu binalarda ümumilikdə 145 auditoriya mövcuddur ki, onların da 37-si mühazirə, 108-i məşğələ otağıdır. Mühazirə otaqlarının faydalı sahəsi 2682,5 $m^2$ , məşğələ otaqlarının sahəsi isə 4306,3 $m^2$-dir. İnzibati heyətin fəaliyyətini təmin edən zəruri otaqların sayı 45, sahəsi is 2320,5 $m^2$-dir. Akademik heyətin fəaliyyətini təmin edən zəruri otaq sayı 22, sahəsi isə 1301,2 $m^2$-dir. Elmi tədqiqatların aparılmasına imkan verən avadanlıqlarla təchiz olunmuş müasir və digər laboratoriyaların sayı 25, sahəsi isə 1151,5 $m^2$-dir. Bütün bunlarla yanaşı, xüsusi qeyd etmək lazımdır ki, tədris binalarının daxilində tədris otaqlarının dövlət standartlarına uyğunluğu qənaətbəxş olsa da, ATM-in əksər tədris binalarının ətrafında həyətyanı sahələrin demək olar ki, olmaması tələblərə cavab vermir.

### 6.1.2 Kitabxananın mövcudluğu vəziyyəti

QKU-nun iki ünvanda (Səbayıl rayonu İstiqlaliyyət küçəsi 27-də əsas korpus və Əhməd Rəcəbli küçəsi 3/21-də ikinci korpus) yerləşən binalarında kitabxanalar fəaliyyət göstərir. Əsas korpusda kitabxana 441 $m^2$, 2-ci korpusda isə 253 $m^2$ sahəni əhatə edir. Kitabxanada mövcud olan kompüterlərin sayı əsas korpusda 4, 2-ci korpusda isə 21 ədəddir. Kitabxanada daimi qeydiyyatda olan oxucuların sayı akademik heyət 156, təhsil alanlar 4341-dir. Oxu zalında oxucular üçün ayrılmış yerlərin sayı 132-dir. ATM-in çıxışı olduğu beynəlxalq elmmetrik bazalar:

Məlumat bazaları – Science Direct, Perlego Onlayn Kitab Platforması, EBSCO məlumat bazası (elektron kitab, jurnal və digər resurslar), Scopus, Web of Science. Açıq informasiya resursları – DOAB, DOAJ, EconBIZ, Paperity, CORE, PubMED, Forced Migration və s.

Kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitlərinin (elektron və çap şəklində) sayının fondda olan ümumi kitabların sayına nisbəti 0.52-dir. Son 5 il ərzində kitabxanadan istifadə məlumatları, kitabxanaya daxil olmuş həm çap, həm də elektron formatda ədəbiyyatlar, kitablar, dərs və dərs vəsaitləri ilə bağlı statistik məlumatlar, həmçinin tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikasını əks etdirən rəqəmlər Şəkil 6.1.2-də əks olunmuşdur.

Yerində baxış zamanı kitabxanaçılar ATM-də Scopus məqalələri ilə bağlı təlimlər və seminarlar keçirildiyini bildirdilər. Həmçinin qeyd olundu ki, tələbələr elektron kitablarla bağlı kitabxanaya sorğu göndərirlər və əksərən bir gün içində onlara geridönüş edilir. Lakin digər tərəfdən, yuxarı kurs və magistr tələbələri ilə görüş zamanı onlar bəzən resurs qıtlığı ilə qarşılaşdıqlarını bildirdilər. Təqdim olunan statistik məlumatlar (Cədvəl 6.1 və 6.2) və yerində baxış zamanı apardığımız müşahidələr əsasında kitabların sayının və yenilik səviyyəsinin kifayət qədər yüksək olduğu qənaətinə gəlsək də, bütün bu resursların tələbələr üçün tam əlçatanlığını təmin etmək və həm tələbələri, həm də müəllimləri mövcud resurslardan istifadəyə təşviq etmək tövsiyə olunur.

| | Kitabxanadan istifadə |
|---|---|
| 2018 | **5745** |
| 2019 | **10800** |
| 2020 | **1143** |
| 2021 | **7535** |
| 2022 | **3327** |
| 2023 | **3696** |




**Kitabxanadan istifadə məlumatları çap kitabları, jurnallar və digər materialların istifadəsini, habelə elektron və onlayn kitabların statistik məlumatlarının cəmini əhatə edir.**

Şəkil 6.1 Son 5 ildə kitabxanadan istifadənin dinamikası

Cədvəl 6.1 Son 5 ildə kitabxanaya daxil olmuş ədəbiyyatların, elektron və onlayn formatda kitabların, dərslik və dərs vəsaitlərinin sayı

| İllər üzrə | Kitabxanaya daxil olmuş ədəbiyyat sayı (çap formatında) | Daxil olan kitablar (elektron və onlayn formatda) | Dərslik və dərs vəsaiti (çap və elektron formatda) |
|---|---|---|---|
| 2018 | 4262 | 2008 | 2180 |
| 2019 | 2630 | 2355 | 1358 |
| 2020 | 812 | 3100 | 767 |
| 2021 | 639 | 2602 | 471 |
| 2022 | 1420 | 3435 | 904 |
| 2023 | 771 | 890778 | 491029 |
| **Cəmi** | **10534** | **904278** | **496709** |

Cədvəl 6.2 Son 5 ildə kitabxanada mövcud olan kitabların, ədəbiyyatların və monoqrafiyaların sayı

| **İllər üzrə** | **Çap formatda kitabların sayı** | **Elektron və onlayn formatda kitabların sayı** | **Bədii ədəbiyyatın sayı (çap və elektron)** | **Monoqrafiyaların sayı** | **Digər tədris dillərində olan ədəbiyyatın sayı (rus, ingilis)** |
|---|---|---|---|---|---|
| **2018** | 27046 | 3508 | 3160 | 2750 | 20195 |
| **2019** | 29676 | 5863 | 3310 | 2988 | 20551 |
| **2020** | 30488 | 8963 | 3694 | 3176 | 20758 |
| **2021** | 31127 | 11565 | 3824 | 3262 | 20950 |
| **2022** | 32547 | 15000 | 4139 | 3459 | 21165 |
| **2023** | 33318 | 890778 | 9375 | 3580 | 21332 |

### 6.1.3 Kadr hazırlığı aparılan ixtisasların spesifik xüsusiyyətlərinə uyğun təlim və tədris bazasının mövcudluğu vəziyyəti

ATM-in tədris binalarında kadr hazırlığı aparılan ixtisasların xüsusiyyətlərinə uyğun təlim və tədris bazası mövcuddur. Belə ki, lazımi avadanlıqlar, tədris-texniki vasitələrlə təchiz olunmuş tədris laboratoriyaları, akt zalı, audio-vizual avadanlıqlarla təchiz olunmuş imtahan otaqları, əyani tədris vəsaitləri və proyektorlar ilə təchiz olunmuş bir çox tədris otaqları təhsilalanların istifadəsindədir. Sahə səfəri müddətində texniki, genetik, kimya, biologiya, hidrobiologiya laboratoriyalarına, linqafon kabinetlərinə və texnoparka da tərəfimizdən baxış keçirilmişdir. Bunlarla yanaşı, Quba rayonu ərazisində Eksperimental Bağçılıq Landşaft Poliqonu, Pirəkəşkül qəsəbəsində İdman bazası və Salyan rayonu ərazisində Xəzər Dənizi Problemləri Elmi Tədqiqat Mərkəzinin Təcrübə bazası mövcuddur. Qeyd olunan təlim və tədris bazalarının, həmçinin laboratoriyaların və auditoriyaların texniki təchizatının və sayının kadr hazırlığı aparılan ixtisasların spesifik xüsusiyyətlərinə uyğunluğunu qənaətbəxş hesab etmək olar.

### 6.1.4 Tədris laboratoriyalarının mövcudluğu vəziyyəti

ATM-də ixtisaslara uyğun tədris laboratoriyaları mövcuddur. Texniki laboratoriyada teleskop, fotoeffekt cihazı da daxil olmaqla ümumilikdə 8-10 qurğu, genetik laboratoriyada xromosom səviyyəsində tədqiqatın aparılması üçün təhlükəsizlik kondisioneri, avtoklab kimi cihazlar, kimya laboratoriyasında pH-metr və digər cihazlar, hidrobiologiya laboratoriyasında akvariumlar və kiçik mikroskop tərəfimizdən müşahidə edilmişdir. ATM tərəfindən laboratoriyaların beynəlxalq akkreditasiyasının olmadığı bildirildi. Sahə səfəri zamanı qeyd olundu ki, digər institutların və tədqiqat mərkəzlərinin də laboratoriyalarında ATM tərəfindən

tədqiqatlar aparılır. Belə ki, tədris laboratoriyaları ilə yanaşı, elmi-tədqiqat laboratoriyalarının, tədqiqat, inkişaf və ətraf mühitin mühafizəsi elmi-tədqiqat laboratoriyalarının, Tələbə elmi-texniki yaradıcılıq mərkəzinin, elmi-tədqiqat mərkəzlərinin, tədris-təcrübə mərkəzlərinin maddi-texniki bazasından da istifadə olunur.

Lakin tədris laboratoriyalarının daha müasir cihaz və avadanlıqlarla təchiz olunmasına və zənginləşdirilməsinə ehtiyac vardır. Sahə səfəri zamanı, xüsusi ilə fizika laboratoriyasında mövcud avadanlıqların bəsit olması ilə yanaşı, həmçinin bu avadanlıqlardan istifadə etməklə əsasən fizika kursunun mexanika və molekulyar fizika bölmələrinə aid laboratoriya işlərini qismən yerinə yetirmək mümkün olduğu halda, digər bölmələrdə - elektromaqnetizm, optika və atom fizikasına aid laboratoriya işlərinin yerinə yetirilməsinin mümkün olmadığı müşahidə olunmuşdur. Ümumiyyətlə, tədris laboratoriyalarının maddi-texniki bazasının genişləndirilməsi və yenilənməsi tövsiyə olunur.

### 6.1.5 İstehsalat-təcrübə bazasının mövcudluğu vəziyyəti

Qərbi Kaspi Universiteti ümumilikdə 8 istehsalat-təcrübə bazasına malikdir ki, onlar da Azərbaycanın müxtəlif rayonlarında yerləşir. Bundan əlavə, Ekologiya və Təbii Sərvətlər Nazirliyi Meşələrin İnkişafı Xidməti, Zoologiya İnstitutu, AR Kənd Təsərrüfatı Nazirliyi Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu, Kalem Yazılım MMC, Bakcell MMC və bu kimi daha bir neçə dövlət və özəl müəssisələr ilə imzalanmış memorandumlara əsasən ATM-in tələbələri həmin müəssisələrdə istehsalat təcrübəsi keçmək imkanına malikdirlər.

### 6.1.6 ATM-də distant təhsil infrastrukturunun mövcudluğu vəziyyəti

Universitetdaxili elektron platforma üzərindən tələbələr şəxsi kabinetlərinə daxil olur, tədris materiallarını əldə edir, qiymətləri ilə tanış ola bilirlər. Pandemiya dövründə əksər ATM-lər kimi QKU-da "ZOOM" və "Microsoft Teams" platformaları üzərindən distant təhsil təşkil edilmişdir. Lakin hazırda ATM-də distant təhsil forması tətbiq olunmur, yalnız zəruri hallarda "Microsoft Teams" platformasından istifadə etməklə hibrid formada tədris aparılır. Sahə səfəri zamanı QKU-nun Beynəlxalq Distant və Açıq Təhsil Şurasının üzvü olduğu bildirilsə də, bunu təsdiq edən hər hansı bir sənəd ATM tərəfindən təqdim olunmamışdır.

ATM-də distant təhsil formasının tətbiqini daha da təkmilləşdirmək və inkişaf etdirmək tövsiyə olunur.

### 6.1.7 Nəqliyyat xidmətinin mövcudluğu vəziyyəti

Özünütəhlil Hesabatına əsasən qeyd edə bilərik ki, ATM-in balansında 2 ədəd avtobus, 2 ədəd yük avtomobili və 2 ədəd minik avtomobili var. Qeyd olunan nəqliyyat vasitələrindən kütləvi tədbirlər, istehsalat təcrübəsi və s. zamanı professor-müəllim heyətinin və tələbələrin fəaliyyətinin reallaşdırılması üçün istifadə olunur.

### 6.1.8 Tədris infrastrukturundan istifadənin əlçatanlığı vəziyyəti

ATM-də sahə baxışı, eləcə də aparılan sorğular nəticəsində söyləyə bilərik ki, bütün tədris binalarında mövcud tədris infrastrukturu həm təhsilalanlar, həm də akademik və inzibati heyət üçün əlçatandır. Fakültələrə baxış zamanı, apardığımız müşahidələrə əsasən, kafedra otaqlarında heyət üçün ayrılmış sahə və kompüterlərin sayının müəllimlərin sayına nisbətdə az olduğunu qeyd edə bilərik. Bu istiqamətdə təkmilləşdirmələrin aparılması tövsiyə olunur.

### 6.1.9 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturunun mövcudluğu vəziyyəti

ATM-də sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturu qismən mövcuddur. Belə ki, Əhməd Rəcəbli küçəsi 3/21-də yerləşən tədris binalarında liftlər, pantuslar və görmə qabiliyyəti zəif olan şəxslər üçün hərəkət yolları təmin edilsə də, Səbayıl rayonu İstiqlaliyyət küçəsi 27 ünvanında yerləşən əsas binada qeyd olunan infrastruktura rast gəlinmir.

### 6.1.10 Yeməkxanaların mövcudluğu vəziyyəti

QKU-da ümumi sahəsi 1386,5 $m^2$ olan 7 yeməkxana vardır. ATM-in İstiqlaliyyət küçəsində yerləşən əsas binasında kafe tipli geniş yeməkxana, tərəfimizdən baxış keçirilmiş digər iki binadan birində standartlara uyğun, digərində isə yığcam yeməkxana mövcuddur. ATM-in özü tərəfindən həyata keçirilmiş anket sorğusunun nəticəsində (Diaqram 6.1.10) tələbələrin yeməkxananın ümumi fəaliyyətindən (yeməklərin dadı, təmizliyi, görünüşü) və fiziki şəraitindən (təmizlik, işıqlandırma, istilik) razılıq səviyyəsinin təxminən 50% təşkil etdiyi məlum olmuşdur. Tərəfimizdən aparılmış anonim sorğunun nəticəsində isə tələbələrin 65%-nin yeməkxananın ümumi keyfiyyətindən və şəraitindən razı olduğunu müşahidə etdik.

Şəkil 6.1.2 Tələbələrin yeməkxananın mövcud vəziyyətindən məmnunluq səviyyəsi



### 6.1.11 Yataqxanaların mövcudluğu vəziyyəti

QKU-nun İçərişəhər Memarlıq Qoruğu ərazisində yerləşən iki yataqxana binasına (10 və 20 nəfərlik) sahə səfəri zamanı baxış keçirilmişdir. Hər iki bina xidmət göstərməyə yararlıdır. Yaşayış otaqları tələbələrin tələbatları üçün lazım olan mebel, avadanlıqlar və yataq dəstləri ilə təmin edilmişdir. Yataqxanada mərkəzi istilik sistemi fəaliyyət göstərir. Bundan əlavə, yataqxanada internet xidməti də tələbələrin istifadəsinə verilmişdir. Tələbələrin yaşaması və istirahəti üçün yataqxanada lazımi şərait yaradılsa da, otaqların ölçüsü kiçikdir. Otaqlarda hamam və sanitar qovşaqları mövcuddur. Ən yuxarı mərtəbədə yerləşən ümumi mətbəx lazımi avadanlıqlarla tam təmin olunmamışdır.

ATM-in tələbə sayını nəzərə alsaq, ATM tərəfindən tələbələrin yataqxana ilə təminatı səviyyəsinin yaxşılaşdırılması tövsiyə olunur.

### 6.1.12 Tibbi xidmətin mövcudluğu vəziyyəti

ATM-in Özünütəhlil Hesabatında  qeyd olunur ki, ATM-in tədris binalarında ümumi sahəsi 112 $m^2$ olan 6 tibbi məntəqə fəaliyyət göstərir. Tibb məntəqələri ilkin tibbi yardımın göstərilməsi üçün müvafiq avadanlıq və dərman vəsitələri ilə təchiz edilmişdir. Lakin sahə səfəri zamanı yalnız bir binada tibb məntəqəsi tərəfimizdən müşahidə edilmişdir. ATM-in tədris binalarının sayını, binalar arasındakı məsafəni və tələbə sayını nəzərə alsaq, tibb xidmətinin imkanlarının genişləndirilməsi və tibb işçilərinin sayının artırılması tövsiyə olunur.

### 6.1.13 İT xidmətinin mövcudluğu vəziyyəti

ATM-in Elektron tədris platformasında müəllimlər üçün elektron jurnal, tələbələr üçün isə şəxsi kabinet mövcudddur. İmtahan zallarında dinləmələri həyata keçirmək üçün qulaqlıqlar, imtahan mərkəzində şəffaflığı təmin etmək məqsədilə quraşdırılmış kameralar sahə səfəri zamanı müşahidə edilmişdir. Auditoriyaların müasir-texniki avadanlıqlarla təchizatı, kitabxana-informasiya sisteminin müasir tələblərə cavab verməsi də tərəfimizdən müşahidə olunmuşdur. Lakin Özünütəhlil Hesabatında da vurğulandığı kimi, tədris laboratoriyalarında innovativ təlim prosesini təmin etmək üçün müvafiq texnoloji vasitələrlə təminat səviyyəsini yüksəltməyə ehtiyac vardır.

### 6.1.14 Tədris infrastrukturunun istifadəsinin monitorinqinin aparlması vəziyyəti

Tədris infrastrukturundan istifadənin monitorinqi barədə əlimizdə olan yeganə məlumat mənbəyi ATM-in Özünütəhlil Hesabatıdır. Burada monitorinqlərin QKU-nun uyğun struktur bölmələri və Keyfiyyətin təminatı və monitorinq şöbəsi tərəfindən aparıldığı qeyd olunub. Tədris infrastrukturundan istifadə ilə bağlı monitorinqlərin dövrü və sistemli şəkildə aparılması, həmçinin əldə olunan nəticələrin sistemli analizinin təşkili tövsiyə edilir.

### 6.2 Elmi-tədqiqat infrastrukturu

#### 6.2.1 Elmi-tədqiqat və innovasiya mərkəzinin mövcudluğu vəziyyəti

Özünütəhlil Hesabatına istinadən qeyd edə bilərik ki, QKU-da 7 elmi-tədqiqat mərkəzi mövcuddur. QKU-nun yerli institutlarla, yerli və beynəlxalq təşkilatlarla əməkdaşlığı bizə təqdim olunmuş anlaşma memorandumları və müqavilələrlə sübut olunmuşdur. Tədqiqat üçün yaradıcı, təşəbbüskar və beynəlxalq tələblərə cavab verən mühitin formalaşdırılması ATM-in SİP-də 8 strateji məqsəd qrupundan birini təşkil edir.

#### 6.2.2 Elmi tədqiqatların aparılmasına imkan verən müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyaların mövcudluğu vəziyyəti

QKU-da akademik heyət və tədqiqatçıların təcrübəsinin artırılmasına və tədqiqatların aparılmasına imkan verən mərkəz və laboratoriyalar mövcuddur. Sahə səfəri zamanı bizə verilmiş məlumatda bildirildi ki, bu mərkəz və laboratoriyalarda tədqiqatlar aparmaq üçün kənardan da müraciətlər olunur və uyğun olduğu halda, əməkdaşlıq edilir. Portuqaliya ilə beynəlxalq əməkdaşlıq və rusiyalı ekspertlərin Şirvandakı tədqiqat mərkəzinə gəlməsi ATM tərəfindən bu barədə bizə verilmiş məlumatda qeyd olunmuşdur. Laboratoriyalarla yanaşı ATM-də texnoparklar da mövcuddur. Onlardan kiçiyi ikinci korpusda yerləşir və 2 otaqdan ibarətdir, böyüyü isə Sumqayıt ərazisində yerləşir və burada tələbələrin qalmağı üçün şərait yaradılıb. Texnoparklarda 3D printerlər, müxtəlif fəaliyyətləri həyata keçirmək üçün texniki avadanlıqlar və qoruyucu vasitələr tərəfimizdən müşahidə edilmişdir. Sahə səfəri zamanı laboratoriyalarda utilizasiyanı həyata keçirmək məqsədilə xüsusi təşkilatın təsis edildiyi bildirilmişdir. Lakin ATM-in genetik laboratoriyası ilə tanış olarkən orada kanserogenlər və digər bu kimi zərərli maddələrlə iş zamanı təhlükəsizlik qaydalarına əməl olunmasına dair təlimatlar tərəfimizdən müşahidə edilməmişdir.

# 7. BEYNƏLMİLƏLLƏŞMƏ

## 7.1 Beynəlmiləlləşmə siyasəti

### 7.1.1 ATM-in beynəlmiləlləşmə siyasətinin mövcudluğu və beynəlmiləlləşmə siyasətinin SİP-ə uyğunluğu vəziyyəti

SİP-də QKU-nun beynəlmiləlləşmə siyasəti ilə bağlı qarşıya qoyulan hədəflər, öhdəliklər və strateji vəzifələr yerinə yetirilir. Beynəlmiləlləşmə siyasəti ilə bağlı fəaliyyətin tərkib hissəsi olan elm sahəsində müəyyən nailiyyətlər vardır. Beləki, SİP-də beynəlmiləlləşmə siyasətinin hədəfləri hissəsində qeyd edilən beynəlmiləlləşmə məqsədinə QKU nail olub. Bu sahədə görülən işlər mərkəzləşdirilmiş formada həyata keçirilir. QKU-da mövcud olan Beynəlxalq əlaqələr, Universitetlərarası əlaqələr, Layihlərlə iş və Əcnəbi tələbələrlə iş şöbələri mərkəzləşdirilmiş və hesabatlılığa nail olaraq fəaliyyət göstərir. Akkreditasiya Komissiyasına bu şöbələrin əsasnamələri təqdim edildi. Bu şöbələrin təsdiq edilmiş iş planları mövcuddur.

### 7.1.2 Beynəlmiləlləşmə siyasətində mübadilə proqramlarının təşviq olunma vəziyyəti

QKU-nun Özünütəhlil Hesabatında SİP-nin beynəlmiləlləşmə siyasəti ilə bağlı Erasmus, Mövlana və ikitərəfli müqavilələrə əsaslanan mübadilə proqramlarının davam etdirməsi qeyd edilib. Almaniyanın Schmalkalden Tətbiqi Elmlər Universiteti, İspaniyanın Kastello İncəsənət və Dizayn Məktəbi, İtaliyanın Brasov Transilvaniya Universiteti, Polşanın Nikolay Kopernik Universiteti, Yunanıstanın Panteion Universiteti, Kiprin Frederik Universiteti, Türkiyənin İstanbul Kültür Universiteti ilə mübadilə həyata keçirildiyi bildirildi. Tələbə və müəllimlərin mübadilə proqramlarında iştirakı QKU və əməkdaşlıq edilən ATM-lər tərəfindən müəyyən edilmiş müddət ərzində təmin edilir. Baxmayaraq ki, Mövlana mübadilə proqramı əvvəlki illərdə mövcud olub, son bir neçə ildə bu proqramla bağlı heç bir fəaliyyət olmayıb, hal-hazırda bunu təsdiq edən sənədlər mövcud deyil. Erasmus və ikitərəfli müqavilələrə əsaslanan mübadilə proqramlarının təşviq olunması, bu prosesin aparılması və icrası mərhələləri haqqında QKU-nun rəsmi saytı və sosial media hesablarında məlumatlar mövcuddur, elanlar yerləşdirilib. Beynəlmiləlləşmə siyasətində mübadilə proqramlarının təşviq olunma vəziyyəti qənaətbəxşdir.
Cədvəl 7.1 Mübadilə proqramı çərçivəsində ATM-ə gələn tələbələrin sayı

| Tədris ili | Tələbə sayı |
|---|---|
| 2017-2018 | 1 |
| 2018-2019 | 0 |
| 2020-2021 | 0 |
| 2021-2022 | 0 |
| 2022-2023 | 0 |

### 7.1.3 Beynəlmiləlləşmə siyasətində əcnəbi təhsilalanların cəlb olunmasının təşviq olunması vəziyyəti

QKU-nun beynəlmiləlləşmə siyasətində vacib istiqamət hesab edilən əcnəbi təhsilalanların sayının dinamikasında xüsusilə pandemiya dövründə azalma müşahidə edilsə də, son 2022-2023-cü tədris ilində onların sayı artaraq 132 nəfər olub. 2022-2023-cü tədris ili üçün əcnəbi təhsilalanların sayı Əcnəbi tələbələrlə iş üzrə şöbənin hesabatında təsbit edilib (Cədvəl 7.3). Beynəlmiləlləşmə proqramlarında iştirak edən təhsilalanların ümumi təhsilalanlarda payı (faizlə) 2021-2022 və 2022-2023-cü tədris illərində 0.34%-dən 0.26%-ə düşsə də, əcnəbi tələbələrin ümumi tələbə sayına nisbəti eyni illərdə 3.2%-dən 4.9%-ə qədər artıb. Lakin mübadilə proqramları vasitəsi ilə gələn əcnəbi tələbələrin ümumi tələbə sayında payı (faizlə) 0% olub (Cədvəl 7.4). Bu məlumatları təsdiq edən sənədlər Akkreditasiya Komissiyasına təqdim edildi.

Cədvəl 7.2 Mübadilə proqramları vasitəsi ilə QKU-ya qəbul olunmuş əcnəbi tələbələrin tədris illəri üzrə sayı

| | **2017-2018** | **2018-2019** | **2019-2020** | **2020-2021** | **2021-2022** | **2022-2023** |
|---|---|---|---|---|---|---|
| **Hazırlıq kursu** | 78 | 85 | 135 | 35 | 46 | 110 |
| **Bakalavr** | 9 | 6 | 17 | 13 | 12 | 18 |
| **Magistratura** | 4 | 1 | 3 | 2 | 3 | 3 |
| **Doktorantura** | - | 1 | - | 2 | 5 | 1 |
| **Cəmi** | 91 | 93 | 155 | 52 | 66 | 132 |

Cədvəl 7.3 Mübadilə proqramları vasitəsi ilə QKU-da təhsil alan əcnəbi tələbələrin tədris illəri üzrə sayı

| İllər | Mübadilə proqramında iştirak edən bakalavriat səviyyəsi üzrə təhsilalan sayı | Mübadilə proqramında iştirak edən magistratura səviyyəsi üzrə təhsilalan sayı | Mübadilə proqramında iştirak edən doktorantura səviyyəsi üzrə təhsilalan sayı | Beynəlmiləlləşmə proqramlarında iştirak edən təhsilalanların ümumi təhsilalanlarda payı (faizlə) | Əcnəbi tələbələrin ümumi tələbə sayına nisbəti | Mübadilə proqramları vasitəsi ilə gələn əcnəbi tələbələrin ümumi tələbə sayında payı (faizlə) |
|---|---|---|---|---|---|---|
| **2017-2018** | 0 | 3 | 0 | 0.33 | 10 | 0 |
| **2018-2019** | 5 | 1 | 0 | 0.40 | 6.2 | 0 |
| **2019-2020** | 5 | 0 | 0 | 0.22 | 7 | 0 |
| **2020-2021** | 0 | 0 | 0 | 0 | 2.4 | 0 |
| **2021-2022** | 7 | 0 | 0 | 0.34 | 3.2 | 0 |
| **2022-2023** | 6 | 0 | 1 | 0.26 | 4.9 | 0 |

Cədvəl 7.4 Qrant layihəsi çərçivəsində təhsil alan əcnəbi tələbələrin sayı

| № | Təhsil səviyyəsi | İxtisas | Kurs | Ölkə |
|---|---|---|---|---|
| 1 | Bakalavr | Beynəlxalq münasibətlər | IV | Fələstin |
| 2 | Bakalavr | Biologiya | IV | Zambiya |

Əcnəbi təhsilalanların QKU-ya cəlb olunmasının təşviq olunması ATM-in, eləcə də Elm və Təhsil Nazirliyinin Study in Azerbaijan veb-səhifəsi, Free-apply.com və Keystone Group, GoOverseas, StudyAbroad.pk təhsil platformaları, müxtəlif təşkilatlar və agentliklər vasitəsilə həyata keçirilib və bu barədə məlumat beynəlmiləlləşmə siyasətində öz əksini tapıb. Əcnəbi təhsilalanların QKU-ya cəlb olunmasında ATM-in Times Higher Education və QS kimi beynəlxalq reytinq agentliklərinin səhifəsində və sistemində profilinin olması müsbət bir hal kimi qeyd edilməlidir. Bundan əlavə ATM-in rəsmi saytında 2022-2023-cü tədris ilində tələbələrin mübadilə proqramlarına təşviq olunma vəziyyətini əks etdirən məlumat mövcuddur. Əlavə edilən keçidlər vasitəsilə əlçatanlıq təmin edilib (https://wcu.edu.az/az/news/telebelerimiz-uchun-turkiyenin-istanbul-kultur-universitetin).

### 7.1.4 Beynəlxalq akademik heyətə münasibətdə beynəlmiləlləşmə siyasəti

QKU həyata keçirdiyi beynəlmiləlləşmə siyasətinə əsasən əcnəbi professor-müəllim heyətini tədris prosesinə cəlb edir və son 5 ildə əcnəbi müəllimlərin sayı demək olar ki, sabit qalıb. Məsələn, Akkreditasiya Komissiyası 2022-2023-cü tədris ilində beynəlxalq akademik heyətin sayı, təmsil etdikləri ölkələr və fəaliyyət göstərdikləri kafedra və mərkəzlər haqqında məlumatlandırılıb (bax Cədvəl 7.6), lakin onların tədrisə cəlb olunması mexanizmini təsdiq edən protokollar, dəvət məktubları və müqavilələr təqdim edilməyib.

Cədvəl 7.5 2022-2023-cü tədris ili üzrə əcnəbi professor-müəllim heyətinin siyahısı

| **2022-2023-cü tədris ili** | | | |
|---|---|---|---|
| **№** | **Ölkə** | **Vəzifə** | **Kafedra** |
| 1 | Qazaxıstan | Müəllim | Politologiya və beynəlxalq münasibətlər kafedrası |
| 2 | Çin | Müəllim | Xarici dillər kafedrası |
| 3 | Kanada | Müəllim | İngilis dili mərkəzi |
| 4 | Cənubi Afrika | Müəllim | Turizm və sahələr iqtisadiyyatı kafedrası |
| 5 | İran | Müəllim | Turizm və sahələr iqtisadiyyatı kafedrası |
| 6 | ABŞ | Müəllim | Tarix kafedrası |
| 7 | ABŞ | Müəllim | Tarix kafedrası |
| 8 | Polşa | Müəllim | Politologiya və beynəlxalq münasibətlər kafedrası |
| 9 | İrlandiya | Müəllim | Ümumi iqtisadiyyat kafedrası |

| | | | |
|---|---|---|---|
| 10 | Türkiyə | Müəllim | Təbiət elmləri kafedrası |
| 11 | Almaniya | Müəllim | Ümumi iqtisadiyyat kafedrası |
| 12 | Macarıstan | Müəllim | Maliyyə və menecement kafedrası |
| 13 | İspaniya | Müəllim | Dizayn |
| 14 | Rumıniya | Müəllim | Psixologiya və sosial iş kafedrası |
| 15 | Yunanıstan | Müəllim | Psixologiya və sosial iş kafedrası |
| 16 | Yunanıstan | Müəllim | İngilis dili və tərcümə kafedrası |
| 17 | Yunanıstan | Müəllim | İngilis dili və tərcümə kafedrası |
| 18 | Türkiyə | Müəllim | Politologiya və beynəlxalq münasibətlər kafedrası |

### 7.1.5 Beynəlxalq tədqiqatçılara münasibətdə beynəlmiləlləşmə siyasəti

QKU-nun tədqiqatçılarının müxtəlif illərdə beynəlxalq tədqiqatçılarla ortaq tədqiqat işləri aparması beynəlmiləlləşmə siyasətində əks olunub. Məsələn, ən son belə bir tədqiqat işi QKU-nun təcrübə bazasında 2023-cü ilin mart ayında rusiyalı alimlərlə birgə təşkil edilmiş iki günlük ekspedisiya olub. Bu ekspedisiya haqqında məlumat ictimaiyyətlə paylaşılıb və unviersitetin rəsmi saytına yerləşdirilib. Bundan başqa, müntəzəm olaraq beynəlxalq ekspertlərin təqdimat, təlim və vebinarları keçirilib və keçirilir. Hal-hazırda QKU-nun hər üç tədris binasında bu təlimlər haqqında tələbə və müəllimlər üçün elanlar yerləşdirilib və bu məlumatlar ictimaiyyətlə unviersitetin rəsmi saytı vasitəsilə paylaşılıb.

### 7.1.6 Beynəlxalq təhsil şəbəkəsinə və beynəlxalq təhsil təşkilatlarına münasibətdə beynəlmiləlləşmə siyasəti

Sahə səfəri zamanı Akkreditasiya Komissiyası ikili diplom proqramları ilə bağlı sənədləri nəzərdən keçirib. Bu indikator üzrə ATM bir çox işlər görüb, layihə və tədbirlərdə iştirak edib. Bu məsələ QKU-nun beynəlmiləlləşmə siyasətində öz əksini tapıb və ATM-in Beynəlxalq Təhsil Administratorları Assosiasiyası (AIEA), Beynəlxalq Universitetlər Assosiasiyası (IAU). Açıq və Distant Təhsil üzrə Beynəlxalq Şura (ICDE), Kollec Biznes Məktəblərini İnkişaf etdirmə Assosiasiyası (AACSB), Avropa Elm Fəlsəfəsi Assosiasiyası (EPSA), Qara Dəniz Universitetləri Şəbəkəsi (BSUN), Siyasi Araşdırmalar Dərnəyi (PSA), Universitet Prezidentlərinin Beynəlxalq Assosiasiyası (IAUP), Qafqaz üzrə Avropa Araşdırmaları Assosiasiyası (AESC), Məsuliyyətli İdarəetmə Təhsili Prinsipləri (PRME), Avropa Universitetlər Birliyi (EUA), Beynəlxalq Dırmanma və Alpinizm Federasiyası (UIAA) və s. üzvlük müqavilələri mövcuddur. QKU-da 2021-ci ilin noyabr ayının 15-22-də “Gələcəyin enerjisi” həftəsi (https://wcu.edu.az/en/news/dunya-shohretli-alimlerin-ishtiraki-ile-geleceyin-enerjisi-h) və həmin ilin 14 iyun tarixində “Təhsilə transformativ yanaşma” mövzusunda Qlobal Forum keçirilib (https://wcu.edu.az/az/news/qlobal-forum-kechirilib) (https://www.timeshighered-

events.com/impact-education-forum-2021/agenda). Bu tədbirlər haqqında məlumatlar ictimaiyyətə çatdırılıb. Belə ki, ən son belə beynəlxalq tədbir 2022-ci ilin sentyabr ayının 27-28-də QKU və Times Higher Education təşkilatının birgə təşkilatçılığı ilə “Davamlı gələcək üçün tərəfdaşlar” adlı beynəlxalq təhsil forumu olub. Forum haqqında məlumat və məruzə ictimaiyyətlə həm ATM-in rəsmi saytı vasitəsilə paylaşılıb, həm də Times Higher Education təşkilatının öz rəsmi saytında yerləşdirilib (https://wcu.edu.az/az/news/times-higher-education-teshkilatinin-birge-teshkilatchiligi- ; https://www.timeshighereducation.com/university-impact-forum-focuses-quality-education).

### 7.1.7 İkili diplom proqramlarına münasibətdə beynəlmiləlləşmə siyasəti

QKU-nun Amerika Birləşmiş Ştatlarının UBIS və Almaniya Federativ Respublikasının FOM Universiteti ilə ikili diplom proqramları üzrə müqavilələri mövcuddur. UBIS ilə əməkadaşlıq haqqında ilkin razılaşmanı əks etdirən memorandum 2016-cı ilin aprel ayının 5-də imzalanıb. QKU-nun 2018 və 2022-ci illərdə İsveçrədə UBIS universiteti ilə ikili diplom proqramını bitirən magistrlər üçün məzun günü keçirməsi ilə bağlı məlumatlar və bunu təsdiq edən sənədlər sosial şəbəkələrdə və ATM-in rəsmi saytı vasitəsilə paylaşılıb. 2016-cı ildə imzalanmış memorandum və ikili diplomun nüsxələri Akkreditasiya Komissiyasına təqdim edilb. Bundan əlavə, Almaniya Federativ Respublikasının FOM Universiteti ilə ikili diplom verilməsi üzrə əməkdaşlıq haqqında razılaşmanı əks etdirən memorandum mövcuddur. Bu memoranduma əsasən ilk proqram 2023-2024-cü tədris ilinin qış semestrində başlamalıdır. QKU-nun ikili diplom proqramları üzrə fəaliyyəti beynəlmiləlləşmə siyasətində qeyd olunub və hal-hazırda bu fəaliyyət qənaətbəxş hesab edilə bilər.

### 7.1.8 Beynəlmiləlləşmə siyasətinin dövrü yenilənməsi vəziyyəti

QKU-nun 2022-2023-cü tədris ilində hazırlanmış beynəlmiləlləşmə siyasəti, Elmi Şuranın 12 yanvar 2022-ci il tarixli 03 nömrəli iclasında təsdiqlənib və 2023-2024-cü tədris ilində yenidən baxılmasına qərar verilib. Elmi Şuranın 12 yanvar 2022-ci il tarixli 03 nömrəli iclasının protokolundan çıxarış mövcuddur. Beynəlmiləlləşmə siyasətinə yenidən baxılmasını təsdiqləyən Elmi Şuranın 27 yanvar 2024-cü il tarixli 05 nömrəli iclasının protokolundan çıxarışı Akkreditasiya Komissiyasına təqdim edilib.

## 7.2 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilati strukturu

### 7.2.1 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi üzrə təşkilati strukturun mövcud

Özünütəhlil Hesabatında ATM-in beynəlmiləlləşmə proseslərinin statusu, fəaliyyəti və idarəetməsi Azərbaycan Respublikasının təhsil qanunvericiliyi, ATM-in Nizamnaməsi və Əsasnaməsi ilə müəyyən edildiyi qeyd edilib. Bu məlumat QKU-nun təşkilatı strukturuna daxil olan Beynəlxalq əlaqələr, Əcnəbi tələbələrlə iş, Universitetlərarası əlaqələr və Layihələrlə İş şöbələrinin Akkreditasiya Komissiyasına təqdim edilən nizamnamələrində təsdiqləndi. Şöbələrin fəaliyyəti Azərbaycan Respublikasının qanunlarını, Miqrasiya Məcəlləsini, təhsillə bağlı qanunvericilik aktlarını, Elm və Təhsil Nazirliyinin müvafiq əmr, sərəncam və göstərişlərini,

ATM-in Təsisçilər Şurası, Qəyyumlar Şurası, Böyük Şura və Elmi Şurasının qərarlarını, ATM rəhbərliyinin əmr və göstərişlərini, idarəetmədə, elmi fəaliyyətdə, təhsil və tədrisdə keyfiyyət standartlarını və bu sahədə beynəlxalq təcrübəni, öz vəzifə funksiyaları çərçivəsində milli və beynəlxalq tədqiqatların nəticələrini, həmçinin təhsilə dair əmək qanunvericiliyinin tələblərini rəhbər tutur.

### 7.2.2 Təşkilati strukturun beynəlmiləlləşmə siyasətinə uyğunluğu vəziyyəti

QKU-nun Beynəlxalq əlaqələr, Əcnəbi tələbələrlə iş, Universitetlərarası əlaqələr və layihələrlə iş şöbələrinin əməkdaşlarının vəzifə təlimatları müəyyən edilib və beynəlmiləlləşmə siyasətinə uyğun aparılır. Hər üç şöbənin əsasnaməsi və əməkdaşlarının icra etməli olduqları vəzifələr beynəlmiləlləşmə siyasətində müəyyən edilən hədəflərə uyğunlaşdırılıb. Akkreditasiya Komissiyasına hər üç nizamnamə və iş planı təqdim edildi.

### 7.2.3 Mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinin tanınması mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti

QKU-nun mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinin tanınması “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın təsdiq edilməsi haqqında 24 dekabr 2013-cü il № 348 qanuna əsaslanaraq və “Kreditlərin transferi (köçürülməsi) haqqında” daxili əsasnamə vasitəsilə tənzimləndiyi öz təsdiqini tapdı.

2021-2022-ci tədris ili üzrə Erasmus+ mübadilə proqramında Almaniyanın Şmalkalden Tətbiqi Elmlər Universitetində (Schmalkalden University of Applied Sciences) 2 tələbə, İspaniyanın Kastello İncəsənət və Dizayn Məktəbində  (Escola d’ Art; Art i Superior de Disseny de Castelló) 2 tələbə, Türkiyənin İstanbul Kültür Universitetində (İstanbul Kültür University) 1 tələbə, Yunanıstanın Panteion Sosial və Siyasi Elmlər Universitetində (Panteion University of Social and Political Sciences) 2 tələbənin iştirak etdiyi təsdiq edildi. Bundan əlavə, 2022-2023-cü tədris ili üzrə Erasmus+ mübadilə proqramında Almaniyanın Şmalkalden Tətbiqi Elmlər Universitetində (Schmalkalden University of Applied Sciences) 1 tələbə,  İspaniyanın Kastello İncəsənət və Dizayn Məktəbində (Escola d’ Art; Art i Superior de Disseny de Castelló) 4 tələbə, Rumıniyanın Brasov Transilvaniya Universitetində (Transilvania University of Brasov) 1 tələbə və İtaliyanın Tuscia Universitetin də (Università degli Studi della Tuscia) 1 tələbənin iştirak etdiyi təsdiq edildi və mübadilə yekunlaşdıqdan  sonra tələbələrin kreditlərini tanıyan imzalanmış Öyrənmə müqavilələri (Learning Agreements) Akkreditasiya Komissiyasına təqdim edildi.

### 7.2.4 Əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsi vəziyyəti

QKU-nun ÖTH-da əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsininin Strateji İnkişaf Planın 6-cı məqsədi, 2-ci hədəfində öz əksini tapdığı qeyd edilir. QKU-da əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsi mexanizmi mövcuddur. Bu mexanizm özündə əmək müqaviləsini, professor və müəllimlərin dəvət edilməsi, mübadilə proqramları çərçivəsində tərəfdaş ATM-lər və  beynəlxalq təşkilatlarla bağlanmış

müqavilələri ehtiva edir. Bu proses Konfutsi İnstitutunun vasitəsilə də həyata keçirilir. 2020-2021-ci və 2021-2022-ci tədris illəri koronavirus pandemiyası dövrünə təsadüf etdiyi üçün QKU-nun professor-müəllim heyəti mübadilə proqramlarında iştirak etməyib. Lakin sonradan 2022-2023-cü tədris ili üzrə Erasmus+ mübadilə proqramında iştirak edən professor-müəllim heyətinin sayı 5 nəfər olub. Onlardan 3 nəfər İspaniyanın Kastello İncəsənət və Dizayn Məktəbi (Escola d'Art i Superior de Disseny de Castelló) və 2 nəfər isə İtaliyanın Tuscia Universitetində (Università degli Studi della Tuscia) mübadilə proqramında iştirak edib (Bax Cədvəl 7.7). Akkreditasiya Komissiyasına tərəfdaş ATM-lər və beynəlxalq təşkilatlarla bağlanmış müqavilələr təqdim edildi.

Cədvəl 7.6 2022-2023-cü tədris ili üzrə Erasmus+mübadilə proqramında ATM-i ziyarət edən inzibati və müəllim-professor heyətinin siyahısı

| № | Ad | Soyad | ATM | Ölkə |
|---|---|---|---|---|
| 1 | Florin | Nechita | Brasov Transilvaniya Universiteti (Transilvania University of Brasov) | Rumıniya |
| 2 | Jürgen | Gemeinhardt | Şmalkalden Tətbiqi Elmlər Universiteti (Schmalkalden University of Applied Sciences) | Almaniya |
| 3 | László | Józsa | Pannonia Universiteti (Pannonia University) | Macarıstan |
| 4 | Evangelia | Plemmenou | Panteion Sosial və Siyasi Elmlər Universiteti (Panteion University of Social and Political Sciences) | Yunanıstan |
| 5 | Anna | Gkiati | Panteion Sosial və Siyasi Elmlər Universiteti(Panteion University of Social and Political Sciences) | Yunanıstan |
| 6 | Katerina | Papameleti | Panteion Sosial və Siyasi Elmlər Universiteti (Panteion University of Social and Political Sciences) | Yunanıstan |
| 7 | Çağla Gül | Yesevi | İstanbul Kültür Universiteti (İstanbul Kültür University) | Türkiyə |

### 7.2.5 Beynəlmiləlləşmə siyasətinin idarəedilməsinin səmərəliliyinin monitorinq edilməsi vəziyyəti

Sahə səfəri zamanı Akkreditasiya Komissiyasına QKU-nun beynəlmiləlləşmə siyasətinin idarəedilməsinin səmərəliliyi ATM-in Monitorinq şöbəsi tərəfindən keçirilmiş sorğular vasitəsilə

qiymətləndirildiyi bildirildi. Bu məqsədlə xaricdə mübadilə proqramında iştirak etmiş müəllimlər arasında keçirilmiş sorğular 2018-2023-cü illərdə onlayn qaydada aparılıb. Bundan əlavə, QKU-da təhsil alan əcnəbi tələbələr arasında onlayn sorğunun keçirildiyi müşahidə edildi. Akkreditasiya Komissiyasına sorğuların linkləri təqdim edildi (https://forms.gle/TAHth1aMh3S2buV47; https://forms.gle/uDGecKHJJX7m3ooe8).

### 7.2.6 ATM-də təşkil olunan ikili diplom proqramları üzrə təlim və tədris prosesinin AKTTS-in və yerli qanunvericiliyin tələblərinə uyğun olaraq tənzimlənməsi vəziyyəti

QKU-da təşkil olunan ikili diplom proqramları üzrə təlim və tədris prosesi AKTTS-in və “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın təsdiq edilməsi haqqında 24 dekabr 2013-cü il № 348 qanuna, “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində beynəlxalq ikili diplom proqramlarının həyata keçiriləcəyi xarici tərəfdaş ali təhsil müəssisələrinin, ixtisas proqramlarının və təhsil səviyyələrinin seçim Qaydaları”nın təsdiq edilməsi haqqında 20 noyabr 2019-cu il № 451 Qanuna əsaslanaraq və “Kreditlərin transferi (köçürülməsi) haqqında” daxili əsasnamə vasitəsilə tənzimlənir. Mübadilə yekunlaşdıqdan sonra tələbələrin kreditlərini tanıyan imzalanmış Öyrənmə müqavilələri verilir. Mübadilə proqramında iştirak etmiş tələbələrin kreditlərini tanıyan imzalanmış Öyrənmə müqavilələrinin bir neçə nümunəsi Akkreditasiya Komissiyasına təqdim edilmişdir.

### 7.2.7 Beynəlmiləlləşmə siyasətinə uyğun olaraq akademik heyətin mübadilə dinamikası

QKU-nun Strateji İnkişaf Planının 4-cü məqsədinin 2-ci hədəfində “Mübadilə proqramları üzrə göndərilmiş və digər ATM-lərdən cəlb edilmiş müəllimlərin sayının artırılmasının tənzimləndiyi qeyd edilib. Beləliklə, 2021-2022-ci tədris ilində mübadilə proqramı çərçivəsində QKU-nu ziyarət edən əcnəbi professor-müəlim heyətinin sayı 6 və 2022-2023-cü tədris ilində isə artaraq 8-ə çatıb. QKU-nun mübadilə proqramında iştirak edən professor-müəllim heyətinin sayında 2022-2023-cü tədris ilində artım müşahidə edilib və 5 nəfər olub (Bax Cədvəl 7.6). Bu baxımdan akademik heyətin mübadilə dinamikası beynəlmiləlləşmə siyasətinə uyğundur. Gələcək illərdə akademik heyətin mübadilə dinamikasının daha da artırılması məqsədəuyğun olar.

Cədvəl 7.7 2022-2023-cü tədris ili üzrə Erasmus+ mübadilə proqramında iştirak edən professor və inzibati heyətinin siyahısı

| № | Ad | Soyad | Universitet | Ölkə |
|---|---|---|---|---|
| 1 | Alla | Bayramova | Kastello İncəsənət və Dizayn Məktəbi (Escola d'Art i Superior de Disseny de Castelló) | İspaniya |
| 2 | Aysel | Əliyeva | Kastello İncəsənət və Dizayn Məktəbi (Escola d'Art i Superior de Disseny de Castelló) | İspaniya |
| 3 | Kəklik | Gözəlova | Kastello İncəsənət və Dizayn Məktəbi (Escola d'Art i Superior de Disseny de Castelló) | İspaniya |
| 4 | Fuad | Bağırov | Tuscia Universiteti (Università degli Studi della Tuscia) | İtaliya |
| 5 | Məhəmməd | Məhərəmmov | Tuscia Universiteti (Università degli Studi della Tuscia) | İtaliya |

### 7.2.8 Akademik və inzibati heyətin mübadiləsi prosesinin şəffaf və hərkəsə əlçatanlıq prinsipləri əsasında hazırlanmış daxili prosedurlar əsasında təşkili vəziyyəti

Bu indikatorla bağlı sahə səfəri zamanı aparılmış müsahibələrə istinadən qeyd etmək lazımdır ki, QKU-da akademik və inzibati heyətin mübadiləsi prosesinin şəffaf və əlçatanlıq prinsipləri əsasında təşkil edilməsi məqsədi ilə müvafiq komitə yaradılıb. Komitənin təşkilatçılığı ilə məlumat müvafiq şöbə, fakültə və kafedralarla paylaşılır. Səlis ingilis dili biliyinə sahib olan akademik və inzibati heyət əməkdaşlarının tədris prosesinə və QKU-nun ümumi fəaliyyətinə verdiyi töhfələr öyrənilir və hər iki kateqoriya üzrə üstünlük əldə edən müəllim və ya inzibati işçi mübadilə proqramında iştiraka haqq qazanır. Bu mənada üstünlük əvvəllər mübadilə proqramlarında iştirak etməmiş müəllim və inzibati işçilərə verilir. Bundan əlavə, iştirakçılara sənəd dəstəyi, viza proseduru və yerləşdirmə ilə bağlı müvafiq məlumatlar mübadilədən əvvəl verilir. QKU-nun Elmi Şurasının 30 may 2023-cü il tarixli 10 nömrəli protokolunda həm bakalavr, magistratura və doktorantura tələbələri üçün, həm də professor-müəllim heyətinin və inzibati işçilərin mübadilə proqramında iştirak etməsi ilə bağlı seçim mexanizmi təsdiqlənib.

### 7.2.9 ATM-də mövcud olan mübadilə proqramları üzrə iştirakçılılığın təmin olunması dinamikası və təlim və tədris prosesinin AKTTS-in tələblərinə uyğun təşkili vəziyyəti

Akkreditasiya Komissiyasına verilən məlumata əsasən, QKU-nun mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinin tanınması "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında 24 dekabr 2013-cü il 348 nömrəli qanuna əsaslanaraq və "Kreditlərin transferi (köçürülməsi) haqqında" daxili əsasnamə vasitəsilə tənzimlənir.

Mübadilə proqramında iştirak edəcək tələbələrin seçiminin aparılması QKU-nun Elmi Şurasının 30 may 2023-cü il tarixli 10 saylı iclasının protokolunda bakalavr, magistratura və doktorantura tələbələri üçün mübadilə proqramında iştirak etməklə bağlı seçim mexanizmi əsasında aparılır. QKU əməkdaşlıq etdiyi ATM-lər ilə birgə təhsil proqramlarının bakalavr və magistr təhsil proqramlarına uyğunluğunu təhlil edərək institusional müqavilələr imzalayır. Tələbənin Öyrənmə Müqaviləsində tərəfdaş ATM-də tədris olunacaq fənlər və AKTS kreditləri qeyd olunur və mübadilə yekunlaşdıqdan sonra tələbələrin kreditləri imzalanmış Öyrənmə müqaviləsi əsasında tanınır. Mübadilə proqramında iştirak etmiş tələbələrin kreditlərini tanıyan imzalanmış Öyrənmə müqavilələrinin bir neçə nümunəsi, bundan əlavə American Councils for International Education (ACTR/ACCELS) və Deutscher Akademischer Austauschdienst (DAAD)/German Academic Exchange Service programlarının verdiyi qrantların invoice və s. sənədlərinin bir neçə nümunəsi Akkreditasiya Komissiyasına təqdim edilmişdir.

### 7.2.10 Beynəlxalq reytinqlərdə ATM-in təmsil olunma vəziyyəti

Sahə səfəri zamanı bu indikator üzrə Akkreditasiya Komissiyasının apardığı müsahibələrdə QKU-nun dünyanın nüfüzlu reytinqlərində aktiv iştirak etdiyi və ATM-in göstəricilərə əsasən qabaqcıl ali təhsil müəssisələri arasında yer tutduğu vurğulanıb. QKU Times Higher Education (THE) təşkilatının "THE Impact Ranking" 2023 üzrə dünyanın ən yaxşı 601–800 ATM-i arasında yer alıb (https://wcu.edu.az/en/page/the-western-caspian-university-is-among-the-best-universities-in-the-world#:~:text=In%20the%20ranking%20of%20the,601%2B%20among%201240%20world%20universities) və Times Higher Education World University 2023 və Ranking Young University Rankings 2023-də reporter qismində iştirak edib. QKU həm də QS (Quacquarelli Symonds) Stars reytinqində 2021-ci il üçün yüksək nəticələr göstərib. Belə ki, QKU təhsil keyfiyyəti üzrə mümkün 5 ulduz üzrə 5, onlayn tədris üzrə 4, məzunların iş tapması üzrə 4 və inklüzivlik üzrə 4 ulduzla qiymətləndirilib. Bunlardən əlavə, QKU Avropa birliyi tərəfindən təsis edilən "U-Multirank" beynəlxalq reytinq sisteminə daxil edilib və ən yaxşı 202 ATM arasında göstərilib. Təhsil, beynəlmilləlәşmə, elmi-tədqiqat, elm mübadiləsi, regional əməkdaşlıq və s. üzrə dünyanın 2068 ali təhsil müəssisəsinin iştirak etdiyi reytinqdə QKU-nun 8 göstərici üzrə "A" (çox yaxşı), 4 göstərici üzrə "B" (yaxşı) nəticəsi əldə edib. QKU eləcə də UI GreenMetric World University Rankings 2022 Avropa üzrə 170-ci yer, UI GreenMetric World University Rankings 2021 Avropa üzrə 198-ci yer tutub. QKU AASHE Stars Reytinqində: "Gold Stars" - təhsil kateqoriyasındakı qiymətləndirmədə müəyyən edilmiş mümkün 40 baldan 33.52, elmi tədqiqat

üzrə mümkün 18 baldan 16,33, ictimaiyyətlə əlaqələr üzrə mümkün 20 baldan 18,48 bal əldə edib və “Round University Ranking” 2022: təhsilin keyfiyyətinə görə ölkə üzrə 1-ci, dünya üzrə isə ilk 500-də yer alıb. Nəticələrə əsaslanaraq, QKU-nun Beynəlxalq reytinqlərdə təmsil olunma vəziyyətinin qənaətbəxş olduğu qeyd edilməlidir. Akkreditasiya Komissiyasına bu nəticələri təsdiqləyən sənəd və sertifikatlar təqdim edildi.

### 7.3 Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar

#### 7.3.1 Beynəlmiləlləşmə siyasətinin icrasına maliyyə resurslarının ayrılması vəziyyəti

Özünütəhlil Hesabatında QKU-nun maliyyələşdirilməsinin “Təhsil haqqında” Qanunun 40-cı maddəsi ilə tənzimləndiyi bildirilib və maliyyə resurslarının artırılması müxtəlif qrantlar, təqaüdlər və digər mənbələrin cəlb olunması ilə həyata keçirildiyi qeyd edilib. Maliyyələşdirilməyə təhsil haqları, əməkdaşlıq çərçivəsində ayrılan qrantlar, beynəlxalq layihələrdən əldə edilən vəsaitlərin daxil olduğu Özünütəhlil Hesabatında göstərilib. Beynəlxalq təşkilatlara üzvlük haqqı, QKU əməkdaşlarının, xarici qonaqların ezamiyyət xərcləri və s. ATM tərəfindən qarşılanması beynəlmiləlləşmə siyasətində öz əksini tapıb.

#### 7.3.2 Beynəlmiləlləşmə siyasətinin icrasına insan resurslarının ayrılması vəziyyəti

Beynəlmiləlləşmə siyasətinin icrasını keyfiyyətli və uğurlu həyata keçirilməsində müvafiq şöbələr ilə yanaşı, digər şöbələr, fakültələr və bölmələr də yer alıb və bu məqsədlə fakültələr, şöbələr, bölmələr əlaqəli fəaliyyət göstərir. Bütün məlumatlar beynəlmiləlləşmə siyasətində öz əksini tapıb.

#### 7.3.3 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan infrastrukturun mövcud olması vəziyyəti

Sahə səfəri zamanı Akkreditasiya Komissiyasının üzvləri QKU-da beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan maddi-texniki baza və təhsil infrastrukturunu nəzərdən keçirərkən Beynəlxalq əlaqələr və əcnəbi tələbələr ilə iş şöbəsinə 2 otaq ayrıldığının, otaqların zəruri infrastruktur və avadanlıqlarla təmin olunduğunun, tədris prosesinin təşkilinin müasir avadanlıqlar ilə təchiz olunmuş auditoriyalarda təyin olunmuş cədvəl üzrə QKU-nun hər üç binasında həyata keçirildiyinin şahidi oldu. Auditoriyalar kompüterlər, proyektor və ağıllı lövhələr ilə təchiz olunub. QKU-da elmi-tədqiqat mərkəzləri, laboratoriyalar və üç tədris binasının ikisində müasir kitabxana var. Tələbə və müəllimlərin mövcud olan infrastruktur sahələrində elmi araşdırma aparması təmin edilir. Eləcə də kitabxanlarda dövrü və dünyada aparılan tədqiqatlarla bağlı elmi məlumatların əldə edilməsi üçün kompüterlərlə təchiz edilmiş rahat və geniş oxu zalları mövcuddur.

#### 7.3.4 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan resursların monitorinqi və qiymətləndirilməsi vəziyyəti

Sahə səfəri zamanı aparılmış müsahibələrə istinadən qeyd etmək olar ki, QKU-da

beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan resursların monitorinqi və qiymətləndirilməsi Monitorinq şöbəsi tərəfindən xüsusi meyarlar üzrə aparılır. Hər tədris ilinin əvvəlində iş planı hazırlanır və ilin sonunda görülən iş qiymətləndirilir. İş planına uyğun olaraq mövcud vəziyyət müzakirə olunur, qeydlər və rəhbərliyin tövsiyələri nəzərə alınmaqla növbəti il üzrə iş planı hazırlanır. Beynəlmiləlləşmə siyasətinin həyata keçirilməsində əhəmiyyətli məsələlərin QKU-nun Elmi Şurasında müzakirə edildiyi və müvafiq qərarlar alındığı bildirildi.

### 7.4 Beynəlmiləlləşmə performansı

#### 7.4.1 Beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin dinamikasına nəzarət mexanizminin mövcudluğu vəziyyəti

Akkreditasiya Komissiyasına verilən məlumata görə, QKU-da beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin dinamikasına nəzarət Monitorinq şöbəsi tərəfindən xüsusi meyarlar üzrə aparılır. ATM-də müxtəlif illərdə keçirilən müəllim anket sorğuları üzrə nəticələrin statistik təhlilini özündə əks etdirən sənədlər mövcuddur və bu sorğuların bir hissəsi beynəlmiləlləşmə siyasəti və onun icrası ilə bağlı suallardan ibarətdir. Müəllim anket sorğularında iştirak sayında nisbətən artımın qeydə alındığı müşahidə edilmişdir. Akkreditasiya Komissiyası həm yerli, həm də əcnəbi professor-müəllim heyəti, inzibati işçilər və tələbələr arasında müstəqil sorğuların keçirilməsini tövsiyə edir.

#### 7.4.2 Beynəlmiləlləşmə proesesi çərçivəsində ehtiyacəsaslı təkmilləşdirmə fəaliyyətlərinin mövcudluğu vəziyyəti

Sahə səfəri zamanı QKU-da beynəlmiləlləşmə siyasətinin nəticələrinin monitorinqi ilə bağlı bəzi işlərin görüldüyü müşahidə olundu. Bu səbəblə ehtiyac əsaslı fəaliyyətin tənzimlənməsi və lazımi dəyişikliklərin edilməsi və eyni zamanda strategiyada qeyd olunan hədəflərə istiqamətlənmiş və təkmilləşdirilmiş siyasət üzrə hədəflərə nail olmaq üçün mütəmadi olaraq Beynəlxalq əlaqələr şöbəsi və Əcnəbi tələbələr ilə iş şöbəsi tərəfindən izlənildiyi qeyd edildi. Həmçinin iş planları və fəaliyyət planları dövründə yeni fəaliyyətlərin növbəti dövrdə tətbiqinin həyata keçiriləcəyi vurğulandı. Yeni hədəflərin seçimi zamanı rəhbərliyin və struktur rəhbərlərinin yanaşması, problemlərin müəyyən edilməsi, onların həlli yolları, təkliflər, məqsəd, məqsədə çatmaq üçün Fəaliyyət planı, planın icrası üçün iş bölgüsü, həll variantları, insan və maliyyə resurslarının ayrılması prosesinin təkmilləşdirildiyi qeyd edildi. Eləcə də 2022/2023-cü tədris ili üçün Beynəlxalq Əlaqələr Şöbəsinin Strateji İnkişaf Planının icrası üzrə Fəaliyyət planının hesabatı təqdim edildi.

Lakin beynəlmiləlləşmə prosesi çərçivəsində ehtiyacəsaslı təkmilləşdirmə fəaliyyətlərinin rəqəmsal izlənilməsi və bunun üçün vacib hesab edilən hədəf indikatorlarının daha spesifik, müvafiq, düzgün, ölçüləbilən olması və nəticə olaraq, müvafiq istiqamətdə təkmilləşdirilməsi Akkreditasiya Komissiyası tərəfindən tövsiyə olunur.

## KOMİSSİYANIN İSTİQAMƏTLƏR ÜZRƏ TƏHLİLİ

| 1. STRATEJİ İNKİŞAF | |
|---|---|
| **Güclü tərəflər** | 1. Strateji İnkişaf Planının mövcudluğu;<br>2. Təhsilin İnkişafı üzrə Dövlət Strategiyasının istiqamətlərinin əsasən əhatə edilməsi;<br>3. Mövcud kadrların kifayət qədər potensiallı olması;<br>4. Digər strukturlarla birlikdə işçi qruplarının yaradılması;<br>5. SİP-in hazırlanması Komissiyasına maraqlı tərəflərin cəlb olunması;<br>6. SİP-in hazırlanmasında maraqlı tərəflərin fikirlərinin sorğular vasitəsilə öyrənilməsi. |
| **Zəif tərəflər** | 1. SİP-də bəzi nəticə indikatorlarının (kəmiyyət göstəricilərinin) olmaması;<br>2. Fəaliyyət planında qısamüddətli dövrün tarixlərinin konkret göstərilməməsi;<br>3. İşçilərin sayının az olması;<br>4. SİP-in tərtib olunmasında beynəlxalq ekspertlərin iştirak etməməsi. |
| **Komissiyanın tövsiyəsi** | 1. Strateji İnkişaf Mərkəzinin işçilərin sayının artırılması;<br>2. SİP-in planlanmasında beynəlxalq ekspertlərin cəlb olunması;<br>3. Konkret kəmiyyət göstəricilərinin SİP-də qeyd olunması;<br>4. SİP-ə uyğun olaraq illik Fəaliyyət planlarının daha təfərrüatlı hazırlanması tövsiyə olunur. |

| 2. KEYFİYYƏT TƏMİNATI | |
|---|---|
| **Güclü tərəflər** | 1. ATM-də əməkdaşlar arasında mənəvi-psixoloji mühitin yüksək səviyyədə olması;<br>2. Mərkəzin beynəlxalq standartlara uyğun olması;<br>3. Keyfiyyət təminatı sənədinin hazırlanması üçün yaradılan işçi qrupunun tərkibinə maraqlı tərəflərin cəlb olunması, eləcə də sənədə dair rəsmi rəylərin alınması;<br>4. Bütün əməkdaşların və tələbələrin keyfiyyət təminatı siyasəti barədə məlumatlı olması və keyfiyyət mədəniyyəti anlayışını tam mənada dərk etməsi;<br>5. KT Mərkəzi ilə yanaşı kollegial qurum olaraq maraqlı tərəflərin iştirakı ilə Keyfiyyətə nəzarət komissiyasının fəaliyyət göstərməsi;<br>6. Tədris planlarının monitorinqinin mütəmadi olaraq həyata keçirilməsi;<br>7. Xarici professorların tədris prosesinə cəlb olunması;<br>8. Müxtəlif beynəlxalq data bazalara çıxışın olması;<br>9. KT Mərkəzinin birbaşa rektora tabe olması<br>10. Sorğu sistemi mexanizminin düzgün qurulması. |
| **Zəif tərəflər** | 1. KT Mərkəzinin və KN komissiyasının fəaliyyət planlarının daha konkret (kəmiyyət) indikatorlarla əks olunmaması;<br>2. Keyfiyyət təminatı yönümlü təlimlərin mütəmadi şəkildə keçirilməməsi. |
| **Komissiyanın tövsiyəsi** | 1. İşə götürənlərlə əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi;<br>2. KT Mərkəzinin əməkdaşlarının KT istiqamətində müxtəlif təlimlərə cəlb olunması və bu sahədə digər ATM-lərlə əməkdaşlığın gücləndirilməsi;<br>3. KT işçilərininin verilənlərin təhlili ilə bağlı bacarıqlarının artırılması məqsədilə uyğun müasir tədqiqat metodları barədə təlimlərə cəlb olunması;<br>4. İxtisaslar üzrə Proqram Təlim Nəticələri Matriksi hazırlansa da, ona əlavə olaraq məzun kompetensiya matriksinin hazırlanaraq kafedralarda monitorinq olunması tövsiyə olunur. |

| 3. TƏLİM VƏ TƏDRİS | |
|---|---|
| **Güclü tərəflər** | 1. QKU Beynəlxalq distant və açıq təhsil şurasının üzvü olması və şuranın standartları müəyyənləşdirən işçi qrupunda təmsil olunması;<br>2. Tələbə və məzunlar arasında keçirilən rəy sorğularının çoxistiqamətliliyi və intensivliyi;<br>3. QKU-nun Sumqayıt Texnologiyalar Parkı ilə anlaşma memorandumunun və 60 şirkətlə aktiv əməkdaşlıq müqaviləsinin mövcudluğu;<br>4. QKU-da Təlim və Tədris prosesinin təşkilinin təkmilləşdirilməsi, müasir təlim və tədris resurslarından istifadə və təchizatın yaxşılaşdırılması;<br>5. Tədrisin elektron idarə edilməsi sisteminin - Elektron tədris platformasının mövcudluğu və təhsilalanlar üçün istifadəsinin əlçatanlığı;<br>6. Elektron tədris platformasında mövcud olan müəllim (my.wcu.edu.az) və tələbələrin şəxsi kabinetlərinin modullarının istifadəçi yönümlülüyü;<br>7. Universitetdə müxtəlif dillərdə çap, elektron və onlayn formatda, eləcə də tədris dillərinə uyğun kitab fondu olan müasir elmi kitabxananın mövcudluğu;<br>8. Professor-müəllim heyətinin fəaliyyətinin təhsilalanlar tərəfindən qiymətləndirmə mexanizminin mövcudluğu;<br>9. Bütün tələbələrə və müəllimlərə ödənisiz əsaslarla, müntəzəm şəkildə ingilis dilinin tədrisi;<br>10. Obyektivliyin təmin edilməsi baxımından şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri qorunub saxlanılmaqla qiymətləndirmə prosesinin, eləcə də apellyasiya müraciətlərinin qəbulu və cavablandırılmasının ümumi tələblər nəzərə alınmaqla həyata keçirilməsi. |
| **Zəif tərəflər** | 1. ATM tərəfindən təhsilalanlara hər hansı adlı təqaüdlərin verilməsinin nəzərdə tutulmaması;<br>2. Açıq dərslərin qiymətləndirilməsi mexanizminin ənənəvi üsullara əsaslanaraq aparılması;<br>3. Dərs yükünün bölgüsü zamanı normativ qaydaların tələblərinə tam şəkildə əməl olunmaması;<br>4. Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70%-dən az hissəsinin QKU əməkdaşları olması; |

| | |
|---|---|
| | 5. Professor-müəllim heyətinin ümumi xidməti fəaliyyətini - tədris, elmi-tədqiqat və s. fəaliyyətlərini və eyni zamanda müvafiq fəaliyyət kriteriyaları üzrə qiymətləndirmə meyarlarını özündə ehtiva edən vahid qaydalara əsaslanan, şəffaflığı təmin etmək məqsədi ilə müasir proqramla nəzarət oluna bilən mükəmməl differensiallaşdırılmış əmək haqqı sisteminin olmaması;<br>6. Hazırlanan fənn proqramlarının və sillabusların xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrinin təcrübələrindən bəhrələnməklə kompetensiya əsaslı tərtib edilməməsi;<br>7. Kafedralarda elmi-tədqiqat istiqamətlərinin, eləcə də mərhələlər üzrə Fəaliyyət planının dəqiq müəyyənləşdirilməməsi. |
| **Komissiyanın tövsiyəsi** | 1. QKU-da tələbə və məzunların təklifləri əsasında yeniliklərin (qərarların) inkişaf dinamikasının izlənilməsi məqsədilə hesabatlılığın tətbiq edilməsi;<br>2. Xarici tələbələrə daha həssas münasibət, onlar üçün tədrisin tam ingilis dilində təşkilinin təmin olunması;<br>3.Tələbələrin QKU-da fəaliyyət göstərən karyera mərkəzinin təklif etdiyi xidmətlərlə tanış olmağa və onlardan yararlanmağa təşviq edilməsi;<br>4.Laboratoriya dərslərində tələbə biliyinin qiymətləndirilməsi üçün elektron jurnalda sillabus üzrə yerinə yetiriləcək laboratoriya işlərinin sayını və bu məşğələ növü üzrə imtahana qədər toplanılacaq balı əvvəlcədən müəyyən edilməklə, yerinə yetirilən işlərin “0” (yerinə yetirilməmişdir) və ya “1” (yerinə yetirilmişdir) kimi qiymətləndirilməsini elektron jurnalda əks etdirən, əmsallar üzrə yekun nəticənin formalaşdırılması üzrə proqram təminatının təkmilləşdirilməsi;<br>5. Elektron tədris resursları bazasının tədris prosesinə inteqrasiyası məqsədilə tədris otaqlarının informasiya-kommunikasiya texnologiyaları vasitəsilə maddi-texniki bazasının təkmilləşdirilməsi, kompüter avadanlığı və digər zəruri rəqəmsal avadanlıqla təminatının yaxşılaşdırılması və nəticə etibarı ilə proqramın tamamilə rəqəmsallaşdırılması istiqamətində işlərin sürətləndirilməsi;<br>6. Dərs yükünün bölgüsündə Tədrisin təşkili və idarə olunması Mərkəzi ilə kafedralar arasında koordinasiyanın düzgün qurulması; |

| | |
|---|---|
| | 7. Saathesabı qaydada dərs yükü verilməsi əvəzinə tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70 % -dən çox olmasını təmin etmək məqsədi ilə QKU-da əsas iş yeri kimi çalışan əməkdaşların sayını ştat vahidinə dəyişiklik etməklə artırılması;<br>8. Professor-müəllim heyətinin ümumi xidməti fəaliyyətini - tədris, elmi-tədqiqat və s fəaliyyətlərini və eyni zamanda müvafiq fəaliyyət kriteriyaları üzrə qiymətləndirmə meyarlarını özündə ehtiva edən vahid qaydalara əsaslanan, şəffaflığı təmin etmək məqsədi ilə müasir proqramla nəzarət oluna bilən diferensiallaşdırılmış əmək haqqı sisteminin hazırlanaraq tətbiq edilməsi;<br>9. Hər tədris ili başlanmazdan əvvəl diferensiallaşdırılmış əmək haqqı sistemi qaydasının müəllim kabinetində yerləşdirilməklə, tədris ilinin sonunda isə yekun qiymətləndirmənin elan edilməsinin QKU-da mövcud olan Elektron idarəetmə sistemi ilə həyata keçirilməsi;<br>10. Hazırlanan fənn proqramlarının və sillabusların xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrinin təcrübələrindən bəhrələnməklə kompetensiya əsaslı tərtib edilməsi;<br>11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili qaydaları"na və hər bir ixtisas üzrə mövcud tədris planlarının tələblərinə müvafiq olaraq, tədrisin bütün formaları üzrə tərtib olunacaq hər bir tədris planında tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya saatlarının həcminin ümumi həftəlik yükün (auditoriya və auditoriyadankənar yükün ümumi həcmi 45 saat olmaqla) 50%-dən çox olmamasına riayət olunması;<br>12. Fənn proqramları yenilənərkən onların müasir standartlara cavab verməsinə nəzarət olunması, hər bir mövzu üzrə tələbənin öyrənməli və bilməli olduğu məsələlərin şərh edilməsi, tədris proqramlarına müvafiq müəyyən edilmiş təlim nəticələrinin, yeni ədəbiyyat mənbələrinin verilməsi;<br>13. Tədrisin təşkilinin QKU-nun nizamnaməsinə və digər normativ sənədlərə uyğun təşkilinə diqqətin artırılması, həmçinin, distant təhsil sisteminin təkmilləşdirilməsi;<br>14. Komissiya tərəfindən akademik heyətin öz ixtisas sahələrinə uyğun ixtisasartırma və digər təlim kurslarında iştirakını artırmaqla yanaşı keyfiyyət məsələlərinə də fikir verməsi tövsiyə olunur. |

| 4. ELMİ TƏDQİQAT | |
|---|---|
| **Güclü tərəflər** | 1. ATM-in elmi–tədqiqat strategiyasının (ETS) mövcudluğu, eləcə də ATM-in missiyasına və hədəflərinə uyğunluğu;<br>2. ATM-də elmi-tədqiqat fəaliyyətlərinin təşviq mexanizmlərinin gündəmdə saxlanılması və inkişafının davamlılığının təmin edilməsi;<br>3. Xarici professorların ATM-in Qəyyumlar Şurasının üzvü olması;<br>4. ATM-in 180-dən çox yerli və xarici sənaye, elm və təhsil müəssisələri ilə əməkdaşlıq müqavilərinin olması;<br>5. Elmi tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışının olması;<br>6. İnstitusional əməkdaşlığı, birgə tədqiqat mərkəzlərinin yaradılmasını təşviq edən əlverişli mexanizmlərin mövcud olması;<br>7. Elmi-tədqiqat materiallarının dərc etdirilmə imkanlarının yaradılması;<br>8. Doktorantura proqramlarının təşviq edilməsi və xaricdə doktorantura məzunlarının işə cəlb edilmə siyasətinin olması;<br>9. Antiplagiat və akademik dürüstlük siyasətinin mövcud olması;<br>10. ATM-də antiplagiat sisteminin təhsil və elmi tədqiqat prosesində iştirak edən tələbə və professor-müəllim heyətini əhatə etməsi;<br>11. SİP-də ETS-in hazırlanmasında maraqlı tərəflərin iştirakı;<br>12. Zəngin fundamental kitabxana fondunun mövcudluğu. |
| **Zəif tərəflər** | 1. Daimi ştatda aktiv elmi-tədqiqatla məşğul olan professor-müəllim heyətinin sayının az, yaş həddinin isə yüksək olması;<br>2. Aktiv elmi-tədqiqatla məşğul olan gənc tədqiqatçıların beynəlxalq elmmetrik bazalara daxil olan (Scopus, WoS) nəşrlərində dərc olunması sayının QKU-nun elmi potensialına nəzərən az olması;<br>3. Nəticəyönümlü elmi-tədqiqat işlərinin, dövlət, universitet-sənaye və beynəlxalq səviyyədə ikili elmi-tədqiqat və tətbiqi layihələrin az olması; |

| | |
|---|---|
| | 4. Müxtəlif elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində çox sayda əməkdaşlıq əlaqələrinin olmasına baxmayaraq, birgə elmi-tədqiqat layihələrinin yerinə yetirilməsi imkanlarından səmərəli istifadə edilməməsi. |
| **Komissiyanın tövsiyəsi** | 1. ATM-in ETS-də nəzərdə tutulan “Tədqiqat Universiteti” statusunun alınması yönündə fəaliyyətinin gücləndirilməsi;<br>2. Daimi ştatda fəaliyyət göstərən professor-müəllim heyətinin beynəlxalq elmmetrik bazalara daxil olan jurnallarda (Scopus, WoS) nəşr olunmuş elmi məqalələrinin sayının və bu məqalələrə istinadetmə indeksinin yüksəldilməsi;<br>3. Aktiv elmi-tədqiqatla məşğul olan peşəkar professor-müəllim heyətinin h-indeksinin 5 və üzərində olmasının hədəflənməsi;<br>4. Aktiv elmi-tədqiqatla məşğul olan professor-müəllim heyətinin və gənc tədqiqatçıların beynəlxalq patent və qrant layihələrində iştirakını artırması və əldə edilən patentlərin kommersiallaşdırılmasına nail olunması;<br>5. Akademik heyətin, gənc elmi tədqiqatçıların, magistrantların, doktorantların və ümumilikdə təhsilalanların universitet-sənaye və ikili elmi–tədqiqat layihələrinin bağlanması və yerinə yetirilməsində yaxından iştirak etməsinin təşviq və təmin edilməsi;<br>6. QKU-nun beynəlxalq və yerli elmi-tədqiqat müəssisə və təşkilatları ilə bağlanmış ikitərəfli əməkdaşlıq əlaqələrinə uyğun olaraq birgə tədqiqat proqramlarının və mərkəzlərinin istifadəsinin səmərəliliyinin artırılması;<br>7. Aktiv elmi-tədqiqatla məşğul olan professor-müəllim heyətinin dünya və Avropa çərçivəli layihələrdə iştirakının təmin edilməsi və tədqiqat bacarıqlarının inkişaf etdirilməsi məqsədi ilə xarici ekspertlərin dəvət olunduğu qısa tədris kurslarının və seminarların təşkil edilməsi;<br>8. Müxtəlif elmi-tədqiqat fəaliyyətlərinin yerinə yetirilməsindən və Texnoparkdan əldə edilən gəlirlərin artırılmasını təşviq edən səmərəli mexanizmlərin işlənib hazırlanması;<br>9. Texnopark nəzdində ATM-in professor müəllim heyətinin və gənc tədqiqatçıların iştirak etdikləri kiçik innovasiya müəssisələrinin (firmaların) təşkil və inkişaf etdirilməsinin təşviq edilməsi; |

| | |
|---|---|
| | 10. Beynəlxalq çərçivə layihələrinin və universitet–sənaye layihələrinin hazırlanması, təşkili və yerinə yetirilməsi fəaliyyətini sürətləndirmək üçün QKU-da, bu sahədə mükəmməl xarici dil bilgisi olan 3 peşəkar mütəxəssisdən ibarət Beynəlxalq Layihələr Şöbəsinin təşkili tövsiyə olunur. |

| **5. İDARƏETMƏ SİSTEMİ** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Qəyyumlar Şurasının fəaliyyətinin nizamnaməyə uyğunluğu, şuranın fəaliyyətində maraqlı tərəflərin cəlb olunması və onların iştirakının təmin olunması;<br>2. Bir neçə mərhələdən ibarət şəffaf işə qəbul prosesinin mövcudluğu;<br>3. Əmək müqavilələrinin bağlanmasında QKU-nun hüquqşünasının bilavasitə iştirakı;<br>4. Maliyyə və mühasibatlıq şöbəsinin fəaliyyətinin daxili auditi üçün müstəqil auditorların cəlb olunması;<br>5. ATM-in rəsmi elektron səhifəsində “Xəbərlər” bölməsinin dinamikliyi və ATM daxilində baş verən hadisələrin dərhal yerləşdirilməsi. |
| **Zəif tərəflər** | 1. İdarəetmə strukturu, sənədləşmələr, idarəetmə orqanları iyerarxiyası, səlahiyyət bölgüsü və ATM-in Nizamnaməsi arasındakı uyğunsuzluqlar;<br>2. Qeyri-akademik heyətin əmək faəliyyətinin diferrensiallaşdırılması mexanizminin olmaması;<br>3. Akademik heyət üçün ixtisasartırma tədbirlərinin say azlığı;<br>4. Maliyyə şöbəsinin əsasən mühasibatlıq şöbəsi olaraq fəaliyyəti və SİP-in hazırlanmasında iştirakının olmaması;<br>5. Təchizat və təsərrüfat şöbəsinin daxili tender prosedurunun olmaması;<br>6. Təchiz olumuş avadanlıqların inventarizasiyanın olmaması;<br>7. İctimaiyyətlə əlaqələr şöbəsinin müvafiq media vasitələrindən istifadəsinin, məlumatlların izləyicilərə çatma dərəcəsinin, ümumiyyətlə bu sahədə hesabatlılığın və statistik göstəricilərin olmaması;<br>8. ATM-in rəsmi elektron səhifəsində idarəetmə orqanları haqqında məlumatların yetərli olmaması; |

| | |
|---|---|
| | 9. İctimaiyyətlə əlaqə üçün sosial mediadan istifadəyə üstünlük verilsə də, SMM xidmətinin mövcud olmaması;<br>10. İnformasiya idarəetməsi ilə əlaqədar ATM-in Əsasnaməsinin olmaması. |
| **Komissiyanın tövsiyəsi** | 1. İdarəetmə orqanlarının strukturu və nizamnaməsi arasındakı uyğunsuzluqların, vəzifə öhdəliklərinin bir-birinə müvafiq olaraq uyğunlaşdırılması;<br>2. İnsan resursları şöbəsinin qeyri-akademik heyətin əmək fəaliyyətinin dəyərləndirilməsi üçün mexanizm işləyib hazırlaması;<br>3. Akademik heyət üçün ixtisasartıma tədbirlərinin sayının artırılması;<br>4. Maliyyə və mühasibatlıq şöbəsinin ATM daxili maliyyə məsələrinə və SİP hazırlanmasına cəlb olunması;<br>5. Təchizat və təsərrüfat şöbəsinin daxili tender prosedurunun yaradılması;<br>6. QKU-da yerləşən bütün avadanlıqların inventarizasiya və müvafiq izləmə reyesterinin hazırlanması;<br>7. İctimaiyyətlə əlaqələr şöbəsinin müvafiq media vasitələrindən istifadəsinin, məlumatlların izləyicilərə çatma dərəcəsinin müşahidəsinin aparılması, statistik göstəricilərin və trendlərin izlənməsi;<br>8. İctimaiyyətlə əlaqələr şöbəsinə SMM xidmətinin cəlb olunması;<br>9. ATM rəsmi elektron səhifəsində idarəetmə orqanları haqqında da məlumatların yerləşdirilməsi, hazırki struktur cədvəlinin göstərilməsi;<br>10. İnformasiya idarəetməsinə aid ATM-in Əsasnaməsinin yaradılması tövsiyə olunur. |

| **6. İNFRASTRUKTUR** | |
|---|---|
| **Güclü tərəflər** | 1. QKU-nun Science Direct, EBSCO, Scopus, Web of Science kimi beynəlxalq elmmetrik bazalara çıxışının mövcud olması;<br>2. Auditoriyaların əsasən müasir-texniki avadanlıqlarla təchiz olunması;<br>3. Kitabxana-informasiya sisteminin müasir tələblərə cavab verməsi və əlçatanlığı; |

| | |
|---|---|
| | 4. Tədris-metodiki laboratoriyaların və fənn kabinetlərinin, 8 istehsalat təcrübə bazasının mövcudluğu və tələbələrin həmin istehsalat təcrübə bazalarında istehsalat təcrübəsi keçmək imkanın olması;<br>5. QKU-da akademik heyət və tədqiqatçıların təcrübəsinin artırılmasına və tədqiqatların aparılmasına imkan verən elmi-tədqiqat üçün zəruri olan infrastrukturun, xüsusi ilə ATM-də 7 elmi-tədqiqat mərkəzinin mövcudluğu. |
| **Zəif tərəflər** | 1. Tədris laboratoriya innovativ təlim prosesini təmin etmək üçün müvafiq texnoloji vasitələrlə təminat səviyyəsini yüksəltməyə ehtiyacın olması;<br>2. Onlayn və oflayn tədrisin eyni zamanda həyata keçirilməsi imkanlarının-hibrid auditoriyaların olmaması;<br>3. Elmi tədqiqat laboratoriyalarının, eləcə də tədris laboratoriyalarının bir qisminin maddi-texniki bazasının müasir tələblərə tam cavab verməməsi;<br>4. Fizika laboratoriyasında mövcud avadanlıqların bəsit olması ilə yanaşı, həmçinin bu avadanlıqlardan istifadə etməklə əsasən fizika kursunun mexanika və molekulyar fizika bölmələrinə aid laboratoriya işlərini qismən yerinə yetirmək mümkün olduğu halda, digər bölmələrə: elektronmaqnetizm, optika və atom fizikası bölmələrinə aid laboratoriya işlərinin yerinə yetirilməsinin mümkün olmaması. |
| **Komissiyanın tövsiyəsi** | 1. ATM-də distant təhsil formasının tətbiqinin daha da təkmilləşdirilməsi və inkişaf etdirilməsi;<br>2. ATM-in tələbə sayını nəzərə alaraq, ATM tərəfindən tələbələrin yataqxana ilə təminatı səviyyəsinin yaxşılaşdırılması;<br>3. Tədris infrastrukturundan istifadə ilə bağlı monitorinqlərin dövrü və sistemli şəkildə aparılması, həmçinin əldə olunan nəticələrin sistemli analizinin təşkili;<br>4. Tədris laboratoriyalarının daha müasir cihaz və avadanlıqlarla təchiz olunması, zənginləşdirilməsi, ümumiyyətlə tədris laboratoriyalarının maddi-texniki bazasının genişləndirilməsi və yenilənməsi tövsiyə olunur;<br>5. Sağlamlıq imkanları məhdud şəxslər üçün infrastrukturun təkmilləşdirilməsi tövsiyə olunur. |

| 7. BEYNƏLMİLƏLLƏŞMƏ | |
|---|---|
| **Güclü tərəflər** | 1. Beynəlmiləlləşmə siyasətinin mövcudluğu və SİP-ə uyğunluğu;<br>2. İdarəetmə strukturunda, akademik heyətdə və tələbələr arasında xarici vətəndaşların nəzərəçarpacaq paya sahib olması;<br>3. Beynəlmiləlləşmə siyasətinə uyğun olaraq mübadilə proqramları və ikili diplom proqramlarının həyata keçirilməsi;<br>4. Beynəlxalq reytinqlərdə təmsil olunma ilə bağlı görülən işlərin intensivliyi;<br>5. Beynəlxalq mübadilə və qrant layihələrinin mövcudluğu və əlçatanlığı. |
| **Zəif tərəflər** | 1. ATM-də reallaşan elmi-tədqiqat beynəlxalq layihələrinin (birgə elmi-tədqiqat layihələrinin, qrant layihələrinin, patentlərin və s.) yetərli olmaması;<br>2. Beynəlmiləlləşmə siyasətinin idarə edilməsinin səmərəliliyinin təmin edilməsi üçün dövri monitorinqlərin davamlı və dayanıqlı şəkildə həyata keçirilməməsi;<br>3. Əcnəbi tələbələrə fərdi yanaşmanın tətbiqi və onların ehtiyaclarını öyrənmək üçün xüsusi sorğuların keçirilməməsi. |
| **Komissiyanın tövsiyəsi** | 1. Beynəlmiləlləşmə siyasətinə nəzarət mexanizminin və Fəaliyyət planının daha da təkmilləşdirilməsi;<br>2. Mübadilə proqramlarında iştirak edən təhsilalanların sayında müsbət dinamikaya nail olmaq üçün təşviq tədbirlərinin artırılması;<br>3. İkili diplom proqramından yararlanan tələbələrin sayının artırılması üçün fəaliyyətin təkmilləşdirilməsi;<br>4. Beynəlxalq reytinqlərdə təmsil olunma ilə bağlı növbəti dövr üçün Strateji Planda hədəf indikatorlarının qoyulması zamanı onların ölçüləbilən olmasına diqqətin artırılması və rəqəmsal dinamikanın izlənilməsi üçün müvafiq meyarların müəyyən edilməsi;<br>5. Beynəlmiləlləşmə performansını qiymətləndirməyə şərait yaradan monitorinq və hesabatlılıq mexanizmlərinin təkmilləşdirilməsi tövsiyə olunur. |

**Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri**

ATM-in fəaliyyətinin təhlili və qiymətləndirilməsi (güclü tərəflər, zəif tərəflər, komissiyanın tövsiyəsi olmaqla) Komissiya tərəfindən institusional akkreditasiya meyarlarına uyğun olaraq müvafiq 7 istiqamət üzrə aparılmışdır. Qiymətləndirmənin yekunu olaraq ATM-də müşahidə edilmiş çatışmazlıqların aradan qaldırılması üçün Komissiya tərəfindən hər bir istiqamət üzrə tövsiyələr təqdim edilmişdir (Strateji inkişaf istiqaməti üzrə 4; Keyfiyyət təminatı istiqaməti üzrə 3; Təlim və tədris istiqaməti üzrə 14; Elmi tədqiqat istiqaməti üzrə 10; İdarəetmə istiqaməti üzrə 10; İnfrastruktur istiqaməti üzrə 5; Beynəlmiləlləşmə istiqaməti üzrə 5 tövsiyə olmaqla, ümumilikdə 51 tövsiyə).

Yuxarıda qeyd olunanları nəzərə alaraq, növbəti institusional akkreditasiya qiymətləndirilməsinədək aşağıda qeyd olunan tədbirlərin Qərbi Kaspi Universiteti tərəfindən həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

- Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına nəzarəti təmin etmək məqsədilə Akkreditasiya Şurasının qərarından sonrakı 6 (altı) ay müddətində müvafiq Fəaliyyət planının hazırlanaraq təsdiq olunması (TKTA ilə razılaşdırılmaqla);
- Agentlik tərəfindən Fəaliyyət planının icrasına nəzarətin təmin edilməsi məqsədilə Fəaliyyət planında qeyd edilmiş işlərin icrasına dair illik hesabatların TKTA-ya təqdim edilməsi.

**Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi**

Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi aşağıdakı kimidir:

- ATM-də keçirilmiş institusional akkreditasiya qiymətləndirilməsinin yekunu olaraq, Qərbi Kaspi Universitetinin müvafiq istiqamətlər üzrə fəaliyyətlərinin qəbul olunmuş dövlət təhsil standartlarına və digər normativ hüquqi aktların tələblərinə "əsasən uyğundur" hesab edilməsi;
- Qərbi Kaspi Universitetinin 2024/2025-ci tədris ilindən başlayaraq növbəti 5 il müddətinə institusional akkreditasiyadan keçməsi məqsədəuyğun hesab edilir.